# Vəfadarlar Haqqında Xatirələr



**Bəhai Dünya Mərkəzindən**

Tərcümə və çap Azərbaycan Bəhailəri Milli Ruhani Məhfili

# Vəfadarlar Haqqında Xatirələr

**Həzrət Əbdül-Bəhanın Söhbətlərindən**

**İnglis Dilindən Tərcümə - Mərziyyih Geyil**

**Bəhai Dünya Mərkəzi**

Tərcümə və çap
Azərbaycan Bəhailəri Milli Ruhani Məhfili

# Həzrət Bəhaullahın Həvarilər



# Mündəricat

Ön söz ........ 6
Nəbil`i-Əkbər ........ 8
İsmullahul Əsdəq ........ 12
Molla Əli Əkbər ........ 15
Şeyx Salman ........ 19
Mirzə Məhəmməd Əli Əfnan ........ 22
Hacı Mirzə Həsən Əfnan ........ 26
Məhəmməd Əli İsfahani ........ 28
Bağban Əbdü`s Saleh ........ 30
Ustad İsmayıl ........ 32
Nəbil Zərəndi ........ 35
Dərviş Sidq`Əli (Sidq-həqiqi) ........ 39
Ağa Mirzə Mahmud və Ağa Rza ........ 41
Qəzvinli Pidarcan ........ 43
Şeyx Sadiq`i-Yəzdi ........ 44
Şah Məhəmməd Əmin ........ 46
Məşədi Fəttah ........ 48
Nəbil Qaini ........ 49
Seyid Məhəmməd Tağı Mənşədi ........ 53
Yəzdli Məhəmməd Əli Sabbaq ........ 56
İsfahanlı Əbdül-Qəffar ........ 58
Əli Nəcəf-Abadi ........ 60
Məşədi Hüseyn və Məşədi Məhəmməd ........ 61
Hacı Əbdürrəhim Yəzdi ........ 63
Hacı Abdullah Nəcəfabadi ........ 65
Məhəmməd Hadiyi Səhhaf ........ 66
Mirzə Məhəmmədqulu ........ 68
Usta Bağır və Usta Əhməd ........ 70
Məhəmməd Hənasəb ........ 71
Hacı Fərəcullah Təfrişi ........ 73
Ağa İbrahim İsfahani və onun qardaşları ........ 74
Ağa Məhəmməd İbrahim ........ 77
Zeynül-Abidin Yəzdi ........ 78
Hacı Molla MehdiYəzdi ........ 79

Həzrət Kəlim (Mirzə Musa) .... 81
Hacı Məhəmməd Xan .... 85
Ağa Məhəmməd İbrahim Əmir .... 87
Mirzə Mehdi Kaşani .... 88
Mişkin Qələm .... 90
Ustad Əli-Əkbəri Nəccar .... 94
Şeyx Əli Əkbəri Məzqani .... 96
Mirzə Məhəmməd, Müsafirxananın Xidmətçisi .... 98
Mirzə Məhəmməd Vəkil .... 100
Hacı Məhəmməd Rza Şirazi .... 107
Hüseyn Əfəndi Təbrizi .... 109
Cəmşidi- Gürcü (Gürcü Cəmşid) .... 110
Hacı Cəfər Təbrizi və onun qardaşları .... 112
Hacı Mirzə Məhəmməd Tağı, Əfnan .... 115
Əbdüllah Bağdadi .... 118
Məhəmməd Mustafa Bağdadi .... 120
Süleyman Xan Tunukabani .... 123
Misgər Əbdürrəhman .... 127
Məhəmməd İbrahim Təbrizi .... 128
Məhəmməd Əli Ərdəkanı .... 129
Hacı Ağa Təbrizi .... 130
Qulam Əli Nəccar .... 131
Cənab`i Münib .... 132
Mirzə Mustafa Nəraqi .... 135
Zeynül-Müqərrəbin .... 137
Əzim Təfrişi .... 140
Mirzə Cəfər Yəzdi .... 142
Hüseyn-Ağa Təbrizi .... 144
Hacı Əli Əsgər Təbrizi .... 146
Ağa Əli Qəzvini .... 149
Ağa Məhəmməd Bağır və Dərzi Ağa Məhəmməd İsmayıl .... 151
Əbül-Qasım Sultanabad .... 154
Ağa Fərəc .... 155
Sultanüş-Şühədanın Həyat Yoldaşı .... 156
Şəmsüd-Züha .... 161
Tahirə .... 169

## Ön Söz (↑)

HƏYATININ AXIR İLLƏRİNDƏ—1914-1915-ci illərdə Həzrət Əbdül-Bəha hər axşam zəvvarlarla yeni tikilmiş Hayfa müsafirxanada bu hekayələrə söhbət edərdi. Kitab Həzrət Əbdül-Bəhanın yazıya alınmış söhbətlərindən ibarətdir. Onunla ünsiyyətə girən hər kəs üçün Həzrət Əbdül-Bəha üstün bir tərz və bəlağət nümunəsi idi.



Həzrət Əbdül-Bəhanın doqquz yaşı olanda Həzrət Bəhaullahın Məqamını tanıdı və Onu bir Peyğəmbər kimi qəbul edərək həmin anda Özünü Həzrət Bəhaullahın ayaqlarına atdı və ağlaya-ağlya Onun yolunda şəhidlik istədi. Bu andan etibarən bütün həyatını Həzrət Bəhaullaha həsr etdi və öz adını Əbdül-Bəhaya dəyişdi. Bu adın mənası "Bəhanın Qulu" deməkdir. Həzrət Bəhaullahı ziyarətə gələn bütün zəvvarlar kiçik yaşlarından Onu tanıyırdılar çünkü, ziyarətçiləri hazırlaşdırırdı. Yəni, şəhərə daxil olanları yerləşdirir, onlara ev tapır, ziyarətdən öncə onları hamama aparır, hətta lazım gələndə yeni paltar verirdi. Ziyarətçilərə Allahın Elçisinin hüzuruna gedərkən necə davranmaq lazım olduğunu öyrədirdi ki, məbada, Allahın Elçisinin yanında kimsə bir səhv edə və sonra peşmançılıq çəkə. Həzrət Əbdül-Bəha axşamlar həmin vəfalı zəvvarlara öz evindən yemək göndərir və həmişə onlarla təmasda olurdu. Ona görə də onların həyatları və güzəranları ilə yaxşı tanış idi. Bu hekayələri Həzrət Əbdül-Bəha (artıq Həzrət Bəhaullahdan sonra Əhdin Mərkəzi seçildikdə) gənc zəvvarların xahişi ilə danışırdı.

Bu xatirələrin farsca transkripsiyası sonralar Həzrət Əbdül-Bəhanın Özü tərəfindən düzəldilmiş, 1924-cü ildə çap edilmiş tək cilddə toplanmışdı. İngilis dilinə tərcüməsi

1971-ci ildə çap edilmişdi. Vəfadarlar Haqqında Xatirələr Bəhai Dininin Qəhrəmanlıq Erasının mühüm bir hissəsidir. On iki aya yaxın bir müddətdə, bəlkə ondan da az bir müddətdə onu bir kitaba çevirərək Həzrət Əbdül-Bəha İlahi Plan Lövhlərini nazil etməyə başladı—bu bir hərəkətə hazırlıq əmri idi ki, onun daxilində Onun müraciət etdiyi Onun Vəfdarlar Haqqında Xatirələrində verdiyi məsləhətləri əmələ çevirə bildi.

Həzrət Əbdül-Bəha Onun həyatı dövründə Onu tanıyanların həyatlarını təsvir edərkən, eyni zamanda ruhani səyahətimizdə bizim hamımıza müraciət edir. Çünki, O, yalnız on doqquzuncu əsrdə yaşamış bu qadın və kişilərin həyatını deyil, həm də bizim dövrümüzdə bizi təsvir edir. O, bizim nigarançılığımıza müraciət edir. Bizimlə qələbə və uğursuzluqlarımızdan danışır. O, insan həyatının, haqqında danışılmayan ölçülərindən bəhs edir, insan həyatının sükut edən, tərcümeyi hallarda toxunulması çətin olan kökündən, daxili "mən"dən danışır. Bu özəl, bu daxili şəxsiyyət, Onun Vəfadarlar Haqqında Xatirələrdə haqqında danışdığı şəxsiyyətdir. O, bu daxili həyatı zəngin bir kontekstdə, sosial-tarixi matrisaya salır. O, çoxlu ziyarətləri təsvir edir, siz və mənə isə buraxır ki, özümüzün həyatımızı bu ziyarətlər kontekstində quraq. Bizim hamımız bu hekayələrin hər birində gizlənmiş mesajlarla öz həyatmızı formalaşdırmalı və müəyyən etməliyik.

-Azərbaycan Bəhailəri Milli Ruhani Məhfili

## Nəbil`i-Əkbər (↑)

NƏCƏF ŞƏHƏRİNDƏ ŞEYX Mürtəza adlı çox tanınmış bir müctəhidin tələbələri arasında misli-bərabəri olmayan bir nəfər vardı. Onun adı Ağa Məhəmməd Qaini idi, sonralar İlahi Məzhər ona Nəbil`i-Əkbər[1] adı vermişdi. Bu görkəmli insan müctəhidin tələbələri arasında lider olmuşdu. Onların hamısının arasından seçilərək yalnız ona müctəhid rütbəsi verilmişdi–çünki mərhum müctəhid bu dərəcəni heç vaxt verməzdi.



*Áqá Muḥammad-i-Qá'iní, Nabíl-i-Akbar, referred to by 'Abdu'l-Bahá as a Hand of the Cause of God*

O, yalnız ilahiyyatda deyil, humanitar elmlərdə, İşraqilik fəlsəfəsində, mistiklərin təlimlərində və Şeyxi məktəbi kimi elmin başqa sahələrində də üstün idi. O, hərtərəfli bir insan idi, özlüyündə inandırıcı bir sübut idi. Onun gözü İlahi hidayət nuruna açılanda və Cənnətin rayihələrini duyanda o, Allahın atəşinə çevrildi. Onun ürəyi atlandı, sevinc və məhəbbətdən vəcdə gələrək dəryaların nəhəng balığı kimi nərə çəkdi.

Tərif yağışı altında o, müctəhiddən yeni məqam (dərəcə) aldı. Sonra Nəcəfi tərk etdi və Bağdada gəldi. Burada o, Həzrət Bəhaullahı görmək şərəfinə nail oldu. Burada o, Sinada (Turda) Müqəddəs Ağacda yanan işığı gördü. Tezliklə elə bir hala düşdü ki, nə gecə dincəldi, nə də gündüz.

[1] "Dan Yerinin Şəfəqləri" kitabının müəllifi Nəbil Zərəndi üçün bax

Bir dəfə, evin kişilər üçün ayrılmış otağında (birunda) döşəmədə, şərəfli Nəbil Həzrət Bəhaullahın hüzurunda ehtiramla təzim etmişdi. Bu vaxt Kərbəla müctəhidlərinin etibarlı yoldaşı Hacı Mirzə Həsən Əmu Fəxrüd-Dövlə Zeynül Abidin Xanla içəri daxil oldular. Nəbilin necə mütilik və ehtiramla təzim etdiyini görəndə Hacı donub qaldı.

"Ağa," O, pıçıldadı, "sən burda nə edirsən?"

Nəbil dedi: "Sən nə üçün gəlmisən, mən də o səbəbdən burdayam."

Bu iki qonaq gördüklərindən özlərinə gələ bilmirdilər, çünki hamı bilirdi ki, bu adamın müctəhidlərin arasında bərabəri yoxdur və məşhur Şeyx Mütəzanın ən sevimli tələbələrindən biridir.

Sonra, Nəbil`i-Əkbər İrana qayıtdı və Xorasana getdi. Qainin hakimi Mir Ələm Xan əvvəlcə ona hər cür iltifat göstərdi və onunla ünsiyyətə yüksək dəyər verdi. Bu o dərəcədə nəzərə çarpırdı ki, insanlar onun hakimi ovsunladığını düşünürdülər, əslində isə o, bu alimin bəlağətinə, bilik və kamilliyinə məftun olmuşdu. İnsan bundan bir qənaət hasil edər ki, başqaları ona necə ehtiram göstərirdilər, "çünki insanlar padşahlarının inancı arxasınca gedirlər".

Nəbil bir müddət bu cür hörmət və ehtiram içində yaşadı, lakin onun Allaha olan məhəbbəti onu gizlədən bütün pərdələri yandırdı. Bu məhəbbət odu əvvəlcə onun ürəyində tutuşdu, alovlandı və bütün varlığını bürüdü.

Min dəfə çalışdım ki,
Gizlədim məhəbbətimi,
Amma mən nə edə bilərdim ki,
O tonqalın üstündə od tutmayım!

O, Qainə işıq gətirdi və xeyli sayda insanları Əmrə dəvət etdi. Bu yeni adla o, hər tərəfdə tanınanda, paxıl və bədxahlar qalxdılar və Tehrana böhtan dolu xəbərlər göndərdilər və beləliklə, Nəsrəddin şah qəzəbləndi. Şahın qorxusundan hakim bütün gücü ilə Nəbilə hücuma keçdi. Tezliklə bütün şəhəri iğtişaş bürüdü və əhali qəzəblənib onun üstünə qalxdı.

Allahın bu məftun aşiqi heç vaxt təslim olmadı, hamının qarşısında dayandı. Nəhayət, onlar onu evdən çəkib çıxardılar, o adamı ki, onun gördüyünü onlar görməmişdi və O, Tehrana yollandı. Orada o, sərgərdan və evsiz-eşiksiz qaldı.

Burada düşmənlər yenə ona hücum etdilər. Burada o, keşikçilər tərəfindən təqib olundu; gözətçilər onu hər yerdə axtarırdı, hər bir küçədə və xiyabanda onu soruşur, arxasınca düşüb onu tutmaq və işgəncə vermək istəyirdilər. Gizlənərək o, onların yanından əzilənin ahı kimi keçib təpələrə qalxırdı; ya da məzlumun gözyaşı kimi, sürüşüb vadilərə düşürdi. O, daha başına onun məqamını bildirən türban qoymazdı; o, qiyafəsini dəyişmiş, adi bir adamın papağını qoymuşdu ki, onlar onu tanıya bilməsinlər və rahat buraxsınlar.

Gizlində isə o, bütün gücü ilə Əmri yaymaqda davam edir, sübutlar gətirir və çoxlu ruhlara yol göstərən bir çıraq olurdu. O, hər zaman təhlükələrə məruz qalırdı, lakin həmişə ayıq və sayıq idi. Hökumət heç vaxt onu axtarmağı dayandırmadı, nə də insanlar onun əhvalatlarını danışmaqdan dayandılar.

Sonra o, Buxara və Aşqabada getdi, bölgələrdə dini davamlı olaraq təbliğ etdi. Bir şam ki, o, öz həyatını sərf edirdi; lakin iztirablarına baxmayaraq, o heç vaxt ruhdan düşmürdü, əksinə, onun sevinc və şövqü hər gün daha da böyüyürdü. Nitqində o, çox bəlağətli idi; o, bacarıqlı bir həkim, hər bir xəstəliyin dərmanı, hər bir yaraya məlhəm idi. O, işraqiləri onların özlərinin fəlsəfi prinsipləri ilə istiqamətləndirərdi, mistiklərlə isə o, onlara İlahi Gəlişi “ilhamlanma” və “səmavi görmə” istilahları ilə isbatlayardı. Şeyxi liderlərini o, onların mərhum baniləri Şeyx Əhməd və Seyid Kazımın öz sözlərini iqtibas gətirməklə inandırar, İslam ilahiyyatçılarını isə Qurandan olan mətnlər və insanlığı düz yola yönəldən İmamların hədisləri ilə Əmrə gətirərdi. Beləcə o, xəstəyə birbaşa dərman, yoxsula zəngin bəxşi idi.

Buxarada o, heç nəsiz qalmışdı və çoxlu müşküllərin qurbanına çevrilmişdi, nəhayətdə o, öz vətənindən uzaqda vəfat etdi və heç bir yoxsulluğun olmadığı Mələkuta tələsdi.

Nəbil`i-Əkbər Əmrin həqiqətini nümayiş etdirən mükəmməl bir oçerkin müəllifi idi, lakin indi o, dostların əlində yoxdur. Ümid edirəm ki, bir gün o, üzə çıxacaq və alimlərə bir nəsihət kimi xidmət edəcək. Bu doğrudur ki, bu ani ötən dünyada o,

saysız-hesabsız düşmənlərin hədəfi olmuşdu; amma Mürtəza, Mirzə Həbibullah və Ayətüllah Xorasani və Molla Əsədullah Mazandarani kimi o qüdrətli üləmalar nəsli– hamısı izsiz yox olub gedəcəklər. Onları arxada heç bir ad buraxmayacaqlar, nə bir əlamət, nə bir bəhrə. Onlar haqqında bir kəlmə belə söylənməyəcək; heç kəs onlar haqqında bir daha danışmayacaq. Lakin bu müqəddəs Əmrdə dəyanətli qaldığı üçün, insanları istiqamətləndirdiyi, Əmrə xidmət etdiyi və onun şöhrətini yaydığı üçün bu ulduz, Nəbil əbədi işıq üfüqündən daim parlayacaqdır.

Bu aydındır ki, Allahın Əmrindən kənarda hansı şöhrət əldə edilirsə edilsin, sonda o, zillətə çevrilir; Allahın yolunda sonda qarşıya çıxan yüngüllük və rahatlıq deyil, qayğı və kədərdir; bütün bu sərvət isə yoxsulluqdur, başqa heç nə deyil.

O, bir hidayət nişanəsi, bir təqva rəmzi idi. O, həyatını verdi, ölməklə qalib oldu. O, bu dünyadan və onun mükafatlarından yan keçdi; rütbə və var-dövlətə gözlərini yumdu; o özünü bütün bu cür qandal və zəncirlərdən azad etdi, hər cür dünyəvi fikri kənara qoydu. Bir zamanlar geniş bilikli müctəhid, filosof, mistik və bəsirətli bir şəxs, eyni zamanda da uğurlu bir ədəbiyyatçı, bərabəri olmayan bir natiq idi. O böyük və hərtərəfli bir zəka sahibi idi.

Həmd olsun Allaha, sonda o, ilahi fəzl kuzəsi oldu. Əbha Allahın bəhası onun üzərinə olsun. Allah Əbha Mələkutunun nurunu onun qəbrinin üzərinə yağdırsın. Qoy Allah onu vüsal cənnətinə yetirsin və ona nur dəryasında qərq olmuş mominlər aləmində əbədi olaraq pənah versin.

## İsmullahul Əsdəq (↑)

ALLAH ƏMRİNİN ƏLLƏRİNDƏN biri bu dünyanı tərk etmiş və Üfüqi-Əlaya yüksəlmiş cənab İsmullaul Əsdəqdir. Bir digəri cənab Nəbil`i Əkbər idi, başqaları isə cənab Molla Əli Əkbər, Cənab Şeyx Məhəmməd Rza Yəzdi idilər. Bir başqası da möhtərəm şəhid, Ağa Mirzə Vərqa idi.



İsmullahul Əsdəq həyatının əvvəlindən son nəfəsinə qədər Rəbbin həqiqi bir bəndəsi idi. Gənc ikən o, mərhum Seyid Kazımın çevrəsinə qoşulmuş, onun tələbələrindən biri olmuşdu. O, həyatının paklığı ilə məşhur idi və müqəddəs Molla Sadıq kimi şan-şöhrət qazanmışdı. O, mübarək bir şəxs, kamil bir insan, alim və çox hörmət olunan bir adam idi. Xorasan camaatı ona çox bağlanmışdı, çünki o, bir alim, misli-bərabəri olmayan üləmalar arasında ən məşhuru idi. Əmrin mübəlliği kimi, o, elə bəlağətlə, elə bir qeyri-adi güclə danışardı ki, onu dinləyənləri çox asanlıqla öz tərəfinə çəkərdi.

Bağdada gəldikdən və Həzrət Bəhaullahın hüzuruna müşərrəf olduqdan sonra bir gün o, kişilərin qaldıqları evin həyətində, balaca bir bağçada otururdu. Mən də bir az yuxarıdakı otaqda idim, o otağın qapısı həyətə açılırdı. Bu vaxt İran şahzadəsi, Fətəli şahın nəvəsi o evə gəldi. Şahzadə ona dedi: “Sən kimsən?” İsmullah cavab verdi: “Mən bu Astananın xidmətçisiyəm. Mən bu qapının gözətçilərindən biriyəm.”Mən yuxarıdan qulaq asırdım və o Əmri təbliğ etməyə başladı. Şahzadə əvvəlcə qızğınlıqla etiraz edirdi; amma hardasa iyirmi beş dəqiqədə mülayim və yumşaqlıqa cənab

İsmullah onu sakitləşdirdi. Deyilənlərə o cür sərtliklə etiraz edən və qəzəbi üzündən aydın oxunan şahzadənin qəzəbi indi təbəssümə çevrilmişdi və İsmullaha rast gəlməkdən çox məmnun olduğunu ifadə etdi və onun deməli olduqlarını dinlədi.

O, həmişə şən bir şəkildə, şadlıqla təbliğ edirdi və müsahibinin ona qarşı necə şiddətli qəzəblə olmasından asılı olmayaraq, o, mülayim və yumorla cavab verərdi. Onun təbliğ etmək tərzi əla idi. O, həqiqətən də, Allahın adı, İsmullah idi, onun şan-şöhrətinə görə deyil, çünki o, seçilmiş bir ruh idi.

İsmullah çox böyük sayda islam hədislərini əzbərləmişdi və Şeyx Əhmədin və Seyid Kazımın təlimlərinə mükəmməl yiyələnmişdi. O, Əmrin ilk dövründə Şirazda iman gətirmişdi, və tezliklə də babi kimi tanınırdı. O, açıq və cəsarətlə təbliğ etməyə başladığından, onlar onun boynuna xalta salıb küçələri və bazarları dolandırdılar. Hətta bu vəziyyətdə belə o, təmkinli və gülümsər halda, insanlara danışmaqda davam edirdi. O, təslim olmurdu; O, susmurdu. Onu azad edəndə o, Şirazi tərk etdi və Xorasana getdi, orada da Əmri yaymağa başladı, daha sonra o, səyahətini davam etdirdi və Bab`ül-Babın yanında Təbərsi qalasına getdi. Orada o, fədakar fədailər dəstəsinin üzvü olaraq şiddətli əzab-əziyyətlər çəkdi. Qalada onu həbs etdilər və Mazandaranın başçılarına təhvil verdilər ki, onu dolandırsınlar və sonda əyalətin bir şəhərində öldürsünlər. Zəncirlənmiş halda, İsmullahı təyin edilmiş yerə gətirəndə, Allah bir insanın ürəyinə bu fikri saldı ki, onu gecənin yarısı azad etsin və onun üçün təhlükəsiz olan bir yerə göndərsin. Bütün bu əzablı sınaqlarda o, imanında sabit qaldı.

Düşünün, məsələn, düşmən qalanı necə mühasirəyə almışdı və dayanmadan mühasirə toplarından güllə yağdırırdı. İnananlar–onların arasında İsmullah da vardı, on səkkiz gün ac qaldılar. Onlar ayaqqabılarının dərilərini yeməklə dözdülər. Tezliklə bu da qurtardı, sudan başqa bir şeyləri qalmadı. Onlar hər səhər bir qurtum su içir, sonra isə ac və taqətdən düşmüş halda qalada uzanıb qalırdılar. Onlara hücum olunanda isə, dərhal ayağa sıçrayar, düşmənin qarşısında möhtəşəm cürət və heyrətamiz müqavimət göstərər, ordunu qala divarlarından geri oturdardılar. Aclıq on səkkiz gün çəkdi. Bu dəhşətli bir sınaq idi. Hər şeydən əvvəl onlar evdən uzaq, mühasirədə idilər, düşmən onları ətraf dünyadan ayırmışdı. Onlar yenə də aclıq çəkirdilər. Bundan əlavə, ordunun qəfil hücumları, yağış kimi yağan güllələr və qalanın düz ortasında partlayan

mərmilər. Bu şəraitdə sarsılmaz imanı saxlamaq və səbr göstərmək son dərəcə çətindir və bu cür amansız bəlalara dözmək nadir hadisədir[2].

İsmullah atəşin altında səylərini zəifltəmədi. Azad olan kimi, daha da geniş təbliğ etdi. O, aldığı hər nəfəslə insanları Allahın Məlәkutuna çağırdı. İraqda o, Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu, və sonra da Əzəmətli Zindanda Onun fəzl və lütflərini aldı.

O, dalğalanan bir dəniz, yüksəkliklərdə pərvaz edən bir şahin idi. Onun alnı parlayırdı, dili bəlağətli, gücü və dəyanəti heyrətamiz idi. Təbliğ üçün ağzını açanda, dəlillər onun dilindən süzülürdü. Münacat oxyuanda gözləri bahar buludları kimi göz yaşı yağdırardı. Onun üzü nurlu, həyatı ruhani, biliyi isə həm fitri, həm də qazanılmış idi.; Onun şövqü, dünyadan göz yumması, onun möminliyi və təqvası səmavi idi.

İsmullahın qəbri Həmədandadır. Həzrət Bəhaullahın Uca Qələmindən onun üçün çoxlu Lövhlər xüsusilə də, o, vəfat edəndən sonra xüsusi bir Ziyarətnamə nazil etmişdir. O, böyük bir şəxsiyyət, hər şeydə kamil idi.

Bu cür mübarək şəxslər indi dünyanı tərk ediblər. Allaha şükrlər olsun, onlar çox yaşamadılar və Həzrət Bəhaullahın süudundan sonrakı iztirab və əziyyətləri, şiddətli bəlaları görmədilər; çünki uca dağlar belə bunun qarşısında titrəyər və silkələnər, uca təpələr əyilərdi.

O, həqiqətən də, Allahın adı, İsmullah idi. Bəxtiyardır o kəs ki, o məzarın ətrafına təvaf edib, o qəbrin torpağı ilə özünü mübarəkləndirib. Əbha Cənnətində ona salam və vəsflər olsun.

---

[2] "Dan Yerinin Şəfəqləri" kitabının müəllifi Nəbil Zərəndi 20-ci Fəsil Həzrət Əbdül-Bəha Vəfadarlar Haqqında

## Molla Əli Əkbər (↑)

ƏMRİN DAHA BİR Əli möhtərəm Molla Əli Əkbər idi, Əbha Allahın bəhası onun üzərinə olsun. Həyatının erkən illərində bu nurlu insan yüksək təhsil görmüşdü və ciddi cəhdlə gücə-gündüz öyrənirdi, ta o vaxtadək ki, dövrünün elmlərini yaxşı mənimsədi, dünyəvi elmlərdən, fəlsəfə, və fiqhdən yaxşı hali oldu. O, tez-tez filosofların, mistiklərin, şeyxlərin məclislərinə gedər, elmin o sahələrinin dərinliklərində hərtərəfli gəzərək, fitri hikmət və müdriklik axtarardı; lakin o, həqiqət çeşməsi üçün susuz idi, Səmadan gələn qida üçün ac idi. Təfəkkürün o sahələrində özünü kamilləşdirmək üçün o, nə qədər çalışırdısa da, heç vaxt qane olmur, rahatlanmırdı; o, heç vaxt istədiyinə çatmamışdı; onun dodaqları çatlamışdı; o çaşqın, şaşqın idi, elə hiss edirdi ki, o, yolundan azıb sərgərdan olub. Səbəb bu idi ki, o, dayələrdə heç bir ehtiras tapmırdı; nə sevinc, nə nəşə vardı; eşqin cüzi bir iyi belə yox idi. Və o, nə qədər o çoxsayıı inancların dərinliyinə gedirdisə, aşkar edirdi ki, Məhəmməd Peyğəmərin gəlişindən bəri saysız-hesabsız təriqətlər meydana çıxıb; etiqadların özləri öz aralarında belə fərqlənir; haçalanmış fikirlər, müxtəlif məqsədlər, sayagəlməz yollar və istiqamətlər. Və o, onların hər brinin müəyyən bir çağırış altında ruhani həqiqəti açmaq iddiasında olduqlarını gördü; hər biri inanırdı ki, yalnız o həqiqi yoldadır–halbuki Məhəmmədin dənizi coşar və bir dalğa ilə bu təriqətlərin hamısını dəryada batırardı. "Sən onlardan bir səs-səmir eşitməzsən[3]".



Kimsə tarixin dərsləri üzərində fikirləşsə, görər ki, bu dəniz saysız-hesabsız dalğalar coşdurub, lakin sonda onların hamısı çəkilib gedən kölgə kimi çəkilib və yox olub.

[3] Müqayisə et Quran 19:98

Dalğalar yox olub, lakin dəniz yaşamaqda davam edir. Məhz buna görə Əli Qəbli-Əkbər heç vaxt öz susuzluğunu söndürə bilmirdi, ta o günədək ki, o Həqiqətin sahilində dursun və desin:

Xəzinə ilə aşıb-daşan bir dəniz budur
İnciləri atmaqçün külək onu coşdurur
Əbanı çıxar tulla, qərq ol, üzməyə çalışma sən
Üzməkdən duyma qürur, dərinliyə baş vur sən.

Fəvvarə kimi, onun ürəyi doldu və püskürdü; axar şəffaf sulartək məna və həqiqələr onun dodaqlarından süzülməyə başladı. Əvvəlcə, itaətkarlıqla, ruhani yoxsulluqla o, yeni işığı yığdı, ancaq bundan sonra bu işığı kənara verməyə başladı. Necə də gözəl deyilib:

Başqalarına o həyat bəxşişi daşımalıymış,
Həyat bəxşişindən kim pay almamış?

Mübəlliğ bu cür başlamalıdır: əvvəlcə özünü, sonra başqasını təbliğ etməlidir. Əgər onun özü hələ cismani nəfs və ehtiras yolunda gedirsə, onda başqasını o necə “Allahın aşkar əlamətinə[4]” hidayət edə bilər?

Çoxsaylı insanların Əmrə gəlməsində bu möhtərəm insan çox müvəffəq idi. Eşq yolunda irəlilədikcə, Allah xatrinə o, bütün ehtiyatkarlığı bir kənara atdı. O, sərsəri bir məcnun olmuşdu, ağlını itirmiş kimi görünürdü. Dininə görə Tehranda yuxarı və aşağı təbəqə, hamı ona istehza edirdi. Küçə və bazarlara gəzərkən, insanlar onu barmaqla göstərir, onu bəhai deyə çağırıdılar. Ara qarışanda birinci tutulan o, olurdu. O, buna həmişə hazır idi və bunu gözləyirdi də, çünki bu həmişə belə olmuşdu.

O, dəfələrlə zəncirlənmiş, zindana atılmış, qılıncla təhdid edilmişdi. Bu mübarək şəxsin böyük Əminlə birlikdə olan fotoşəkli onların əlləri zəncirdə olanda çəkilmişdir və bu görən gözü olanlar üçün bir nümunədir. Onlar, bu iki görkəmli insan orada zəncirlənmiş, qandallanmış lakin təmkinli, itaətkar və təşviş olmadan oturmuşlar.

Hətta iş o yerə gəlib çatmışdı ki, nə vaxt ki, bir hay-küy qalxırdı, Molla Əli türbanını başına qoyar, əbasına bürünər və oturub gözləyərdi ki, onun düşmənləri ayağa

[4] Müqayisə et Quran 3:91

qalxsınlar, fərraşlar içəri soxulsunlar və mühafizəçilər gəlib onu zindana aparısnlar. Amma Allahın qüdərtinə baxın! Bütün bunlara baxmayaraq, o, salamat qalırdı. “Arif aşiqin əlaməti budur, siz onu dənizdə də quru görərsiniz”. O, məhz belə idi. Onun həyatı bir tükdən asılı idi; bədxahlar onun pusuqusunda idilər; o, hər yerdə Bəhai kimi tanınırdı–amma yenə də bütün ziyanlardan qorunurdu, ölən günə qədər o, dənizin dərinliklərində quru, atəşin içində soyuq və salamat qalırdı.

Həzrət Bəhaullahın süudundan sonra, Molla Əli Aləmin Nurunun Vəsiyyətinə sadiq, xidmət etdiyi və müjdələdiyi Əhddə möhkəm qaldı. Məzhərin bu dünya həyatı zamanı onun arzusu onu Həzrət Bəhaullahın yanına gətirdi və O, onu lütf və iltifatla qəbul etdi, onun üzərinə xeyir-dualarını yağdırdı. Sonra o, İrana qayıtdı, bütün vaxtını Əmrə xidmətə həsr etdi. Qəddar zülmkarlarla açıq ziddiyyətdə olmaqla, onu nə qədər təhdid etmələrindən asılı olmayaraq, o, onları saymadı. O, heç vaxt məğlub olmadı. O, nə deməli idisə, dedi. O, Allahın Əmrinin Əllərindən biri idi, dəyanətli, sarsılmaz, möhkəm.

Mən onu çox sevirdim, çünki onunla söhbət etmək həzz verirdi, müsahib kimi ondan yaxşısı yox idi. Bu yaxınlarda, bir gecə mən onu yuxuda gördüm. Hərçənd, o, bədəncə həmişə iri idi amma yuxuda o, daha da böyük və nəhəng görünürdü. Mən ona dedim: “Cənab, siz çox böyümüş və möhkəm olmusunuz”. “Bəli” o, dedi, “Əlhəmdülillah! Mən elə yerlərdə olmuşam ki, oralarda hava təmiz və gözəl, su şəffaf və pak idi; mənzərələr göz oxşayırdı, yeməklər isə ləzzətli. Bunların hamısı mənə düşürdü, əlbəttə, odur ki, mən indi hər vaxt olduğundan daha qüvvətliyəm və mən erkən gəncliyimin enerjisini bərpa etmişəm. Rəhmanın nəsimi mənim üzərimə əsib və bütün vaxtım Allahdan danışmaqla keçib. Mən Onun sübutlarını gətirir, Dinini təbliğ edirdim” (O, dünyada Dinin təbliğinin mənası müqəddəslik rayihələrinin yaymaqdır; bu əməl təbliğlə eynidir). Biz bir qədər də bir yerdə danışdıq, sonra bəzi adamlar gəldilər və o, yox oldu.

Onun uyuduğu yer Tehrandadır. Hərçənd onun cismi torpağın altındadır, lakin onun pak ruhu “həqiqət kürsüsündə, qüdrətli Padşahın hüzurunda[5]” yaşamaqda davam edir. Mən Allahın dostlarının məzarlarını ziyarət etməyi çox istəyirəm, kaş bu mümkün olardı. Bunlar Camal`i-Mübarəkin bəndələridir. Onlar Onun yolunda əzablar çəkiblər.

---

[5] Müqayisə et Quran 54:55.

onlar ağır zəhmət və kədərlə qarşılaşıblar; onlar ziyana uğrayıb, zərərə məruz qalıblar. Əbha Allahın bəhası onların üzərinə olsun. Onlara salam və mədhlər olsun. Allahın inayəti və əvfi onların üzərinə olsun.

## Şeyx Salman (↑)

HİCRƏTDƏN 1266 İL sonra[6] etibarlı qasid Şeyx Salman birinci dəfə Allahın səsini eşitdi və onu ürəyi sevincdən atlandı. O zaman o, Hindiyanda idi. Dəfedilməz bir cazibə ilə O, Tehrana piyada yola düşdü, atəşli bir məhəbbət içində o, gizlicə inananlara qoşuldu. Bir gün o, Ağa Məhəmməd Tağı Kaşani ilə bazardan keçirdi, fərraşlar onu təqib etdilər və harada yaşadığını öyrəndilər. Ertəsi gün jandarm və fərraşlar onu axtarmağa gəldilər və tutub jandarm idarəsinin başçısının yanına apardılar.



"Sən kimsən?" jandarm rəisi soruşdu.

"Mən Hindiyandanam", Salman cavab verdi. "Tehrana gəlmişəm və İmam Rzanın türbəsini ziyarət etmək üçün Xorasana gedirəm".

"Dünən o ağ əbalı kişi ilə sən nə edirdin?" rəis soruşdu.

Salman cavab verdi: "Mən ona bir gün ondan əvvəl ağ əba satmışdım, dünən isə o mənə onun pulunu verirdi."

"Sən buralarda yadsan, ona necə etibar edə bilərsən?"

"Pul dəyişən adam ödəniş üçün mənə təminat evrdi," Salman dedi. O hörmətli inanan Ağa Məhəmməd Sərrafı (pul dəyişən) nəzərdə tuturdu.

---

[6] 1849-1850

Rəis fərraşlardan birinə dönüb dedi: “Onun pul dəyişənin yanına aparın və bunu araşdırın”.

Onlar gözlənilən yerə (pul dəyişənin yanına) çatanda fərraş qabağa keçdi. “Nə baş verib,” fərraş Salmana dedi, “əba satmaq söhbəti və sənin ödəniş üçün zamin durmağın? Hamısını izah et”.

“Mən bu barədə heç nə bilmirəm”, pul dəyişən dedi”. “Dalımca gəl”, fərraş Salmana dedi. “Axır ki, hər şey aydındır. Sən babisən”.

İş belə gətirmişdi ki, Salmanın başında olan tüban Şüştərdə camaatın geydiyi türbanlara oxşayırdı. Onlar yol ayrıcına çatanda Şüştərli bir kişi dükandan bayıra çıxdı. O, Salmanı qucaqladı və qışqırdı: “Hacı, Məhəmməd-Əli, sən harda idin? Sən nə vaxt gəlmisən? Xoş gəlmisən!”

Salman dedi, “Mən bir neçə gün öncə gəlmişəm, indi də məni jandarmlar həbs ediblər”.

Sən ondan nə istəyirsən?” tacir fərraşdan soruşdu. “Sənə nə lazımdır?”

“O babidir”, fərraş dedi. “Şüştərli kişi: “Allah eləməsin (Əstəğfurullah) dedi. “Mən onu yaxşı tanıyıram. Hacı Məhəmməd-Əli Allahdan qorxan bir müsəlmandır, şiədir, İmam Əlinin sədaqətli ardıcılıdır”. Bunu deyib o, fərraşa bir qədər pul verdi və Salmanı azad etdi.

Onlar dükana daxil oldualar və tacir Salmandan necə dolandığını soruşdu. Salman ona dedi: “Mən Hacı Məhəmməd Əli deyləm.”

Şüştərli kişi donuq qaldı. “Sən dəqiq ona bənzəyirsən!” O dedi. “Siz ikiniz də eynisiniz. Bir halda ki, Hacı Məhəmməd Əli deyilsən, onda mənim fərraşa verdiyim pulu qaytar”.

Salman dərhal pulları ona verdi və çəhər darvazasından çıxıb Hindiyana getdi.

Həzrət Bəhaullah İraqa gələndə Onun müqəddəs hüzuruna yetişən birinci qasid Salman oldu, sonra isə o Hindiyanlı dostlara ünvanlanmış Lövhlərlə geri qayıtdı. İldə bir dəfə bu mübarək şəxs piyada öz Məhbubunu görməyə gedər, sonra isə eyni yolla

geriyə dönər və bir çox şəhərlərə, İsfahan, Şiraz, Kaşan, Tehran və başqa şəhərlərə Lövhlər aparardı.

69-cu ildən 1309-cu ilə[7]–Həzrət Bəhaullahın süuduna qədər ildə bir dəfə o, məktubları gətirir, Lövhləri götürər, hər birini ünvanlanmış şəxsə çatdırardı. O uzun dövrdə hər il o, İrandan İraqa, ya Ədirnəyə, ya da Əkkada Əzəmətli zindana piyada gələrdi; böyük şövq və məhəbbətlə gəlir, sonra da geri qayıdırdı.

Onda qeyri-adi dözümlülük vardı. O, piyada səyahət edir, bir qayda olaraq soğan və çörəkdən başqa bir şey yeməzdi və bu vaxt ərzində o, elə yollarla gedərdi ki, nə bir dəfə tutuldu, nə də bir Lövh itirdi. Hər bir məktub sağ-salamat çatdırılırdı, hər bir Lövh ünvanına çatıdırlırdı. İsfahanda o, dəfələrlə şiddətli sınaqlara məruz qaldı, lakin bütün hallarda səbrli qaldı, şükr etdi və qeyri-bəhailərdən “Babilərin Cəbrayılı” (mələk) adını aldı.

Bütün həyatı boyu, Salman Allahın Əmrinə böyük xidmətlər göstərdi, onun yayılmasına bir vasitə oldu, inananların şadlığına töhfələr vedi, hər il İranın şəhər və kəndlərinə İlahi müjdələr gətirdi. O, Həzrət Bəhaullahın ürəyinə yaxın idi, O, Salmana xüsusi və lütf və fəzl (inayət) ilə baxırdı. Müqəddəs Yazıların arasında onun adına nazil olmuş Lövhlər vardır.

Həzrət Bəhaullahın süudundan sonra, Salman Əhdə sadiq qaldı və bütün gücü ilə Əmrə xidmət etdi. Sonra əvvəllər olduğu kimi, hər il o Əzəmətli Zindana gələr, inananların məktublarını çatdırar, cavablarla İrana qayıdardı. Nəhayət, Şirazda o, əbha Mələkutuna uçub getdi.

Tarixin lap əvvəlindən bu günə qədər, bu qədər etibara layiq heç bir qasid olmamışdır. Salmanla müqayisə olunacaq bir qasid heç vaxt olmamışdır. Ondan sonra İsfahanda onun övladları qalmışdır və İrandakı müşküllər üzündən indi sıxıntıdadırlar. Bu yəqindir ki, dostlar onların ehtiyaclarını ödəyəcəklər. Əbha Allahın bəhası onun üzərinə olsun; Ona salam və mədhlər olsun.

---

[7] 1853; 1892

## Mirzə Məhəmməd Əli Əfnan (↑)

HƏZRƏT BƏHAULLAHIN ZAMANINDA, Əzəmətli Zindanın ən sıxıntılı vaxtlarında, Qalaya daxil olmağa və ya oradan çıxmağa əhbablardan heç kəsə icazə vermirdilər. Əyri Papaqla[8] Seyid[9] şəhərin ikinci darvazasının yanında yaşayır və həmişə gecə və gündüz oradan nəzarət edirdilər. Bir bəhai müsafir görən kimi, dərhal Qubernatorun (hakimin) yanına qaçar, ona çuğullayardılar ki, müsafir məktublar gətirir və cavabları geri aparır. Onda hakim bu müsafiri həbs edər, kağızları əlindən alar, onun özünü zindana salar, onu sıxışdırardı. Bu oradakı hökumət adamları üçün bir adət halını almışdı və uzun müddət idi ki, belə davam edirdi–həqiqətən də, doqquz il, o vaxtadək ki, yavaş-yavaş bu adətdən əl çəkdilər.



Elə bu dövr idi ki, Hacı Mirzə Məhəmməd Əli Əfnan, Müqəddəs Ağacın o böyük budağı[10] Əkkaya səfər etdi. Hindistandan Misirə, Misirdən də Marselə gedirdi. Bir gün mən karvansarayın damında idim. Dostlardan bəziləri də mənimlə idilər və mən ora-bura gəzişirdim. Gün batan vaxtı idi. Bu vaxt Mən uzaqlara, dənizin sahilinə baxanda gördüm ki, bir fayton gəlir. “Ağalar”, mən dedim, “Mən hiss edirəm ki, o faytonda müqəddəs bir şəxs var”. O, hələ çox uzaqda idi, ancaq görünürdü.

“Gəlin alaqapıya (darvazaya) gedək”, mən onlara dedim. “Hərçənd bizə alaqapıdan çıxmağa icazə verməyəcəklər, amma onlar gələnə qədər orada dayana bilərik”. Mən özümlə bir-iki adam götürdüm və biz getdik.

Şəhər alaqapısında mən gözətçini çağırdım, ona bir şey verdim və dedim: “Bu fayton qalaya gəlir və məncə o bizim dostlarımızdan birini gətirir. O, buraya çatanda onu

[8] Ağa Can; Ş. Əfəndi, Allah Yanımızdan keçir. Səh 189. İngiliscə
[9] Bəhai dininin anti-Xristi, Dəccal, orada, səh. 164, 189
[10] Əfnanlar Həzrət Babın qohumlarıdır, yenə orada, səh. 239, 328

saxlama və bu barədə Hakimə bir söz demə". O, mənim üçün bir stul gətirdi və mən əyləşdim.

Bu vaxt günəş artıq batmışdı. Onlar əsas alaqapını da bağladılar, amma kiçik qapı açıq qaldı. Qapıçı bayırda qaldı, fayton gəldi və onunla bir alicənab kişi də gəldi. Onun necə nurlu bir çöhrəsi vardı! O, başdan ayağa qədər işıq idi. Sadəcə onun üzünə baxmaq insanı xoşbəxt edirdi. O, elə inamlı, elə arxayın, imanında elə köklü görünürdü, onun danışığı elə nəşəli idi ki, O, doğrudan da, mübarək bir varlıq idi. O, bir kişi idi ki, günbəgün tərəqi edirdi, iman və yəqinliyini, nurlu keyfiyyətini, əsl məhəbbətini hər gün artırırdı. Əzəmətli Zindanda keçirdiyi bir neçə gün içərisində o, qeyri-adi dərəcədə inkişaf etdi. Məsələ bundadır ki, onun faytonu Hayfadan Əkkaya gələndə hələ yolun yarısından onun ruhu, onun nuru hiss edilirdi.

Həzrət Bəhaullahın onun üzərinə yağdırdığı lütfləri aldıqdan sonra, ona getmək izni verildi və o, Çinə getdi. Orada kifayət qədər uzun bir müddət o, Allahın zikri ilə və İlahi rizayətə uyğun bir şəkildə öz günlərini keçirdi. Sonra o, Hindistana getdi və orada vəfat etdi.

Başqa bir möhtərəm Əfnan və Hindistandakı dostlar belə məsləhət bildilər ki, onun cənazəsini İraqa, yəqin ki, Nəcəfə göndərsinlər və Müqəddəs Şəhərə yaxın bir yerdə dəfn edilsin; çünki müsəlmanlar onun onların qəbirstanlığında dəfn olunmasına etiraz etmişdilər və onun cəsədini müvəqqəti bir saxlanma yerində yerləşdirilmişdi. O zaman Bombeydə olan Ağa Seyid Əsədullaha bütün hörmət və izzətlə cəsədi İraqa gətirmək həvalə edilmişdi. Gəmidə düşmən mövqedə olan iranlılar vardı və onlar bu şəhərə çatanda məlumat verdilər ki, babi Mirzə Məhəmməd Əli Əfnanın cənazəsi Nəcəfə aparılır ki, orada Məqamın müqəddəs həndəvərində Sülh Vadisində dəfn edilsin. Bu da dözülməz bir şey idi. Onlar onun mübarək cənazəsini gəmidən salmaq istədilər, lakin edə bilmədilər. Baxın ki, gizli İlahi hökmlər nələr edə bilər.

Onun cənazəsini Bəsrəyə qədər gətirdilər. Bu o zamanlar idi ki, dostlar gizli qalmalı idilər, Seyid Əsədullah özünü elə apamalı idi ki, guya onlar cənazəni Nəcəfdə dəfn etməyə aparırlar, amma ümid edirdilər ki, hansısa bir yolla Bağdad yaxnlığında dəfn etsinlər. Çünki Nəcəf müqəddəs şəhər olsa da və həmişə də olmalıdır, amma yenə də dostlar başqa bir yeri seçdilər. Ona görə də Allah düşmənləri qaldırdı ki, onlar Nəcəfdə dəfnə mane olsunlar. Onlar dəstə ilə içəri soxuldular və qarantin yerində

cənazəni ələ keçirmək istədilər ki, onu ya Bəsrədə dəfn etsinlər, ya dənizə atsınlar ya da səhra qumlarında buraxsınlar.

Bu iş elə bir əhəmiyyət kəsb etdi ki, sonda cənazənin Nəcəfə gətirilməsi qeyri-mümkün oldu və Seyid Əsədullah onu Bağdada aparmalı oldu. Burada da dəfn üçün bir yer yox idi ki, Əfnanın cənazəsi düşmənlərin əlindən narahat edilməsin. Sonda Seyid qərara aldı ki, onu Bağdaddan beş fərsəng kənarda yerləşən Salman Farsinin–Pak Salmanın[11] məqamına aparsın və onu Qtesifonda, Salmanın qəbrinin yanında, Sasani padşahlarının sarayının arxasında dəfn etsin. Cənazə oraya aparıldı və Allahın o əmanəti, bütün hörmət və ehtiramla Nuşirəvan sarayının yanında təhlükəsiz bir yerdə dəfn edildi.

Bu isə bir tale idi ki, min üç yüz il sonra, İranın qədim şahlarının paytaxt şəhəri tapdalandı və ondan daş və qumdan başqa heç bir iz qalmadı, sarayın damı çökdü və elə bölündü ki, yarısı yerə töküldü. Bu bina özünün keçmiş şahanə büsat və əzəmətini qaytarmalıdır. Bu dorğudan da qüdrətli bir tağdır. Onun girişinin eni əlli iki addım, qüllələri çox ucadır.

Beləliklə Allahın fəzli və lütfü uzun illər bundan əvvəlki iranlıları bürüdü ki, onların xaraba paytaxtı yenidən tikilsin və yenidən çiçəklənsin. Bunun yerinə yetməsi üçün Allahın köməkliyi ilə hadisələr elə cərəyan etdi ki, Əfnanın orada dəfn edilməsinə gətirib çıxardı və heç bir şübhə yoxdur ki, bu yerdə qürur yaradacaq bir şəhər tikiləcək. Bu barədə mən çoxlu məktublar yazmışam, ta o vaxtdək ki, o müqəddəs cənazə bu yerdə dəfn oluna bilsin. Seyid Əsədulla Bəsrədən mənə məktublar yazardı, mənsə ona cavab verərdim. Oradakı ictimai fiqurlardan biri bizə tamamilə sədaqətli idi və mən ona tapşırmışdım ki, əlindən gələn hər şeyi etsin. Seyid Əsədullah Bağdaddan mənə məlumat verdi ki, bimir nə etsin və cənazəni harada dəfn etsin. “Mən onu harda dəfn etsəm də, onu qazıb çıxaracaqlar”.

Nəhayət ki, həmd olsun Allaha, onu Camal`i-Mübarəkin dəfələrlə getdiyi bir yerdə dəfn etdilər. Onun addımları ilə şərəflənmiş, Onun Lövhlər nazil etdiyi, və Bağdadlı inananların Onun hüuzurnda olduqları bir yerdə–məhz o yer ki, İsmi`-Əzəm adəti üzrə gəzməyə çıxardı. Bu necə baş verdi? Bu, Əfnanın ürəyinin təmizliyinə görə oldu.

---

[11] Məhəmməd Peyğəmbərin çarçısı

Bu olmasaydı, bütün o yollar və vasitələrin heç biri işləməzdi. Həqiqətən, Allah göyü və yeri Yaradandır (Tərpədəndir, Parçalayandır).

Mən Əfnanı çox sevirdim. Ona görə mən çox nəşələnirdim. Onun üçün mən uzun bir Ziyarətnamə yazdım və başqa kağızlarla bir yerdə İrana göndərdim. Onun dəfn olunduğu yer müqəddəs yerlərdən biridir ki, orada Məşrik`ul-Əzkar tikilməlidir. Mümkün olsa, şah sarayının əsl tağı da bərpa edilməli və İbadət Evinə çevrilməlidir. İbadət Evinin köməkçi binaları da orada tikilməlidir xəstəxana, məktəblər və universitet, ibtidai məktəb, kasıb və yoxsullar üçün sığınacaq; habelə köməksiz və yetimlər evi, səyyahlar üçün mehmanxana. Allah rəhmlidir (Gracious God)! Şahın sarayı bir vaxtlar bəzəkli və cah-cəlalla parlayırdı. İndi isə onu hörümçək toru basıb, harada ki, qızıl parçalardan pərdələr asılmışdı, şahın təbili çalınır və musiqiçilər ifa edirdilər, indi gələn səs ancaq qırğıların və qarğaların kobud bağırtı səsləridir. "Bu şəhər, həqiqətən, bayquşlar diyarının paytaxtıdır, harada ki, sən onun əks-səda verən çağırışlarından başqa bir səs eşitməzsən". Biz Əkkaya gələndə kazarmalar məhz belə idi. Qala divarlarının içərisində cəmi bir neçə ağac vardı və onların budaqları üzərində, həmçinin müdafiə divarlarının üzərində bütün gecəni bayquşlar ulayardı. Bayquşun ulaması necə də narahat edicidir, o, ürəyi necə kədərləndirir.

Ekən gəncliyindən qocalıb əldən düşənə qədər Müqəddəs Ağacın o mübarək budağı üzündəki o təbəssümlə hamının arasında çıraq kimi işıq verirdi. Sonra o, ölümsüz bir cəlal aləminə uçub getdi və nur dənizinə qərq oldu. Onun üzərinə Mərhəmətli Rəbbinin nəsimləri əssin. Fəzl və əfv suları yumaqla, onun üzərinə Allahın rəhməti və lütfü olsun.

## Hacı Mirzə Həsən Əfnan (↑)

HƏZRƏT BƏHAULLAHA QOŞULMAQ üçün öz vətənlərini tərk edənlər arasında Mirzə Həsən, böyük Əfnan da vardı, o son günlərdə mühacirət etmək şərəfinə çatmış və Rəbbinin lütf və ünsiyyətinə nail olmuşdu. Həzrət Bab qohum olan Əfnan Uca Qələm tərəfindən xüsusi olaraq Müqəddəs Ağacın budağı adlandırılmışdı. Hələ uşaq ikən o, Həzrət Babın Özündən bəxşişini almış, və O gözqamaşdırıcı Gözəlliyə qeyri-adi bağlılıq göstərmişdi. Hələ yetkinlik yaşına çatmamış, o tez-tez üləmaların cəmiyyətinə gedər, elmləri və sənətləri öyrənərdi. O, gecə-gündüz ən dərin ruhani məsələlər üzərində təfəkkür edər, Həyat Kitabında yazıldığı kimi, Allahın qüdrətli əlamətlərinə heyranlıqla baxardı. O, hətta riyaziyyat, həndəsə və coğrafiya kimi maddi elmlərdə də hərtərəfli bilgi sahibi idi. Qısası, bir çox sahələrdə o, əsaslı biliyə malik, qədim və müasir zamanların fikri ilə hərtərəfli tanış idi.



Sənəti tacir olan bu şəxs öz işinə gündüz və axşam ancaq qısa bir zaman ayırırdı, vaxtının çox hissəsini müzakirə və araşdırmalara həsr edirdi. O, həqiqətən elmli bir insan idi, aparıcı elm adamları arasında Allahın Əmri üçün bir yaxşı ad-san və nüfuz amili idi. Bir neçə yığcam ifadə ilə o, çaşdırıcı məsələləri həll edərdi. Onun nitqi lakonik, özlüyündə bir möcüzə kimi idi.  O, Həzrət Babın zamanında iman gətirəsə də, məhz Həzrət Bəhaullahın zamanında o, alışmışdı. Sonra onun Allaha olan məhəbbəti əngəl yaradan bütün pərdələri və boş düşüncələri yandırdı. Allahın dinini

yaymaq üçün o, əlindən gələni etdi və Həzrət Bəhaullaha olan atəşli məhəbbəti ilə hər yerdə tanındı.

Mən azmışam, ey Eşq, mübtəla və heyranam,
Eşqin dəlisiyəm, bütün yer üzündə
Məni dəlilər arasında birinci sayırlar,
Hərçənd mən ilk gəlişimdə hikmətli və ləyaqətli idim.

Həzrət Babın süudundan sonra, mübarək və müəqddəs əyalına xidmət və qulluq etmək kimi uca bir şərəf daşıdı. Onun görkəmli oğlu evlənərək Müqəddəs Ailənin üzvü olanda o, Həzrət Bəhaullahdan ayrılığın qəmini çəkərək İranda yaşayırdı. Əfnan bundan sevindi. O, iranı tərk etdi və Məhbubunun lütfünə pənah apardı. Onun üzünə baxanda insan heyrətlənirdi, üzü elə nurlu idi ki, hətta bəhai omayanlar belə deyərdilər ki, onun alnından səmavi nur saçılır.

O, bir müddətə çıxıb getdi, Beyruta səyahət etdi və orada tanınmış bir alim Xacə Fındıqla tanış oldu. Bu şəxs böyük Əfnanın bilikli olmasını müxtəlif dairələrdə təriflədi və təsdiq etdi ki, belə geniş və müxtəlif biliklərə sahib olan bir şəxs bütün Şərqdə nadir bir insandır. Sonra Əfnan Müəqddəs Torpağa qayıtdı, Bəhcidə Uca Sarayın yanında yerləşdi və bütün fikirlərini insan mədəniyyətinin cəhətlərinə yönəltdi. Vaxtının çoxunu o, qeydin sirlərini açmağa həsr edir, ulduzların hərəkəti üzərində düşünürdü. Onun bir teleskopu vardı və onunla hər gecə ulduzları müşahidə edirdi. O, xoşbəxt, qayğısız və rahat bir qəlblə həyat yaşayırdı. Həzrət Bəhaullahın qonşuluğunda onun gündüzləri səadət içərisində keçirdi, gecələri isə baharın ilk səhəri kimi parlaq idi.

Lakin sonra Məhbubun bu dünyadan ayrılması zamanı gəldi. Əfnanın rahatlığı pozuldu, sevinci kədərə döndü. Ən Böyük Kədər bizim üzərimizə gəlmişdi, ayrılıq bizi əridirdi, bir vaxtlar parlaq gündüzlərimiz zülmət gecəyə döndü, başqa zamanların qızılgülləri indi toz-torpağa çevrildi. O, ürəyi yanaraq, gözləri yaş tökərək bir az yaşadı. Lakin o, Məhbubunun həsrətini çəkə bilmirdi, çox keçmədi ki, o, ruhunu təslim etdi və əbədi həyata uçub getdi. Daimi vüsal Cənnətinə getdi və nur dənizi içərisində qərq oldu. Nə qədər ki, əsrlər və dövrlər davam edir, ən böyük rəhmət, bol kəramət, hər bir xeyir-dua onun üzərinə olsun. Onun mübarək qəbri Əkkada Mənşiyyədədir.

## **Məhəmməd Əli İsfahani** (↑)

İSFAHANLI MƏHƏMMƏD ƏLİ lap ilk günlərdən Əmr gətirilmiş erkən inananlardan biri idi, o, bir mistik idi, onun evi mistiklər və filosoflar üçün toplantı yeri idi. Alicənab, yüksək düşüncəli bir şəxs olmaqla İsfahanın ən möhtərəm sakinlərindən biri idi və kasıb və ya zəngin olsun, hər bir qərib üçün o qonaqçı (ev sahibi) və sığınacaq idi. Onun şux və əla bir xasiyyəti vardı, mülayim və təmkinli idi, gülərüz və səxavətli, gözəl həmsöhbət (müsahib) idi.

Sonra o, Əmri qəbul etmişdi və Turdakı Ağacdan od almışdı. Onun evi Allahın şərəfinə həsr edilmiş təbliğ mərkəzi olmuşdu. İnananlar səmavi məhəbbətlə alışdırılmış çırağın ətrafına toplaşan kimi, gecə-gündüz orada toplaşırdılar. O evdə uzun bir müddət müqəddəs ayələr oxunur, aşkar dəlillər ortaya qoyulurdu. Baxmayaraq ki, bunu hamı bilirdi, Məhəmməd Əlini narahat etmirdilər, çünki o, İsfahanın imamcüməsinin qohumu idi. Lakin sonda işlər elə gətirdi ki, imamcümənin özü onu qovdu (göndərdi) və dedi: "Mən daha səni müdafiə edə bilmirəm. Sən ağır təhlükədəsən. Sənin üçün yaxşısı budur ki, buranı tərk edəsən və səfərə çıxasan".

Belə olduqda o, evini tərk etdi və İraqa getdi və orada aləmlərin Məqsudunun hüzüuruna daxil oldu. Bir müddət orada qaldı, hər gün tərəqqi etdi, yaşamağa bir şeyi yox idi, lakin çox şad və məmnun idi. Əla xasiyyətli bir insan kimi inananlara və başqalarına eyni cür yaxın idi.

Həzrət Bəhaullah və Onun məiyyəti Konstantinopola gedəndə o da müşayiət edənlər arasında idi və Onunla Sir Torpağına, Ədirnəyə getdi. Kim dəyişərdisə, o, dəyişməzdi və daim qəlbinin səbatlılığını saxlayırdı. Nə olursa olsun, o, eyni cür qalırdı. Ədirnədə də onun günləri Həzrət Bəhaullahın hifzi altında şad-xürrəm keçirdi. Onun nə qədər kiçik də olsa bir biznesi vardı, lakin təccüblü dərəcədə yaxşı gəlir gətirirdi.

Məhəmməd Əli Həzrət Bəhaullahı Əkka qalasına da müşayiət etdi, orada zindana salındı, Camali-Mübarəklə birlikdə zindanda olmaqla qalan həyatı boyu Həzrət Bəhaullahın dustaq yoldaşları arasında sayılaraq, o böyük üstünlüyünə nail oldu.

O, günlərini sonsuz bəxtiyarlıq içində keçirdi. Burada da o, kiçik bir bizneslə məşğul olurdu, bu onun səhərdən günortaya qədər vaxtını alırdı. Günortadan sonra isə o, samovarını götürər, heybədən düzəldilmiş kisəyə salar, bağa və ya çəmənliyə gedər,

ya da harayasa çölə bir yerə çıxar və çay içərdi. Onu bəzən Məzrə mülkündə, bəzən Rizvan bağında görmək olardı. Ya da Malikanədə Həzrət Bəhaullaha qulluq etmək şərəfinə nail olardı.

Məhəmməd Əli onun qarşısına çıxan hər bir nemətə çox diqqətlə yanaşardı. "Mənim bu günkü çayım necə də ləzətlidir", o, deyərdi. Çay barədə danışanda "bu nə ətir, bu nə rəng!" deyərdi. Bu çəmən nə gözəldir". Çiçəklər necə də qəşəngdir!" O, deyərdi ki, hər şeyin, hətta havanın və suyun da öz xüsusi ətri var. Günlər onun üçün təsvirəgəlməz nəşə içində keçirdi. "Hətta padşahlar belə bu qoca qədər xoşbəxt deyillər! insanlar deyərdi. "O, bu dünyadan tamamilə azad olub", deyə onlar söyləyərdilər. "O, sevinc içərisində yaşayır". İş həm də belə gətirmişdi ki, onun yeməyi də ən yaxşı yeməklər olurdu və evi isə Əkkanın ən yaxşı yerində yerləşirdi. Allahın işinə bax! O, burada əslində bir dustaq idi, lakin rahatlıq, əmin-amanlıq və sevinc içərisində yaşayırdı.

Əbədi işığa qovuşmaq vaxtı gələndə Məhəmməd Əlinin yaşı səksəni ötmüşdü. O, Həzrət Bəhaullahdan xeyli Lövhlər və bütün şərtlər altında sonsuz lütflər almışdı. Əbha Allahın bəhası onun üzərinə olsun. Onun üzərinə sonsuz xeyir-dualar olsun, Allah ona əbədiyyətə qədər sevinc bəxş etsin. Onun nurlu məzarı Əkkadadır.

## Bağban Əbdü`s Saleh (↑)

MÜHACİRƏT EDƏNLƏR VƏ Ən Böyük Zindandakı yoldaşlardan biri Ağa Əbdü`s-Saleh idi. Bu ali ruh erkən inananların övladı İsfahanlı idi. Onun nəcib ürəkli atası ölmüş və bu uşaq yetim böyümüşdü. Ona baxacaq və ya böyüdəcək bir kimsə yoxdu və ona ziyan vermək istəyən hər kəsin əlində bir qurban idi. Nəhayət o, böyüdü, kamala çatdı və Məhbubunu axtarmağa başladı. O, Ən Böyük Zindana mühacirət etdi və burada Rizvan bağında bağban təyin olunmaq şərəfinə yetişdi. Bu işdə ondan yaxşısı yox idi. İmanında da o, çox qəvi, sədaqətli, etibara layiq bir şəxs idi; xasiyyətinə gəldikdə isə o, "sən nəcib xasiyyətlisən[12]" ayəsnin təcəssümü idi. Məhz buna görə o, Rizvanda bağban olmaq üçün seçildi və ən böyük neməti əldə etdi: demək olar ki, hər gün o, Həzrət Bəhaulahın hüzuruna daxil olurdu.

Zira İsmi-Əzəm məhbus idi və doqquz il Əkka qalasında həbsdə saxlanıldı. Və həmişə həm kazarmalarda, həm də ondan sonra evdən, kənardan polis və fərraşlar daim onu gözətləyirdilər. Camal`i-Mübarək çox kiçik bir evdə yaşayırdı və ayağını heç vaxt öz yaşadığı yerdən kənara qoymamışdı, çünki zülmkarlar qapını daim nəzarətdə saxlayırdılar. Lakin doqquz il keçdikdən sonra hər anı nəzarətdə olan və dəyişməyən günlər arxada qaldı. Və o zaman zalım Əbdül-Həmidin və onun bütün xırda məmurlarının düşmənçilik bəsləyən iradələrinə rəğmən Həzrət Bəhaullah qaladan hökmran və qüdrətlə və şəhərin kənarında şahanə bir malikanədə məskən saldı.

Baxmayaraq ki, Sultan Əbdül-Həmidin siyasəti həmişəkindən daha sərt idi; baxmayaraq ki, Məhbusunun ciddi həbsində davamlı olaraq təkid edirdi–amma Camal`i-Mübarək indi, hər kəsin bildiyi kimi, qüdrət və cəlalı ilə yaşayırdı. Bəhaullah Malikanədə keçirər və sonra yenə də Məzrəiyə kənd yerinə qayıdardı. Bir müddət üçün Hayfaya səfər edər, arada bir Onun çadırı Karmel Dağının yüksəkliklərində qurulardı. Hər yerdən dostlar təşrif gətirər və Onu dinləyərdilər. İnsanlar və hökumət adamları bütün bunları görürdülər, lakin heç kəs bir kəlmə belə danışmırdı. Bu isə Həzrət Bəhaullahın ən böyük möcüzələrindən biridir: ki, O, məhbus olsa da, cah-cəlala əhatə olunmuşdu və hökmran idi. Zindan saraya çevrildi, məhbəsin özü isə Cənnət (Behişt) Bağı oldu. Əvvəllər tarixdə belə bir şey baş verməmişdi. Heç bir dövr

[12] Quran 68-4

belə bir şeyin şahidi olmayıb ki, zindana salınmış bir insan ətrafda qüdrət və hökmranlıqla gəzsin ki, zəncirdə olan bir şəxs Allahın Əmrinin şan-şöhrətini göylərə qaldırsın, Şərqdə və Qərbdə parlaq qələbələr qazansın və Qüdrətli Qələmi ilə dünyanı fəth etsin. Bu ali Məzhərin fərqli xüsusiyyəti belədir.

Bir gün hökumətin liderləri, ölkənin dayaqları, şəhərin üləmaları, aparıcı mistiklər və intellektuallar Malikanəyə gəldilər. Camal`i-Mübarək onlara heç bir diqqət yetirmədi. Onların Onun hüzuruna daxil olmalarına izn verilmədi və O, onların heç biri barədə soruşmadı. Mən onlarla oturdum, bir neçə saat onlarla həmsöhbət oldum, sonra gəldikləri yerdə də çıxıb getdilər. Hərçənd sultanın xüsusi fərmanı vardı ki, Həzrət Bəhaullah təcrid olunmuş halda (tək) kamerada daimi keşikçi nəzərətində saxlanılsın, heç vaxt kənara ayaq qoymasın, hətta heç bir inananı belə görməsin–belə bir fərmana, belə bir sərt əmrə baxmayaraq, Onun çadırı Karmel Dağının yüksəkliklərində əzəmətlə ucaldı. Hakimiyyətin bundan daha böyük nümayişi nə ola bilər ki, zindanda Rəbbin bayrağı ucaldı və bütün dünyanın gözü qarşısında dalğalandı! Həmd olsun belə bir qüdrət və əzəmətin Sahibinə, Həmd olsun Ona qüvvət və həşəmətlə silahlanmış Kəsə, Həmd olsun Əkka zindanında əsir ikən düşmənlərini məğlub etmiş Kəsə!

Xülasə, Əbdü`s Saleh bəxtəvərlik ulduzu altında yaşadı, çünki o, müntəzəm olaraq Həzrət Bəhaullahın hüzuruna gələrdi. Uzun illər bağban kimi xidmət etməklə şərəfləndirilmişdi və o həmişə sədaqətli, doğruçu və imanında qəvi idi. Hər bir inanan qarşısında o, müti idi; bütün bu müddətdə o, heç kəsi incitmədi, heç kəsin qəlbinə toxunmadı. Və Nəhayət o, öz bağını tərk etdi və Allahın rəhmətinə tələsdi.

Camal`i-Qədim Əbdü`s Salehdən razı idi, vəfat etdikdən sonra onun şərəfinə Ziyarətnamə nazil etdi, habelə onun haqqında fikir söylədi və o qeydə alındı və digər Yazılarla birlikdə çap olundu.

Əbhanın bəhası onun üzərinə olsun! Uca Mələkutda Allahın şəfqəti və lütfü onun üzərinə olsun.

## Ustad İsmayıl (↑)

MÜBARƏK YOLDAŞLARIN ARASINDA bənna (usta) Ustad İsmayıl da vardı. Tehranda o, Fərrux Xanın tikinti nəzarətçisi idi, şad və xoşbəxt yaşayırdı, yüksək məqam sahibi idi və hamı ona ehtiram göstərirdi. Lakin onun ürəyi Əmrə məftun oldu və bununla da ovsunlandı və onun müqəddəs ehtirası bütün pərdələri yandırdı. Sonra o, ehtiyatkarlığı buraxdı, Bəhailərin bir sütunu kimi bütün Tehranda tanındı.



Fərrux xan onu əvvəlcə lazımınca qoruya bilirdi. Lakin vaxt keçdikcə, onu çağırdı və dedi: "Usta, sən mənə çox əzizsən, mən səni mühafizə etmişəm və bacardığım qədər sənin arxanda durmuşam. Amma şah sənin haqında məlumat alıb və sən bilirsən ki, o, necə qaniçən bir zalımdır. Mən qorxuram ki, o, səni xəbərdarlıqsız tuta və tutsa, asacaq. Sənin üçün ən yaxşısı budur ki, buralardan çıxıb gedəsən. Bu ölkəni tərk elə və başqa bir yerə get, bu təhlükədən qaç".

Təmkinlə, şad bir halda ustad işini buraxdı, mal-mülkün gözlərini yumdu və İraqa getdi və burada yoxsul bir həyat sürməyə başladı. O, yenicə bir həyat yoldaşı tapmışdı və onu hədsiz sevirdi. Qızın anası gəldi, hiyləgər bir yolla, yəqin ki, ziyarət məqsədilə qızını Tehrana aparmaq üçün onun icazəsini aldı. Kirmanşaha çatan kimi qadın müctəhidin yanına getdi və ona dedi ki. Kürəkəni öz dinindən döndüyü üçün qızı onun həyat yoldaşı kimi qala bilməz. Müctəhid boşanma işini həll etdi və qızın kəbinini başqa bir kişiyə kəsdi. Bunun xəbəri Bağdada çatanda həmişəki kimi dəyanətli İsmayıl ancaq güldü: "Əlhəmdülillah!"dedi. "Bu yolda mənim itirəcəyim bir şey qalmayıb. Mən hər şeyimi, o cümlədən, həyat yoldaşımı da itirmişəm. Mən malik olduğum hər şeyi Ona verə bildim".

Həzrət Bəhaullah Bağdaddan ayrılıb Rumeliyə gedəndə dostlar arxada qaldılar. Bu zaman Bağdad sakinləri o köməksiz inananların əleyhinə qalxdılar və əsir olaraq onları Mosula göndərdilər. Bu zaman Ustad qoca və zəif idi, lakin o, piyada getdi, səfər üçün heç nəyi yox idi, dağlardan və səhralardan, vadilərdən və təpələrdən keçdi və nəhayət, Ən Böyük Zindana gəlib çıxdı. Bir dəfə Həzrət Bəhaullah Ruminin bir qəsidəsini onun üçün yazmış və demişdi ki, üzünü Həzrət Bab tərəf tusun və musiqiyə bəstələnmiş sözləri oxusun. Belə ki, uzun zülmət gecələrdə o, sərgərdan idi, Ustad bu misraları oxuyardı:

Eşq mübtəlasıyam, heyrətdəyəm
Eşqin dəlisiyəm, bütün kürreyi-ərzdə,
Mənə ilk məcnun dedilər,
Halbuki gələndə ağıllı və hikmətli idim.
Ey mənə bu piyaləni[13] satan eşq,
Ey uğrunda yanıb bağrı qan ollduğum eşq
O eşq ki, onunçün ağlayıb həsrət çəkirəm
Sən Ney çalansan, mənsə tütəyəm.

Əgər isəyirsən mənim yaşamağımı,
Öz nəfəsini üfür məndən
İsanın toxunuşunu mənə ver
Əsrlərdir ki, ölü yatıram.

Sənsən Axır da, sənsən Əvvəl də
Sənsən zahir də, sənsən batin də
Hər gözdən nihansan sən
Amma hər gözdə sakinsən sən.

O, qanadları sınmış bir quş kimi idi, lakin o, nəğmə oxuyurdu və bu onu yeganə Eşqinə tərəf getməkdə saxlayırdı. O, gizlənə-gizlənə Qalaya yaxınlaşdı, içəri daxil

---

[13] Bu şərab, Rumi bir yerdə deyir, "Ləbbeyk (Bəli)" nidasından gəlir. Yəni, bu, "Mən sizin Rəbbiniz deyiləmmi?" günündə Allahla insan arasında bağlanmış İlkin Əhdin rəmzidir. Bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?"–soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!"–deyə cavab vermişdilər. (Quran, 7:71)

oldu, lakin artıq üzülmüşdü, tükənmişdi. O, bir neçə gün qaldı, sonra Həzrət Bəhaullahın hüzuruna gəldi, sonra ona göstəriş verildi ki, Hayfada qalmaq üçün yer axtarsın. O, Hayfaya getdi, lakin orada heç bir sığınacaq tapmadı, nə bir yuva, nə bir mağara, nə su, nə də bir taxıl dənəsi. Nəhayət, o, şəhərdən kənarda bir mağarada sakin oldu. O, balaca bir araba əldə etdi, onun üzərinə saxsı qab-qacaq, üskük, sancaq və başqa xırdavat şeylər düzdü. Hər gün səhər ertədən günortaya qədər ətrafda dolaşır, bu xırdavatın pərakəndə satışı ilə məşğul olurdu. Bəzi günlər onun qazancı iyirmi para[14], bəzən otuz olurdu, ən yaxşı gündə qırx para qazanardı. Sonra o, evinə–mağaraya qayıdar, bir parça çörəyə qane olardı. O, həmişə şükr edərək deyərdi: "Allaha həmd olsun ki, mən belə bir fəzl və lütfə nail olmuşam, mən dostdan və düşməndən ayrılmışam, bu mağarada pənah tapmışam. İndi mən onlardanam ki, hər şeyini verib ki, bazarda İlahi Yusifi alsın (Mən İlahi Yusifə məftun olmuşam). Bundan böyük nemət nə ola bilər!"

O, öləndə bu vəziyyətdə idi. Dəfələrlə eşitmişdik ki, Həzrət Bəhaullah Ustad İsmayıldan razılığını bildirmişdi. Xeyir-bərəkət onu sarmışdı, Allahın nəzəri onun üstündə idi. Salam və mədhlər onun üzərinə olsun. Əbhanın Bəhası onun üzərinə olsun.

---

[14] . Türkiyə pulu sentin doqquzda biri idi. Vebster, Yeni Beynəlxalq Lüğət.

## Nəbil Zərəndi (↑)

HƏZRƏT BƏHAULLAHIN YANINDA olmaq üçün öz vətənindən mühacirət etmiş şəxslərdən biri də böyük Nəbil[15] idi. Gəncliyinin çiçəkləyən vaxtında o, Zərənddə ailəsi ilə vidalaşdı və İlahi yardımla Əmri təbliğ etməyə başladı. O aşiqlər ordusunun başçısı oldu və öz xahişi ilə İraqi-Əcəmi tərk edib Mesopatomiyaya getdi, lakin Axtardığını tapa bilmədi. Çünki Məhbub o zaman Kürdüstanda, Sar-qalu mağarasında yaşayırdı və orada, o çöllü-biyabanda tək-tənha, yoldaşsız, dostsuz, bir insanın belə olmadığı bir yerdə ürəyində sakin olan gözəlliklə ünsiyətdə idi. Ondan heç bir xəbər yox idi, İraq zülmətə bürünmüşdü, kədərə qərq olmuşdu.



Nəbil görəndə ki, bir zamanlar alışdırılmış və saxlanmış atəş demək olar sönmüşdü, inananların sayı bir neçə nəfər qalmışdı, Yəhya[16] isə gizli bir deşiyə girmişdi və orada hərəkətsiz və fəaliyyətsiz gizlənmişdi, qış qoyuğu hər tərəfi bürümüşdü–ağır kədər içində özünü borclu hiss etdi ki, çıxıb Kərbəlaya getməlidir. Həzrət Bəhaullah Kürdüstandan qayıdandan və Bağdada gələnə qədər o, orada qaldı. Onda orada hədsiz sevinc yaşanırdı, ölkədəki hər bir inanan həyata qayıtdı, onlardan biri də Nəbil idi ki, Həzrət Bəhaullahın hüzuruna tələsdi və böyük bəxşişlər aldı. İndi o, günlərini şadlıqda keçirir, Rəbbini tərif və vəsf edən mədhiyyələr yazırdı. O, istedadlı bir şair

[15] Nəbil, Dan Yerinin Şəfəqləri-nin müəllifi, Həzrət Bəhaullahın şair kimi qiymətləndirdiyi tarixçi-səlnaməçi, Onun yorulmaz həvvarisi." Allah yanımızdan keçir, VIII fəsil, "Eyni zamanda İran babilərinin axını ilə" başlayan paraqraf.

[16] Mirzə Yəhya, icmanın "nominal rəhbəri", "Vəd Olunmuşun gəlişini gözləmək üçün şərti olaraq mərkəz" kimi təyin edilmişdi. Allah yanımızdan keçir, VIII fəsil, "Həzrət Bəhaulahın Süleymaniyyədən qayıtması" sözləri ilə başlayan paraqraf.

idi, dili isə çox bəlağətli, o dəmir kimi möhkəm və cəsur, ehtiraslı bir məhəbbətdən alışmış bir insan idi.

Bir müdəətdən sonra o Kərbayalaya qayıtdı, daha sonra Bağdada geri döndü və oradan da İrana getdi. Seyid Məhəmmədlə ünsiyyət etdiyi üçün səhv yola düşmüş, ağır iztiraba düçar olmuş və üzülmüşdü. Lakin bir meteor kimi, şeytani təsəvvürlərdən bir güllə kimi ayrıldı və iblis pıçıltılarını[17] dəf etdi və Bağdada geri getdi və Müqəddəs Ağacın kölgəsində rahatlıq tapdı. Daha sonra ona göstəriş verildi ki, Kirmanşaha getsin. O, yenə qayıtdı və hər bir səfərində xidmət göstərməyə qadir oldu.

Həzrət Bəhaullah və Onun məiyyəti Bağdadı, "Sülh Məkanı"nı (Darüssəlam) tərk etdi və Konstantinopola "İslam şəhəri"nə getdi. Həzrət Bəhaullah oradan ayrılandan sonra Nəbil dərviş paltarı geyindi, piyada yola çıxdı və karvanı yolda haqladı. Konstantinopolda ona tapşırıldı ki, İrana qayıtsın və orada Əmri təbliğ etsin, həmçinin, bütün ölkə boyu gəzsin şəhərlərdə və kəndlərdə inananları baş verənlərlə tanış etsin. Bu missiya yerinə yetiriləndə və "Mən sizin Rəbbiniz deyiləmmi?" təbili çalınanda–çünki indi "səksəninci il[18]" idi. Nəbil Adrionopola tələsdi və gedərkən səsləndi: "Bəli, həqiətən Sən bizim Rəbbimizsən? Bəli, həqiqətən!" və "Ya rəbb, ya Rəbb, Ləbbeyk!".

O, Həzrət Bəhaullahın hüzuruna daxil oldu, sədaqət və şərəf andının qırmızı şərabından içdi. Sonra ona xüsusi tapşırıqlar verilirdi ki, hər yerə getsin və hər bir diyarda Allahın indi zühurunun baş verməsi çağırışını qaldırsın, sədaət dolu müjdələri yaysın. Həqiqət Günəşi doğdu. O həqiqətən, alımışdı və rahatlıq verməyən məhəbbətə tutuşmiuşdu. Böyük vəcdlə o ölkəni başdan başa gəzər, bütün xəbərlərdən ən yaxşısı olan bu xəbəri gətirər və ürəkləri dirçəldərdi. O, hər bir məclisdə məşəl kimi alovlanırdı, o, hər bir toplantının ulduzu idi, məstedici piyaləni o, hamıya təklif edirdi. O, səyahətində təb səsi kimi getdi və nəhayət Əkka qalasına çatdı.

---

[17] İslam təşbehinə istinad, bu təşbehə görə, xeyir şərdən qorunur: mələklər Cənnətdə casusluq etmək istəyən şər ruhları onların üzərinə ulduzlar atmaqla oradan qovurlar. Quran, 15:18, 37:10, 67:5.

[18] Həzrət Bəhaullahın Həzrət Babın Vəd verdiyi Vəd Olunmuş kimi gəlişinə istinad edilir. Həzrət Babın Özünün gəlişi "altmışıncı ildə" (1844) baş vermişdi.

O zamanlar məhdudiyyətlər çox sərt idi. Qapılar qapalı, yollar bağlı idi. Nəbil qiyafəsini dəyişmiş halda, Əkka alaqapısına yaxınlaşdı. Seyid Məhəmməd və onun rəzil yoldaşları dərhal hakimin yanına qaçdılar və bu gələn səyyahın əleyhinə danışdılar. "O iranlıdır," dedilər, "o, əslində göründüyü kimi, Buxaralı bir şəxs deyil. O, buraya gəlib ki, Bəhaulahdan bir xəbər alsın". Hökumət onu dərhal şəhərədən çıxardı.

Məyus olmuş Nəbil Səfəd şəhərinə çəkilib getdi. Sonra o, Hayfaya gəldi və Karmel Dağında mağarada məskən saldı. O, dostdan, yaddan ayrı yaşadı, gecə-gündüz ağladı və sızladı, dualar oxudu. Orada o, zahid kimi guşənişin oldu və qapıların açılmasını gözlədi. Qapılar taybatay açıldı və Məzlum gözəllik, əzəmət, cəlal içində üzə çıxdı, Nəbil Ona tərəf sevincli bir ürəklə can atdı. Sonra o, özünü şam kimi istifadə etdi və Allahın məhəbbət atəşi ilə yandı. Gündüz və gecə o, hər iki aləmin və Onun astanasının yanında olanların yeganə Məhbubunun tərifinə nəğmələr oxudu, beşlik və altılıq formalarda şeirlər, lirik və uzun mədhiyyələr yazdı. Demək olar ki, o, hər gün Məzhərin[19] hüzuruna daxil olurdu.

Bu Həzrət Bəhaullahın süud etdiyi günə qədər belə davam etdi. Bu ən ağır dərddən, bu sarsıdıcı fəlakətdən, Nəbil zar-zar ağladı, əsdi və Göyə nalə çəkdi. O, gördü ki, "şidad"–sıxıntı ilinin–rəqəm qarşılığı (əbcəd hesabı ilə) 309 idi və bu aydın oldu ki, Həzrət Bəhaullah indi baş verəni əvvəlcədən xəbər vermişdi[20].

Tamamilə sınmış halda, Həzrət Bəhaullahdan ayrılığın ümidsizliyi içində, son dərəcə çaşqınlıqda, göz yaşları tökərək Nəbil elə bir əzabda idi ki, onu görən hər kəs çaşırdı. O, mübarizə aparmaqda davam edirdi, lakin yeganə arzusu həyatına qəsd etmək idi. O, daha iztirab çəkə bilmədi, onun arzusu onu yandırırdı, o, daha dəhşətli ağrılara dözə bilmirdi. O, beləcə aşiqlər ordusunun sultanı oldu və özünü dənizə atdı.

---

[19] Belə böyük bir Varlığa aid olan ilahilik və Allahın adlarının və sifətlərinin belə bir yüksək Şəxsdə tam təcəssümü, heç bir halda, yanlış anlaşılmamalı və yanlış şərh edilməməlidir. Belə bir qüdrətli və sarsıdıcı Vəhy üçün vasitə edilmiş insan məbədi, əgər biz öz Dinimizin ehkamlarına sadiq qalmaq istəyiriksə, O, "batini Ruhlar Ruhu"ndan və "əbədi Zatlar Zatından" tamamilə ayrı tutulmalıdır, yəni ki, görünməz, lakin hikmətli Allah, Onun yerdə Zühurlarının ilahiliyini biz nə qədər yüksəltsək də Özünün qeyri-məhdud, bilinməz, dərk olunmaz və hər şeyi əhatə edən Mahiyyətini fani varlığın konkret və məhdud çərçivəsinə heç cür sığdırmaz və təcəssüm etdirməz". (Şövqi Əfəndi, "Həzrət Bəhaullahın Zühur Dövrü")

[20] Əbcəd hesabı ilə "şidad" hərflərinin cəmi 309-dur. 1892-ci il, Həzrət Bəhaullahın süud tarixi hicrətdən sonra 1309-cu il idi.

O, özünü təslim edəndən bir gün əvvəl o, ölüm ilini bir sözlə yazmışdı. "Batdı[21]". Sonra o, həyatını Məhbuba fəda etdi və məyusluqdan azad oldu və daha özünü təcrid etmədi.

Bu görkəmli şəxs bilgili, hikmətli və bəlağətli idi. Onun təbii istedadı (dahiliyi) təmiz ilhamdan idi və poetik istedadı şəffaf axın idi. Xüsusilə onun "Baha, Baha" qəsidəsi tam vəcd halında yazılmışdı. Bütün həyatı boyu erkən gəncliyindən qocalıb əldən düşənə qədər vaxtını Rəbbinə xidmətdə və sitayişdə keçirdi. O, məşəqqətlər çəkdi, talesizliklər yaşadı, əzablara düçar oldu. Məzhərin dilindən heyrətamiz şeylər eşitdi. Ona Cənnətin nurları göstərilmişdi, o, ən əziz arzusuna çatdı. Və sonda dünyanın Günəşi qürub edəndə o, daha tab gətirə bilmədi və özünü dənizdə batırdı. Fədakarlıq suları onu örtdü. O, batdı və axırda isə o, Ən Yüksəyə qalxdı.

Onun üzərinə bol xeyr-dualar olsun, onun üzərinə inayət olsun. Qoy Allahın Mələkutunda o, böyük qələbə və aşkar fəzl qazansın.

---

[21] Ğarıq (Gharig). Bu sözün hərlflərinin əbcəd hesabı ilə cəmi 1301-dir ki, Hicri ilə 26 iyul 1892-ci ilə düşür.

## Dərviş Sidq`Əli (Sidq-həqiqi) (↑)

AĞA SİDQ`ƏLİ vətəni tərk edib Həzrət Bəhaullahın yanına gedən və Zindana atılan şəxslərdən daha biri idi. O, dərviş idi; azad yaşayan, dost və yaddan eynilə qopmuş bir şəxs idi. O, ariflər zümrəsinə mənsub idi və savadlı bir şəxs idi. O, bir müddət yoxsul bir geyimdə həyat sürdü, Şəriət şərabı içdi, Təriqət səfəri[22] etdi, lakin başqa sufilərdən fərqli olaraq, həyatını həşiş tozuna sərf etmədi; əksinə, o, özünü onların boş xəyallarından təmizlədi və ancaq Allahı axtardı, Ondan danışdı, Allahın yolu ilə getdi.

Onun gözəl şairlik təbi vardı və aləmlərin zülm verdiyi, rədd etdiyi Kəsi vəsf etmək üçün qəsidələr (mədhiyyələr) yazırdı. Əkka kazarmasında zindanda olakən yazdığı bir şeir vardı və onun əsas bəndi belədir:

Sənin zülfünün buruğu yüz ürəyi tovlayır,<br>Sən Saçını atanda ürəklər göz yaşı tökür.

O azad və müstəqil ruh Bağdadda izi bilinməyən Məhbubun izini tapdı. İraq üfüqündə o, Günəşin doğuşuna şahid oldu və bu doğuşdan nemət və bərəkət aldı. O, Həzrət Bəhaullahın cazibəsinə düşdü və zərif Yoldaşlığa məftun oldu. Hərçənd o, sakit, təmkinini pozmayan bir insan idi, amma onun əzaları öz müjdəsini çatdırmaq istəyən çoxlu dillər kimi idi. Həzrət Bəhaullahın məiyyəti Bağdadı tərk etmək ərəfəsində olanda, o, yalvardı ki, onu mehtər kimi özləri ilə götürsünlər. Bütün günü o, karvanın yanında gedir, gecə olanda isə atlara baxırdı. O, bütün ürəyi ilə işləyirdi. Ancaq gecə yarıdan keçəndə o, yatağa gedir, uzanıb dincəlirdi; onun yatağı isə əbası, yastığı isə palçıqdan düzəldilmiş kərpic idi.

Səyahət zamanı o, həsrətli bir məhəbbətlə dolmuş halda şeirlər oxuyardı. O, dostları çox xoşhal edərdi. Onun adı[23] özlüyündə danışırdı: o, pak saflıq və həqiqət idi; o, məhəbbətin özü idi; o, iffətli ürək və Həzrət Bəhaullahın məftunu idi. O, özünün yüksək məqamında, yəni mehtər kimi, sultan kimi hökmran idi; o, doğrudan da, dünyanın hakimlərindən daha şanlı idi. O, Həzrət Bəhaullaha qulluq etməkdə canfəşan idi; o hər şeydə dürüst və səmimi (həqiqi) idi.

[22] Sufilərin istifadə etdiyi qaydalar.
[23] Sidq-həqiqi

Aşiqlərin karvanı irəli gedirdi. O, Konstantinopola yetişdi; O, Adrianopola keçdi və nəhayət Əkka zindanına gəldi. Sidq-Əli hər yerə yetişirdi, sədaqətlə Əmirinə xidmət edirdi.

Hələ kazarmada olarkən, Həzrət Bəhaullah xüsusi bir gecə ayırdı və onu Dərviş Sidq-Əliyə həsr etdi. O, yazdı ki, hər il o gecə dərvişlər güllü-çiçəkli bir bağda toplantı yeri ayarlamalı və Allahı zikr etmək üçün bir araya gəlməlidirlər. O, davam edərək dedi ki, "dərviş" avara, sərgərdan gəzən, gecə-gündüz mübahisə edən və səfehliklə keçirən insanların adı deyil; əksinə, O, buyurdu, Allahdan başqa hər şeydən özlərini tamamilə ayırmış, Onun qanunlarından yapışan, Onun Əmrində möhkəm, Əhdinə vəfalı, ibadətində sabit olan kəslərə aiddir. İranlıların dedikləri kimi, bu o kəslərin adı deyil ki, ətrafda avaralar kimi gəzirlər, çaşmış, fikri dağınıq, başqalarına yük, bütün insanlardan ən qaba və kobuddurlar.

Bu görkəmli dərviş bütün həyatı boyu Allahın pənahverici lütfü altında yaşamışdır. O, dünyəvi şeylərdən tamamilə göz yummuşdu. Xidmətdə o, diqqətli idi, inananlara bütün qəlbi ilə qulluq edirdi. O, onların hamısının xidmətçisi və Müqəddəs Astanada isə vəfalı idi.

Nəhayət bir vaxt gəldi ki, Rəbbindən çox da uzaq olmadan, həyat xalatını çıxardı, fiziki gözlər üçün kölgəyə keçdi, amma ruhun gözü üçün isə gün kimi açıq olan aləmə getdi və orada o, əbədi şərəf taxtında qərar tutdu. O, bu dünyanın zindanından qurtuldu, çadırını geniş və hüdudsuz diyarda qurdu. Allah onu həmişə yaxınında saxlasın və onu o əsrarəngiz aləmdə əbədi vüsal və gözəl seyrangahda bəxtiyar etsin; qoy o, nur köynəyinə bələnsin. Onu üzərinə Əbha Allahın bəhası olsun. Onun məzarı Əkkadadır.

## Ağa Mirzə Mahmud və Ağa Rza (↑)

BU İKİ MÜBARƏK ruh, Kaşanlı Mirzə Mahmud və Şirazdan olan Ağa Rza Allahın məhəbbəti ilə alışmış və Onun bilik yağı ilə yanan iki şam idilər. Uşaqlıqdan ilahi nemətlərlə əhatə olunmaqla onlar əlli beş il ərzində hər cür xidmət göstərməkdə müvəffəq olmuşdular. Onların xidmətləri saysız-hesabsızdır, saya gəlməz.

Həzrət Bəhaullahın məiyyəti Bağdaddan İstanbula yola düşəndə, Onu böyük insan izdihamı yola salırdı. Yolda onlar dəhşətli aclıq çəkdilər. Bu iki ruh piyada, Həzrət Bəhaulahın olduğu hovdanın (kəcavənin) önündə adımlayır və hər gün yeddi-səkkiz fərsəng yol qət edirdilər. Taqətdən düşmüş və çox zəif halda onlar dayanacaq yerinə çatardılar; amma nə qədər üzülmüş olsalar da onlar dərhal yemək bişirmək hazırlıqlarına başlayar, inananların rahatlığına baxardılar. Onların qoyduqları səylər həqiqətən də bir insanın bədəninin dözümündən yuxarı idi. Elə vaxtlar olurdu ki, onlar iyirmi dörd saatın cəmi iki-üç saatını yata bilirdilər; çünki dostlar yeməklərini yeyib qurtaran kimi, bu iki dost qab-qacağın yığışdırılması və yuyulması ilə məşğul olardılar. Bu onların gecə yarısına kimi vaxtını alardı və ancaq ondan sonra onlar dincələ bilirdilər. İşıqlananda onlar qalxar, hər şeyi yığışdırar və yenə də Həzrət Bəhaullahın hovdasının önündə gedərdilər. Baxın, onlar necə vacib bir xidməti yerinə yetirirdilər və necə bir nemət üçün seçilmişdilər: səfərin başlamasından, Bağdaddan, İstanbula gələnə qədər onlar Həzrət Bəhaullahın yanında gedirdilər; onlar dostların hər birini şad edirdilər; onlar hamıya rahatlıq və dinclik gətirirdilər; onlar dostların istədikləri hər şeyi hazırlayırdılar.

Ağa Rza və Mirzə Mahmud Allaha məhəbbətin cövhəri idilər, Allahdan başqa hər şeydən göz yummuşdular. Bütün o vaxt ərzində onların səslərini qaldırmalarını heç vaxt heç kəs eşitmədi. Onlar heç vaxt keç kəsi incidib qırmadılar. Onlar etibarlı, sədaqətli və dürüst idilər. Həzrət Bəhaullah onların üzərinə Öz xeyir-dualarını yağdırdı. Onlar daim Onun hüzuruna daxil olar və O, isə onlardan razı olduğunu bildirərdi.

Kaşandan Bağdada gələndə Mirzə Mahmud gənc idi. Ağa Rza isə Bağdadda iman gətirdi. Bu iki insanın ruhani halətləri təsvirə gəlməzdi. Bağdadda yeddi aparıcı inanandan ibarət bir qrup yoxsul və kimsəsiz olduqlarından kiçik və tək bir otaqda yaşayırdılar. Onlar ancaq ki, özlərini dolandırırdılar, amma o qədər ruhani, bəxtəvər

idilər ki, özlərini Beşhiştdəki kimi hiss edirdilər. Bəzən bütün gecəni dan yeri ağarana qədər dua oxuyardılar. Gündüzlər onlar işləməyə gedərdilər və axşama kimi biri on para, biri iyirmi, digəri isə otuz və ya qırx para qazana bilərdi. Bu pullar axşam yeməyinə xərclənərdi. Bir gün onlardan biri iyirmi para qazandı, qalanları isə heç nə qazana bilmədilər. Pulu olan bir qədər xurma aldı və başqaları ilə paylaşdı; bu, yeddi nəfərin şam yeməyi idi. Onlar bu qıtlıq həyatından tam razı və son dərəcə xoşbəxt idilər.

Bu iki şərəfli kişi günlərini insan həyatında ən yaxşı olan hər şeyə həsr etdilər: onların görən gözləri vardı; onlar ağıllı və huşyar idilər; onların eşidən qulaqları vardı, sözlərində insaflı idilər. Onların yeganə arzuları Həzrət Bəhaullahı məmnun etmək idi. Onlar üçün Onun Müqəddəs Astanasında xidmətdən başqa heç nə kərəm və nemət sayılmırdı. Ən Böyük Dərddən (Həzrət Bəhaullahın Süudu) sonra kədər onları əriyən şam kimi yandırdı; onlar ölüm arzuladılar və Əhddə möhkəm qaldılar və o Günəşin Dininin yayılması üçün gərgin və yaxşı çalışdılar. Onlar Əbdül-Bəhanın yaxın və etibarlı yoldaşları idilər və onlara hər bir şeydə etibar etmək olardı. Onlar daim təvazökar, itaətkar, iddiasız və müti idilər. Bütün o zaman ərzində onlar nəfs qoxusu gələn bir söz belə söyləmədilər.

Və nəhayət, Əbdül-Bəhanın olmadığı zaman onlar solmaz cəlal Mələkutuna uçub getdilər. Mən çox kədərləndim, çünki onlar vəfat edəndə mən onların yanında deyildim. Cismən orada olmasam da, mənim ürəyim orda idi və onları ağlayırdım; amma zahirən mən onlarla vidalaşmadım; ona görə kədərlənirəm.

Onlara salam və mədhlər olsun; onların üzərinə rəhmət və bəha olsun. Allah onlara Cənnətdə, Sidrənin altında yuva versin. Onlar Qüdrətli və Qüvvət Sahibi Rəblərinin yanında nur köynəyinə bürünsünlər.

## Qəzvinli Pidarcan (↑)

MƏRHUM PİDARCAN BAĞDADA mühacirət edən inanalar arasında idi. O, dindar, Məhbuba məftun olmuş qoca bir kişi idi; İlahi eşq bağında o, tam açmış bir qızılgül idi. O buraya, Bağdada gəldi, günlərini Allahla ünsiyyətdə və dualar oxumaqda keçirdi; o, yerdə gəzsə də, Səmanın yüksəkliklərinə səyahət edirdi.

Allahın qanununa riayət etmək üçün o, ticarəti seçdi, çünki heç nəyi yox idi. O, bir neçə cüt corabı büküb qoltuğunun altına vurar, küçə və bazarlarda gəzərək onları satar, oğrular da onun mallarını çalıb aparardılar. Nəhayət, o, məcbur oldu ki, corabları əli uzanmış halda ovcunda tutsun və getsin. Lakin o, dua oxuduğu vaxtlarda bir gün görəndə ki, gözlərinin qabağındaca əllərində saxladığı corabları oğurlayıblar, məəttəl qaldı. Onun bu dünya üçün huşyarlığı dumanlanmışdı, çünki o, başqa bir aləmə səyahət etmişdi. O, vəcd halətində olurdu. O, məst olmuşdu, görmək halında deyildi.

Bir müddət İraqda o, məhz belə yaşayırdı. Demək olar ki, hər gün o, Həzrət Bəhaullahın hüzuruna müşərrəf olurdu. Onun adı Abdullah idi, amma əhbablar ona Pidarcan–əziz ata–ləqəbi vermişdilər, çünki o, onların hamısı üçün mehriban bir ata idi. Nəhayət, o, Həzrət Bəhaullahın pənahverici qayğısı altında o, "qüdrətli sultanın hüzurunda həqiqət kürsüsünə[24]" uçub getdi.

Allah onun qəbrini Öz rəhmətinin bol yağmurları ilə ətirləndirsin və ilahi şəfqət nəzərlərini onun üzərinə salsın. Salam və mədhlər olsun ona.

[24] Quran 54:55.

## Şeyx Sadiq`i-Yəzdi (↑)

BAĞDADA MÜHACİRƏT EDƏNLƏRDƏN biri də möhtərəm, adı Sadqi kimi mömin olan Şeyx Sadiq Yəzdi[25] idi. O, Cənnətin meşəsində hündür bir palma, Allahın məhəbbət səmalarında şölə saçan bir ulduz idi.

Məhz İraqda olanda o, Həzrət Bəhaullahın hüzuruna tələsdi. Onun bu dünyanın şeylərindən özünü ayırması və ruhun həyatına bağlanması təsvirə gəlməz. O, məhəbbət təcəssümü, ürəyi yumşaqlıq mücəssəməsi idi. O, gecə və gündüz Allahla ünsiyyət edir, dua və yalvarış halətinə qərq olurdu. Çox vaxtlar onun gözlərindən yaşlar axardı. Camali-Mübarək onu xüsusi bir lütf üçün seçmişdi, O, diqqətini nə zaman Sadiqə tərəf döndərsəydi, Onun inayətini açıqca görmək olardı.

Bir gün xəbər gətirdilər ki, Sadiq ölüm ayağındadır. Mən onun yanına getdim və onu son nəfəsdə gördüm. O, bağırsaq keçməzliyindən əziyyət çəkirdi, qarnı ağrıyırdı və köpmüşdü. Mən Həzrət Bəhaullahın yanına tələsdim və vəziyyəti təsvir etdim. "Get", O, dedi. "Əlini köpmüş yerə qoy və bu sözləri söylə: "Sən ey Şəfa Verən[26]".

Mən ayıtdım. Gördüm ki, onun keçməzlik olan yeri alma boyda şişib; o daş kimi idi, davamlı hərəkətdə, fısıldayır, ilan kimi ətrafına burulurdu. Mən əlimi onun üzərinə qoydum; Üzümü Allaha tutdum və müticəsinə Ona yalvardım və "Ya Şafi" sözlərini təkrar dedim. Birdən xəstə kişi ayağa qalxdı. Onun bağırsaq keçməzliyi keçdi. Şişi yox olub getdi.

Bu ruh mücəssəməsi olan insan Həzrət Bəhaulahın məiyyəti Bağdadan çıxmaq üçün yol alana qədər şad və məmnun yaşadı. Əmr edildiyi kimi, Sadiq arxada, o şəhərdə qaldı. Lakin həsrət onun içində o qədər ehtirasla vururdu ki, Həzrət Bəhaullah Mosula çatanda o, ayrılığa daha dözə bilmədi. Ayaqyalın, başıaçıq, o, Mosula gedən çapara qoşuldu. O, qaçdı, o, çılpaq düzənlikdə ən böyük rəhmətin kölgəsində yıxıldı və öz dincliyini tapdı.

---

[25] Bu sözün bir neçə mənası vardır, o cümlədən, doğruçu, sədaqətli və ədalətli.
[26] Ya Şəfi.

Qoy Allah ona “kafur çeşməsində doldurulmuş şərab qədəhindən”ndən[27] içirsin və onun məzarına saf sular yağdırsın; Allah onun o çöllükdəki torpağını müşklə ətirləndirsin və onun üzərinə səfbəsəf nur yağdırsın.

[27] Quran 76:5.

## Şah Məhəmməd Əmin (↑)

ƏMİN, ETİBARLI KƏS ləqəbi olan Şah Məhəmməd erkən inananlar arasında idi və ən dərin heyranlardan idi. O, ilahi Çağırışı gəncliyinin çiçəkləyən vaxtında eşitmiş və üzünü Mələkuta döndərmişdi. O, boş mövhumat pərdələrini gözləri önündən çırıb atmış və ürəyinin arzusuna çatmışdı; nə insanlar arasındakı xülyalar, nə də hədəf olduğu tənə və məzəmmətlər onu geri döndərə bildi. O, tərpənməz dayandı və müşkül dənizi ilə üzləşdi; o, Gəliş (məşhər) gününün möhkəmliyi ilə dayanaraq onu saxlayan və yolunda əngəl yaradanlarla üzləşdi. Onlar onun ürəyinə nə qədər şübhə salmağa çalışırdılarsa, o, o qədər də güclü olurdu; onlar ona nə qədər işgəncə verirdilərsə, o, o qədər tərəqqi edirdi. O, Allahın camalının əsiri idi, Əbhanın gözəlliynin köləsi idi; o, Allaha məhəbbətin alovu, Onu tanımağın vuran fəvvarəsi idi.

Onun ürəyində eşq elə yanırdı ki, rahatlığı yox idi; Məhbubun hicranına dözmək daha mümkün olmayanda o, doğma diyarını, Yəzdi tərk etdi. Səhranın qumu onun ayağının altında ipək oldu; əsən külək kimi uçaraq o, dağları və ucsuz-bucaqsız düzləri aşdı və nəhayət Məhəbbətin qapısında dayandı. O, özünü hicran tələsindən azad etdi və İraqda Həzrət Bəhaullahın hüzuruna daxil oldu.

Elə ki, o bəşərin Sevgilisinin evinə yola düşdü, o, hər bir fikirdən boşaldı, hər bir qayğıdan qurtuldu və sonsuz lütf və fəzl aldı. O, İraqda bir neçə gün qaldı və sonra İrana qayıtmaq göstərişi aldı. O, bir müddət orada qaldı və inananları ziyarət etdi; onun pak nəfəsi onların hər birini canlandırdı, hər biri Əmri üçün alışdı, dincliklərini itirdilər və əvvəlkindən daha səbrsiz oldular.

Sonra o, Mirzə Əbül-Həsənlə, ikinci Əminlə Ən böyük Zindana gəldi. Bu səfərində o, bir neçə çətinliklə qarşılaşdı, çünki zindana yol tapmaq hədsiz dərəcə çətin idi. Nəhayət, Həzrət Bəhaullah onu ictimai hamamda qəbul etdi. Mirzə Əbül-Həsən öz Rəbbinin əzəmətli hüzurunda elə sarsıldı ki, titrədi, ayağı dolaşdı və yerə yıxıldı; başı yarıldı və qan axdı.

Əmin, yəni Şah Məhəmməd, Əmin ləqəbi ilə şərəfləndirilmişdi və onun üzərinə kərəm yağışı yağırdı. İstək və məhəbbətlə dolu, Həzrət Bəhaullahdan olan Lövhləri özü ilə götürərək, o, geriyə, İrana yol aldı və orada, daim etibara layiq bir şəkildə o, Əmr üçün çalışdı. Onun xidmətləri böyük idi, özü isə inananların ürəklərinə təsəlli

idi. Enerjili olmaqda, şövq və qeyrətdə onunla heç kəs müqayisə oluna bilməzdi və heç kəsin xidməti onun xidmətinə bərabər olmazdı. O, insanlar arasında pənahgah idi, Müqəddəs Astanaya sədaqətinə görə hər yerdə tanınır, hər yerdə dostlar tərəfindən sevinclə qarşılanırdı.

O, heç vaxt bir an da dincəlmədi. O, bir gecə də rahat yatağında yatmadı, nə də başını dincliklə yastığa qoydu. O, bir quş kimi daim uçuşda idi, maral kimi sürətli qaçırdı, tənhalıq çölündə mehman olmaqla tək və cəld idi. O, bütün inananlara sevinc gətirirdi; onun gəlişi hamı üçün yaxşı xəbər idi; hər bir axtarana o, əlamət və nişanə idi. O, Allahın məftunu idi, Allahın məhəbbət səhrasında sərgərdan idi. Külək kimi o, düzlərin üzərindən əsir, təpələrin üstündə cövlan edirdi. O, hər gündüz başqa bir ölkədə, hər gecə başqa bir diyarda olurdu. O, heç vaxt dincəlmədi, o, heç vaxt aram olmadı. O, xidmət etmək üçün daim ayaqda idi.

Lakin onu Azərbaycanda Miyandabda zindana saldılar. O, hansısa kürdlərin, günahsız və müdafiəsiz bir adamdan bir sual belə soruşmayan düşmən bir qrupun qəddarlığının qurbanı oldu. Başqa xaricilər kimi, bu qəribin də kürdlərə bədxah olmasına inanaraq onu məzlumcasına öldürdülər.

Onun şəhid olması xəbəri Zindana yetişəndə, bütün məhbuslar kədərləndilər, onun üçün göz yaşları tökdülər və son saatında onun köməksiz qaldığı kimi Allaha pənah apardılar. Hətta Həzrət Bəhaullahın çöhrəsində belə kədərin aşkar əlamətləri vardı. Uca Qələmdən o fəlakətli çöldə ölmüş insan haqqında son dərəcə incə bir Lövh nazil oldu və onun haqqında çoxlu digər Lövhlər endirildi.

Bu gün Allahın mərhəmət kölgəsində o, parlaq Cənnətdə sakindir. O, müqəddəslik quşları ilə həmsöhbətdir və parlaq təcəllilər yığıncağında o, nura qərq olmuşdur. Onun xatirəsi və tərifi kitabların səhifələrində və insanların dilində və dodaqlarında zamanın sonuna qədər yaşayacaq.

Ona salam və mədhlər olsun; Əbhanın bəhası onun üzərinə olsun; ona Allahın ən böyük rəhməti olsun.

## Məşədi Fəttah (↑)

Məşədi Fəttah bir ruh mücəssəməsi idi. O, sədaqətin özü idi. Hacı Əli Əşrəfin qardaşı–eyni bir pak nəsildən gəlirdi və Əli Əsgərin vasitəsilə Əmrə gəlmişdi. Kastor və Polluks əkizlər kimi, onlar da daim bir yerdə olar, hər ikisi iman nuru ilə işıqlanmışdı.

Bu iki qardaş hər şeydə cüt idilər; onlar eyni dərəcədə yəqinlik və imana, eyni anlayışa malik idilər, eyni vaxtda Azərbaycandan Ədirnəyə mühacirət etmişdilər. Həyatın hər bir şəraitində onlar bir şəxs kimi yaşayırdılar; onların davranışı, məqsədləri, dinləri, xasiyyətləri, rəftarı, imanı, yəqinliyi biliyi–hamısı bir idi. Hətta Ən böyük Zindanda belə onlar bir yerdə idilər.

Məşədi Fəttahın bir qədər ticarəti vardı; bu onun dünyada malik olduğu yeganə şey idi. O, bunu Ədirnədə müəyyən şəxslərə əmanət etdi, bu vicdansız adamlar onun mallarını əldən çıxardılar. Beləliklə, Allahın yolunda o, malik olduğu hər şeyi itirdi. O, günlərini tam razılıqla Ən Böyük Zindanda keçirdi. O, tam bir təmənnasızlıq idi; ondan heç kəs bir söz belə eşitməmişdi ki, bu onun mövcudluğuna çarə etsin. O, daim zindanın bir küncündə olar, sakitcə təfəkkür edər, Allahın zikri ilə məşğul olardı; həmişə, ruhən ayıq və huşyar, dua və yalvarış halətində idi.

Sonra Böyük Dərd gəldi. O, Həzrət Bəhaullahdan ayrılığın iztirabına döz bilmədi və Onun süudundan sonra o qəmdən öldü. Mübarəkdir o; Mübarəkdir o; Ona müjdələr olsun; yenə, ona müjdələr olsun. Əbhanın bəhası onun üzərinə olsun.

## Nəbil Qaini (↑)

BU GÖRKƏMLİ ŞƏXS, Molla məhəmməd Əli[28], Həzrət Babıb bəyanından əvvəl ürəyi Həzrət Bəhaullaha cəzb olunanlardan biri idi; bu o zaman idi ki, o, irfan şərabının piyaləsini Fəzl Saqisinin əlindən içmişdi. İş belə gətirmişdi ki, Qainin şahzadəsi Mir Əsədullah Xanın oğlu olan bir prinsə əmr edilmişdi ki, siyasi girov kimi Tehranda qalsın. O, gənc idi, sevgili atasından uzaqda yaşayırdı, Molla Məhəmməd Əli isə onun müəllimi və mühafizəçisi idi. O gənc Tehranda qərib olduğundan, Camal`i-Mübarək ona xüsusi iltifat göstərirdi. Nə qədər gecələr gənc şahzadə Həzrət Bəhaullahın malikanəsində Onun qonağı olmuşdu, Molla Məhəmməd Əli isə onu müşayiət edərdi. Bu Həzrət Babın bəyanından öncə idi.

Məhz bu zaman idi ki, etibarlı dostların öncülü olan bu şəxs Həzrət Bəhaullaha heyran olmuşdu və getdiyi hər yerdə Onun tərifini yayırdı. Elə ki, İslamda edirlər, Həzrət Bəhaullahın etdiyini öz gözləri ilə gördüyü böyük möcüzələri və eşitdiyi heyrətamiz şeyləri danışırdı. O, vəcdə gəlmişdi və məhəbbətlə yanırdı. Bu halətdə o, şahzadə ilə birlikdə Qainə qayıtdı.

Sonralar o, görkəmli alim, Ağa Məhəmməd Qaini (ləqəbi Nəbil`i-Əkbər idi) mərhum Şeyx Mürtəza tərəfindən müctəhid, yəni dini qanun doktoru təyin edildi; sonra o, Bağdada getdi və Həzrət Bəhaullahın atəəşli ardıcılı oldu və geriyə, İrana tələsdi. Aparıcı üləma və müctəhidlər onun alim kimi nailiyyətlərindən, onun elminin genişliyindən və uca mərtəbəsindən agah idilər və bunu etiraf edirdilər. O, Qainə yetişəndə açıq şəkildə Əmri təbliğ etməyə başladı. Molla Məhəmməd Əli Camal`i-Mübarəkin adını eşidən andaca Babı qəbul etdi. “Mən Camal`i-Mübarəki Tehranda görmək şərəfinə nail olmuşam” o, dedi. “Mən Onu görən anda Onun köləsi oldum”.

Bu istedadlı, yeksək zəkalı şəxs öz kəndi Sar Çahda Əmri təbliğ etməyə başladı. O, öz ailəsini istiqamətləndirdi və başqalarını da təbliğ etdi, xeyli insanı Allahın məhəbbət qanunu altına gətirdi və hər kəsi xilas yolunda apardı.

O zamana qədər o, həmişə Qainin hakimi Mir Ələm Xanın yaxın yoldaşı olmuşdu, ona mühüm xidmətlər göstərmişdi və Hakimin hörmət və etibarını qazanmışdı. İndi isə o, utanmaz şahzadə dininə görə qəzəblə onun əleyhinə qalxdı, onun əmlakını

[28] Nəbil Qaini onun ləqəbidir.

əlindən aldı və talan etdi; çünki Nəsrəddin şahdan qorxurdu. O, Nəbil`i-Əkbəri sürgün etdi və Nəbil`Qainini taladı. Onu zindana saldıqdan və işgəncə verdikdən sonra onu evsiz-eşiksiz bir səfil kimi ordan çıxardı.

Nəbil üçün qəfil fəlakət bir xeyir-dua idi, onun dünyəvi malının əlindən alınması və çöllərə salınmasıAllahın ona əta edəcəyi şahanə tac və ən böyük lütf olacaqdı. Bir müddət o tehranda qaldı, zahirən bir məkanı olmayan bir səfil, daxilən isə nəşə içində idi; çünki Əhddə möhkəm olan hər bir ruhun əlaməti budur.

Onun böyük adamların cəmiyyətinə çıxışı vardı və müxtəlif şahzadələrin vəziyyətini bilirdi. Ona görə də o, onların bəzilərinin yanına gedir və onlara müjdə verirdi. O, inanaların ürəklərinə təsəlli, Həzrət Bəhaullahın düşmənlərinə isə sıyrılmış bir qılınc idi. O, haqqında Quranda oxuduqlarımız şəxslərdən biri idi: "Onlar Allahın Əmri üçün mübarizə aparar və heç kəsin tənəsindən qorxmazlar[29]". O, Əmri irəli aparmaq üçün gecə-gündüz ağır zəhmət çəkdi, bütün gücü ilə Allahın aşkar əlamətlərini yaydı. O, Allaha məhəbbət şərabından içərdi, fırtına buludları kimi gurultulu, dənizin dalğaları kimi coşğun idi.

Sonra Ən Böyük Zindanı ziyarət etmək üçün ona izn verildi; çünki Tehranda bir inanan kimi gözə görünürdü. Hamı onun iman gətiridiyini bilirdi; o, nə ehtiyat edir, nə səbr edir, nə də qorunurdu; o, susmağın nə olduğunu bilməz, öz imanını gizlətmək yolu tutmazdı. O, qətiyyən qorxan deyildi, amma dəhşətli təhlükədə idi.

Ən Böyük zindana gələndə düşmən mövqeyində olan nəzarətçilər onu uzaqlaşdırdılar və əldən saldılar ki, o, qalaya daxil olmaq yolunu tapa bilməsin. Onu məcbur etdilər ki, Nazaretə getsin, orada o, bir müddət, iki oğlu Ağa Qulam Hüseyn və Ağa Əli-Əkbərlə dərd çəkərək və dua edərək qərib kimi yaşadı. Nəhayət, onu qalaya gətirmək planı tərtib edildi və onu günahsızların saxlandığı zindana çağırdılar.O, elə bir vəcdlə gəlmişdi ki, onu təsvir etmək mümkün deyil, ona Həzrət Bəhaullahın hüzuruna daxil olmaq izni verilmişdi. O, oraya daxil olanda və gözlərini qaldırıb Camal`i-Mübarəkə baxanda, əsdi, titrədi və huşunu itirib yerə yıxıldı. Həzrət Bəhaullah ona inayətlə müraciət etdi və o, yenidən ayağa durdu. O, bir neçə gün kazarmada gizli qaldı və sonra Nazaretə qayıtdı.

---

[29] Quran 5-54

Nazaret əhalisi onunla çox maraqlanırdılar. Onlar bir-birlərinə deyirdilər ki, açıq görünür ki, öz ölkəsində böyük və görkəmli, məşhur və yüksək məqama malik bir adamdır; onlar özlərindən soruşurdular ki, bu insan niyə dünyanın Nazaret kimi ucqar bir yerini yaşam yeri seçib və belə bir yoxsulluq və məşəqqətə o, necə razı olub.

İsm`i-Əzəmin vədinin yerinə yetməsilə Zindanın qapıları taybatay açılanda bütün əhbablar və səhayətçilər qala-şəhərə rahat və hörmətlə girib-çıxa bilirdilər, Nəbil Qaini də hər ay Həzrət Bəhaulahı ziyarət etmək üçün buraya səfər edərdi. Lakin Onun əmrinə uyğun olaraq o, Nazaretdə qalmaqda davam edirdi və burada o, bir neçə xristianı Əmrə gətirmişdi; və orada o, gecə-gündüz Həzrət Bəhaullaha edilən zümlərə görə ağlayırdı.

Onun həyat üçün qazanc əldə etmək işi mənimlə şərik olmağında idi. Yəni, mən ona üç kran[30] verirdim, bununla o, iynə alırdı və bu onun ehtiyat malı olurdu. Nazaretli qadınlar mübadilə ilə iynənin müqabilində ona yumurta verirdilər və beləcə o, gündə otuz ya qırx yumurta alırdı: üç iynəyə bir yumurta. Sonra o, bu yumurtaları satır, gəliri ilə dolanırdı. O, zaman Əkka ilə Nazaret arasında gündəlik karvan olduğundan, o, hər gün iynə götürmək üçün Ağa Rzanın yanına gələrdi. Allaha həmd olsun! O, ilkin kapitalın xərclənməsi hesabına iki il yaşaya bildi; o, daim şükr edirdi. Tək bir bu faktla siz onun düya malından necə göz yumduğunu deyə bilərsiniz: Nazaretlilər deyirdilər ki, bu qoca kişinin davranış və rəftarından açıqca görünürdü ki, o, çox zəngin idi və əgər o, belə təvazökar şərtlərlə yaşayırsa, bu ancaq ona görə ola bilər ki, o, yad bir yerdə yad bir adamdır və öz var-dövlətini gizlətmək üçün iynə satmaq kimi xırdavatçılıqla məşğul olur.

Həzrət Bəhaullahın hüzuruna gələndə hər dəfə o, daha çox lütf və məhəbbət görürdü. İlin hər bir fəslində o, mənim yaxın dostum və yoldaşım idi. Məni kədər bürüyəndə onu çağırmaq üçün adam göndərirdim və sadəcə onu yenidən görəndə sevinirdim. Onunla söhbət necə gözəl, onunla ünsiyyət necə cəzbedici idi. Onun üzü parlaq idi; ürəyi azad; hər cür bağlılıqdan azad, daim qanadlanardı. Sona yaxın o, Ən Böyük Zindanda məskən saldı və hər gün Həzrət Bəhaullahın hüzüuruna daxil oldu.

Bir gün o, dostları ilə bazarda gedəndə Hacı Əhməd adlı qəbir qazanı görür. Səhhəti yerində olsa da, o, qəbir qazana üzünü tutdu və gülə-gülə dedi: “Mənimlə gəl”.

[30] 1 kran təxminən 20 şahıdır, o isə 8 sentə bərabərdir

İnananların və qəbir qazanın müşayiəti ilə o, Nəbiullah Salehin yanına getdi. Orada dedi: “Ey Hacı Əhməd, səndən bir xahişim var: mən bu dünyadan köçəndə mənim qəbrimi burada, Ən Pak Budağın[31] yanında qazarsan. Bu mənim sizdən ricamdır”. Bunu dedi və o adama bəxşiş olaraq pul çıxarıb verdi.

Həmin axşam, gün batandan bir az keçmiş, xəbər gəldi ki, Nəbil Qaini xəstələnib. Mən dərhal onun evinə getdim. O, oturmuşdu və söhbət edirdi. O, işıq saçırdı, gülür, zarafat edirdi, lakin aydın olmayan səbədən onun üzündən tər tökülürdü–tər üzündən aşağı sel kimi axırdı. Bundan başqa onda elə bir əlamət görünmürdü. Tərləmə hey davam edirdi; o, zəiflədi, yatağına uzandı və səhərə yaxın vəfat etdi.

Həzrət Bəhaullah onun haqında sonsuz fəzl və inayətlə danışardı və onun adına br neçə Lövh nazil etmişdi. Camal`i-Mübarək Nəbilin vəfatından sonra, o şövq və atəşi, o iman gücünü xatırlayaraq, adətən deyərdi ki, Həzrət Babın gəlişindən öncə Onu Özünü tanımış bir kişi vardı.

Onun ecazkar bəxşişləri üçün ona salamlar olsun. “Onu bəxtəvərlik və gözəl bir yuva gözləyir. Və Allah kimi istəsə, Öz mərhəməti üçün seçir.”[32]

---

[31] Həzrət Bəhaullahın oğlu Mirzə Mehdi kazarmanın damında gəzişə-gəzişə dua edərkən, bacadan düşmüş və həlak olmuşdu. *Allah yanımızdan keçir*, XI fəsil, “Bu bəlaların əzici ağırlığına” ilə başlayan paraqraf.

[32]Müqayisə et Quran 13:28; 2:99; 3:67.

## Seyid Məhəmməd Tağı Mənşədi (↑)

MƏHƏMMƏD TAĞI MƏNŞƏD kəndindən idi. Hələ gənc ikən, Allahın dini haqqında öyrənmişdi. Müqəddəs bir vəcd halında, o, qəlbini Səmaya döndərdi, ürəyi isə nurla aşb-daşırdı. İlahi fəzl onun üzərinə nazil olurdu; Allahın çağırışı onu elə məftun etdi ki, o, Mənşədin rahatlığını yelə verdi. Qohumlarını və uşaqlarını tərk edərək o, yola çıxdı, dağlardan və düzlərdən keçdi, bir mənzil başından o birisinə adladı, dənizin sahilinə gəldi, dənizi adladı və nəhayət Hayfaya yetişdi. Oradan da o, Əkkaya tələsdi və Həzrət Bəhaullahın hüzuruna daxil oldu.



İlk vaxtlar o, Hayfada kiçik bir dükan açdı və bəzi xırdavatçılıq şeylərinin ticarəti ilə məşğul oldu. Allahın bərəkəti onun üzərinə endi və o, çiçəkləndi. O, balaca bir künc, zəvvarlar üçün bir sığınacaq oldu. Onlar gələndə və gedəndə, alicənab və səxavətli Məhəmməd Tağının qonağı olardılar. O, həmçinin inananların işlərinin idarə edilməsində kömək edər, onların səfər vasitələrini qaydaya salardı. O, etibarlı, sədaqətli, etibara layiq olduğunu sübut etmişdi. Nəhayətdə o, Lövhlərin göndərilməsi və inananlardan məktubların gəlməsi üçün bir vasitəçiyə çevrildi. O, bu xidməti mükəmməl bir etibarlılıqla, çox məmnuniyyətlə yerinə yetirir, məktubları həmişə dəqiqliklə göndərir və alırdı. Hər kəsin etibarını qazanaraq, o, dünyanın hər yerində tanındı və Həzrət Bəhaullahın saysız-hesabsız lütflərini aldı. O, ədalət və möminlik xəzinəsi, dünyəvi şeylərə bağlılıqdan tam azad idi. O, özünü çox qənaətcil bir həyat tərzinə alışdırmışdı, yemək və yatmaq, rahatlıq və dincliyin qayğısına qalmazdı. O, tək bir otaqda tənha yaşayır, palma budaqlarından düzəldilmiş taxtda, küncdə yatırdı.

Lakin səyyahlar üçün o, səhrada külək idi; onlar üçün ən yumşaq yastıqlar, ən yaxşı stolu təşkil edərdi. Onun gülər üzü vardı, təbiətcə ruhani və təmkinli idi.

Mələyi Əlanın Günəşi qürub edəndən sonra Seyid Mənşədi Əhdə sadiq qaldı, pozuculara qarşı iti bir qılınc oldu. Onlar hər hiylədən, yalandan və incə metodlardan istifadə etdilər; onlar ona necə iltifat göstərir və necə ehtiram göstərirdilər, necə ziyafətlər təşkil edir, necə ləzzətlər təklif edirdilər–təsəvvürə gəlməz və bunların hamısı onun imanında çat yaratmaq üçün edilirdi. Amma o, hər gün əvvəlkindən daha güclü olurdu, hər cür nalayiq fikirdən azad qalırdı, Allahın Əhdinin tərsinə gedən hər şeydən qaçırdı. Onlar nəhayət, onun qətiyyətini sındırmaqda uğursuluqlarını görəndə hər cür yolla onu narahat etməyə başladılar və onun maliyyə cəhətdən məhv olması üçün planlar qurdular. Lakin o, səbatlıq və etibar cövhəri olaraq qaldı.

Pozucuların təhriki ilə Əbdül-Həmid mənə qarşı çıxmağa başlayanda, Mən Mənşədini Port Səidə göndərməyə məcbur oldum, çünki insanlar arasında o, bizim məktublarımızın paylayıcısı kimi çox məşhur idi. Onda mən məktubları ona tanınmayan vasitəçilərlə çatdırmalı oldum, o, isə məktubları əvvəlki kimi göndərirdi. Bu yolla xəyanətkar və düşmənlər bizim məktublarımızı ələ keçirə bilmirdi. Əbdül-Həmidin son günlərində, istintaq komissiyası gələndə və o tanış ikən yad olanların (dost ikən düşmən olanların) təhriki ilə hərəkət edərək–Müqəddəs Ağacı kökündən qoparmaq üçün plan cızdılar; onlar məni dənizə atmaq və ya Fezzana sürgün etmək qərarına gəlmişdilər və bu onların gizli, məkrli məqsədləri idi; odur ki, komissiya isə əlindən gələni edirdi ki, bizim bu və ya digər sənədləri ələ keçirsinlər, lakin buna nail ola bilmədilər. Bütün o hərc-mərcliyin sıxlığında, bütün təzyiqlərə və məhdudiyyətlərə, Yezid[33] kimi amansız olan o adamların mənfur hücumlarına baxmayaraq məktublar gedib gəlirdi.

Bir çox illər seyid Mahmud Port Səid də bu xidməti layiqincə yerinə yetirdi Dostlar hamısı bir nəfər kimi ondan razı idilər. O, şəhərdə səyyahların minnətdarlığını qazandı, mühacirət edənlər ona minnətdar idilər və o, yerli inananlara sevinc gətirirdi. Sonra Misirin ağır istisi ona çox ağır gəldi; o, yatağa düşdü, və yüksək hərarət içində həyat libasını atdı. O, Port Səidi tərk edib Səma Mələkutuna getdi və Rəbbin sarayına yüksəldi.

---

[33] Əməvilərdən olan Müaviyənin oğlu xəlifə Yezidin əmri ilə İmam Hüseyn şəhid edildi. Qəddarlıq haqqında zərb-məsəl kimi. Cf. S. Haim. Yeni Far-ingilis lüğəti, s.v.

Seyid Mənşədi məziyyət və zəka cövhəri idi. Onun keyfiyyətləri və biliyi elə bir səviyyədə idi ki, ən müvəffəq zəkalar ondan heyrətə düşərdilər. Onun Allahdan başqa fikri yox idi, Allahın razılığını qazanmaqdan başqa bir ümidi yox idi. O, “mənim bütün dualarımın sözlərini və tərifimi bir nəqaratda saxla; elə et ki, mənim bütün həyatım Sənə bəndəlikdən başqa bir şey olmasın” sözlərinin mücəssəməsi idi.

Qoy Allah onun hərarətini Mələkutda vüsal fəzli ilə sərinlətsin və onun xəstəliyini Camal Sahibinini Səltənətində Ona yaxınlıq məlhəmi ilə sağaltsın. Əbha Allahın bəhası onun üzərinə olsun.

## Yəzdli Məhəmməd Əli Sabbaq (↑)

ERKƏN GƏNCLİYİNDƏ MƏHƏMMƏD Əli Sabbaq İraqda olarkən iman gətirdi. O, əngəl olan pərdələri parçaladı və şübhələri dağıtdı, şəkk və gümandan qurtuldu və Rəblər Rəbbinin pənahına tələsdi. Zahirən təhsil görməmiş bir insan olsa da, çünki o, oxumaq və yazmaq bilmirdi, onun iti zəkası vardı və etibarlı bir dost idi. İnanlardan birinin vasitəsilə o, Həzrət Bəhaullahın hüzuruna gətirilmişdi və tezliklə camaat arasında bir həvvari kimi məşhurlaşdı. O, Camal`i-Mübarəkin evinin yanında, yaşamaq üçün özünə bir künc tapdı, səhərlər və axşamlar Həzrət Bəhaullahın hüzuruna daxil olardı. Bir müddət o çox xoşbəxt idi.

Həzrət Bəhaullah və Onun məiyyəti Bağdadı tərk edib İstanbula gedəndə, Ağa Məhəmməd Əli də o qrupda idi və Allahın məhəbbəti ilə hərarətlənirdi. Biz İstanbula yetişdik; Hökumət bizi Ədirnədə yerləşməyimizi istədiyindən biz Məhəmməd Əlini Türkiyənin paytaxtında buraxdıq ki, inananlar gəldikcə o şəhərdən keçmələrinə onlara kömək etsin. Sonra biz Ədirnəyə getdik. Bu insan tək qaldı və çox məyus oldu ki, nə dostu, nə yoldaşı, nə də onun qayğısına qalan bir nəfər vardı.

Bundan iki il sonra o, Həzrət Bəhaullahın inayətini axtararq Ədirnəyə gəldi. O, xırdavat satan kimi işləməyə başladı və böyük asilik[34] başlayanda və zalımlar dostları son dərəcə fəlakətə sürükləyəndə, o da məhbusların arasında idi və bizimlə birlikdə Əkka qalasına sürgün edildi.

O, xeyli bir vaxt Ən Böyük Zindanda qaldı və sonra Həzrət Bəhaullah istədi ki, o, Sidona getsin və orada o, ticarətlə məşğul olmağa başladı. Həzrət Bəhaullah onu qəbul edərdi, lakin qalan vaxtları O, Sidonda olardı. O, ehtiramla və etibarlı bir həyat

[34] Burada söhbət Babi icmasının şərti başçısı təyin edilmiş Mirzə Yəhyanın asiliyindən söhbət gedir. Həzrət Bab heç vaxt xələf və ya təmsilçi təyin etməmişdi, əksinə, O, ardıcıllarını Vəd Olunmuş Kəsin mütləq gəlişinə yönəildirdi. Bir müddətlik, tanınmayan bir şəxs təhlükəsizlik mülahizələrinə görə üzdə olmaq üçün bir başçı edilmişdi. 1863-cü ildəÖzünü Vəd Olunmuş Kəs kimi lan edən Həzrət Bəahullah, bir müddət Ədirnədə geri çəkildi ki, sürgünlərə Onunla Onun ləyaqətsiz ögey qardaşı arasında azad seçim imkanı versin, o şəxs ki, cinayət və axmaq hərəkətləri körpə Dinin məhv etməklə təhdid edirdi. Camaat arasında Həzrət Bəhaullahla mükaliməyə çıxmaqda qorxaraq Mirzə Yəhya bundan imtina etdi və tamamilə rüsvay oldu. Bəhai tarixinin dəfələrlə nümayiş etdirdiyi kimi, bu böhran da, o nə qədər ağır olsa da, Əmrin daha da böyük qələbəsi ilə nəticələndi, o cümlədən məşhur həvvarilərin Həzrət Bəhaullahı dəstəkləmək üçün bir araya gəlmələri və Papa və Krallara ünvanladığı Lövhlərində Həzrət Bəhaullahın Öz Missiyasını dünya miqyasında bəyan etməsilə sonuclandı. (Allah yanımızdan keçir, səh. 28, Başlıq X)

yaşadı, hamı üçün yaxşı adla yaşadı. Böyük Dərd gələndə, o, Əkkaya qayıtdı, həyatının qalan günlərini Müqəddəs Türbənin yanına keçirdi.

Dostlar hamı bir nəfər kimi, ondan məmnun idilər, o, Müqəddəs Astanada əzizlənirdi; bu halətdə o, əbədi şərəf səmasına uçub getdi, arxasınca yaxınlarını ağlar qoydu. O, mehriban, əla bir insan idi: Allahın onun üçün İradəsi ilə razı, şükürlü, ləyaqətli, uzun əziyyətlər çəkmişdi. Əbhanın bəhası onun üzərinə olsun. Allah onun ətirli məzarını üzərində səmavi nur pərdələrinə bürüsün.

## İsfahanlı Əbdül-Qəffar (↑)

VƏTƏNİNİ TƏRK EDİB bizim qonşumuz və məhbus yoldaşlarımız olanlardan biri də İsfahanlı Əbdül-Qəffar idi. O, çox uzaqgörən bir adam idi və ticarət işi ilə əlaqədar uzun illər ərzində bütün Kiçik Asiyanı gəzmişdi. O, İraqa gələndə Sadlı (İsfahan) Ağa Məhəmməd Əli onu Əmrin kölgəsi altına gətirmişdi. O, tezliklə onun gözlərini əvvəllər bağlamış xülya və güman sarığını qopardı və qalxıb İlahi məhəbbət Səmasında xilas olmaq üçün qanad açdı. Onun gözündəki pərdə nazik idi, demək olar şəffaf idi, ona görə də birinci söz çatan kimi o, boş xülya aləmindən qurtuldu və özünü gün kimi aşkar olan Kəsə bağladı.



İraqdan Böyük Şəhərə, İstanbula səfərdə Əbdül-Qəffar yaxın və rahat bir yol yoldaşı idi. Bütün məiyyət üçün o, tərcüməçi kimi xidmət edirdi, çünki türkcə əla danışırdı, dostlardan heç kəs türkcə yaxşı bilmirdi. Eynilə də Ədirnədə, habelə, məhbuslardan biri kimi, o, bizi Hayfaya müşayiət etdi. Burada zalımlar qərar aldılar ki, onu Kiprə göndərsinlər. O, çox əsəbiləşmişdi və kömək üçün qışqırırdı, çünki o, bizimlə Ən Böyük Zindanda[35] olmaq istəyirdi. Onlar onu güclə aparanda, gəminin ən uca yerindən o, özünü dənizə atdı. Bu qəddar zabitlərə heç bir təsir

[35] Mirzə Yəhya İrandan sürgün edilməmişdi. Lakin indi onu Ədirnədən Kiprə sürgün edirdilər. Əbdül-Qəffar isə onunla birlikdə sürgünə məhkum olunanlardan biri idi. Cf. Həzrət Bəhaullahın *Qurdun oğluna məktub* əsəri, Mən təkrar edirəm və and verirəm... ifadəsi ilə başlayan, *Allah yanımızdan keçir-* də H. S. 1285-ci il "Cəmadiyl-Əvvəl ayının ikisində" başlayan paraqrafı.

etmədi. Onu sudan çıxardıqdan sonar gəmidə dustaq etdilər, qəddarcasına məhdudiyyətə saldılar və zorla Kiprə apardılar. Onu Famaqustada zindana saldılar, amma hansısa bir yolla oradan qaçdı və Əkkaya gəldi. Burada da özünü bizim bədxahlardan qoruyaraq adını dəyişib Əbdüllah qoydu. Həzrət Bəhaullahın inayət kölgəsinə sığınaraq o, günlərini rahatlıq və şadlıqla keçirdi.

Lakin dünyanın ən böyük İşığı Ən Nurlu Üfüqdən daim parlamaq üçün sönəndə, Əbdül-Qəffar özündə deyildi və iztirabın qurbanı olmuşdu. Onun daha evi yox idi. O, Şama getdi, bir müddət orada qaldı, gücə-gündüz ağladı. O, getdikcə zəiflədi. Biz Hacı Abbası oraya göndərdik ki, ona qulluq etsin, onu müalicə edib qayğısına qalsın və hər gün ondan bizə xəbər göndərsin. Amma Əbdül-Qəffar heç nə edə bilmir, ancaq durmadan Hacı Abbasla danışırdı ki, o, necə öz yoluna davam edib bu dünyadan kənar sirli ölkəyə getmək istəyir. Və sonda, evdən uzaqda, Məhəbbətinə görə sürgün olunmuş halda yol alıb Həzrət Bəhaullahın Müqəddəs Astanasına getdi.

O, həqiqətən, çox əzab-əziyyət çəkmiş, mülayim bir insan idi; gözəl xasiyyətli, gözəl əməlli, gözəl sözlü. Ona salam və mədhlər olsun, ona Əbhanın bəhası olsun. Onun ətirli məzarı Şamdadır.

## Əli Nəcəf-Abadi (↑)

MÜHACİRLƏR VƏ YAXIN qonşular arasında Ağa Əli Nəcəfabadi də vardı. Bu ruhani cavan Allahın çağırışnı ilk dəfə eşidəndə o dodaqlarını müqəddəs piyaləyə yapışdırdı və Dağda Danışanın cəlalını gördü. Və o nur fəzli ilə müsbət biliyə nail olanda, o, Ən Böyük Zindana səfər etdi, harada o, biliyin özünün cövhərini gördü və aşkar (şübhəsiz) həqiqətin ali məqamına çatdı.

Uzun bir müddət ərzində o müəqddəs şəhərin özündə və ətrafında qaldı; o, tanınmış tacir Həbibullah oldu və günlərini Allaha təvəkkül edərək dua və yalvarışda keçirdi. O, mülayim, aram, şikayətsiz, möhkəm bir insan idi; hər şeydə məmnun, tərifəlayiq bir şəxs idi. O, bütün dostların razılığını qazanmış, müqəddəs Astanada qəbul edilmiş və xoş qarşılanmışdı. Son günlərində xoşbəxt bir sonluğun onu gözlədiyini hiss edəndə, o, yenə də müqəddəs şəhərə, Ən Böyük Zindana gəldi. Gələndə o, xəstələndi, zəiflədi və saatlarını Allaha yalvarmaqla keçirdi. Həyat nəfəsi onda dayandı, Məlakuti-Əlaya qapılar onun qarşısında taybatay açıldı, o, gözlərini bu torpaq dünyasından çevirdi və Müqəddəs Məkana getdi.

Əli Nəcəf-Abadi incə, və həssas ürəkli idi, daim Allahı xatırlayar və Onu zikr edər, həyatının sonuna doğru ləkəsiz bir halda bu dünyanın zəlalətindən azad oldu. O, məhəbbətlə, yer üzündəki torpaq guşəsini təhvil verib çadırını o biri diyarda qurdu. Allah onun üzərinə pak bağışlayıcılıq ətirləri göndərsin, Cəlal Səltənətində İlahi Gözəlliyi görməklə onun gözlərini işıqlandırsın və Əbha Səltənətindən əsən müşk ətirli yellərlə onun ruhunu təravətləndirsin. Ona salam və mədhlər olsun. Onun mübarək və müqəddəs məzarı Əkkadadır.

## Məşədi Hüseyn və Məşədi Məhəmməd (↑)

MƏŞƏDİ HÜSEYN VƏ Məşədi Məhəmməd Azərbaycani–hər ikisi Azərbaycan vilayətindən idilər. Onlar öz vətənlərində böyük addımlar atmış pak ruhlar idilər: onlar özlərini dostdan və yaddan azad etmiş, onların gözlərini əvvəllər tutmuş mövhumatlardan xilas olmuş, qətiyyətlərini möhkəmləndirmiş, Həyatın Rəbbi, Allahın qarşısında təzim etmişdilər. Onlar mübarək, sədaqətli və ləkəsiz imana malik; müti, itaətkar, fəqir, Allahın iradəsi ilə razı, Onun hidayətedici İşığına vurulmuş, böyük xəbərdən şadlanan ruhlar idilər. Onlar öz vilayətlərini tərk edib Ədirnəyə gəldilər. Burada şəhər kənarında Qumruq-Kilsə adlı kənddə bir müddət yaşadılar. Gündüzlər onlar Allaha yalvarır, gecələr dünyanın zülm etdiyi Kəsin taleyinə ağlayıb göz yaşı tökürdülər.

Əkkaya sürgün ərəfəsində. Onlar şəhərdə deyildilər və ona görə də həbs olumamışdılar. Ürəklərində bir dərd yükü ilə, onlar göz yaşları axıdaraq orada qalmaqda davam etdilər. Onlar Əkkadan qəti bir məlumat alan kimi Rumelini tərk etdilər və buraya gəldilər: iki əla ruh, Camali Mübarəkin sədaqətli iki köləsi. Onların necə ürəkdə necə saf, imanda necə qəvi olduqlarını demək mümkün deyil.



Onlar Əkkadan kənarda, Bağ-i Firdovsdə yaşayırdılar, əkinçiliklə məşğul olurdular, Allaha şükrlər edirdilər, çünki bir daha fəzl və məhəbbət qonşuluğuna gəlib çıxa bilmişdilər. Lakin onlar Azərbaycandan idilər, soyuğa alışmış idilər, yerli istiyə dözə bilmirdilər. Bundan əlavə, bizim Əkkadakı ilk genlərimiz idi, onda hava çox ziyanlı idi, su isə son dərəcə çirkli idi. Onların hər iksi yüksək temperaturda xroniki xəstə oldular. Onlar buna çox yüngül baxır, heyrətamiz səbrlə dözürdülər. Xəstəlik

günlərində temperaturun hücumuna, xəstəliyin şiddətinə, yandırıcı susuzluğa, rahatsızlığa baxmayaraq daxilən onlar məmnun, İlahi müjdələrə sevinən bir halda qaldılar. O zaman bütün ürəkləri ilə şükrlər oxuyarkən, onlar bu dünyadan üz çevirdilər və o biri dünya getdilər; onlar bu qəfəsdən çıxdılar və ölümsüzlük bağına uçub getdilər. Onlara Allahın rəhməti olsun, Allah onlardan razı olsun. Onlara salam və mədhlər olsun. Allah onları əbədi olan aləmə gətirsin, Onunla vüsaldan həzz alsınlıar və Cəlal Səltənətində qərq olsunlar. Onların iki nurlu məzarı Əkkadadır.

## Hacı Əbdürrəhim Yəzdi (↑)

HACI ƏBDÜRRƏHİM YƏZDİ qiymətli bur şəxs idi, gənc yaşlarından məziyyətli və Allahdan qorxan, insanlar arasında pak bir insan, dini vacibiyyətlərə riayət etməkdə bənzərsiz, əməllərində çox diqqətli idi. Onun möhkəm dini, imanı şəksiz bir fakt idi. O, gecə və gündüz Allaha sitayiş edirdi, saleh, mülayim, şəfqətli və sədaqətli bir dost idi.

Tam hazır olduğundan, Üfüqi-Əldan gələn çağırışı eşidən anda, "Mən sənin Rəbin deyiləmmi?" eşidən kimi o, dərhal cavab verdi: "Ləbbeyk". Bütün varlığı ilə, Aləmin Nurunun saçdığı şəfəqlərə məftun olmuşdu. Açıq və cəsarətlə o, ailəsini və dostlarını təbliğ etdi. Bu tezliklə bütün şəhərə yayıldı; iblis üləmaların gözündə o, indi nifrət və həqarət hədəfi idi. O onların qəzəbinə düçar olmaqla, öz alçaq ehtiraslarının yaratdıqları olanların həqarətinə məruz qalırdı. Onu narahat edir və ona ilişirdilər; sakinlər üsyan edirdilər, şeytan üləmalar isə onun ölümü üçün plan çızırdılar. Hökumət adamları da onun üstünə düşdülər, təqib etdilər və hətta ona işgəncə verdilər. onlar onu dəyənəklə döydülər, qamçı ilə şallaqladılar. Bunlar gecə və gündüz davam edirdi.

Belə olduqda, o, evini tərk etməyə şəhərdən çıxmağa məcbur oldu, bir sərgərdan tək dağlara qalxdı, düzləri keçdi, nəhayət, Müqəddəs Torpağa gəlib yetişdi. Lakin o, elə zəif, elə tükənmişdi ki, onu görən deyərdi ki, o, indicə öləcək; Hayfaya çatanda Nabil Qaini Əkkaya tələsdi və istədi ki, mən dərhal Hacını çağırın, çünki o ölüm ayağında idi, sürətlə zəifləyirdi.

"Qoy Malikanəyə gedim", mən dedim, "və izn istəyim". "Bu uzun zaman alar", o, dedi. " Elə olsa, Əbdürrəhim Əkkanı heç vaxt görməyəcək. Mən çox istəyirəm ki, o, bu nemətə yetsin; Ən azı Əkkanı görsün, sonra ölsün. Yalvarıram Sənə, onun dalınca dərhal adam göndər!"

Onun arzusuna baxıb mən Əbdürrəhimi çağırdım. O, gələndə, mən onda demək olar ki, həyat əlaməti görmürdüm. Arada bir o, gözlərini açar, lakin bir kəlmə belə danışa bilməzdi. Amma Ən Böyük Zindanın şirin rayihələri həyat qığılcımını bərpa etdi, onun Həzrət Bəhaullahı görməyə can atması ona yenidən həyat verdi. Ertəsi gün mən ona baxanda onu şad və canlanmış gördüm. O, Həzrət Bəhaullahı ziyarət etmək izni

istədi. “Baxır”, hər şey ondan asılıdır ki,” dedim, “O sənə izn verəcəkmi? İnşallah, bu əziz lütf üçün sən seçilərsən”.

Bir neçə gün sonra icazə gəldi və o, Həzrət Bəhaullahın hüzuruna tələsdi. Əbdürrəhim hüzura daxil olanda, həyat ruhu onun üzərindən əsdi. Qayıdanda, aydın görünürdü ki, Hacı tamamilə başqa bir Hacı olub: O, sağlığından çiçək açmışdı. Nəbil sarsılmış halda dedi: “bu zindanın havası həqiqi mömin üçün necə bir həyatverici havadır!”

Bir müddət Əbdürrəhim qonşuluqda yaşadı. O, saatlarını Allahı zikr və tərif etməklə keçirdi; O, dualar oxuyur, dini vacibatını şadlıqla yerinə yetirirdi. Beləliklə o, bir neçə adam görürdü. Bu bəndə onun ehtyaclarına xüsusi diqqət verirdi, ona yüngül diet sifariş verirdim. Lakin bunların hamısı Ən Böyük Dərdlə, Həzrət Bəhaullahın süudu ilə sona yetdi. Ona görə də iztirab gəldi, hönkürtü ilə ağladı. Ürəyi atəşdə, gözləri yaşlı, o ancaq gəzə bilirdi. Onun günləri beləcə keçir və həmişə bu boş şeylər yığnağından, dünyadan çıxıb getmək istəyirdi. Nəhayət, o, məruz qaldığı itkinin əzabından qurtardı və Allahın Səltənətinə tələsdi, Nurlar Mələkutunda İlahi cəlal toplantısına gəldi.

Ona salam və mədhlər, sonsuz rəhmət olsun. Allah onun məzarı üstünə əsrarəngiz Aləmdən şüalar yağdırsın.

## Hacı Abdullah Nəcəfabadi (↑)

ƏMRƏ İMAN GƏTİRƏN kimi Hacı Abdullah İranı tərk etdi, Müqəddəs torpağa gəldi və Həzrət Bəhaulahın fəzl kölgəsin altında ürək rahatlığı tapdı. O, inamlı, möhkəm və dəyanətli bir insan idi; Allahın çoxsaylı nemətlərinə əmin idi; əla rəftarı və xasiyyəti vardı.

O, günlərini digər inananlarla dostcasına keçirirdi. Sonra o, bir müddət Qövrə, Tabariya yaxınlığına getdi və orada əkinçilik etdi, həm yer əkirdi, həm də vaxtının çoxunu yalvarış və Allahla ünsiyyətə həsr edirdi. O, əla bir kişi, alicənab və pak bir insan idi.

Sonra o, Qövrdən qayıtdı, Cunaynada Həzrət Bəhaullahın yaxınlığında məskən saldı və tez-tez də Onun hüzuruna daxil oldu. Onun gözləri Əbha Mələkutuna dikilmişdi; o, bəzən ağlayar və göz yaşı tökərdi, sonra o, yenə nəşəli olar, şadlanardı, çünki ən ülvi arzusuna çatmışdı. O, Allahdan başqa hər şeydən göz yummuşdu, Allahın fəzli ilə şad idi. O, gecənin çox hissəsini oyaq olar, dua halətində qalardı. Onun ölümü təyin olunmş vaxtda gəldi və Həzrət Bəhaullahın himayədar qayğısı altında oldu, sonra süud etdi və bu torpaq dünyasından uca Tağa tələsdi və yuxarı, gizli ölkəyə uçub getdi. Uca Rəbbinin yanında ona salam, rəhmət və mədhlər olsun.

## Məhəmməd Hadiyi Səhhaf (↑)

MÜHACİRƏT EDƏNLƏRDƏN VƏ Həzrət Bəhaullahın yaxınlığında yerləşənlərdən daha biri də kitab cildləyən Məhəmməd Hadi idi. Bu görkəmli şəxs İsfahandan idi, kitab üzləməkdə və onların tərtibatında onun bərabəri yox idi. Özünü Allahın məhəbbətinə təslim edəndə o yolda o, ayıq və qorxmaz idi. O, evini tərk etdi və qorxulu bir yola çıxdı, böyük məşəqqətlərlə bir ölkədən başqa bir ölkəyə keçərək Müqəddəs Torpağa gəlib çıxdı və dustaq oldu. O, Müqəddəs Astananın yanında özünə yer etdi və oranın qayğı ilə təmizliyinə baxırdı. Onun daimi səyləri nəticəsində Həzrət Bəhaullahın evinin önü həmişə süpürülmüş, sulanmış və təmiz və səliqəli olardı. Həzrət Bəhaullah tez-tez yerin o hissəsinə baxar və gülümsəyərək deyərdi: "Məhəmməd Hadi bu zindanın önündəki meydanı sarayın köşkünə çevirib. O, bütün qonşulara məmnuniyyət gətirib və onların minnətdarlığını qazanıb".

Onun süpürmə, sulama və təmizlik işləri qurtardıqdan sonra, o, oturarar və müxtəlif kitab və Lövhlərə tərtibat verər və üzləyərdi. Onun günləri beləcə keçirdi, ürəyi bəşərin Məhbubunun hüzurunda xoşbəxt idi. O, gözəl bir ruh, mömin, dürüst, öz Rəbbi ilə bir yerdə olmaq nemətinə layiq və bu dünyanın bulaşıqlarından azad idi.

Bir gün o, mənim yanıma gəldi və xroniki xəstəlikdən şikayət etdi. "Mən üşütmə və hərarətdən iki il əziyyət çəkmişəm", o dedi. "Həkimlər işlədici və kinə yazıblar. Hərarət bir neçə gün düşür, sonra yenə qayıdır. Onlar mənə daha çox kinə verirlər, amma hərarət yenə də qayıdır. Mən bu həyatdan bezmişəm, daha işləyə bilmirəm. Məni xilas edin!"

"Sənin ən çox xoşladığın yemək hansı idi?" mən soruşdum. "Nəyi daha çox iştaha ilə yeyərdin?" "Bilmirəm", dedi. Zarafatla mən bir neçə yeməyin adını sadaladım. Mən ayranla arpa şorbasına gələndə (aşi-kaşk) o dedi, "Çox gözəl! Amma bir şərtlə ki, onun içərisində pörtlədilmiş sarımsaq da olsun".

Mən tapşırdım ki, bu yenəyi onun üçün hazırlasınlar və getdim. Ertəsi gün o özü yanıma gəldi və dedi: "Mən bir boşqab şorba yedim. Sonra başımı yastığa qoydum və səhərə qədər rahat yatdım".

Xülasə, o vaxtdan etibarən təxminən iki il ərzində o, özünü əla hiss edirdi.

Bir gün əhbablardan biri yanıma gəldi və dedi: "Məhəmməd Hadi hərarətdən yanır". Mən tez onun yanına getdim və onun temperaturunun 42 dərəcə olduğunu gördüm. Onun huşu ancaq ki, özündə idi. "O, nə edib?" soruşdum. "Onu tirtətmə tutanda" dedilər "O, dedi ki, təcrübədən bilir ki, nə etmək lazımdır. Sonra o, doyunca arpa şorbası və onda bişmiş sarımsaq yedi; bu da nəticəsi."

Mən taleyin işinə məəttəl qaldım. Onlara dedim: "Çünki iki il əvvəl o, tamamilə təmizlənmişdi və onun həzm sistemi təmiz idi" çünki bu yemək üçün onun yaxşı iştahası vardı, xəstəliyi isə üşütmə və hərarət idi, ona görə də mən ona arpa şorbası təyin etdim. Amma bu dəfə, onun fərqli yeməklər yediyi halda, özü də iştahasız və xüsusilə yüksək temperaturda, ona görə də əvvəlki xroniki xəstəlik diaqnozu qoymağın əsası yoxdur. O, şorbanı necə yeyə bilərdi!" Onlar dedilər, "Bu taledir". İş işdən keçmişdi, artıq gec idi.

O bəstə boylu,lakin məqam və ruhca uca bir şəxs idi. Onun ürəyi pak, ruhu işıqlı idi. Müqəddəs Astanada xidmət etdiyi o günlərdə o, dostların sevimlisi idi, Allah ona lütfkar idi. Zaman-zaman Camal`i-Mübarək, dodaqlarında təbəssüm, onunla danışar, ona iltifat və fəzlini ifadə edərdi.

Məhəmməd Hadi həmişə sədaqətli idi, o, Allahın razılığından başqa hər şeyi, əfsanə və boş sayırdı. Ona əta edilmiş bu bəxşişə görə ona xeyir-dua olsun, onun aparılacağı yerə görə ona müjdələr olsun; kafir çeşməsindən doldurulmuş bu piyalə ona fayda versin və onun bütün çalışmaları minnətdarlıqla qarşılansın və Allah tərəfindən qəbul olunsun[36].

---

[36] Quran 11:101; 11:100; 76:5; 76:22; 17:20.

## Mirzə Məhəmmədqulu (↑)

CƏNAB MİRZƏ MƏHƏMMƏDQULU[37] Camal`i-Mübarəkin sədaqətli bir qardaşı idi. Bu böyük insan hətta uşaqlıqdan ruhunun nəcibliyi ilə tanınırdı. Onun görkəmli atası vəfat edəndə o yenicə doğulmuşdu və iş belə gətirdi ki, həyatının əvvəlindən sonuna qədər o, ömrünü Həzrət Bəhaullahın hifzedici qollarında keçirdi. O, hər cür xudbin fikirdən göz yummuşdu, Müqəddəs Əmrə aid olan şeylərdən başqa heç nəyə könül bağlamazdı. O, İranda Həzrət Bəhaullahın qayğısı altında böyümüşdü və məhz o, çay paylayardı; və o, hər zaman, gecə də, gündüz də Qardaşına qulluq edərdi. O, həmişə sükut edərdi. O, həmişə "Sizin Rəbbiniz Mən deyiləmmi?" Əhdində möhkəm idi. O inayət və kərəmlə əhatə olunmuşdu. Gecə də, gündüz də Həzrət Bəhaulahın hüzuruna daxil olurdu; o, dəyişməz olaraq səbirli və dözümlü idi. Sona qədər o, İlahi lütf və qəbulun düz yüksəkliklərinə qalxmışdı.



O, daim özü kimi idi. O, Həzrət Bəhaullahın yanında səyahət edirdi. İraqdan İstanbula gedəndə o, məiyyət dəstəsində idi və dayanacaqlarda çadır qurmaq onun işi idi. O, böyük səylə xidmət edirdi, süstlük və yorğunluğun nə olduğunu bilməzdi. İstanbulda, sonra Sirr torpağı Ədirnədə də o, eyni cür dəyişməz halətdə davam edirdi.

Öz bənzərsiz Rəbbi ilə, sonra o, Əkka qalasına sürgün olundu və Sultanın fərmanı ilə həmişəlik məhbus edildi[38].·Lakin onun yoluna çıxan hər şeyi o, eyni ruhla qəbul

[37] Allah Yanımızdan keçir, səh. 108
[38] Allah yanımızdan keçir, səh. 186; 193; 196

edirdi–rahatlığı da, işgəncəni də, məşəqqəti də, müvəqqəti dincliyi də, xəstəliyi də, sağlamlığı da; Rəbbinə kərəmi üçün bəlağətli bir dil ilə şükr edər, azad bir ürək və günəş kimi parlaq bir üzlə mədh söyləyərdi. Hər səhər və axşam o, Həzrət Bəhaullaha qulluq edər, onun hüzurunda həzz alar və bundan güc alardı. Əsasən, o, sükut edərdi.

Bəşərin Məhbubu Cəlal Mələkutuna süud edəndə, Mirzə Məhəmmədqulu Əhddə sadiq qaldı, o zaman meydana çıxan hiylədən, şərdən və riyakarlıqdan qaçdı, yalvararaq və dua edərək özünü tamamilə Allaha həsr etdi. Dinləyənlərə o, hikmətli məsləhət verərdi; o, Camal`i-Mübarəkin günlərini xatırlayar və kədərlənərdi ki, özü yaşayır. Həzrət Bəhaullahın süudundan sonra, o, bircə dəfə də rahat nəfəs almadı; o, heç kəslə yoldaşlıq etmədi, çox vaxt təkbaşına idi, ayrılıq atəşi ilə yanaraq öz kiçik yuvasında tənha qaldı. Günbəgün o, daha da zəiflədi, daha köməksiz oldu və nəhayət, Allahın aləminə uçub getdi. Onun üzərinə salam olsun; Cənnətin bağlarında ona rəhm və rəhmət olsun. Onun nurlu məzarı Tiveriya yaxınlığında Nəqibdədir.

## Usta Bağır və Usta Əhməd (↑)

YENƏ DƏ VƏTƏNLƏRİNİ tərk edənlər arasında iki dülgər, Usta Bağır və Usta Əhməd də vardı. Bunlar Kaşandan pak soydan olan iki qardaş idilər. İman gətirəndən bəri biri o, birisini qucağında tuturdu. Onlar Allahın "Mən sizin Rəbbiniz deyiləmmi?" çağırışına cavab vermişdilər: "Ləbbeyk!"

Bir müddət onlar, iman və bilikləri ilə səciyyələnərək, dost və yad tərəfindən hörmət olunaraq, möminlik və etibarlılıqları, tərki-dünyalılıqları və Allahdan qorxmaqları ilə tanınaraq Allahın zikri ilə məşğul olaraq öz ölkələrində qaldılar. Zalım əlini onların üzərinə uzadanda və onlara dözülməyəcək dərəcədə işgəncə verəndə, onlar İraqa mühacirət etdilər, və Həzrət Bəhaullahın qağısı altına daxil oldular. Bu ikisi ən mübarək ruhlar idilər. Bir müddət onlar tam mütiliklə dua edərək və Allaha yalvararaq İraqda qaldılar.

Sonra Usta Əhməd Ədirnəyə getdi, Usta Bağır isə İraqda qaldı və dustaq kimi Mosula aparıldı. Hər iki qardaş Allahın hifzi altında idilər və hər cür dünyəvi bağdan azad idilər. Zindanda onlar öz sənətləri üzrə işləyir, özlərini dostdan da, yaddan da uzaq tuturdular. Təmkinli, ləyaqətli, inamlı, imanda möhkəm, Mərhəmət Sahibinin qanadı altında onlar günlərini xoşbəxtcəsinə keçirirdilər. Usta Bağır ilk öldü, bir qədər keçdikdən sonra qardaşı da bu dünyadan köçdü.

Bu iki qardaş möhkəm inananlar idilər, sədaqətli, səbirli, daim şükürlü, üzlərini Ona tutmuş halda həmişə mütiliklə Allaha yalvarırdılar. Zindanda olduqları o uzun zaman ərzində onlar heç vaxt vəzifələrinə biganə qalmadılar, heç vaxt nəhs bir şeyə səbəb olmadılar. Onlar daim nəşəli idilər. çünki onlar müqəddəs piyalədən bol-bol içmişdilər; onlar bu dünyadan köç edib göylərə uçanda isə dostlar onlar üçün göz yaşları tökdülər və rica etdilər ki, Həzrət Bəhaullahın fəzli ilə onlara lütf edilsin və bağışlansınlar. Onların hər ikisi kərəmli lütfə bürünmüşdülər, Allah onları saxlayırdı, Camal`i-Mübarək onların hər ikisindən razı idi; Səfər üçün bu azuqə ilə, onlar o biri dünyaya yol aldılar. Onların hər ikisinin üzərinə Əbha Allahın bəhası olsun; Cəlal Mələkutunda hər ikisi üçün həqiqət kürsüsü[39] qurulsun.

---

[39] Quran 54:55.

## Məhəmməd Hənasəb (↑)

BU AD VƏ MƏQAM sahibi şəxs, Ağa Məhəmməd öz evini tərk edənlərdən və erkən inananlardan biri idi. Dan yeri ağarandan, o,Ən Böyük Nurun bir aşiqi kimi məşhur idi. Onda o, İsfahanda idi, gözlərini həm bu dünyaya, həm də o biri dünyaya bağlamış, sevilə biləcək hər şeyin təcəssümü olan Kəsin gözəlliyinə[40] açmışdı. Bu iki dünyaya (iki cahana) istinad bu deyimə işarə ola bilər ki: "İsfaha nisfi-cahan, yəni İsfahan dünyanın yarısıdır[41]".

Ağa Məhəmməd daha rahat ola bilmirdi, çünki o, Allahın müşk ətirli nəsimi ilə canlanmışdı; onun ürəyi nurlanmışdı, o, müqəddəs rayihəni iyləyə bilərdi, onun görən gözü, eşidən qulağı vardı. O, Əmrə dürüst və sədaqətli qalmaqla bir sıra insanları yönətdi. O, dəhşətli təqib və işgənclərə məruz qaldı, lakin dəyişmədi. Sonra o, Şəhidlərin Sultanının nəzərində lütf qazandı və Şəhidlərin Məhbubunun[42] etibarlı qullquçusu oldu və hər ikisinə müəyyən illər xidmət etdi. O, işində elə sadiq idi ki, Şəhidlərin Sultanı bir çox hal omuşdu ki, öz məmnuniyyətini ifadə edərək desin: "Bu şəxs o insanlardandır ki, sakitlik halındadır; o, həqiqətən, öz Rəbbindən razıdır, Onun da məmnuniyyətini qazanmışdır[43]. Onun imanı xalisdir, o, Allahı sevir, gözəl xasiyyəti var, gözəl bir həyat sürür. O, həm də, rahat bir yoldaşdır, bəlağətli bir şəxsdir".

Şəhidlərin Sultanı öldürüldükdın sonra Ağa Məhəmməd bir qədər İsfahanda qalmaqda davam etdi, onun üçün ağlamaqdan tükəndi. Nəhayət, o, Ən Böyük Zindana mühacirət etdi və orada Həzrət Bəhaullah tərəfindən qəbul edildi, Astananın ətrafındakı yeri süpürmək şərəfini qazandı. O, səbrli, dözümlü, əsl dost və yoldaş idi. Ən Böyük Dərd baş verəndə, Ağa Məhəmməd elə bir ağrı və iztirabda idi ki, o, bir an da rahat ola bilmirdi. Hər səhər o, qalxar, Həzrət Bəhaullahın evinin ətrafını süpürərdi, işlədikcə dua oxuyar, yağış kimi göz yaşları tökərdi.

---

[40] Məzhərin bu cür adlandırılmasıma bax: Allah yanımızdan keçir, səh. 119

[41] Allahın Məzhərinin belə bir tərifi üçün bax, *Allah yanımızdan keçir*, VII fəsil, "Mirzə Ağacanın özü şəhadət verirdi" ilə başlayan paraqraf.

[42] "Bu qoşa parlaq nur" İsfahanın məşhur tacirləri, iki qardaş idilər. Onlara böyük məbləğdə pul borcu olduundan, şəhərin imam-cüməsi onları şəhid etdirdi. Bax, *Qurdun oğluna məktub,* və *Allah yanımızdan keçir*, XII fəsil, "İsfahanda Molla Kauimin başı kəsildi" ilə başlayan paraqraf və "nə də Həzrət Bəhaullahın yazılarının seçkin xüsusiyyətlərinin nəzərdən keçirilməsi" ilə başlayan paraqraf.

[43] Quran 89:27–30

O, necə bir müqəddəs varlıq, necə böyük bir insan idi! O, ayrılığa çox dözə bilmədi, öldü və nurlar aləminə, Allahın gözəlliyinin pərdəsiz göründüyü məclisə tələsdi. Allah onun qəbrinə əfv göyündən şüalar salsın və Cənnətin ürəyində onun ruhunu uyutsun. Allah onun məqamını göydəki bağlarda yüksəltsin. Onun nurlu məzarı Əkkadadır.

## Hacı Fərəcullah Təfrişi (↑)

ÖZ VƏTƏNİNİ TƏRK edib Həzrət Bəhaulahın qonşuluğunda yaşamaq üçün gələnlərdən daha biri Fərəcullah Təfrişi idi. Bu mübarək şəxs erkən gəcliyindən Həzrət Bəhaullahın xidmətçisi idi və möhtərəm atası Ağa Lütfulla ilə o, İrandan Ədirnəyə mühacirət etmişdi. Ağa Lütfullah dəyanətli bir inanan idi, Camal`i-Mübarəkə bağlılığında sadiq idi. Səbirli, uzun əzablar çəkmiş, bu dünyaya və onun faniliklərinə tamamilə biganə halda o, qaneçilik içində Həzrət Bəhaullahın qonşuluğunda yaşayırdı. Sonra o, Astanada müti, peşiman bir ürəklə o bu fani dünyanı tərk etdi və hüdudsuz aləmlərə uçub getdi. Onun rayihəli məzarı Ədirnədədir.

Hacı Fərəcullaha gəldikdə isə, o, rəhmsiz zalımlar Həzrət Bəhaullahı Əkkaya sürgün edən günə qədər həmin şəhərdə qalmaqda davam etdi və onun məiyyəti arasında Hacı da buraya, Ən Böyük Zindana gəldi. Sonralar, çətinliklər aradan qalxanda, o, ticarətlə məşğul oldu, Məhəmməd Əli İsfahaninin şəriki oldu. Bir müddət onun işi uğurlu oldu və o, şad idi. Sonra ona getmək izni verildi və Hindistana getdi, əfv bağlarına uçub getməzdən və sözə gəlməz mərhəmət məkanına daxil olmazdan əvvəl uzun müddət yaşadı.

Camal`i-Mübarəkin bu bəndəsi dostların dar günlərində onların yanında idi; o, onların əzablarına şərik olardı. Həzrət Bəhaullahın lütfləri onu əhatə etmişdi, o, sonsuz fəzldən həzz alırdı. O, məiyyətin arasında idi, dostların yaxını idi, onun yumşaq və anlayışlı ürəyi vardı. Onun cismi arıq və zəif olsa da, o, şükr edirdi, bunu qəbul edirdi, səbrli idi və Allahın yolunda bəlalara sinə gərirdi. Ona salam və mədhlər olsun; Qoy o, səmavi lütflər və nemətlər alsın; Əbha Allahın bəhası onun üzərinə olsun. Onun pak türbəsi Hindistanda, Bombeydədir.

## Ağa İbrahim İsfahani və onun qardaşları (↑)

MÜHACİRƏT EDİB MÜQƏDDƏS Torpaqda yerləşmək üçün gələnlərdən biri də dörd şərəfli qardaşdan–Məhəmməd Sadıq, Məhəmməd İbrahim, Ağa Həbibullah və Məhəmməd Əli–biri Ağa İbrahim idi. Onların dördü də Arid adı ilə tanınan dayıları Ağa Məhəmməd Rza ilə Bağdadda yaşayırdılar. Onların hamısı bir evdə yaşayır, gecə və gündüz bir yerdə olurdular. Quş kimi bir yuvanı paylaşırdılar, onlar ləkdəki çiçəklər kimi daim şux (təravətli) və iltifatla dolu olardılar.

Camal`i-Qədim İraqa gələndə onların evi Onun evinin qonşuluğunda idi, ona görə də O, gələndə və gedəndə Onu müşahidə etmək sevincini yaşayardılar. Ürəklərin Mövlasının davranışı, Onun nə etməsi və nə etməməsi, Onun sevimli üzünü görmək öz təsirini göstərdi; onlar Əmr üçün susamağa, Onun fəzlini və lütfünü axtarmağa başladılar. Onlar Onun evinin qapısına gəldilər, sanki orada çiçəkləmiş güllər idilər; onlar tezliklə Onun alnından saçan işığın məftunu, o əziz Dostun gözəlliyinin əsiri oldular. Onlara mübəlliğ lazım deyildi; onların özləri əvvəllər onların gözlərini tutmuş pərdədən gördülər və ürəklərinin ən ülvi arzularına çatdılar.

Camal`i-Mübarəkin göstərişi ilə Mirzə Cavad Turşiz bir gecə onların evlərinə getdi. Mirzə Cavad ağzını açar-açmaz onlar Əmri qəbul etdilər. Onlar bir an da tərəddüd etmədilər, çünki heyrətamiz həssaslıqları vardı. Quranın ayənsinin mənası məhz bu idi: “onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstünə nurdur[44]”. Yəni bu yağ o qədər tam hazırdır, yanmaq üçün elə hazıdır ki, demək olar ki. Özü od tutur, hərçənd ona toxunan bir od yoxdur; o deməkdir ki, iman qabiliyyəti və onun haqq edilməsi elə böyük ola bilər ki, tək bir kəlmə belə söylənilmədən, işıq parlayır. O, pak ürəkli insanlarla məhz belə idi; onlar həqiqətən, Allaha sədaqətli, möhkəm və sadiq idilər.

Böyük qardaş Məhəmməd Sadiq Həzrət Bəhaullahı İraqdan İstanbula, oradan da Ədirnəyə–harada ki, o, öz Rəbbinin yanında bir müddət şad və xürrəm yaşamışdı–müşayiət etmişdi. O, təvazökar, əzablara dözən, şükranlı bir şəxs idi; onun dodaqlarında hər zaman təbəssüm vardı; o, ürəyin nuru idi və qəlbi Həzrət

[44] Quran 24-25

Bəhaullahın eşqinə düşmüşdü. Sonralar İraqa qayıtmağa ona izn verilmişdi, çünki ailəsi orada idi və bir müddət, xəla edərək və xatirələrlə yaşayaraq o şəhərdə qaldı.

Sonra İraqda böyük fəlakət oldu, bütün dörd qardaş nəcib dayıları ilə birlikdə həbs olundular. Əziyyət verilərək və əsir olaraq onları Mosula gətirdilər. Dayı Ağa Məhəmməd Rza qoca bir kişi idi, qəlbi nurlu, ürəyi ruhlu, dünyəvi şeylərdən arınmışdı. İraqda o, son dərəcə zəngin idi, rahatlıq və ləzzətlərdən həzz alırdı, lakin indi Hadbada, Mosulda əsas məhbus idi, şiddətli ehtiyac içində əziyyət çəkirdi. O, bərk ehtiyac içində idi, lakin ləyaqətini saxlamışdı, səbrli, qane və şükürlü idi. Bir kənara çəkilərək ölənə qədər gecə və gündüz Allahı vəsf edirdi. O, öz ürəyini ürəyinin Sevgilisinə verdi, bu fani dünyanın qandallarından sıyrılıb çıxdı və əbədi Mələkuta yüksəldi. Allah ona əfv qərq etsin və Onun şəfqət və razılıq bağına daxil etsin, sonsuzluğa qədər onu Behiştdə saxlasın.

Məhəmməd Sadiq isə, o da, Mosulda Allahın yolunda məşəqqətlərə məruz qaldı. O da sakit bur ruh idi, Mövlasından razı idi və özü də Ona məmnunluq gətirirdi. Sonda o da Cəlal Sultanının çağrışına cavab verdi: “Ləbbeyk. Ya Rəbb!” və bu ayələrin yerinə yetməsinə səbəb oldu: “ Ey xatircəm olan kəs! Sən Ondan razı olaraq, O da səndən, Rəbbinə dön. Mənim bəndələrimin sırlarına daxil ol; Mənim Cənnətimə varid ol[45]”.

Məhəmməd Əli isə, əsirlikdən azad olan kimi, Mosuldan Müqəddəs Torpağa, tükənməz fəzl sarayının həndəvərinə tələsdi. O, hələ də burada yaşayır. Məşəqqət çəkməsinə baxmayaraq, onun ürəyi əmin-amandır. Haqqında yuxarıda danışılan qardaşı İbrahim də Mosuldan Əkkaya gəldi, lakin yaxın bir bölgəyə yerləşdi. O, səbrlə, təmkinlə, razılıqla, lakin çətinlik içində, o, gecə və gündüz Həzrət Bəhaullahın süuduna ağlayaraq ticarətlə məşğul oldu. Müti, peşiman, üzü Allahın sirli aləmlərinə doğru o, həyatını əritdi. Nəhayət, illərin yükü altında, çətinliklə hərəkət edər bir halda, o, Hayfaya gəldi, səyahətçilərin müsafirxanasının bir küncündə yaşamaq üçün bir yer tapdı, Allahı çağıraraq, Ona yalvararaq və təriflər söyləyərək vaxtını keçirdi. Yavaş-yavaş, yaşın əritdiyi cismi tükənməyə başladı və nəhayət o, cismani libasını çıxardı və libassız ruhu ilə Mərhəmət Sahibinin aləminə uçub getdi. O, bu qaranlıq həyatdan parlaq fəzaya köçdü və nur dənizində qərq oldu. Allah onun məzarını

[45] Quran 89:27–30

yayılmış şüalarla işıqlandırsın, ruhuna İlahi şəfqət yelpiyi ilə yatırsın. Allahın rəhməti və razılığı onun üzərinə olsun.

Ağa Həbibullah da İraqda həbs edilmiş və Mosula sürgün olunmuşdu. Orada o uzun müddət yaşadı, məşəqqətlərə məruz qaldı, lakin razılıq içində qaldı, gecə və gündüz imanı artdı. Mosulda aclıq başlayanda, həyat mühacirlər üçün həmişəkindən daha da çətin oldu, lakin Allahın zikri ilə onların ürəkləri aram idi, ruhları isə Səmadan qida alırdı[46]. Beləliklə, onlar bütün bunlara heyrətamiz bir səbrlə dözdülər, insanlar isə aralarında olan bu xaricilərə təəccüblənirdilər ki, onlar başqaları kimi nə təşvişdədirlər, nə də qorxurlar, gecə və gündüz şükr edirlər. "Onlar Allaha necə də heyrətli bir şəkildə təvəkkül edirlər!" insanlar deyirdilər.

Həbibin çox böyük səbri, nəşəli bir ürəyi vardı. O, özünü sürgünə alışdımış, həsrətli bir məhəbbət halında yaşayırdı. Bağdaddan ayrıldıqdan sonra, Mosul məhbusları daim Həzrət Bəhaullahı xatırlayırdılar; O, isə onlara sonsuz lütflərini ifadə etdi. Bir neçə ildən sonra. Həbib Allahın hər şeyi aran rəhmətinə tələsdi və səmavi Ağacın budağı üzərində yuva və pənah tapdı. Orada, bütün ləzzətlərin Behiştində, ecazkar nəğmələrilə o kərəmli Mövlasına təriflər oxudu.

[46] Müqayisə et Quran 13:28. "Həqiqətən, ürəklər yalnız Allahı zikr etməklə aram tapar".

## Ağa Məhəmməd İbrahim (↑)

MƏNSUR–QALİB–LƏQƏBİ daşıyan Məhəmməd İbrahim misgər idi. Bu Allah adamı, mühacir və köçərilər arasında daha biri–əslən Kaşandan idi. Gəncliyinin çiçəkləyən çağında, o, yenicə doğmuş İşığı tanıdı və "kafur çeşməsi"ndən[47] doldurulmuş şərabla dolu müqəddəs qədəhdən doyunca içmişdi. O, xoş xasiyyətli, çox həvəsli və həyat eşqi ilə dolu bir insan idi, Ürəyində iman işığı yanan kimi, o, Kaşanı tərk etdi, Bağdada getdi və Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu.

Ağa Məhəmmədin gözəl şairlik təbi vardı, o, sapa düzülmüş mirvarilər kimi şeirlər yazardı. Zavrada, yəni Bağdadda, Darüssəlamda, o, yadla da, dostla da xoş münasibətdə idi, hər zaman hamıya mehribanlıq göstərməyə çalışardı. O, qardaşlarını da İrandan Bağdada gətirdi, sənət və əl işləri dükanı açdı. Özünü başqalarının rifahına həsr etdi. O da həbs olundu və Bağdaddan Mosula göndərildi, sonra oradan Hayfaya getdi, orada gecə-gündüz müti və təvazökar halda, fikrini Allahda cəmləşdirərək dua və münacatlar oxudu.

O, uzun bir müddət Hayfada qaldı, orada inananlara müvəffəqiyyətlə xidmət etdi, çox itaətkarcasına və təvazökarcasına zairlərin ehtiyaclarına xidmət etdi. O, o şəhərdə evləndi, beş uşaq atası oldu. Hər gün onun üçün yeni bir həyat və yeni bir sevinc idi, nə qazanırdısa, yadlara və dostlara xərcləyirdi. Şəhidlərin Sultanının öldürülməsindən sonra əzab meydanında düşmüş o inananın xatirəsinə bir qəsidə yazdı və onu Həzrət Bəhaullahın hüzurunda oxudu; misralar son dərəcə təsirli idi, elə təsirli idi ki, hamı göz yaşı axıtdı və hönkürüb nalə etdi.

Ağa Məhəmməd ömrünü uca məqsədlə, daxili halətinə görə həmişə sabit, eşq və həvəslə yaşamaqda davam etdi. Sonra o, ölümə xoş gəldin dedi, qəfil açılmış qızılgül kimi gülərək: "Mən burdayam" dedi. Beləcə o, Hayfanı tərk etdi və onu o biri dünyaya dəyişdi. Bu dar dünyadan Məhbubuna doğru tələsdi, bu torpaq təpəsindən uçub gözəl və parlaq bir diyarda çadırını qurdu. Ona xeyir-dualar oslun, gözəl məkanı[48] olsun. Allah onu mərhəmət qılafına bürüsün; əfv çadırları altında rahatlıq tapsın və Behişt bağlarına gətirilsin.

[47] Quran:76-5
[48] Quran:13-28

## Zeynül-Abidin Yəzdi (↑)

MÜQƏDDƏS TORPAĞA GEDƏRKƏN mühacirlərdən yolda vəfat edən Zeynül-Abidin Yəzdi idi. Mənşəddə olarkən, bu sədaqətli insan Allahın çağırışını eşidəndə, dinclik həyatı bitdi. Müqəddəs bir ehtiras onu çulğaladı, qəlbi təzələndi. Onun ürəyinin şamından hidayət işığı alışdı; Allaha məhəbbət onun daxili ölkəsində bir çevriliş alışdırdı. Sevgilinin gözəlliyinə məhəbbətə tutuşaraq onun üçün əziz olan evini tərk etdi və Məqsudun Ölkəsinə yola düşdü.

İki oğlu ilə birlikdə səfərdə ikən, onu qarşıda gözləyən görüşə ümiddən şadlanaraq o, hər təpə başında, hər bir düzəngahda, hər bir kənddə və obada dayandı, dostlara mehman oldu. Lakin onun qarşısında duran o uzaq yol bəlalar dənizinə döndü, onun ruhu can atsa da, bədəni zəiflədi. Sonda o, xəstələndi və köməksiz bir hala düşdü; həm də bütün bunlar evdən uzaqda oldu.

Xəstə-xəstə, o, səfərdən imtina etmədi, qətiyyətdən düşmədi; onda heyrətamiz bir iradə gücü vardı, irəli getməkdə qətiyyətli idi; lakin xəstəlik hər gün daha da pisləşdi, nəhayət, o, Allahın rəhmətinə uçub getdi və arzusuna yetmədən canını təslim etdi.

Hərçənd zahiri gözlə o, heç vaxt görüş qədəhini içmədi, heç vaxt Həzrət Bəhaullahın camalını görmədi, lakin o, ruhani ünsiyyətin ruhunun özünə yetişdi; o, Hüzura yetişənlərdən biri sayıldı və ona da Hüzura yetişənlərin mükafatı təyin olundu. O, pak və ləkəsiz bir ruh, vəfalı, sadiq və dürüst idi. O, heç vaxt möminlikdən başqa bir nəfəs çəkməmişdi, yeganə arzusu Mövlasına sitayiş idi. O, eşq yolunda getdi; hamı onu möhkəm sədaqəti və pak niyətliliyi ilə tanıyırdı. Allah onun üçün vüsal qədəhini gözəl diyarda doldursun və onu əbədi Mələkuta daxil etsin, o əsrarəngiz Aləmin nurlarına baxmaqla onun gözlərinə təsəlli versin.

## Hacı Molla MehdiYəzdi (↑)

ÖZ VƏTƏNİNİ TƏRK edənlərdən biri də Molla Mehdi Yəzdi idi. Baxmayaraq ki, bütün zahiri əlamətlərə görə bu gözəl insan savadlı zümrədən deyildi, lakin islam hədislərində o, usta və şifahi ötürülmüş kəlamların bəlağətli təfsirçisi idi. Öz ibadətində mətanətini saxlayaraq, müqəddəs ayinlərə riayət etməsi, gecələr zikri və duaları ilə tanınmaqla, onun ürəyi nurlanmışdı, onun könlü və qəlbi ruhani idi. O, vaxtının çoxunu zikrdə keçirər, namaz qılar, səhvlərini etiraf edər və Rəbbə yalvarardı. O, sirlərə nüfuz edən şəxslərdən biri idi, möminlərin dost-sirdaşı idi. Əmrin bir mübəlliği kimi heç vaxt söz axtarmaz, təbliğ etdikcə, bütün məhdudiyyətləri unudaraq hədis və kəlamları bir-birinin ardınca yağdırardı.

Onun haqqında xəbər şəhərdə yayılanda, hər yerdə şahzadəsindən tutmuş yoxsuluna qədər hamı onu bu yeni adda günahlandırırdı, o, azad bir şəkildə öz mənsubiyyətini bəyan edir və buna görə də camaat qarşısında rüsvay edilirdi. Sonra Yəzdin iblis üləmaları ayağa qalxdılar və onun ölümünə fitva verdilər. Müctəhid Molla Bağır Ərdəkan o, qara düşüncəli üləmaların fitvasını təsdiq etməkdən imtina etdiyi üçün, Molla Mehdi həyatda qaldı, lakin doğma evini tərk etməyə məcbur oldu. Biri gələcəkdə böyük şəhid olacaq iki oğlu–cənab Vərqə və cənab Hüseynlə o, Məhbubunun ölkəsinə yola düşdü. O, yol üstündə hər bir şəhərdə və kənddə aydın dəlil və sübutlar gətirərək, hədislərin təfsirindən və aşkar əlamətlərdən[49] iqtibaslar edərək Əmri təbliğ etdi. O, bir an belə dayanmadı; o, hər yerdə Allaha məhəbbətin ətrini səpdi, müqəddəsliyin rayihələrini yaydı. Dostları isə ruhlandırdı. Onları da öz növbəsində başqalarını təbliğ etməyə və bilikdə üstün olmağa sövq etdi.

O, ürəyi Allahın gözəlliyinə bağlanmış uca mərtəbəli bir ruh idi. Yaradılandan və bu dünyaya gələndən bəri o vahid bir məqsədlə bütün səylərini o biri dünya üçün doğulacağı günə nemət və mərhəmət əldə etməyə həsr etdi[50]. Onun ürəyi nurlanmış, könlü ruhani, qəlbi ilhamlı, təyinatı isə Cənnət idi. O, yolda həbs edilmişdi; çölləri keçdikcə, dağlara qalxıb düşdükcə əzab-əziyyətlər çəkdi, saysız-hesabsız məşəqqətlər gördü. Amma onun alnından iman işığı saçılırdı, sinəsində həsrət atəşi yanırdı, beləcə nəşə ilə, sevinclə o, sərhədləri aşdı və nəhayət Beyruta gəldi. O, şəhərdə xəstə,

---

[49] Quran: 3-91

[50] Quran: 29:19; 53:48; 56:62

aramsız, səbrini itirmiş bir halda bir neçə gün qaldı. Onun istəyi böyüdü, elə nigarançılığa düşdü ki, zəif və xəstə halında daha gözləməyə taqəti qalmadı.

O, payi-piyada Həzrət Bəhaullahın evinə tərəf yol aldı. Onun səfər üçün yaxşı ayaqqabısı olmadığı üçün ayaqları əzildi və göyərdi, parçalandı; xəstəliyi pisləşdi; çətinliklə yeriyirdi, amma davam edirdi; bir təhər o, Məzrə kəndinə çatdı və Malikanəyə yaxın bir yerdə vəfat etdi. Artıq hicrana dözə bilməyəndə onun ürəyi Məhbubu tapdı. Qoy aşiqlər onun hekayəsindən ibrət alsınlar; qoy bilsinlər ki, o, Aləmin İşığının həsrətində həyatını necə xəraca qoydu. Allah əbədi bağlarda ona aşıb-daşan qədəhlərdən içirsin. Ali Mələkutda Allah onun üzünə işıq şüaları salsın. Rəbbin bəhası onun üzərinə olsun. Onun müqəddəs məzarı Əkkanın yaxınlığında Məzrədədir.

## Həzrət Kəlim (Mirzə Musa) (↑)

CƏNAB MİRZƏ MUSA Həzrət Bəhaullahın doğma qardaşı idi və erkən uşaqlığından İsmi-Əzəmin pənahında böyümüşdü. O, Allah məhəbbətini anasının südü ilə içmişdi; hələ südəmər körpə ikən, o, Camal`i-Mübarəkə qeyri-adi bağlılıq göstərirdi. O, daim ilahi fəzl, lütf və inayət hədəfi idi. Onların möhtərəm ataları vəfat edəndən sonra, Mirzə Musa Həzrət Bəhaullahın qayğı pənahında kamala çatdı. Gəncin xidmətkarlığı və sədaqəti günbəgün böyüdü. O, hər şeydə hökmlərə uyğun yaşayırdı, bu dünya haqqında bütün fikirlərdən ayrılmışdı.



Parlaq bir çıraq kimi, evdə o, parlayırdı. O, nə rütbə, nə də vəzifə istəyirdi, heç bir dünyəvi məqsədi yoxdu. Onun tək bir uca arzsu Həzrət Bəhaullaha xidmət etmək idi və buna görə Qardaşının hüzurundan heç vaxt ayrılmadı. Başqaları hansı işgəncələrə məruz qalsalar da, onun sədaqəti qalanların qəddarlığını tarazlaşdırıdı, çünki o pak və əsl məhəbbət şərabından içmişdi.

Sonra Şirazdan qalxan səs eşidildi və Həzrət Bəhaullahın tək bir sözündən onun ürəyi nurla doldu və iman gülşəninin üzərindən əsən tək bir yeldən o ətri duydu. O, dərhal dostlara xidmət etməyə başladı. O, mənə qeyri-adi dərəcədə bağlanmışdı, daim mənim rifahımdan (sağlığımdan) narahat idi. Tehranda o, gecə-gündüz Əmri təbliğ etməklə məşğul olurdu, tədricən hamı tərəfindən tanınmağa başladı; adəti üzrə o, vaxtını mübarək şəxslərin yanında keçirirdi.

Sonra Həzrət Bəhaullah Tehrandan İraqa getdi və bu zaman Onun yaında iki qardaşı–Ağayi Kəlim[51] və Mirzə Məhəmməd qulu vardı. Onlar üzlərini İrandan və İranlılardan döndərdilər, gözlərini rahatlıq və dincliyə qapadılar; Məhbubun yolunda qismətlərinə çıxan hər bir fəlakəti bütün qəlbləri ilə çəkmək seçimini etdilər.

Beləliklə onlar İraqa gəldilər. Həzrət Bəhaullahın göz önündə olmadığı zaman, yəni Kürdüstana getdiyi zaman, Ağay`i-Kəlim uçurumun qırağında yaşayırdı; onun həyatı daim təhlükədə idi, keçən hər gün əvvəlkindən daha pis olurdu; amma o, yenə də bunların hamısına dözdü, qorxmaq nə olduğunu bilmədi. Nəhayət, Camal`i-Mübarək Kürdüstandan qayıdanda, Ağay`i-Kəlim Müqəddəs Astanada öz yerini tutdu, əlindən gələn hər cür xidməti göstərdi. Buna görə o, hər tərəfdə tanındı. Həzrət Bəhaullah İstanbuldan Ədirnəyə gedən zaman Ağay`i-Kəlim Onunla idi və yolda da Ona xidmət etməkdə davam edirdi, necə ki, İstanbuldan Ədirnəyə aparan yolçuluqda da eyni işi görmüşdü.

Məhz bu son şəhərə səfər zamanı o, Mirzə Yəhyadan asilik iyini duydu. O gecə-gündüz çalışdı ki, o özünü düzəltsin, lakin bunların heç bir faydası olmadı. Əksinə, bu çox mat qalmalı bir iş idi ki, öldürücü bir zəhər kimi, Seyid Məhəmmədin şirnikləndirici və şeytani öyrətmələri Mirzə Yəhyaya təsir etdi və beləcə, Ağay`i-Kəlim axırda ümidini itirdi. Hətta onda da, o, cəhd etməkdən dayanmadı və düşündü ki, bəlkə, necəsə həyəcanını sakitləşdirə və Mirzə Yəhyanı uçurumdan qurtara bilər. Onun ürəyi ümidsizlikdən üzülür və kədələnirdi. O, bildiyi hər şeyi sınaqdan keçirdi. Nəhayət o, Sənayinin bu sözlərinin doğruluğunu qəbul etməli oldu:

Əgər mənim biliyimi nadana demək istəsən
Ya hikməti olmayan bir kəsə
Sirlərimi açmaq istəsən-
Onda get kara de və qulağına oxu
Ya da korun qarışısında durub
Gözlərinə ayna tut.

Bütün ümidlər puça çıxanda, o, onunla münasibətləri kəsdi və dedi: "Ey qardaşım, əgər bu iş barədə başqaları şəkk-şübhədədirlərsə, axı bizim ikimiz də həqiqəti bilirik. Sən Həzrət Bəhaullahın inayətini unutmusanmı, O, bizə necə təlim-tərbiyə verib?

[51] Mirzə Musa

Sənin dərslərinin və sənin hüsn-xəttinin necə qayğısına qalırdı? O, sənin düzgün yazmağına, inşa yazmağına necə fikir verirdi, səni necə təşviq edirdi ki, müxtəlif xəttatlıq tərzlətini məşq edəsən? O, hətta sənin nüsxəni öz mübarək barmaqları ilə istiqamətləndirirdi; Onun sənin üzərinə necə lütflər yağdırdığını, səni Öz qucağında necə böyütdüyünü kim bilmir. Onun bütün bu nəvazişləri müqabilində bu sənin Ona təşəkküründürmü ki, sən Seyid Məhəmmədlə plan qurusan və Həzrət Bəhaullahın pənahından qaçırsan? Sənin sədaqətin budurmu? Onun bütün o məhəbbəti müqabilində sənin qaytaracağın doğru şey budurmu?" Bu sözlərin heç bir təsiri olmadı; əksinə, hər keçən günlə Mirzə Yəhya gizli niyyətini daha çox açdı. Və nəhayət, son üzülüşmə baş verdi.

Ağay`i-Kəlim Ədirnədən Həzrət Bəhaullahın məiyyəti ilə birlikdə Əkka qalasına getdi. Onun adı Sultanın fərmanında xüsusilə qeyd olunmuşdu və o, ömürlük sürgünə məhkum olunmuşdu[52]. Ən Böyük zindanda o, bütün vaxtını Həzrət Bəhaullahın qulluğunda keçirdi və davamlı olaraq Qardaşının hüzurunda olmaq, həmçinin, inananlara ülfətdə olmaq şərəfinə malik idi; nəhayət o, bu torpaq dünyasını tərk etdi və göydəki müqəddəs aləmə tələsdi, müti və tövbə halında, Rəbbinə yavararaq vəfat etdi.

İş belə gətirmişdi ki, Bağdadda olan dövrdə, Musa Xan Qəzvinin oğlu məşhur Elxani Seyid Cavad Tabatabainin vasitəsilə Həzrət Bəhaulahın hüzurunda qəbul olunmuşdu. O zaman Seyid Cavad Elxaninin əvəzindən rica edib demişdi: "Hərçənd bu Elxani, Əliqulu xan, günahkardır və bütün həyatı boyu ehtiraslarının əsiri olmuş bir məxluqdur, o, indi tövbə edib. O, indi Sizin qarşınızda durub və keçmiş əməllərinə görə peşmandır, bu gündən Sizin razılğınızın əksinə bir nəfəs belə çəkməyəcək. Yalvarıram Sizə, onun tövbəsini qəbul edin; Öz fəzl və lütfünüzü əsirgəməyin". Həzrət Bəhaullah cavab verdi: O, səni şəfaət vasitəsi seçdiyi üçün Mən onun günahlarını örtəcəyəm və onun qəlbinə rahatlıq və sakitlik vermək üçün hərəkət edcəyəm".

Elxani hədsiz varlı bir adam idi, lakin o, bütün sərvətini cismani istəklər üçün bədxərclik edib bitirmişdi. O, indi ehtiyac içində idi, o dərəcədə ki, hətta evindən belə bir addım kənara çıxmağa qorxurdu, çünki borclu olduğu adamlar dərhal onun üstünə

[52] Allah yanımızdna keçir, səh. 186

düşmək üçün gözləyirdilər. Həzrət Bəhaullah onu istiqamətləndirdi ki, Şamın hakimi Umar (Ömər) Paşanın yanına getsin və İstanbulda təqdim etmək üçün ondan tövsiyyə məktubu alsın. Elxani itaət edərək belə də etdi və Bağdad hakimindən hər cür dəstək aldı. Tam məyusluq və ümidsizlikdən sonra, onun ümidləri yenidən dirçəldi və İstanbula getdi. Diyarbəkirə[53] çatanda, o, iki erməni tacirin adından məktub yazdı. "Bu iki nəfər Bağdadı tərk etmək ərəfəsindədirlər", məktubda deyilirdi. "Onlar mənə hər cür iltifat göstərdilər, həmçinin məndən təqdimat istədilər. Mənim Sənin kərəmindən başqa nə pənahım, nə də sığınacağım vardı; Beləliklə, mən Səndən mənə lütf buyurmağını rica etmişəm". Məktubun üzərindəki ünvan yerində yazılmışdı: "Həzrət Bəhaullah, Babilərin Rəhbəri". Tacirlər bu məktubu körpünün başında Həzrət Bəhaullaha təqdim etdilər, O, bu barədə soruşanda belə cavab verdilər: "Diyarbəkrdə İdelxani bu Əmr barədə təfsilatlar verdi". Sonra onlar Onu evinə müşayiət etdilər.

Camal`i-Mübarək ailə evilərinə daxil olanda, Ağayi Kəlim Onu qarşılamaq üçün orada idi. Həzrət Bəhaullah, "Kəlim, Kəlim" deyə çağırdı. "Allahın Əmrinin şanı Diyarbəkirə qədər çatıb!" O gülürdü, sevinirdi.

Mirza Musa, doğrudan da, Camal`i-Mübarəkin doğma qardaşı idi; məhz buna görə o, bütün şərtlər altında sona qədər möhkəm qaldı. Ona salam və mədh, həyat ruhu və bəha olsun. Onun üzərinə rəhmət və fəzl olsun.

---

[53] Bağdaddan təxminən dörd yüz mil şimali-qərbdə

## Hacı Məhəmməd Xan (↑)

ÖZ EVİNİ TƏRK edib Həzrət Bəhaullahın yaxınlığında yerləşən şəxslərdən biri də Hacı Məhəmməd xan idi. Əslən Sistandan olan bu görkəmli şəxs Baluç idi. Hələ gənc ikən o, od tutdu və mistik oldu, arif oldu. Gəzərgi dərviş kimi, özünü tamamilə unutmuş halda, evini tərk etdi və dərvişlərin qaydasına riayət edərək kamil mürşidini axtamağa getdi. Çünki o, Qələndər dərvişlərin dediyi kimi, öz Pirini, ruhani müdrik rəhbərini tapmağa can atırdı.

O, hər yanda axtardı. Rastlaşdığı hər kəslə danışdı. Lakin onun axtardığı şey Allaha məhəbbətin şirin rayihələri idi, lakin o, bunu heç kəsdə, nə qnostik mistiklərdə, nə filisoflarda, nə də Şeyxi təriqətinin üzvlərində duya bildi. Onun dərvişlərdə gördüyü ancaq onların topa saqqalları, əl açan dilənçilik dinləri idi. Onlar ancaq sözdə dərviş–Allahdan başqa hər şeydə yoxsul–idilər; onları maraqlandıran ancaq, ona belə gəlirdi, qarşılarına nə çıxırdısa, o idi. O, nə də işraqilər arasında bir işıq tapdı; onlardan boş dəlillərdən başqa heç nə eşitmədi. O, gördü ki, onların təmtəraqlı bəlağəti bəlağət deyil, onların incə və dərin kimi görünən danışıqları əslində söz oyunundan başqa bir şey deyil. Həqiqət orada deyildi; batini məna yox idi. Süni həqiqi hikmət (fəlsəfə) odur ki, fəzilət yetişdirsin, bu alim insanların isə arasında belə bir bəhrə tapmaq mümkün deyildi; bilik və kamalın zirvəsində onlar rəzalətin əsiri olmuş, qayğısız həyat sürür, töhmətəlayiq xasiyyətlərə təslim olmuşdular. Onun gözündə, insanlığın yüksək, ali keyfiyyətini təşkil edən şeylərdən onlar məhrum idilər. Şeyxilərdə isə onların əsl mahiyyəti getmişdi, ancaq çöküntüsü qalmışdı; onların cövhəri yox olmuşdu, ancaq bir boşluq qalmışdı; danışıqları ancaq yük gətirirdi, indi artıq izafi sözdən başqa bir şey deyildi.

Beləliklə, Allahın Mələkutundan ucalan çağırışı eşidən kimi o, nida etdi: "Bəli!" (Ləbbeyk). Və səhra küləyi kimi səfərə çıxdı. O, uzaq məsafələr qət etdi, Ən Böyük Zindana gəldi və Həzrət Bəhaullahın hüzuruna yetişdi. Onun nəzəri o parlaq Camala düşəndə o andaca əsir oldu. O, İrana qayıtdı ki, Təriqət əhli ilə, o zamanlar Həqiqəti axtaran dostlarla görüşsün və sədaqət və borcunun tələb etdiyi kimi, onlarla davransın.

Həm gedəndə, həm də qayıdanda, Hacı dostlarının hər birinə baş çəkdi, onlarla görüşdü, hər kəsə Səmadan gələn nəğməni eşitdirdi. O, öz vətəninə gəldi, ailəsinin işlərini qaydasına qoydu, hər şeylə təmin etdi, hər kəsin əmin-amanlığı, şadlığı və rahatlığı qayğısına qaldı. Bundan sonra o, onlarla vidalaşdı. Qohumlarına, həyat yoldaşına, uşaqlarına və yaxınlarına dedi: "Daha məni axtarmayın; qayıtmağımı gözləməyin".

O, çəliyini götürdü və çıxıb getdi; o, dağları aşdı, düzləri keçdi, mistikləri, öz dostlarını axtardı. Birinci səfərində o, Tehranda mərhum Mirzə Yusif Xanın (Mustavfiyu`l-Mamalik) yanına getdi. O, istədiyini deyəndə, Yusif xan bir arzusunu ifadə etdi və dedi ki, əgər bu arzu həyata keçsə, onda iman gətirər; arzusu ona bir oğlan əta edilməsi idi. Belə bir nemət ona qismət olarsa, Yusif Xan iman gətirəcəkdi. Hacı bunu Həzrət Bəhaullaha bildirdi, və cavabında möhkəm bir vəd aldı. İkinci səfərində Hacı Yusif xanla görüşəndə, uşağı onun qolları arasında gördü. "Mirzə", Hacı qışqırdı, "Allah şükür! Sənin sınağın Həqiqəti üzə çıxardı. Sən öz sevinc quşunu tutdun". "Bəli" Yusif xan dedi, dəlil aydındır.Mən inandım. Bu il sən Həzrət Bəhaullahın hüzuruna gedəndə, söylə ki, Mən bu uşaq üçün Onun fəzlini və lütfünü diləyirəm ki, o, Allahın hifz pənahında qalsın".

Hacı Məhəmməd gələcək şəhid, mübarək Sultanüş-Şühədanın yanına getdi xahiş etsin (şəfaət) ki, ona, yəni Hacıya izn verilsin ki, Həzrət Bəhaullahın qapısında gözətçi dursun. Şəhidlərin Sultanı bu xahişi məktubla göndərdi, bundan sonra Hacı Xan lazımi vaxtda Ən Böyük Zindana gəldi və sevgili Dostun yaxınlığında yerləşdi. Bu şərəfdən o, uzun bir müddət həzz aldı və sonra, həmçinin Məzrəi bağında da o, tez-tez Həzrət Bəhaullahın hüzurunda olardı. Məhbunun süudundan sonra Hacı xan Əhd və Vəsiyyətə sadiq qaldı və riyalarlardan uzaq durdu. Nəhayət, bu bəndə Avropa və Amerikada səfərdə olanda, müsafirlərin Həzrətül-Qüdsündə sakin oldu; Həzrət Babın Məqamının yanında o, uca aləmə uçub getdi. Allah onun Əbha Cənnətindən əsən yellərlə və ən Uca Səmadan müqəddəslik rayihələrlə onun ruhunu təravətləndirsin. Ona salam və mədh olsun. Onun nurlu məzarı Hayfadadır.

## Ağa Məhəmməd İbrahim Əmir (↑)

MƏHƏMMƏD İBRAHİM ƏMİR Neyrizdən idi. O, mübarək bir şəxs idi. O, imanın qırmızı şərabı ilə dolu bir piyalə kimi idi; o, birinci dəfə Sevgili Yarın əsiri olanda, gəncliyinin çiçəkləyən vaxtında idi. Sonra o, zalımların qurbanı oldu və Neyrizdəki fəlakətdən və əzab-əziyyətlərdən sonra zalımlar ona da əl qoydular. Üç fərraş onun qollarını burdu və əllərini arxada bağladı; lakin Əmir ancaq var gücü ilə ipləri qırdı, fərraşın belindən xəncəri çıxardı, özünü qurtardı və İraqa qaçdı. Orada o, müqədəs ayələri yazmaqla məşğul oldu və Müqəddəs Astanada xidmət etmək şərəfinə nail oldu. Sabit və möhkəm halda gecə və gündüz o, vəzifə başında qaldı. Bağdaddan İstanbula, oradan Ədirnəyə və sonra Ən Böyük Zindana səfər zamanı o, xidmət üçün daim əl altında hazır idi. O, Allahın kənizi, özü də Müqədəs Astanada xidmət edən Həbibə ilə evləndi, qızı Bədiyə mərhum Hüseyn Ağa Qəhvəçinin həyat yoldaşı oldu.

Beləcə, Əmir bütün həyatı boyu xidmətdə möhkəm durdu; lakin Həzrət Bəhaullahın süudundan sonra onun səhhəti getdikcə pisləşdi, nəhayət bu torpaq dünyasını arxada buraxıb ucadakı pak aləmə tələsdi. Allah onun rahatlıq tapdığı yeri ən uca Aləmin şüaları ilə nurlandırsın. Ona salam və mədh olsun Onun nurlu məzarı Əkkadadır.

## Mirzə Mehdi Kaşani (↑)

BU ŞƏRƏFLİ ŞƏXS Mirzə Mehdi Kaşandan idi. Erkən gəncliyində, atasının himayəsi altında, o, elm və sənətləri öyrənmiş, həm nəzm, həm də nəsrdə, həmçinin şikəstə[54] kimi tanınan xəttalıq tərzində xəttalıq nümunələri yaratmaqda məharət qazanmışdı. O, yoldaşları arasında seçilmiş idi. Açıqca onlardan üstün idi. Hələ uşaq ikən, o, Rəbbinin gəlişi haqqında öyrəndi, eşq atəşinə tutldu və "Yusifi almaq üçün malik olduğu hər şeyi verənlərdən" biri oldu. O, canfəşanlıqla axtaranların başçısı, aşiqlərin ağası idi; o, əmri bəlağətlə təbliğ etməyə və Məzhərin gerçəkliyini sübut etməyə başladı.

O, yeni inananlar gətirdi; Allahı axtardığı üçün, Kaşanda gülüş hədəfi oldu, dost və yadlar tərəfindən alçaldıldı, imansız yoldaşlarınını acı tənələrinə məruz qaldı. Onlardan biri dedi: "o, ağlını itirib". Bir başqası isə dedi: "O, camaat arasında rüsvayi-cahan oldu. Tale onda üz döndərib. Onun işi bitib". Xuliqanlar onu ələ salırdılar, onu pisləməkdə heç nədən çəkinmirdilər. Həyat onun üçün yaşanmaz olanda və açıq toqquşma başlayanda o, vətənini tərk etdi və İraqa, yeni Nurun mərkəzinə getdi və orada bəşərin Məhbubunun hüzuruna nail oldu.

O, bir müddət orada, dostların yanında qaldı, Həzrət Bəhaullahı vəsf edən şeirlər yazdı. Sonra evə qayıtmaq izni verildi və o, geri qayıtdı, bir müddət Kaşanda yaşadı. Lakin həsrətli bir məhəbbət onu yenə üzməyə başladı və hicrana dözə bilmədi. Ona görə də Bağdada qayıtdı və özü ilə möhtərəm bacısını, üçüncü əyalı gətirdi[55].

Burada o, Həzrət Bəhaullahın kərəmli hifzi qaltında qaldı, ta o vaxtadək ki, Məiyyət İraqdan İstanbula yola düşdü və bu zaman Mirzə Mehdiyə tapşırıldı ki, geridə qalsın və Müqəddəs Evi qorusun. Aramsız bir halda o, həsrətdən üzülərək qalmaqda davam etdi. Dostlar Bağdaddan Mosula sürgün ediləndə, o, da məhbusların arasında

---

[54] Şikəstə bir kursiv və ya qısa yazılış formasıdır, fərz edilir ki, on yeddinci əsrin sonlarında Heratda yaradılmışdır.

[55] Gövhər xanımla Həzrət Bəhauhllahın nigahı Bağdadda baş tutudu. Həzrət Bəhaullah İraqı tərk edəndə o, qardaşı ilə o şəhərdə qaldı və sonra Onun göstərişi ilə Əkkaya getdi. Bağdaddan Mosula gedərkən, o, başqa inananlarla birlikdə dustaq edildi və onların arasında Zeynül-Müqərrəbin də vardı. Həzrət Bəhaulah bu dustaqlıq haqqında Şaha ünvanlanmış Lövhdə bəhs edir.

başqaları ilə birlikdə, qurbanlardan biri idi. Ağır məşəqqətlərlə, o, Mosula gəldi, amma burada onu yeni fəlakətlər gözləyirdi; demək olar ki, o, hər vaxt xəstə idi, o, səfil bir vəziyyətə düşmüş, ehtiyac içində idi. Amma bu vəziyyətə o, kifayət qədər bir müddətdə dözdü, səbrli qaldı, ləyaqətini saxladı, davamlı olaraq şükr etdi. Nəhayət o, Həzrət Bəhaullahdan ayrılığa daha dözə bilmədi. İzn istədi və onun oradan çıxıb gəlməsinə və Ən Böyük zindanda yerləşməsinə icazə verildi.

Yol uzun və çətin oduğu üçün, səfər zamanı o, çox əzab-əziyyət çəkdi, nəhayət, Əkka zindanına çatanda o, demək olar, köməksiz idi, sümüyünə qədər ərimişdi. Bu o vaxt idi ki, Camal`i-Mübarək qalada, kazarmaların ortasında məhbus edilmişdi. Dəhşətli məşəqqətlərə baxmayaraq, Mirzə Mehdi bir neçə gün böyük nəşə ilə orada qaldı. Onun üçün bəlalar lütf, narahatlıqlar Təqdiri-İlahi, cəza bol fəzl idi; çünki bütün bunları o, Allahın yolunda çəkirdi və Onun razılığını axtarırdı. Onun xəstəliyi pisləşdi; günbəgün o, zəiflədi; sonda o, fəzl kölgəsində, Rəbbin tükənməz rəhmətinə tərəf yol alıb uçdu.

Bu alicənab şəxsə insanlar ehtiram göstərirdilər, çünki o, Allahın məhəbbəti xatirinə adından və sanından keçdi. O, çoxsaylı fəlakətlər yaşadı, amma heç vaxt şikayət etmədi. O, Allahın hökmlərinə boyun əyirdi və təmənnasızlıq yolu ilə gedirdi. Həzrət Bəhaullahın lütf nəzəri onun üzərində idi; o, İlahi Astanaya yaxın idi. Beləliklə, ömrünün əvvəlindən sonuna qədər o eyni bir daxili halətdə qaldı: təslimiyyət və razılıq dənizində qərq oldu. "Ya Rəbb, məni götür. Məni götür!" deyə o, nalə edərdi və nəhayət, o, heç kəsin görmədiyi bir aləmə uçub getdi.

Allah onun ən uca Behiştdə müqəddəslik rayihələrini duymağa qabil etsin və kafur çeşməsində doldurulmuş qədəhdən ona şəfa şərabı[56] içirsin. Ona salam və məhd olsun. Onun xoş rayihəli məzarı Əkkadadır.

[56] Quran 76-9

## Mişkin Qələm (↑)

SÜRGÜN OLUNMUŞLAR, QONŞULAR və məhbular arasında ikinci bir Mir İmad[57] da, xəttat Mişkin Qələm[58] də vardı. O, qapqara bir qələmlə işləyirdi və alnı imanla parlayırdı. Mistiklərin arasında ən məşhuru idi, iti və nüfuzedici zəkası vardı. Bu ruhani səyyarın şöhrəti hər yerə yayılmışdı. O, İranın ən başda gələn xəttatı idi və bütün yüksək mənsəb sahibləri arasında tanınırdı; O, Tehranın saray vəzirləri arasında xüsusi məqamından həzz alırdı və onlarla çox möhkəm münasibətləri vardı[59]. Bütün Kiçik Asiyada o, tanınmışdı; onun qələmi bütün xəttatlar üçün möcüzə idi, çünki o, hər cür xəttatlıq məktəbindən hali idi; bunların yanında, o, həm də insani məziyyətlərinə görə parlaq bir ulduz idi.



Bu yüksək bilgili insan ilk dəfə Allahın Əmri barədə İsfahanda eşitdi, nəticədə o, Həzrət Bəhaullahı axtarmaq üçün yola düşdü. O, uzun yollar getdi, uzun-uzun məsafələr ölçdü, dağlara dırmaşdı, səhraları və dənizi keçdi, nəhayət, gəlib

[57] 1557-1628, Şah Abbas Səfəvinin sarayında yaşayıb işləmiş məhşur xəttat
[58] Mişk müşk sözüdür, Mişkin Qələm ya ətirli qələmli, ya da qap-qara qələm anlamındadır.
[59] Quran 61-4

Ədirnəyə çıxdı. Burada o, iman və minliyin yüksək zirvələrinə çıxdı; burada yəqinlik şərabını içdi. O, Allahın çağırışlarına cavab verdi, Həzrət Bəhaullahın hüzuruna nail oldu, dəvət və qəbulun ən yüksək nöqtəsinə yetişdi. İndi o, Allaha məhəbbətdən məst olmuş halda səndirləyirdi və bu şiddətli istək və həsrətdən onun ağlı sanki yolunu azmışdı. O, ayağa qalxar və yenə də yıxılardı; o, ağlı qaçmış kimi idi. Bir müddət o, Həzrət Bəhaullahın fəzl kölgəsində qaldı və hər gün onun üzərinə yeni nemətlər yağdı. Eyni zamanda da o, özünün parlaq xəttatlıq nümunələrini yazırdı; o, İsmi`-Əzəmi, Ya Bəha`ul`Əbhanı herətamiz bir məharətlə müxtəlif formalarda yazar və hər yerə göndərərdi[60].

Ona əmr edildi ki, İstanbula getsin və cənab Səyyahla yola düşsün. Böyüş Şəhərə çatanda, rəhbər İranlılar və Türkər onu əvvəlcə hər cür ehtiram və şərəflə qarşıladılar, onlar onun qapqara qələminə, xəttatlığına məftun omuşdular. Lakin o, cürətlə və bəlağətlə Əmri təbliğ etməyə başladı. İran səfiri pusquda durmuşdu; özünü Sultanın vəzirlərinin yanına saldı və Mişkin qələmdən böhtan yağdırdı. "Bu adam araqarışdırandır, Bəhaullah bura göndərib ki, bu Böyük Şəhərdə fitnə-fəsad salsın.Onun artıq xeyli sayda tərəfdarı var və daha çox adamı da öz tərəfinə çəkmək istəyir. Bu Bəhailər İranı alt-üst ediblər. İndi də bunu Türkiyənin paytaxtında başlayıblar. İran hökuməti onların 20000 nəfərini qılıncdan keçirib, ümid edib ki,bu yolla iğtişaş alovunu söndürsün. Siz təhlükəyə qarşı ayıq olmalısınız; tezliklə bu saxta şey burda da alışacaq. O, sizin həyatınızın bəhrəsini yandırıb yaxacaq. O, bütün dünyanı oda qalayacaq. Onda heç nə edə bilməyəcəksiniz. Çünki çox gec olacaq".

Əsli-həqiqətdə isə, bu mülayim və müti insan Kiçik Asiyanın o taxt-tac şəhərində ancaq öz xəttatlığı və Allaha ibadət etməklə məşğul idi. O, iğtişaş deyil, ülfət və sülh yaratmaq üçün çalışırdı. O, müxtəlif inancların ardıcıllarını bir-birindən daha da ayırmaq üçün deyil, onların arasında barış yaratmağa çalışırdı. O, qəriblərə xidmət edir, yerli insanlara təlim verməkdə kömək edirdi. O, bədbəxtə sığınacaq, yoxsullar

---

[60] Onun bəzi rəsm nümunələrində yazı elə yazılırdı ki, Bəzən quş formasında olurdu. E. Braun İranda olanda, ona demişdilər ki, "bunu İranın bütün təbəqələrindən olan insanlar çox istəyərdilər, əgər xəttatın imzası olan aşağıdakı şeir olmasaydı: Dər diyariha, şahi sahib ələm, Bəndeyi babi bəha, Mişkin qələm. İranlılar arasında bir il. Səh 227. Şeir belə tərcümə oluna bilər: Xəttatlığın şahı, bayraqdarıyam, Amma Bəhanın qapısında bir bəndəyəm, mən heç kiməm, fəqət Mişkin Qələməm. Buna da fikir verin ki, bab (qapı) sözünün istifadəsi həm də Həzrət Babın adına işarə edir və eyni zamanda da Həzrət Bəhaullahın adını çəkir.

üçün "bolluq qapısı" idi. O, bütün gələnləri bəşərin birliyinə dəvət edirdi; o, nifaq və ədavətdən qaçırdı.

Lakin İran səfirinin çox böyük gücü vardı və uzun müddət ərzində nazirlərlə sıx əlaqə saxlayırdı. O, bir sıra adamları öyrətdi ki, hiylə ilə müxtəlif yığıncaqlara daxil olsunlar və inananların əleyhinə hər cür saxta ittihamlar irəli sürsünlər. Zalımlar tərəfindən təhrik edilən casuslar Mişkin Qələmi əhatə etdilər. Sonra isə səfirin onları öyrətdiyi kimi, onlar Baş Nazirə hesabatlar göndərdilər, göstərdilər ki, sözü gedən şəxs gecə-gündüz fitnə-fəsad salır, o, iğtişaş yaradandır, asi və cinayətkardır. Nəticədə onu həbs etdilər və Hələbə göndərdilər, orada o, bizim öz zərərçəkmiş yoldaşlarımıza qoşuldu. Onlar onu Kiprə, bizi isə Əkka zindanına göndərdilər. Cənab Mişkin Kipr adasında Famaqusta qalasında zindana salındı və 85-ci ildən 94-cü ilə qədər bu şəhərdə əsir qaldı.

Kipr türklərin əlindən çıxanda, Mişkin Qələm azad edildi və özünü Əkka şəhərində Məhbubun yanına çatdırdı, burada o, Həzrət Bəhaullahın fəzli ilə əhatə olunmuş halda yaşadı, çox gözəl xəttatlıq nümunələri yaratdı və ətrafa göndərdi. O, daim nəşəli ruhda olar, həyatını yanıb əridən bir şam kimi Allaha məhəbbətlə parlayardı, bütün inananlara bir təsəlli idi.

Həzrət Bəhaullah süud edəndən sonra Mişkin Qələm Əhddə möhkəm qərar tutmaqla sədaqətli qaldı. Pozucular qarşısında o, hərlənən bir qılınc kimi dayandı. O, onlara heç vaxt güzəştə getməzdi; O, Allahdan başqa heç kəsdən qorxmurdu; o, bir anlıq da olsa tərəddüd etmədi, nə də xidmətində yanlışlığa yol verdi.

Həzrət Bəhaullahın süudundan sonra o, Hindistana getdi, orada həqiqət aşiqləri ilə ülfət qurdu. Bir müddət orada qaldı, hər gün yeni səylər qoydu. Mən öyrənəndə ki, o, köməksiz qalıb, dərhal onun arxasınca adam göndərdim və o, bu ən Böyük Zindana qayıtdı, inananlar çox sevindilər və onun yenidən burada olmasından xoşbəxt oldular. O, həmişə mənim yaxın yoldaşım idi. Onun heyrətamiz enerjisi və çox güclü məhəbbəti vardı. O, fəzilət toplusu idi: imanlı, inamlı, aram, dünyadan göz yummuş, bənzərsiz yoldaş, iti zəkalı, xasiyyəti isə bütövlükdə çiçəklənmiş bağçaya bənzəyirdi. Allaha məhəbbət xatirinə o, bütün yaxşı şeyləri arxada buraxmışdı; o, gözlərini uğuruna bağlamışdı, nə rahatlıq, nə də dinclik istəyirdi, heç bir var-dövlət axtarmırdı, ancaq bu dünyanın çirkabından azad olmaq istəyirdi. Onu bu dünyaya heç nə

bağlamırdı, günlərini və gecələrini ancaq yalvarış və Allahla ünsiyətdə keçirirdi. O, həmişə gülərüz, çoşqulu idi. O, ruh təcəssümü, məhəbbət mücəssəməsi idi. Nə səmimiyyət və sədaqətinə, nə də səbr və daxili təmkininə görə bərabəri vardı. Ruhun nəfəsilə yaşamaqla o, təmənnasızlığın özü idi.

Əgər o, Camal`i-Mübarəkə aşiq olmasaydı, əgər o ürəyini Cəlal Səltənətinə bağlamasaydı, hər cür dünyəvi ləzzətə sahib ola bilərdi. O, haraya gedirdisə, onun çoxlu xəttatlıq üslubu əsaslı bir sərvət (sərmayə) idi, onun böyük uğuru həm zənginlərin, həm də kasıbların diqqət və hörmətini gətirmişdi. Lakin o, insanın tək bir həqiqi Məhəbbətinə ümidsiz dərəcə aşiq idi, beləcə bütün başqa bağlılıqlardan azad idi, ruhun sonsuz səmasında süzə və pərvaz edə bilirdi.

Nəhayət, mən olmadığım zaman. O, bu qaranlıq və dar dünyanı tərk etdi, nurlar diyarına tələsdi. Orada, Allahın hüdudsuz mərhəmət sığınacağında, o, sonsuz mükafat tapdı. Ona salam və tariflər, Məəyi-Əlanın nəvazişli fəzli olsun.

## Ustad Əli-Əkbəri Nəccar (↑)

USTAD ƏLİ ƏKBƏR, mebelçi[61], adillər arasında, möminlik şahzadəsi idi. O, İranın ilk inananlarından biri və yoldaşlar arasında aparıcı şəxslərdən biri idi. Əmrin başlanğıcında etibarlı bir dost olaraq o, dilini Əmri bəyan etmək üçün açdı. O, özü sübutlara vaqif oldu, sonra Yazıların dərinliyinə baş vurdu. O, həmçinin istedadlı bir şair idi, Həzrət Bəhaullaha həsr edilmiş mədhiyyələr yazırdı.

Öz sənətində son dərəcə mahir olan Ustad çox yüksək zövqlü əşyalar düzəldir, dülgərlik nümunələrinə elə formalar verirdi ki, onun mürəkkəb detalları və dəqiqliyi ilə, o mozaikanı xatırladırdı. O riyaziyyatı da yaxşı bilir, çətin məsələləri həll və izah edirdi.

Bu möhtərəm şəxs Yəzdən İraqa getdi, orada Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu və bil fəzl payı aldı. Hər gün Həzrət Bəhaullahın hüzuruna daxil olan Ustad Əliyə O, iltifatlarını yağdırdı. O, Bağdaddan Mosula sürgün olunanlardan biri idi və orada şiddətli məşəqqətlərə məruz qaldı. O, uzun müddət, son dərəcə sıxıntılar içərisində Mosulda qaldı, lakin daim dua və yalvarışda, dilində şükrlər olmaqla o, Allahın iradəsinə sığındı.

Nəhayət, o, Mosuldan Müqəddəs Məqama gəldi və Həzrət Bəhaullahın Məqamının yanında o, dua və təfəkkür edirdi. Gecənin qaranlığında, rahatlıq və dinclik bilmədən, o, ağlayar və hönkürərdi; Allaha yalvaranda içində ürəyi yanardı; gözləri yaş tökər, səsini qaldıraraq və avazla dua oxuyardı. O, bu toz topasından, bu fani dünyadan tamamilə ayrılmışdı. O, bu dünyadan qaçırdı, ancaq bir şey istəyirdi–uçub getmək və ümid edirdi ki, vəd olunmuş mükafat gələcəkdi. Aləmin İşığının yox olmasına dözə bilmirdi, axtardığı ancaq Onunla vüsalın cənnəti idi, gözləri isə ancaq Əbha Səltənətinin cəlalının intizarını çəkirdi. Nəhayət, onun duası eşidildi və o, Allahın yuxarı dünyasına, Rəblər Rəbbinin şəfəqlərinin toplandığı yerə çıxıb getdi.

Onun üzərinə Allahın xeyri və tərifi olsun, Allah onu darüssəlama gətirsin, necə ki, Öz Kitabında buyurub: "Onları Rəbinin yanında əmin-amanlıq yurdu gözləyir[62]". "Və Ona xidmət edənlərə Allah mehribanlıqla doludur[63]".

---

[61] Ustad, bir sənətdə və ya peşədə mahir və bacarıqlı olan ustadır.
[62] Quran 6:127.

[63] Quran 3:28.

## Şeyx Əli Əkbəri Məzqani (↑)

ALLAHA MƏHƏBBƏTİN DİVANƏLƏRİNİN, azad ruhların bu rəhbəri, ancaq bir körpə idi ki, Məzqanda olanda fəzl döşündə qidalanırdı. O, Şeyxi Məzqani adlı məşhur bir alimin övladı idi. Onun şanlı atası Kaşana yaxın, Qəmsarrın nüfuzlu sakinlərindən biri idi, möminliyinə, paklğına və təqvasına görə bərabəri yox idi. Onun atası bütün tərifəlayiq keyfiyyətlərin mücəssəməsi idi; bundan əlavə, onun rəftarı xoş, xasiyyəti gözəl, özü isə əla bir yoldaş idi və bütün bunlarla o, çox məşhur idi. O, təmkinini atanda və özünü açıqca inanan elan edəndə, kafirlər, istər dost olsun, istərsə yad, hamısı ona arxa çevirdilər və onun ölümü üçün tədbir görməyə başladılar. Lakin o, Əmri yaymaqda, insanların ürəklərini oyatmaqda, hər zamankı kimi yeni inananları səxavətlə dəvət etməkdə davam etdi. Beləcə, onun möhkəm imanının səsi-sorağı Kəşkəşana çatdı. Sonra amansız zalımlar qalxdılar, onun mal-mülkünü talan etdilər və özünü isə öldürdülər.

Əli Əkbər, Allahın yolunda həyatını fəda etmiş bir şəxsin oğlu o yerdə çox yaşaya bilmədi. Orada qalsaydı, o da atası kimi qılıncdan keçiriləcəkdi. O, bir qədər İraqda qaldı və Həzrət Bəhaullahın hüzuruna daxil olmaq şərəfi qazandı. Sonra o, İrana qayıtdı, lakin yenidən Həzrət Bəhaullahı görmək istədi və həyat yoldaşı ilə yola çıxdı, səhralar və dağlar aşaraq, bəzən süvari, bəzən isə piyada uzun yollar ölçərək bir dənizdən başqasına adlayaraq nəhayət, Müqəddəs Torpağa çatdılar və İlahi Sidr Ağacının kölgəsində əmin-amanlıq tapdılar.

Məqsudun gözəlliyi bu dünyadan çıxıb gedəndə, Əli Əkbər Əhdə sadiq qaldı və Allahın fəzli altında firavan oldu. Xasiyyəti və ürəyindəki məhəbbətlə, o, şeirlər yazmağa can atır, mədhiyyələr və qəzəllər qoşurdu, lakin onda ölçü və vəzn yox idi:

Mən şeir planı tutdum, lakin Məhbub mənə dedi
“Ki, ancaq bunun planını tut ki, gözlərin Mənə baxsın”.

Coşğun bir istəklə onun ürəyi Rəhman Rəbbinin aləmlərinin həsrətini çəkirdi; yandırıcı bir atəşə tutularaq sonda o, bu dünyanı tərk etdi və yuxarı dünyada çadırını qurdu. Allah Özünün əfv Mələkutundan onun qəbri üzərinə nemət yağışları

yağdırsın[64], ona böyük qələbə bəxş etsin və ona Allahın yanından "basılıb yığılmış və dolub-daşan" rəhmətindən əta etsin.

[64] Quran 2:266, 267

## Mirzə Məhəmməd, Müsafirxananın Xidmətçisi (↑)

ALLAHIN BU GƏNCİ İsfahandan idi və erkən yaşlarından əla zəkası ilə şəhərin aparıcı üləmaları arasında tanınırdı. O, nəcib doğulmuşdu, ailəsi tanınmış və hörmətli bir ailə idi, özü isə bilikli bir alim idi. Onun həm hikmətdən, həm də tarixdən, həm təbiət elmlərindən, həm də sənətdən yaxşı biliyi vardı, lakin o. gerçəkliyin sirləri üçün susuz idi, irfan həsrətində idi. Onun şiddətli susuzluğu sənət və elmlərin suyu nə qədər şəffaf olsa da onunla yatızdırıla bilmirdi. O, axtarmaqda dayanmadan davam etdi, alim adamların məclislərində mübahisələr apardı və nəhayət, istəkli xəyalının mənasını, tapmacasını, açılmaz sirrini kəşf etdi və qarşısında açıq-aşkar gördü. O, qəfildən Allahın cəlal bağlarından təravətli güllərin ətrini duydu və ürəyi Həqiqət Günəşinin şüaları ilə nurlandı. Halbuki o, əvvəllər sudan çıxarılmış balıq idi, indi isə əbədi həyat çeşməsinin yanına gəlmişdi; əvvəllər o, axtaran bir pərvanə idi, indi o, şam alovu tapmışdı. Həqiqət axtarışında olan həqiqi bir axtaran kimi, o, ali Müjdələrlə birdən canlandı; onun qəlbinin gözü hidayətin yeni doğuşu ilə parladı. İlahi eşqin atəşi elə parlaq idi ki, o, öz həyatından, onun dincliyindən, nemətlərindən əl üzdü və Ən Böyük zindana yol aldı.



İsfahanda onun hər cür rahatlığı vardı, dünyadan o, həzz alırdı. İndi onun Həzrət Bəhaullaha can atması onu bütün başqa bağlardan azad etdi. O, uzun məsafələr qət etdi, şiddətli məşəqqətlər yaşadı, sarayı zindana dəyişdi, Əkka qalasında inananlara kömək etdi və Həzrət Bəhaullahın qulluğunda durdu. O kəs ki, başqaları ona xidmət edirdilər, indi o, başqalarına xidmət edirdi; o kəs ki ağa idi, indi özü xidmətçi idi, o kəs ki, rəhbər idi, indi özü əsir idi. Onun nə gecə, nə gündüz nə dincliyi, nə istirahəti vardı. Qəribə etibarlı bir pənah idi; köçkünlərə bənzərsiz sirdaş idi. O, öz gücünün xaricində bir xidmət edirdi, zira o, dostlarının məhəbbəti ilə dolmuşdu. Müsafirlər ona

bağlanmışdılar, köçkünlər isə minnətdar idilər və daim məşğul olduğundan həmişə də susardı.

Sonra bizə Böyük Dərd gəldi, Həzrət Bəhaullahın yoxluğu daha çəkilməz oldu. Mirzə Məhəmməd nə gecə, nə də gündüz sakit qala bildi. Yanan şam kimi əridi; şiddətli təlaşdan ciyəri və ürəyi yandı, bədəni daha tab gətirə bilmədi. O, gecə-gündüz ağladı və yalvardı, o, açılmamış (sirli) ölkəyə uçub getməyə can atdı. “Ya Rəbb, məni bu yoxluqdan azad et, azad et”, deyə o, ağlayardı, “mənə vüsal piyaləsindən içir, ey Rəblərin Rəbbi, Məni Öz mərhəmət sığınacağında sakin eylə!”

Nəhayət, o, bu toz dünyasını, yeri tərk etdi, uçub sonu olmayan dünyaya getdi. Qoy bu ona xeyir versin ki, Allahın fəzli (feyzi) ilə dolub-daşan piyalədən sağlam bir ləzzətlə qəlbə və ruha həyat verən o yeməkdən yesin. Allah onu o xoşbəxt səfərin mənzilinə yetirsin və onda əta olunan bəxşişlərdən ona pay versin[65].

[65] Quran 3:170; 4:12, 175; 5:16, 17; 11:100, 101; 28:79; 41:35

## Mirzə Məhəmməd Vəkil (↑)

BAĞDADDAN MOSULA SÜRGÜN olunmuş dustaqlardan biri də Mirzə Məhəmməd Vəkil idi. Bu mömin insan Bağdadda iman gətirənlərədn biri idi. Məhz burada o, Allaha təslimiyyət badəsindən içmiş və səmavi Ağacın kölgəsində rahatlıq axtarmışdı. O, yüksək anlayışlı və etibara layiq bir şəxs idi. O, həm də son dərəcə qabiliyyətli, mühüm işlərin güclü inzibatçısı idi və buna görə müdrik məsləhətlərinə görə məşhur idi. İman gətirdikdən sonra o, Vəkil adı ilə tanınmağa başladı. Bu belə baş verdi.

Bağdadda zərgər Hacı Mirzə Hadi adlı möhtərəm bir şəxs vardı. Onun hörmətli bir oğlu vardı, adı Ağa Mirzə Musa idi. O, Həzrət Bəhaullahdan "Əbədiyyət Hərfi" ləqəbini almışdı. Bu oğul çox möhkəm bir inanan oldu. Atası Hacıya gəldikdə isə o, şahanə bir şəxs idi ki, səxavəti, əliaçıqlığı ilə təkcə İranda və İraqda deyil, hətta uzaq Hindistanda da tanınmışdı. Əvvəlcə, o, İranın bir vəziri idi; lakin görəndə ki, mərhum Fətəli şah dünya malına necə göz qoyub, xüsusən də İran vəzirlərinin dünyəvi sərvətinə necə göz dikib və onların yığdıqları nə varsa, hamısını ələ keçirir və dəyərli nə mal-dövlətləri vardısa, onları müsadirə etdikdən sonra da gözləri doymur, onları sağa-sola baxmadan necə cəzalandırır, onlara işgəncə verir və bunu da qanuni cərimə adlandırır–qorxdu ki, o da uçuruma atıla bilər. O, vəzirlik məqamını və sarayını tərk etdi və Bağdada qaçdı. Fətəli şah Bağdadın hakimi Davud Paşadan tələb etdi ki, onu geri qaytarsın, lakin Paşa cəsarətli bir adam idi, Hacı isə qabiliyyətinə görə çox məşhur idi. Odur ki, Paşa da ona hörmət göstərdi və kömək etdi, Hacı zərgərlik işinə başladı. O, böyük bir şahzadə kimi çox təmtəraqlı yaşayırdı. O, öz dövrünün ən görkəmli adamlarından biri idi, çünki o, öz sarayında məmnuniyyət və bolluq içində yaşayırdı, lakin o, bu cəlal və büsatı, ad-sanı və məiyyəti arxada buraxdı, bizneslə məşğul oldu və böyük qazanc əldə etdi.

Onun evinin qapıları həmişə açıq idi. Türklər və iranlılar, qonşular, uzaq yerlərdən gələn yadlar–hamı onun möhtərəm qonaqları idi. İranın böyük adamlarının əksəriyyəti Müqəddəs Yerə ziyarətə gələndə onun evində dayanar, burada onları gözləyən ziyafətlə qarşılaşar, onlar üçün hər cür dəbdəbənin hazır olduğunu görərdilər. Hacı doğrudan da İranın Baş Vəzirindən daha görkəmli bir şəxs idi; ehtişamına görə o, bütün vəzirləri kölgədə qoyurdu və günlər keçdikcə, gəlib gedənlərə o, daha səxavətlə ənamlar verirdi. O, bütün İraqda İranlıların fəxri və onun

həmvətənlərinin şərəfi idi. O, hətta Türk nazirlərə və vəzirlərə, Bağdadın böyüklərinə bəxşiş və hədiyyələr verirdi; ağıl və qavrayışda onun bərabəri yox idi.

Hacının yaşı ötdükcə və ömrünün sonuna yaxın onun biznesi zəiflədi. Lakin öz həyat tərzində o, yenə də dəyişiklik etmədi. Dəqiq əvvəlki kimi, o, təmtəraq və zövqlə yaşamaqda davam etdi. Tanınmış adamlar ondan böyük miqdarda borc alar, amma heç vaxt geri qaytarmazdılar. Onlardan biri, Ağa xan Məhəllətinin anası ondan 100000 tümən[66] borc aldı, amma bir quruş belə qaytarmadı, çünki borc alandan dərhal sonra öldü. İl xanı Əliqulu xan da başqa bir borclu idi; Fətəli Şahın oğlu Seyfuddövlə də ona borclu idi; daha biri Fətəli Şahın qızı Vəliyyə idi. Bunlar Türk əmirlərindən, İran və İraqın böyüklərindən ona borclu olanların ancaq bir neçəsi idi. Bütün bu borclar qaytarılmadı və geri ödənmədi. Bununla belə, o, vüqarlı və görkəmli şəxs dəqiq əvvəlki kimi yaşamaqda davam etdi.

Ömrünün sonuna yaxın o, Həzrət Bəhaullahdan fərqli bir məhəbbət gördü və o, ən müti bir halda Onun hüzuruna daxil olardı. Mən xatırlayıram, o, bir dəfə Camal`i-Mübarəkə deyirdi ki, 1250-ci ildə ya da təxminən bir az ondan sonra məşhur münəccim Mirzə Mövkəb məqamları ziyarət edir. Hacı deyirdi ki, bir gün o, Hacıya deyib: "Mirzə, mən ulduzların qəribə, nadir bir birləşməsini görürəm, bu əvvəllər heç vaxt baş verməyib. Bu onu göstəriri ki, yaxında böyük bir hadisə baş verəcək və mən əminəm ki, bu vəd olunmuş Qaimin Gəlişindən başqa bir şey ola bilməz".

O, nurlu şahzadə vəfat edəndə onun vəziyyəti belə idi və onun bir oğul və iki qız vərəsəsi vardı. Onun həmişə varlı olduğunu düşünən insanlar inanırdılar ki, onun varislərinə milyonlar miras qalıb, çünki onun həyat tərzini hər kəs bilirdi. İranın diplomatik nümayəndələri, müasirləri müctəhidlər və imansız qazı (hakim)−hamısı dişlərini itilədilər. Onlar varislər arasında mübahisə başlatdılar ki, bundan yaranan qarışıqlıqdan özləri də yaxşı qazanc götürsünlər. Onlar varisləri talamaq üçün bacardıqları hər şeyi etdilər ki, onları tam soysunlar və İran diplomatları, müctəhidlər və qazı da qənimət əldə etsinlər.

Mirzə Musa dəyanətli bir inanan idi; lakin onun bacıları ayrı anadan idilər və Əmr haqqında heç nə bilmirdilər. Bir gün bu iki bacı, mərhum Mirzə Seyid Rzanın

[66] Bəhai tarixinin Bağdad dövrü 8 aprel 1853-cü ildən 3 may 1863-cü ilə qədərdir. Müxtəlif dəyərləndirmələrə görə, o zaman tümən 1.08-1.60 dollar arasında idi.

kürəkəninin müşayiəti ilə Həzrət Bəhaullahın evinə gəldilər. İki bacı ailənin yaşadığı yerə (əndəruna) daxil oldular, kürəkən isə camaatın qəbul olunduğu otaqda (birunda) oturdu. O, iki qız Həzrət Bəhaullaha dedilər: "İranın nümayəndələri, hakim (qazı) və imansız müctəhidlər bizi məhv etdilər. Həyatının sonuna doğru mərhum Hacı Sizdən başqa heç kəsə etibar etmirdi. Biz özümüz qafil olmuşuq, gərək əvvəldən Sizin hifzinizə sığınardıq. Hər halda biz indi Sizdən əfv və kömək diləməyə gəlmişik ki, Sizin lütf və dəstəyinizlə xilas olaq. Bu işə baxmağa lütf edin və bizim keçmiş səhvlərimizi bağışlayın".

Camal`i-Mübarək qəti bir şəkildə cavab verərək buyurdu ki, bu cür işlərə müdaxilə etmək Onun üçün ikrah doğruan bir şeydir. Lakin onlar Ona yalvarmaqda davam etdilər. Onlar düz bir həftə hər səhər və axşam səs-küy salaraq ailənin mənzilində qaldılar. "Biz başımızı bu Astanadan qaldırmayacağıq". Onlar dedilər, "biz bu evdə sığınacaq tapacağıq; biz burada, mələkləri qoruyan Kəsin qapısında o vaxtadək qalacağıq ki, O, rəhm edib bizim işimizə baxsın və bizi zalımların əlindən qurtarsın".

Həzrət Bəhaullah hər gün onlara nəsihət edərək deyirdi: "Bu işlər müctəhidlərin və hökumət səlahiyyətlilərinin əlindədir. Biz bu işlərə qarışmırıq". Lakin onlar öz israrlarında davam edir, təkid edir, kömək üçün yalvarırdılar. İş belə gətirmişdi ki, Həzrət Bəhaullahın evi dünyəvi şeylərdən yoxsul idi, bu xanımlar isə hər şeyin ən yaxşısına alışmışdılar və onlar çörək və su ilə çətinliklə qənaətlənirdiər. onlara yemək nisyə alınmalı olurdu. Qısası, hər tərədən müşkül idi.

Bir gün Həzrət Bəhaullah məni Öz hüzuruna çağırdı. "Bi möhtərəm xanımlar", O buyurdu, "özlərinin bütün tələbləri ilə Bizi sıxıntılı bir vəziyyətə qoyublar. Bu işə bir əncam yoxdur–bu işə sən baxmalısan. Lakin sən bütün bu mürəkkəb işi bircə gün içində həll etməlisən".

Ertəsi gün səhər mən Ağayi Kəlimlə birlikdə mərhum Hacının evinə getdik. Bütün qiymət qoyanları çağırdıq, onlar bütün daş-qaşı yuxarı mənzilə topladılar; mülklərə aid əsas mühasibat kitabı və qeyd dəftərləri ikinci otaqda yerləşdirildi; qiymətli mebellər və sənət əşyaları üçüncü mərtəbədə idi. Bir neçə zərgər daş-qaşları qiymətləndirmək üçün getdi. Başqa mütəxəssislər evi, dükanları, bağları və hamamları dəyərləndirdilər. Onlar öz işlərinə başlayan kimi mən bayıra çıxdım və bir otağa bir nəfər növbətçi qoydum ki, qiymət qoyanlar öz işlərini lazımı qaydada görüb

qurtarsınlar. Bu zaman günortaya yaxın idi. Sonra biz nahara getdik, ondan sonra isə qiymət qoyanlara göstəriş verildi ki, hər şeyi iki bərabər hissəyə bölsünlər ki, püşk atılsın; bir hissə qızların olacaqdı, bir hissə isə Mirzə Musanın[67]. Sonra mən evə gedib yatdım, çünki xəstə idim. Günortadan sonra qalxdım, çay içdim və malikanənin ailə yaşayan mənzilinə qayıtdım. Bura çatanda gördüm ki, malları üç yerə bölüblər. Onlara dedim: "Axı mən demişdim ki, hər şeyi iki hissəyə bölün. Bu niyə üç yerə bölünüb?" Varislər və başqa qohumlar bis səslə dedilər: "üçünci hissə də mütləq ayrılmalıdır. Ona görə biz hər şeyi üç yerə bölmüşük. Bir hissə Mirzə Musanın, bir hissə iki bacının. Üçüncü hissə isə Sizin ixtiyarınızdadır; üçüncü hissə mərhumundur və məhz Siz Özünüz uyğun bildiyiniz şəkildə xərcləyə bilərsiniz".

Bərk narahat olmuş halda biz onlara dedik, "belə bir şey ola bilməz. siz bunu tələb etməməlisiniz və buna heç cür razılaşmaq olmaz. Biz Həzrət Bəhaullaha söz vermişik ki, bir mis qəpik belə qəbul edilə bilməz". Onlar da öz növbəsində, and içdilər ki, bu onların istədikləri kimi olmalıdır və başqa heç cür razı ola bilməzlər. Bu bəndə cavab verdi: "Gəlin bu məsələni indilik buraxaq. Aranızda bundan başqa bir narazılıq vardırmı?" "Bəli", Mirzə Musa dedi. "Üç min tümən". " Qızlar dedilər: "ikiyol var: ya bu pullar burada, evdə, hansısa bir sandıqdadır və ya ətrafda basdırılıb, ya da başqa əllərdədir. Biz bu evi və içindəkiləri Mirzə Musaya veririk. Biz ikimiz evdən pərdələrimizdən başqa heç nə götürmürük. Əgər nəsə tapılarsa da, indilik biz hər şeyi ona veririk. Əgər pul haradasa başqa yerdədirsə, bu, şübhəsiz kiməsə saxlamaq üçün verilmişdir; o şəxs isə, etibarı itirdiyi üçün, çətin ki, üzə çıxsın və bizimlə dürüst davransın və pulu qaytarsın, bəlkə bütün pulları xərcləmişdir. Mirzə Musa dediklərini qaneedici bir sübutla isbatlamalıdır; Onun sadəcə iddiası dəlil deyildir". Mirzə Musa cavabında dedi: "Bütün mal-mülk onların əlində idi. Mən nə baş verdiyini bilmirəm– mənim bunlardan heç xəbərim yoxdur. Onlar istədiklərini edirdilər".

Xülasə, Mirzə Musanın öz iddiasının tərəfində heç bir dəlil-sübutu yox idi. O ancaq bunu soruşurdu ki:"necə ola bilər ki. Hacının hazır məbləği olmasın?" Amma bu iddianın əsasında bir dəlil olmadığı üçün, mən hiss etdim ki, bu işin üstünə getmək davaya gətirib çıxaracaq və heç bir faydası da olmayacaq. Ona görə də onlara təklif etdim, "Püşk atın". Üçüncü hissəyə gəldikdə is, mən onları ayrı bir otağa yığdırdım, qapısını bağladım və möhürlədim. Açarını isə Həzrət Bəhaullaha götürdüm. "İş

[67] Bu İslamın qanununa görə belə olmalı idi Quran: 4-12

yerinə yetirilmişdir", dedim. "Buna ancaq Sizin təyidinizlə nail olundu. Əks halda bunu bir ilə də həll edib qurtarmaq olmazdı. Hər halda, çətinlik aradan qaldırılmışdır". Mən qısaca Mirzə Musanın iddiasını (tələbini) və hər hansı bir dəlilin olmadığını təsvir etdim. Sonra isə dedim: "Mirzə Musa borcun içəindədir. O, hətta malik olduğu hər şeyi satsa da, borclarını qaytarın qurtarmayacaq. Ona görə də yaxşısı budur ki, siz vərəsələrin xahişini qəbul edəsiniz, çünki onlar öz təkliflərində israr edirlər və o payı Mirzə Musaya bağışlayasınız. Onda o, özünü borclardan qurtarar və ona da bir qədər qalardı.

Ertəsi gün vərəsələr gəldilər və Camal`i-Mübarəkə yalvardılar ki, mənim üçüncü payı qəbul etməyimi təmin etsin. "Belə bir iş ola bilməz", O buyurdu. Sonra onlar yalvarıb-yaxardılar ki, O Özü payı qəbul etsin və Öz istədiyi kimi, xeyriyyə məqsədilə xərcləsin. O, cavab verdi: "O məbləği Mənim xərcləməyimin ancaq bir məqsədi var". Onlar dedilər, "Hətta Siz onu dənizə belə atsanız, o bizim işimiz deyil. Biz əlimizi Sizin ətəyinizdən çəkməyəcək və öz israrımızdan dönməyəcəyik, ta o vaxta qədər ki, Siz bizim ricamızı qəbul edəsiniz". Onda O, onlara buyurdu: "Mən indi o üçüncü hissəni qəbul etdim; və onu sizin qardaşınız Mirzə Musaya verdim, lakin bir şərtlə ki, o, bundan sonra sizin əleyhinizə heç bir iddia etməyəcək". Vərəsələr bol-bol minnətdarlıq etdilər və bu ağır və müşkül iş bircə günün içində, dava-dalaş, sonradan mübahisə olmadan həll oldu.

Mirzə Musa əlindən gələni etdi ki, daş-qaşdan bir qədər mənə versin, lakin mən imtina etdim. Nəhayət o, rica etdi ki, mən tək bir üzüyü qəbul edim. Bu qiymətli bir üzük idi, çox dəyərli nar rəngli, nadir, təmiz bir yaqut parçasından qaşı vardı. Qaşın ətrafına bütövlükdə brilyant qaşlar düzülmüşdü. Mən ondan da imtina etdim, hərçənd ancaq pambıqdan qısa bir pencəkdən başqa heç nəyim, əynimdə bir əbam, heç mis bir quruşum belə yox idi. Necə Hafiz demişdi: "Pul kisəmiz boşdur, amma qolumuzda bir gizli xəzinə var".

Ona əta edilmiş nemət üçün minnətdarlıq edərək Mirzə Musa malik olduğu hər şeyi Həzrət Bəhaullaha bağışladı: bağlar, torpaqlar və mülklər–lakin onlardan imtina edildi. Belə olduqda o, İraqın üləmalarından xahiş etdi ki, onun adından minnətçi düşsünlər. Onlar Həzrət Bəhaullahın yanına yüyürdülər və yalvardılar ki, bəxşiş qəbul etsin. O, qəti şəkildə rədd etdi. Onlar ehtiramla ona dedilər: "Siz qəbul etməsəniz,

Mirzə Musa qısa bir zamanda onların hamısını yelə verəcək. Özünün xeyri üçün gərək onun əli bu sərvətə çatmasın".

Bundan sonra Mirzə Musa öz əli ilə, hər beş inanca uyğun olaraq ərəb və fars dillərində hədiyyələrin sənədini tərtib etdi; iki nüsxə çıxardı və üləmaları şahid kimi seçdi. Bağdadın müəyyən üləmaları, o cümlədən, məşhur alim Əbdüs-Səlam Əfəndi, bilgili və tanınmış Seyid Davud Əfəndinin vasitəsilə bəxşişlərin sənədini Həzrət Bəhaullaha təqdim etdi. Camal`i- Mübarək onlara buyurdu: "Biz Mirzə Musanın özünü Bizim vəkilimiz təyin edirik".

Həzrət Bəhaullah Rumeliyə gedəndən sonra Mirzə Musa borc öhdəliyi ilə hökumətdən Kərbəla yaxınlığındakı bir qəsəbədə Hindiyyə torpaqlarını aldı və 100000 tümənə yaxın dəhşətli itkiyə məruz qaldı. Hökumət onun mülklərini müsadirə etdi və üçüncü bir adama heç neçəyə satdı. Bu məsələ Həzrət Bəhaullaha danışılanda O, dedi, "Daha bu barədə danışmayın. O mülklər barədə bir söz belə danışmayın". Bu arada Ədirnədən Əkkaya sürgün baş verdi. Mirzə Məhəmməd hökumət yetkililərinin yanına getdi və onlara dedi: "Mən Həzrət Bəhaullahın vəkliyəm. Mülklər Mirzə Musaya məxsus deyil. Siz onları necə müsadirə edə bilərsiniz?" Lakin onun əlində sözlərini əsaslandıracaq bir sənəd yox idi və buna görə də hökumət onun iddiasını rədd etdi. Lakin bu prosesdə o, hamıya Mirzə Məhəmməd Vəkil kimi tanındı. Bu ləqəbi o, belə aldı.

Biz Ədirnədə olanda, Mirzə Musa Seyid Əli Əkbərin vasitəsilə yaqut üzüyü göndərdi və Camal`i-Mübarək bizə göstəriş verdi ki, onu qəbul edək. Biz Əkkaya çatandan sonra inananlar xəstə düşdülər və əzab çəkərək xəstəlikdən yatdılar. Mən üzüyü Hindistana, dostlardan birinə göndərdim və xahiş etdim ki, mümkün qədər tez onu satıb pulunu Əkkaya göndərsin ki, xəstələrə xərcləyək. O mübarək şəxs bizə bir quruş belə göndərmədi. İki il sonra yazdı ki, üzüyü iyirmi beş funta satıb və ziarlərə xərcləyib. Və bu, o qədər qiymətli bir üzüyün müqabilində. Mən şikayət etmədim. Əksinə, Allaha həm oxudum və şükr etdim ki, o sərvətdən hətta bir toz dənəsi belə mənim əbama qonmadı.

Mirzə Məhəmmədi zindana saldılar və Bağdaddan Mosula göndərdilər və orada o, qorxulu xəstəliklərin qurbanı oldu. O, zəngin idi; indisiə Allahın yolunda yoxsul qalmışdı. Bir vaxtlar o, rahatlıq və dinclikdən həzz alırdı; indi isə Allaha məhəbbət

naminə o, ağrı və ağır əziyət çəkirdi. Bir müddət o, Mosulda, yalvarış və təslimiyyət, müti bir halətdə yaşadı. Sonra Allahdan başqa hər şeydən üzülərək Rəbbin nəvazişli nəsimləri ilə dəfedilməz bir şəkildə cəzb olunaraq bu qaranlıq dünyadan nur aləminə köçdü. Ona salam və mədh olsun. Allah onun üzərinə əfv suları yağdırsın və onun məzarı önündə Cənnət qapılarını açsın.

## Hacı Məhəmməd Rza Şirazi (↑)

HACI MƏHƏMMƏD RZA Şirazdan gəlmişdi. O, ruhani, müti, özünü günahkar bilən, təmkin və iman mücəssəməsi idi. Allahın çağırışı ucalanda o, möhtac ruh səmavi fəzlin kölgəsinə tələsdi. “Mən sizin Rəbbiniz deyiləmmi?” çağırışını eşidən kimi, o, cavab verdi: “Bəli[68]” və insanların yolunda çıraq oldu.



Uzun bir müddətdə o, Əfnana, Hacı Mirzə Məhəmməd Əliyə xidmət etdi, onun sədaqətli və yaxın bir yoldaş idi, hər şeydə əmin tanınırdı. Uzaq ölkələrə səfərlər etdikdən sonra o, Müqəddə Torpağa getdi, orada tam təslimiyyət və müti halda başını Müqəddəs Astananın önündə yerə qoydu, Həzrət Bəhaullahın hüzuruna daxil olmaqla müşərrəf oldu, orada piyalə əllərdən sonsuz nemətlər içdi. Demək olar ki, hər gün Həzrət Bəhaullahın hüzuruna daxil olmaqla və müqəddəs lütf və fəzllə əhatə olunaraq xeyli müddət orada qaldı. Xasiyyətinə görə o, görkəmli bir şəxs idi, Allahın hökmlərinə uyğun yaşayırdı: təmkinli, uzun müddət əzab-əziyyət çəkməyi, Allahın iradəsinə təslimiyətində o fədakarlığın özü idi. Onun heç bir şəxsi məqsədi, bu fani dünyaya heç bir bağlılığı yoxdu. Onun yeganə arzusu Rəbbinin razılığı, yeganə ümidi müqəddəs yolda addımlamaq idi.

---

68 Quran 7:171.

Sonra o, Beyruta getdi və şərəfli Əfnanan o, şəhərdə xidmət etdi. O, uzun müddət bu mivalla yaşadı və Həzrət Bəhaullahın hüzuruna daxil olmaq, ən Böyük Gözəlliyə baxmaq üçün dəfələrlə qayıtdı. Sonra o, Sidonda xəstələndi. Əkkaya səfər etmək gücünə malik deyildi, beləcə kamil razılıq və məmnunluq içində Əbha Mələkutuna yüksəldi və nur dəryasına qərq oldu. Uca Qələm onun şərəfinə sonsuz nemət əta etsin. O, doğrudan da, Həzrət Bəhaullaha xidmətdə sədaqətli, möhkəm və qüvətli sütunlardan biri idi. Camal`i-Mübarəkin dodaqlarından biz çox-çox onun tərifini eşitmişdik.

Ona salam və tərif olsun, Əbhanın bəhası olsun. Uca Cənnətin Rəbbinin rəhm və mərhəməti onun üzərinə olsun. Onun nurlu məzarı Sidonda, Müqəddəs Yəhanın məqamı deyilən yerin yaxınlığındadır.

## Hüseyn Əfəndi Təbrizi (↑)

BU GƏNC TƏBRİZDƏN idi, o, qırmızı şərabla dolub-daşan piyalə kimi Allaha məhəbbətlə dolu idi. Gəncliyinin çiçəkləyən çağında o, İranı tərk edib Yunanıstana getmişdi və orada tacir kimi dolanışıq pulu qazanırdı; ta o günə kimi ki, İlahi kərəmlə yönəldilərək o, Yunanıstandan Smirnaya getdi və orada yer üzündə yeni Zühurun müjdəsini aldı. O, qışqırdı, cuşa gəldi və yeni xəbərin ahəngindən məst oldu. O, borclarını və gəlir-çıxarını bağladı, ürəyinin Mövlasını görmək üçün yola çıxdı və Həzrət Bəhaullahın hüzuruna yetişdi. Bir müddət o, etibarlı qulluqçu və yoldaş kimi, Camal`i-Mübarəkə xidmət etdi. Sonra ona göstəriş verildi ki, yaşamaq üçün Hayfaya yerləşsin.

Burada o, vəfadarlıqla inananlara qulluq göstərdi, evi isə Bəhai zairlər üçün bir yolüstü mənzil idi. Onun gözəl xasiyyəti vardı, əla rəftarı, yüksək və ruhani niyyəti vardı. Dostla da, yadla da o, eyni dərəcədə dostcasına davranırdı; o, hər millətdən olan insanlara mehriban və onların xeyirxahı idi.

Ən Böyük Nur uca Mələkuta yüksələndə, Hüseyn Əfəndi Ona vəfalı, möhkəm və səbatlıq qaldı və əvvəlki kimi, əhbabların dostu olaraq qaldı. Uzun bir müddət o, yer üzünün sultanlarından özünü daha yaxşı hiss edərək belə yaşadı. O, Camal`i-Mübarəkin qardaşı Mirzə Məhəmməd Qulunun kürəkəni oldu, bir müddət aram və sakit qaldı. O, yanlış yola şirnikləndirilməkdən diqqətlə qaçdı, çünki qorxurdu ki, bəlaların şiddəti quduzlaşar, daha yüksəyə qalxar və çox ruhları dibsiz bir uçuruma atardı[69]. O, ah-nalə edərdi, çünki bu qorxu daim onunla idi. Nəhayət o, daha dünyaya dözə bilmədi, öz əli ilə həyat libasını soyundu.

Ona salam və tərif olsun, Allahın rəhməti və İlahi mərhəmət olsun. Allah onu bağışlasın və uca Behiştə daxil etsin, o Cənnət ki, qalanlarının üzərində ucalır. Onun müşk ətirli məzarı Hayfadadır.

---

[69] .Həzrət Bəhaullahın süudundan sonrakı bəlalar üçün bax: Allah yanımızdan keçir, başlıq XV

## Cəmşidi- Gürcü (Gürcü Cəmşid) (↑)

DAHA BİR MÜHACİR və köçkün Gürcüstandan gəlmiş, lakin Kaşanda böyümüş rəşadətli Gürcü Cəmşid idi. O, gözəl, imanlı, etibarlı, yüksək ləyaqət hissinə malik bir gənc idi. Yeni Dinin gəlməsini eşidəndə və İranın üfüqündə Həqiqət Günəşinin doğuşuna oyananda o, müqəddəs bir vəcdə gəldi, həsrətlə doldu və sevdi. Yeni atəş o qeyri-müəyyənlik və onun saran şübhə pərdələrini yandırdı; Həqiqət nuru öz şüalarını saçdı, qarşısında hidayət çırağı yandı.

O, bir qədər İranda qaldı, sonra Osmanlı ərazisində olan Rumeliyə getdi və Sirr Torpağında. Ədirnədə isə Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu; məhz orada onun görüşü baş verdi. Onun sevinci və atəşi sonsuz idi. Sonra Həzrət Bəhaullahın göstərişi ilə o, Ağa Məhəmməd Bağır və Ağa Əbdül Qəffarla İstanbula getdi. O şəhərdə zalımlar onu zindana saldılar və zəncirlədilər.

İran səfiri Cəmşid və Ustad Məhəmməd Ali Dəlləyin əleyhinə düşmən rəhbərləri və döyüşçülər kimi çuğulluq elədi. Cəmşidi o, bu günlərin Rüstəmi[70], Məhəmməd Əlini isə xəbər aparanın dediyinə görə, nərə çəkən aslan kimi təsvir etdi. Bu iki hörmətli şəxs dustaq edilib qəfəsə salınanlardan birincilər idilər; sonra onları nəzarət altında Türkiyə torpaqlarından çıxardılar və İran sərhədinə gətirdilər. Onlar İran hökimətinə təhvil verilməli və edam edilməli idilər, onları aparan nəzarətçilər isə əgər ayaqlığı itirib məhbusları qaçırsaydılar, dəhşətli cəza ilə təhdid olnmuşdular. Bu səbəbdən də, harada ki, dayanırdılar, qurbanlar demək olar ki, girilib-çıxılmaz yerlərə salınırdılar. Bir dəfə onları bir çalaya, quyu kimi bir yerə salmışdılar və onlar bütün gecəni əzab və iztirab çəkmişdilər. Səhər açılanda Cəmşid qışqırmışdı: "Ey bizə zülm edənlər! Biz Yusif Peyğəmbərmiyik ki, bizi bu quyuya atmısınız? Yadınıza salın ki, O, quyudan bədirlənmiş ay kimi necə çıxdı? Biz də Allahın yolu ilə gedirik, biz də Onun xatirinə buraya salınmışıq və bilirik ki, bu dərinlik Rəbbin uca zirvələridir".

Elə ki, İran sərhədinə çatdılar, Cəmşidlə Məhəmməd Əli kürdlərin başçılarına təhvil verildilər ki, onları Tehrana göndərsinlər. Kürd başçıları gördülər ki, bu dustaqlar günahsız, mehriban və xoş rəftarlı və düşmən əlinə düşmüş qurbanlardır. Onları paytaxta göndərmək əvəzinə, azad etdilər. Sevincək, onlar piyada yola düşdülər və

[70] İranın Herkulesi–əfsanəvi Pəhləvanı

Həzrət Bəhaullahın yanına getdilər və Ən Böyük Zindanda Onun evini yanında bir ev tapdılar.

Cəmşid Həzrət Bəhaullahın lütf və fəzlini alaraq, dəfələrlə Onun hüzuruna müşərrəf olaraq bir müddət tam səadət içərisində keçirdi. O, aram və sakit idi. İnananlar ondan razı idilər, o, isə Allahdan razı idi. Məhz bu halətdə ikən o, səmavi çağırışı eşitdi: "Ey əmin ruh, Onun səndən, sənin Ondan razı olduğun Rəbbinə dön[71]". Allahın "Qayıt" əmrinə o "Ləbbeyk" deyə cavab verdi. Ən Böyük Zindandan o, ən uca Cənnətə yüksəldi; bu torpaq dünyasından o, pak və parıltılı Mələkuta uçdu. Allah Cəbərutda ona yardım etsinvə onun Behişt Şəfəqlərinə qovuşdursun, İlahi bağlarda əmin-amanlıqda saxlayıb əbədi yaşatsın[72].

Ona salam və tərif olsun. Onun müşk ətirli məzarı Əkkadadır.

---

[71] Quran 89:27
[72] Quran 4:71

## Hacı Cəfər Təbrizi və onun qardaşları (↑)

ÜÇ QARDAŞ VARDI, üçü də Təbrizdən idilər: Hacı Həsən, Hacı Cəfər və Hacı Tağı. Bu üç qardaş yüksəkliklərdə süzən qartal kimi idilər; onlar Əmrin Allaha məhəbbət işığı ilə sayrışan üç ulduzu idilər.

Hacı Həsən erkən inananlardan idi; yeni Nurun ilk doğuşundan iman gətirmişdi. O, şövqlə dolu, iti zəkalı idi. İman gətirdikdən sonra o, hər yerə gedir, İranın şəhər və kəndlərini dolaşırdı; onun nəfəsi həsrətli könülləri yerindən oynadırdı. Sonra o, İraqa getdi və Məhbubun ilk səfərindən Onun hüzuruna yetişdi. O, ən gözəl Nuru görən kimi o, məftunluq içində Cəlal Mələkutuna getdi; o eşq dəlisi idi, həsrətli bir eşqin köləsi idi. Bu zaman ona göstəriş verildi ki, İrana qayıtsın. O, xırdavatçı idi, kiçik dulusçuluq şeyləri satar, şəhərləri dolaşardı.

Həzrət Bəhaullahın İraqa ikinci səfərində Hacı Həsən Onu yenidən görmk istədi, Bağdadda bir daha Onun hüzurunda gözləri qamaşdı. Aradabir o, İrana gedər və qayıdardı, bütün fikri-zikri təbliğ və Əmri yaymaq idi. Onun biznesi dağıldı. Mallarını oğrular apardılar və beləliklə, özünün dediyi kimi, yükü çiynindən götürüldü–o, yükdən azad oldu. O, hər bir dünyəvi bağdan qaçdı. O, maqnit kimi bərk yapışmışdı; o, sevgili Yar üçün, hər iki dünyanın Məhbubu üçün dəli-divanə idi. Onu çulğalamış vəcdlə, qəribə halətdə yaşaması ilə hər yerdə tanınırdı; o, bəzən tam bir bəlağətlə, müqəddəs ayələr qədər də hədislərdən dəlillər, məntiqi və sağlam sübutlar gətirərək Əmri təbliğ edərdi. Onda onu eşidənlər onun ağlı, gücü, müdrikliyi və təmkini haqqında danışardılar. Lakin elə vaxtlar da olurdu ki, onda eşq atəşi alovlanar, bir an belə sakitlik bilməzdi. O anlarda o, atlanıb-düşər, oynayar, sonra yenidən şairlərdən uca səslə şeirlər söyləyər, ya oxuyardı. Ömünün sonuna yaxın o cənab Münibin yaxın dostu oldu; bu iki dost sirli inamla paylaşdı, hər bir kökslərində nə qədər nəğmələr daşıdılar.

Dostların son səfərində o, Azərbaycana getdi və orada, ehtiyatkarlığı yelə verərək, İsm`i-Əzəmi nərə çəkdi: "Ya Bəha`ül-Əbha!" düşmənlər onun qohumları ilə əlbir oldular və o, günahsız, vəcd halında olan ruhu aldadıb bağa apardılar. Orada onlar əvvəlcə ona suallar verdilər və cavablarına qulaq asdılar. O, danışdı; o, Əmrin gizli həqiqətlərini izah etdi və qətiyyətli sübutlar gətirdi ki, doğrudan da Zühur baş vermişdir. O, Qurandan ayələr gətirdi, Məhəmməd Peyğəmbərdən və Müqəddəs

İmamlardan hədislər söylədi. Onun ardınca, məhəbbətin o, divanə və həsrətli vəcd halında, oxumağa başladı. O, şahnaz üstündə oxuyurdu; oxuduğu şairlərin sözləri idi ki, Rəbb gəlmişdir. Onlarsa onu öldürdülər; onun qanını tökdülər. Onlar onun əzalarını burub parçaladılar və bədənini torpaq altında gizlətdilər.

Hacı Məhəmməd Cəfərə gəldikdə isə, qardaşı kimi doğuşundan mülayim olan bu insan Camal`i-Mübarəkə məftun olmuşdu. İraqda idi ki, o, Aləmin Nurunun hüzuruna daxil oldu və o da ilahi eşq oduna tutuşdu və Allahın xəfif nəsimlərindən məst oldu. O, qardaşı kimi, xırdavatçı idi, daim bir yerdən o biri yerə gedər, xırdavat satardı. Həzrət Bəhaullah Bağdaddan İslamın Paytaxtına gedəndə, Hacı Cəfər İranda idi, Camal`i-Mübarək və məiyyəti Ədirnədə qalmağa gələndə, Cəfər və qardaşı Hacı Tağı Azərbaycandan buraya gəldilər. Onlar hardasa bir künc tapıb yerləşdilər. Sonra bizə zülm edənlər Həzrət Bəhaullahı Ən Böyük Zindana göndərmək üçün təkəbbürlü əllərini uzatdılar, və həqqi Məhbubu müşayiət etməyi inananlara qadağan etdilər, çünki onların məqsədi Camal`i-Mübarəki bu zindana ancaq bir neçə nəfərlə gətirmək idi. Hacı Cəfər müşayiət edəcək qrupdan onları çıxardıqlarını görəndə, ülgücü çıxardı və boğazını kəsdi[73]. Toplaşanlar kədər və narazılıqlarını bildirdilər, onda səlahiyyətlilər bütün inananlara icazə verdilər ki, Həzrət Bəhaullahı müşayiət etsinlər–bu Cəfərin məhəbbətinin ifadəsi olan hərəkətinin neməti idi.

Onlar onun yarasına tikiş qoydular, lakin heç kəs düşünmürdü ki, o, sağalacaq. Ona dedilər ki, "müvəqqəti olaraq o, olduğu yerdə qalmalıdır. Əgər boğazın sağalsa, sən də qardaşınla birlikdə göndəriləcəksən. Buna əmin ol". Həzrət Bəhaullah da göstəriş verdi ki, belə olsun. Beləcə, biz Cəfəri xəstəxanada buraxdıq və Əkka zindanına getdik. İki ay sonra o və qardaşı Hacı Tağı qalaya gəldilər və başqa məhbuslara qoşuldular. Xilas olmuş Hacının mehribanlığı, atəşi günbəgün daha da artırdı. Toran düşəndən dan yeri ağarana qədər o, oyaq qalar, avazla dua oxuyar, göz yaşları tökərdi. Sonra bir gecə o, karvansarayın damından yıxıldı, möcüzə və əlamətlər Mələkutuna yüksəldi.

Bəxtəvərlik uduzu altında doğulmuş Hacı Tağı isə hər mənada Hacı Cəfərin qardaşı idi. O da eyni ruhani halətdə yaşayırdı, lakin o, aram idi. Hacı Cəfərin ölümündən sonra, o, bir otaqda yalnız qalardı. O, sükutun özü idi. O, tək-tənha, ehtiram və

---

[73] Allah yanımızdan keçir, səh. 180

nəzakətli bir qaydada hətta gecəni belə orada oturardı. Bir gecə o, dua oxumaq üçün dama çıxıbmış. Səhərisi gün onu yıxıldığı yerdə tapdılar. O, huşunu itirmişdi, demək olmurdu ki, o, təsadüfən yıxılıb, yoxsa özünü atıb. Özünə gələndə o dedi: "Mən bu həyatdan bezmişəm və ölməyə cəhd elədim. Bir an belə bu dünyada qalmaq istəmirəm. Dua edin ki, mən gedim".

Budur o üç qardaşın həyat hekayəsi. Hər üç qardaş yəqinlik hasil etmiş ruhlar idilər; hər üçü Allahdan razı, Allahın onlardan razı olduğu ruhlar idilər[74]. Onlar alov idilər; onlar Əmrin əsiri idilər; Onlar pak və müqəddəs idilər. Ona görə də bu dünyadan üzülərək, Üzlərini Cəbərruya döndərərək, onlar yüksəldilər. Allah bağışlama aləmində onları Özünün fəzl libasına bürüsün və əbədiyyətə qədər onları Öz mərhəmət sularında qərq etsin. Onlara salam və tərif olsun.

---

[74] Quran, 89:27-30

## Hacı Mirzə Məhəmməd Tağı, Əfnan (↑)

MÖMİN, NURLU SİMA və ilahi təcəlli olan ruhlardan biri cənab Məhəmməd Tağı Əfnan[75] idi. Onun ləqəbi Vəkilüddövlə idi. Bu görkəmli Budaq Müqədəs Ağacın pöhrəsi idi; əsilzadə nəslin gözəl xasiyyəti onda təzahür edirdi. Onun qohumluğu həqiqi qohumluq idi. O, Kitab`i-İqanı oxuyub iman gəriənlərdən, Allahın şirin rayihələri ilə ovsunlanmış, Onun ayələrinin oxunmasından nəşələnən biri idi. Onun həyəcanı elə idi ki, qışqırırdı: "Ya Rəbb, Ya Rəbb, Ləbbeyk!" Sevincək halda oranı tərk etdi və İraqa tələsdi. O, atəşli bir məhəbbətlə dolu olduğu üçün, dağları aşdı, geniş düzənləri keçdi, dincəlmək üçün dayanmadan Bağdada gəldi.



O, Həzrət Bəhaullahın hüzuruna daxil oldu və onun nəzərində qəbula layiq görüldü. Onda necə müqəddəs bir vəcd, necə bir atəş və bu dünyadan göz yumma vardı! Bu təsvirə gəlməz. Onun mübarək siması elə gözəl, elə nurlu idi ki, Əhbablar İraqda, ona ad da vermişdilər: onlar ona "bütün həzzlərin (fərəhlərin) Əfnanı" deyirdilər. O, doğrudan da, mübarək bir ruh idi, ehtirama layiq bir şəxs idi. O, həyatının başlanğıcından son nəfəsinə qədər vəzifəsində heç vaxt yanlışlıq etmədi. Həyata başlayan andan Allahın şirin rayihələrinə məftun oldu, günləri sona yaxınlaşanda Allahın Əmrinə əla xidmət göstərdi. Onun həyatı mömin həyatı, nitqi xoş, əməlləri layiqli idi. Xidmətdə, ibadətdə o, heç vaxt qüsur etmədi, böyük məsuliyyətə o,

[75] Əfnan–Həzrət Babın qohumları

hazırlıq və sevinclə girərdi. Onun həyatı, davranışı, etdiyi hər şey, etmədiyi hər şey, başqaları ilə münasibəti–hamısı Əmri təbliğ etməyin bir yolu idi və bir nümunə, başqalarına bir nəsihət idi.

Bağdadda Həzrət Bəhaullahı görmək ərəfinə nail olduqdan sonra, o, İrana qayıtdı və bəlağətli bir dillə Əmri təbliğ etməyə başladı. Necə təbliğ etməsi isə belə idi: bəlağətli dil, hazır qələm, gözəl xasiyyət, xoş sözlər, mömin yol və əməl. Hətta düşmənlər belə, onun alicənablığına, ruhani keyfiyytlərinə şahidlik edirdilər və onlar deyərdilər: "sözündə və əməlində, möminliyində, etibarlılığında və imanın möhkəmliyində onunla müqayisə olunacaq bir kəs yoxdur; o, hər şeydə misilsizdir; amma əfsus ki, o Bəhaidir!" Yəni: "Nə yazıq ki, o, bizim kimi pozğun, diqqətsiz, günah işlədən, şəhvətə batmış, ehtiras məxluqu deyil!" Ya Rəbb! Onlar öz gözləri ilə gördülər ki, o, Əmr haqqında öyrənən kimi dəyişdi, bu dünyadan ayrıldı və Həqiqət Günəşinin şüalarını saçmağa başladı. Və yenə də onun göstərdiyi nümunədən faydalana bilmədilər.

Yəzddə olduğu günlərdə, zahirən, o, ticari işlərlə məşğul olurdu, əslində isə o, Əmri təbliğ edirdi. Onun yeganə məqsədi Allahın Sözünü ucaltmaq, onun tək arzusu İlahi şirin rayihələri yaymaq, onun bir fikri Rəbbinin sarayına daha da yaxın olmaq idi. O, Həzrət Bəhaullahın razılığının mücəssəməsi idi; İsm`i-Əzəmin fəzlinin məşriqi idi; Nə qədər tez-tez Həzrət Bəhaullah Onun yanında olanlara Əfnandan son dərəcə razı olduğunu bildirmişdi; Nəticədə, hər kəs əmin idi ki, gələcəkdə o, hansısa yüksək bir iş həyata keçirəcəkdir.

Həzrət Bəhaullahın süudundan sonra, Əhddə möhkəm və dəyanətli Əfnan əvvəllər etdiyindən daha çox xidmətlər göstərdi; bunu o, nə qədər maneələrə, çəkilməz dərəcədə ağır iş yükünə, onun diqqətini tələb edən sonsuz dərəcədə işlərə baxmayaraq edirdi. O, rahatlığından, işindən, əmlakından, mülklərindən, torpaqlarından əl çəkdi və Aşqabada getdi və Məşrik`ul-Əzkarın tikintisinə başladı; bu çox böyük ölçüdə bir xidmət idi, beləliklə o, Bəhai İbadət Evini tikən ilk şəxs oldu, insanı birləşdirmək üçün bir Evin ilk inşaatçısı oldu. Ona kömək edən Aşqabad bəhailəri ilə birlikdə o, birincilik çələngini müvəffəqiyyətlə daşıdı və Evi tikib başa çatdırdı. Uzun bir müddət onun Aşqabadda dincliyi olmadı. Gündüz və gecə, o, inananları davam etməkdə təşviq etdi. Onlar da öz növbəsində gərgin səylər qoydular, gücləri çatandan da artıq fədakarlıq etdilər və Allahın Evi yüksəldi, onun şanı Şərq və Qərb boyunca

yayıldı. Əfnan cüzi bir məbləğdən başqa malik olduğu hər şeyi sərf etdi ki, bu binanı ucaltsın. Fədakarlıq etməyin yolu budur. Vəfadar olmaq bu deməkdir.

Daha sonra o, Müqəddəs Torpağa yollandı, seçilmiş mələklərin dövrə vurduqların yerin yanında, Həzrət Babın Məqamının kölgəsində müqəddəs və pak halda, Rəbbə yalvararaq və dua edərək günlərini keçirdi. Allahın tərifi daim onun dodaqlarında idi, həm dili, həm də ürəyi ilə dua edirdi. Onda əsrarəngiz bir ruhaniyyət, çox qəribə bir nur vardı. O, o ruhlardan biri idi ki, "Mən sizin Rəbbiniz deyiləmmi?" təbili səslənməzdən əvvəl cavab vermişdi: "Ləbbeyk, Ləbbeyk![76]" Məhz İraq dövrü idi ki, Hicrətin yetmişinci ili ilə səksəninci ili arasında idi ki, oda tutuşdu və Aləmin Nurunu sevdi, Həzrət Bəhaullahda doğulan dan yerini gördü və "Mən Bəhanın Əbha Səltənətində yaşayan Kəsəm!" sözlərinin yerinə yetməsinə şahid oldu.

Əfnan qeyri-adi xoşbəxt bir insan idi. Mən nə vaxt kədərlənirdimsə, onunla görüşər, dərhal da sevinc mənə qayıdardı. Allaha həmd olsun, nəhayət, Həzrət Babın məqamının yaxınlığında, o, nur içində Əbha Səltənətinə tələsdi amma onun itkisi Əbdül-Bəhanı dərindən kədərləndirdi.

Onun nurlu məzar Hayfada, Həzrətü`l-Qüdsün yanında, İliyanın kahasına yaxındır. Orada möhkəm və yaxşı tikilmiş bir türbə ucaldılmalıdır. Allah onun uyuduğu yerə Cənnətindən şüalar salsın, o müqəddəs torpağı Mələyi-Əlanın şəfəqlərindən şüalar salsın. Əbhanın bəhası onun üzərinə olsun.

[76] Quran 7-171

## Əbdüllah Bağdadi (↑)

HƏLƏ ÇOX CAVAN olanda, insanlar Əbdüllah Bağdadi haqqında pozğun, ancaq eyş-işrətə özünü həsr edən bir adam kimi baxırdılar. Hamı onu cismani ehtirasların bataqlığında batmış qeyri-adi həvəslər "qoçağı" hesab edirdilər. Lakin iman gətirən andan o, Allahın şirin rayihələrindən məst oldu və yeni bir varlğa çevrildi. O, özünü qəribə bir heyranlıq halında, tamamilə dəyişmiş halda tapdı. O, bu dünyanın adamı idi, indi isə Səma əhli olmuşdu; o, cismani həyatla yaşayırdı, indi isə ruh həyatı yaşayırdı; o, qaranlıqda gəzirdi, indi isə işıqda gəzirdi. O, hisslərinin əsiri idi, indi isə o, Allahın köləsi idi. O, əvvəllər gil və torpaq idi, indi isə baha əldə edilmş bir inci idi; əvvəllər kobud və cilalanmamış bir daş idi, indi isə bərq vuran bir yaqut idi.

Hətta qeyri-bəhailər arasında insanlar ondakı bu dəyişiklikdən heyrətə gəlmişdilər. Bu cavanda nə baş vermişdi, onlar bilmək istəyirdilər; bu necə oldu ki, o, birdən bu dünyadan ayrıldı, hərarətli və sədaqətli oldu? "O, ki korlanmış və pozğun idi", onlar deyirdilər, "bu gün isə o, pəhrizkar və ismətli olub. O, öz tamahında batmışdı, indi isə pak bir ruh olub, mömin həyatı yaşayır. O, bu dünyanı arxada qoyub. O, ziyafət keçirməkdən dayanıb, keyf əhlini buraxıb, şənlik paltarını yığışdırıb. Onun ağlı məhəbbətdən çaşıb".

Xülasə, o, zövqü-səfanı və malik olduqlarını buraxdı və piyada Əkkaya yollandı. Onun üzü elə parladı, təbiəti elə nurlandı ki, ona baxmaq bir nəşə idi. Mən adətən deyərdim: "Ağa Əbdüllah, halın necədir?" O, belə cavab verərdi: "Mən qaranlıqda idim; indi Camal`i-Mübarəkin lütfündən, işıqdayam. Bir toz topası idim; O, məni münbit bir torpağa çevirdi. Mən daimi bir işgəncədə idim; İndi isə əmin-amanlıqdayam. Mən zəncirlərimə vurulmuşdum; O, onları qırdı. Mən o şeyə, bu şeyə həris idim; İndi Rəbbimə yapışmışam. Qəfəsdə bir quş idim; O, məni açıb buraxdı. Bu gün mən səhrada yaşasam da, döşəyim və yastığım çılpaq yerdir amma mən hiss edirəm ki, bunlar ipəkdir. Köhnə zamanlarda mənim örtüyüm sətin idi, ruhum isə əziyyət çəkirdi. İndi mən evsiz-eşiksizəm, amma xoşbəxtəm".

Lakin Həzrət Bəhaullahın necə təqib olunduğunu, Onun necə bir səbrlə əziyyət çəkdiyini gröəndə alovlu ürəyi sındı. Əbdüllah Onun uğrunda ölmək istədi. Və iş belə gətirdi ki, o, öz həyatını sevimli Yar üçün qurban verdi və bu qaranlıq dünyadan işıq

diyarına tələsdi. Onun nurlu məzarı Əkkadadır. Əbhanın bəhası onun üzərinə olsun; ona Rəbbin fəzlindən rəhmət olsun.

## Məhəmməd Mustafa Bağdadi (↑)

Məhəmməd Mustafa şöləlenmiş bir işıq idi. O, məşhur alim Şeyx Məhəmməd Şiblin oğlu idi; o, İraqda yaşayırdı, lap cavanlığından onun misilsiz və bərabərinin olmadığı aydın görünürdü; hikmətli, cəsarətli, hər mənada haqq edərək o, hər yanda tanınırdı. Uşaqlıqdan atasının tərbiyəsi ilə ürəyinin mehrabında iman işığını yandırmışdı. O, xurafatın mane olan pərdələrindən qurtuldu, ətrafa həssas gözlərlə baxdı, Allahın yeni böyük əlamətlərinə baxdı və nəticəsindən asılı olmayaraq sisini qaldırdı: “Yer Rəbbinin nuru ilə işıqlanmışdır[77]”.



Ya Rəbb! Müxalifət güclü idi, cəza aşkar, dostların hər biri dəhşətə düşmüşdü, bir küncə çəkilib imanlarını gizlətmişdilər; belə bir zamanda bu qorxu bilməz şəxsiyyət cəsarətlə öz işi ilə məşğul oldu və kişi kimi hər cür zalımın qarşısında dayandı. Yetmişinci ildə İraqda Həzrət Bəhaullaha məhəbbəti ilə məşhur olan bir şəxs vardısa, o da bu şərəfli şəxs idi. O zaman Bağdadda və onun ətrafında olan bir neçə şəxs sürünüb yuvaya və deşiklərə girmiş, öz qış yuxularına getmiş, küncdə-bucaqda gizlənmişdilər. Lakin bu heyranedici Məhəmməd Mustafa cürətlə, vüqarla bir kişi kimi gələr və gedər, düşmənlər isə, onun fiziki gücündən və cəsarətindən qorxaraq ona hücum etmirdilər.

---

[77] Quran 39-69

Həzrət Bəhaullah Kürdüstan səfərindən qayıdandan sonra, o qorxmaz şəxsin igidliyi və duruşu daha da artmış və güclənmişdi. İzn veriləndə o, Həzrət Bəhaullaha xidmət göstərər, Onun dilindən lütf və fəzl ifadələri eşidərdi. O, İraqdakı bütün dostlar arasında lider idi, Böyük Ayrılıqdan sonra isə, Məhbubun məiyyəti İstanbula yola düşəndə, o, sədaqətli və dəyanətli qaldı və düşmənə duruş gətirdi. O, özünü xidmət üçün özünü hazırladı, açıq, camaat qarşısında, hamının gözü önündə Əmri təbliğ etdi.

Həzrət Bəhaullahın "Allahın Zahir edəcəyi Kəs" olmasını elan etməsi hər yana yayılan kimi, bu bəyandan öncə və çağırış səslənməzdən öncə iman gətirənlərin arasında olmaqla Məhəmməd Mustafa nida etdi: "Həqiqətən, biz iman gətirdik!" Çünki, hətta bu Bəyandan əvvəl işığın özü dünyanın insanlarını ayırmış pərdələrdən elə nüfuz edib keçirdi ki, hər görən göz şəfəqi görür, hər bir axtaran qəlb öz Məhbubunun camalını görə bilərdi.

Onda Məhəmməd Mustafa bütün gücü ilə, Əmrə xidmətə qalxdı. Nə gecə dincəldi, nə də gündüz. Sonra Qədim Camal Ən Böyük Zindana getdi; bunun ardınca dostlar Bağdadda həbs edildilər və Mosula göndərildilər; tanınmış düşmənlərin ədavəti və Bağdad əhalisinin müxalifətindən sonra da o, dayanmadı, öz yerində qalmaqda davam etdi. Uzun bir zaman beləcə keçdi. Lakin Həzrət Bəhaullaha can atması ilə, ürəyindəki qiyam elə idi ki o, təkbaşına Ən Böyük Zindana yola düşdü. O, son dərəcə məhdudiyyətlər qoyulmuş dövrdə oraya yetişdi və Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu.

Sonra o, Əkkanın yaxınlığında bir yer tapıb yerləşmək üçün izn istədi və Beyrutda yaşamasına icazə verildi. O, oraya getdi və vəfa ilə Əmrə xidmət etdi, gəlib-gedən bütün zairlərə kömək etdi. O, əla bir xidmətçi, səxavətli və iltifatlı bir ev sahibi idi, gəlib getdikcə o, özünü fəda edirdi ki, zairlərin işlərinin qayğısına qalsın.Bütün bunlara görə o, hər yanda tanınırdı.

Həqiqət Günəşi qürub edəndə və Mələyi-Əlanın Nuru süud edəndə, Məhəmməd Mustafa Əhdə sadiq qaldı. O, tərəddüd edənlərin qarşısında elə möhkəm durmuşdu ki, onlar nəfəs belə çəkməyə cürət etmirdilər. O, meteor kimi idi[78], şeytanlara qarşı tuşlanmış top gülləsi idi, pozuculara qarşı qisas qılıncı idi.

[78] İslam rəmzi: Şeytan "daşlanandır". daş yerinə meteorlar deyilir, bununla mələklər Şeytanı Behiştdən qovurlar. Quran 3:31, 15:17, 34; 37:7; 67:5.

Pozuculardan bir nəfər belə onun yaşadığı küçədən keçməyə cürət etmirdi və əgər təsadüfən onunla rastlaşsaydılar, Quranda təsvir olunanlar kimi görünürdülər[79]: O "Tənə vuranın tənəsi onları Allahın yolundan döndərməz, küfr edənin dəhşətli gücü onu sarsıtmaz[80]" ifadəsinin təcəssümü idi.

Əvvəlki kimi eyni həyat tərzi sürərək o, inananlara azad bir ruhla, pak niyyətlə xidmət edirdi. Bütün ürəyi ilə, o, Müqəddəs Torpağa gələnlərə, Mələyi Əlanın dövrəyə aldığı yerə təvaf etməyə gələn zairlərə xidmət edirdi. Sonra o, Beyrutdan İskəndəruna köçdü, bir müddət orada qaldı, sonra öz Rəbbinə maqnit kimi cəzb olunaraq, Ondan başqa hər şeydən göz yummaqla, Onu müjdələrinə sevinərək, heç kəsin kəsə bilməyəcəyi ipdən möhkəm yapışaraq, ruh qanadları üzərində o, Uca Səmaya yüksəldi.

Allah onu ən Uca Cənnətə, bəha məclisinə[81] qaldırsın. Allah onu nurlar diyarına, əsrarəngiz Mələkuta, qüdrətli, qüvvət Sahibi Rəbbin şəfəqlərinin toplantısına gətirsin. Əbhanın Bəhası onun üzərinə olsun.

---

[79] Onlar kar, lal və kordurlar (haqqı eşitməz, danışmaz və görməzlər). Buna görə də (öz pis adətlərindən, yaramaz əməllərindən) dönməzlər.
[80] Quran 2-17
[81] Quran 4-71

## Süleyman Xan Tunukabani (↑)

SÜLEYMAN XAN CAMALƏDDİN ləqəbi almış bir mühacir və köçkün idi. O, Tunukabanda, o bölgənin qədim ailələrindən birində doğulmuşdu. O, zənginlik içində bəslənmiş, rahatlığa öyrəşmiş, təmtəraqlı bir həyatda böyümüşdü. Uşaqlıqdan onun uca iddiaları və nəcib məqsədləri vardı, ləyaqət və qeyrət təcəssümü idi. O, əvvəlcə öz yodaşlarından uzaqlaşmaq və yüksək bir məqama (mərtəbəyə) nail olmağı planlaşdırdı. Bu səbəbdən də doğulduğu yeri tərk etdi və paytaxt Tehrana getdi, ümid etdi ki, orada o, öz nəslini ötüb keçərək lider olacaq.



Lakin Tehranda Allahın rayihəsi onun yoluna əsdi və o, Məhbubun çağırışını dinlədi. O, yüksək rütbə eşqinin narahatlıqlarından qutuldu; bütün səs-küydən və boş danışıqlardan, şan-şöhrətdən, dəbdəbə və saraylardan, bu torpaq topasından, bu dünyadan xilas oldu. O, zəncirləri atdı, Allahın fəzli ilə dinclik tapdı. İndi onun üçün şərəf kürsüsünün insanların ayaqqabılarını çıxardıqları yerdən heç bir fərqi yox idi, yüksək vəzifə isə keçib getmiş və unudulmuş bir şey idi. O, yaşamın ləkəsindən təmizlənmiş, ürəyi yüngülləşmişdi, çünki o, onu indiki həyatda saxlayan qandalları qırıb atmışdı.

Zəvvar paltarı geyinərək, o, sevgili Yarı axtarmağa yollandı və Ən Böyük Zindana gəldi; bir müddət o, burada Camal'i-Qədimin pənahında dincəldi; burada Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu, Onun müqəddəs dodaqlarından möhtəşəm təlimlər eşitdi. Rayihəli hava ilə nəfəs alandan, gözləri nurlanandan, qulaqları Rəbbin

sözlərinə köklənəndən sonra ona izn verildi ki, Hinidstana səfər etsin və əmr edildi ki, həqiqi axtaranlara həqiqəti öyrətsin.

Ürəyini Allaha bağlayaraq, Allahın şirin rayihələrinə vurğun halda, Allaha məhəbbət atəşinə tutularaq, o, Hindistana yola düşdü. Orada o, gəzib-dolaşdı, hər hansı bir şəhərə gələndə Əzəmətli Mələkutun çağırışını qaldırdı və müjdə verdi k,i Dağda Danışan gəlmişdir. O, Təlimlərin müqəddəs toxumlarını səpərək Allahın əkinçilərindən biri oldu. Bu əkin məhsuldar idi. Onun vasitəsilə əhəmiyyətli sayda insan Nicat Gəmisinə yol tapdılar. İlahi hidayət nuru o ruhların üzərinə saçıldı, onların gözləri isə Allahın qüdrətli əlamətlərini görməklə nurlandı. O, hər bir məclisin mərkəzi siması, şərəfli qonağı oldu. Bu gün Hindistanda, onun orada olmasının xeyri aydın görünür, onun təbliğ etdiyi adamlar isə indi öz növbələrində başqalarını Əmrə istiqamətləndirilər.

Hindistan səfərindən sonra Süleyman xan Həzrət Bəhaullahın yanına qayıtdı, lakin o, gələndə süud baş vermişdi. O, dayanmadan göz yaşları tökdü, onun ürəyi kədər buxurdanı oldu. Lakin o, Cənnətdə kök salaraq Əhdə sadiq qaldı.

Süudundan bir az əvvəl Həzrət Bəhaullah buyurmuşdu: "Kimsə İrana getsə və əgər bunu çatdıra bilsə, bu mesaj Əminus-Sultana[82] çatdırılmalıdır: "Sən dustaqlara kömək etmək üçün addım atmısan; sən həqiqətən onlara layiqli xidmət göstərmisən; bu xidmət unudulmayacaq. Əmin ol ki, bu sənə şərəf gətirəcək, sənin bütün işlərinə xeyir-bərəkət cəzb edəcək. Ey Əminus-Sultan! Tikilən hər bir ev bir gün çöküb xarab olacaq, Allahın evindən başqa; o, daha da böyüyəcək, hər gün daha da yaxşı qorunacaq. Onda var gücünlə Allahın Taxtına xidmət eylə ki, Cənnətdə evə aparan yolu kəşf edəsən və əbədi qalacaq binanı tapasan". Həzrət Bəhaullahın süudundan sonra bu mesaj Əminus-Sultana çatdırıldı.

Azərbaycanda türk mollaları Ağa Seyid Əsədullahı alçaltdılar, izlədilər və Ərdəbildə onun qanını axıtmaq qəsdinə durdular; Lakin hakim bir qurğu ilə onun döyülməsinin və sonra da öldürülməsinin qarşısnı ala bildi; o, qurbanı zəncirlərdə Təbrizə göndərdi və oradan isə Tehrana göndərdi. Əminus-Sultan dustağın köməyinə yetişdi və öz idarəsində, Əsədullaha sığnacaq verdi. Bir gün Baş nazir xəstə olanda Nəsrəddin şah ona baş çəkmək üçün onun yanına gəldi. Nazir vəziyyəti izah etdi, dustağına xeyli

[82] Baş Nazir

tərif yağdırdı; O qədər ki, Şah gedəndə Əsədullaha böyükl iltifat göstərdi və ona təsəlli sözləri dedi. Onda, o erkən vaxtlarda dustaq dar ağacını bəzəmək üçün asılar və güllələnərdi.

Bir müddət sonra Əminus-Sultan şahın qəzəbinə tuş gəldi. Gözdən düşmüş, rüsvayçılıqla, o, Qum şəhərinə sürgün olundu. Bunun üzərinə bu bəndə Süleyman xanı İrana göndərdi, o, mənim yazdığım duanı və rəsmi məktubu apardı. Duada yıxılmış nazir üçün Allahdan kömək və kərəm, yardım rica edilirdi ki, o, unudulmuşluq küncündən çıxıb lütf məqamına qayıtsın. Məktubda biz aydın bir şəkildə qeyd etmişdik: "Tehrana qayıtmağa hazırlaş. Tezliklə Allahın köməyi yetişəcək; fəzl işığı yenidən sənin üzərinə saçılacaq; tam səlahiyyətlə sən azad olacaqsan və Baş Nazir ediləcəksən. Bu, zülmə məruz qalmış bir insan üçün sənin qoyduğun səylərin mükafatıdır". O məktub və dua bu gün də Əminus-Sultanın ailəsindədir.

Süleyman xan Tehrandan Quma getdi. Onun göstərişlərinə uyğun olaraq o, Məsumənin[83] məqbərəsində bir hücrədə yerləşdi. Əminus-Sultanın qohumları onu orada ziyarət etdilər; Süleyman Xan hakimiyyətdən düşmüş Naziri xəbər aldı və onunla görüşmək istədiyini bildirdi. Bütün təvəkkülünü Allaha bağlayaraq Süleyman Xan Nazirin evinə tələsdi, onunla ayrıca görşdükdən sonra Əbdül-Bəhanın məktubunu ona təqdim etdi. Nazir ayağa qalxdı və sonsuz bir ehtiramla məktubu qəbul etdi. Sonra Xana müraciət edərək dedi: "Mən ümidimi itirmişdim.. Əgər bu arzu yerinə yetərsə, mən xidmətə qalxacağam; Mən Allahın dostlarını qoruyacaq və dəstəkləyəcəyəm". Sonra o, minnətdarlığını, borclu olduğunu və sevincini bildirdi və əlavə etdi: "Allaha həmd olsun, mən yenidən ümid edirəm; Ümidvaram ki, Onun köməyilə mənim xəyalım gerçəkləşəcək".

Xülasə, Nazir söz verdi ki, dostlara xidmət edəcək və Süleyman xan oranı tərk etdi. Sonra Nazir ona yol məsrəflərini ödəmək üçün bir qədər pul təklif etdi, lakin Süleyman xan imtina etdi və Nazirin təkid etməsinə baxmayaraq, heç nə qəbul etmədi. Xan qayıdıb səfərindən hələ Müqəddəs Torpağa yetişməmişdi ki, Əminus-Sultan sürgündən geri çağrıldı və yenidən dərhal Baş Nazir vəzifəsinə dəvət edildi. O, vəzifəni qəbul etdi və tam səlahiyyətlə işləməyə başladı; əvvəlcə, o, doğrudan da,

[83] Qum səkkizinci imam İmam Rzanın bacısı Həzrət Fatimənin məqbərəsinin olduğu şəhərdir, o orada 816-cı ildə dəfn edilmişdir.

inananları dəstəklədi, lakin sona yaxın, Yəzddəki şəhidliklər zamanı o, biganə qaldı. O, qurbanlara nə bir yolla yardım göstərdi, nə müdafiə etdi, nə də onların hamısını öldürənə qədər onların dəfələrlə etdikləri şikayətlərə qulaq asdı. Odur ki, o da vəzifədən çıxarıldı və darmadağın edildi; o qədər vüqarla dalğalanan bayraq endirildi, o ümidvar ürək məyusluğa düçar oldu.

Süleyman xan Müqəddəs Torpaqda, ətrafında Uca Mələklərin dövrə vurduqları Məqamın yaxınlığında yaşamaqda davam etdi. Qaçılmaz ölüm gələnə qədər o, inananlarla yoldaşlıq etdi, Yaşayan və ölməz Olanın saraylarına yola düşdü. O, bu torpaq topasına, dünyaya arxa çevirdi və nur diyarına tələsdi. O, fani varlıq qəfəsini sındırdı və sonsuz, məkansız Fəzaya uçub getdi. Allah onu rəhmət sularında qərq etsin, Əfvini onun üzərinə yağdırsın, ona bol fəzl möcüzələri əta etsin. Ona salam və tərif olsun.

## Misgər Əbdürrəhman (↑)

BU, KAŞANDAN OLAN səbrli, dözümlü bir kişi idi. O, lap erkən inananlardan biri idi. Hələ bığ yeri tərləməmişdi ki, o, Allaha məhəbbət şərabından içdi, öz gözləri ilə səmavi süfrənin onun qarşısında açıldığını gördü və bol fəzldən öz imanını və payını aldı.

Bir az keçdikdən sonra o, evini tərk etdi, Bağdada olan qızılgül gülşəninə yola düşdü və orada Həzrət Bəhaullahın hüzuruna müşərrəf oldu. O, bir müddət İraqda qaldı, sonsuz lütf tacını başına qoydu. O, Həzrət Bəhaullahın hüzuruna daxil olar, dəfələrlə piyada Onu İki Kazımın məqamına müşayiət edərdi; bu onun üçün böyük həzz idi.

Əbdürrəhman Mosula sügün olunanların arasında idi və sonra o, özünü Əkka qalasına çatdırdı. Burada o, Həzrət Bəhaullahdan xeyir-dua alaraq yaşadı. O, kiçik ticarətlə, xırdavatçılıqla məşğul olurdu, amma bundan razı idi, xoşbəxt və rahat idi. Beləcə möminlik yolu ilə addımlayaraq, o, səksən yaşına qədər yaşadı, bu yaşda, hüzur içində və sakit bir halda Allahın Astanasına uçub getdi. Allah orada onu kərəm və şəfqətə bürüsün, ona əfv libası geyindirsin. Onun nurlu məzarı Əkkadadır.

## Məhəmməd İbrahim Təbrizi (↑)

BU NƏCİB VƏ əsilzadə insan, Əkka zindanında olan möhtərəm Əbdül-Fəttahın oğlu idi. Atasının orada məhbus olduğunu öyrənəndə, o, bütün sürətlə qalaya gəldi ki, o da şiddətli bəlalarda ona şərik olsun. O, hikmətli, anlayışlı, İlahi eşq şərabından içib həyəcanlanmış, lakin gözəl, xislətinə xas təmkini olan və sakit bir şəxs idi.

O, atasının xasiyyətini götürmüşdü, belə bir deyimin təcəssümü idi ki, uşaq əcdadının sirli mahiyyətidir. Bu səbəbdən uzun müddət ərzində, İlahi Hüzurda o, ləzzət tapdı, tam bir əmin-amanlıqdan həzz aldı. Gündüzlər o, ticarəti ilə məşğul olar, axşamlar evin qapısına tələsərdi ki, dostlarla bir yerdə olsun. O, dəyanətli və səmimi olanların hamısı ilə yaxın idi. O, casəratlə oldu idi. O, Allaha minnətdar, pəhrizkar və ismətli idi, Rəbbin kərəm və fəzlini gözləyir və onlara bel bağlayırdı. O, atasının çırağını yandırdı, Əbdül-Fəttahın evini işıqlandırdı, bu tez ötüb keçən dünyada törəmələri (nəsli) arxada buraxdı.

O, həmişə inananları xoşbəxt etmək üçün lazım olan şeyləri edərdi; o, daim onların rifahına diqqət yetirirdi. O, müdrik, təmkinli və ciddi, möhkəm idi. Allahın fəzli ilə o, sonadək sədaqətli, imanda salamat qaldı. Allah ona əfv piyaləsindən içirsin; Allahın kəramət və razılıq çeşməsindən dadsın; Allah onu ilahi nemət zirvələrinə qaldırsın. Onun şirin rayihəli məzarı Əkkadadır.

## Məhəmməd Əli Ərdəkanı (↑)

CAVANLIĞININ ÇİÇƏKLƏYƏN BİR zamanında nurlu Məhəmməd Əli Allahın nidasını eşitdi və ürəyini ilahi fəzlə təslim etdi. O, Müqəddəs Ağacın pöhrəsi, Əfnanın xidmətində durdu, xoşbəxt və məmnun yaşadı. Necə oldu ki, Əkka şəhərinə gəldi, xeyli müddət Müqəddəs Astanada oldu, əbədi şərəf tacı qazandı. Həzrət Bəhaullahın fəzlinin nəzəri onun üzərində idi. O, vəfalı bir ürəklə xidmət etdi. onun şad bir təbiəti, yaraşıqlı bir çöhrəsi vardı; O inanan, axtaran, sınaqdan çıxmış və etibarlı bir insan idi.

Həzrət Bəhaullahın günlərində, Məhəmməd Əli dəyanətli qaldı, Böyük Dərddən sonra onun ürəyi ona xəyanət etmədi, zira o, Əhdin şərabından içmiş, fikri Allahın nemətləri üzərində cəmləşmişdi. O, Hayfaya köçdü, son nəfəsinə qədər Karmel Dağında, Müqəddəs Məqamın yanındakı Həzrət`ül-Qüdsə yaxın br yerdə möhkəm bir inanan kimi yaşadı, sonra ölüm gəldi, yer həyatının xalısı yığışdırıldı və bir kənara qoyuldu.

Bu şəxs Astananın həqiqi xidmətçisi, inananlara yaxşı dost idi. Hamı ondan məmnun idi, hamı üçün gözəl, mülaym və incə bir yoldaş idi. Allah ona Öz uca Mələkutunda yardım etsin, Əbha Mələkutunda ona yuva versin, Cənnət bağlarından görüş yerindən, Allahın mistik seyrangahından onun üzərinə bol feyz yağdırsın. Onun əmbər ətirli məzarı Hayfadadır.

## Hacı Ağa Təbrizi (↑)

TƏBRİZDƏN GƏLMİŞ BU ruhani şəxs erkən gəncliyindən mistik biliyi hiss etmiş, Allahın tünd şərabından içmişdi və köməksiz yaşlarında Əmrdə daim dəyanətli qalmışdı.

Mövlasına məftun olmuş halda o, bir müddət Azərbaycanda yaşadı. Allahın adını daşıyanlardan biri kimi o tərəflərdə məşhur olanda insanlar onun həyatını viranə qoydular. Qohumları və dostları onun əleyhinə çıxdılar, hər gün onu təqib etmək üçün yeni bir bəhanə tapdılar. Nəhayət o, evini tərk etdi, ailəsini götürdü və Ədirnəyə qaçdı. Ədirnə dövrünün sonuna yaxın o, oraya çatdı və zalımlar onu həbsə aldılar.

Bizlərlə, evsiz-eşiksiz sərgərdanlarla birlikdə və Camal`i-Qədimin hifzi altında o, Ən Böyük Zindana gəldi; o, dost və sirdaş idi, müti halda və dözümlə dərd və fəlakətləri bizimlə paylaşdı. Məhdudiyyətlər bir qədər yumşalandan sonra, o, ticarətlə məşğul oldu, Həzrət Bəhaullahın kərəmi ilə, rahatlıq və dinclik içərisində idi. Lakin onun bədəni keçmişdəki məşəqqətlərdən, bütün əzab-əziyyətlərdən zəifləmişdi, duyğu gücləri korlanmışdı; elə ki, sonda o, sağalmağına ümid olmayan bir vəziyyətdə xəstə düşdü. Həzrət Bəhaullahdan uzaqda olmadan, Onun hifz kölgəsində, bu ən əhəmiyyətsiz dünyadan uca Səmalara, bu qaranlıq yerdən nurlar diyarına tələsdi. Allah onu əfv sularında qərq etsin; Allah onu Behişt bağlarına gətirsin və onu orada əbədən salamat saxlasın. Onun pak qəbri Əkkadadır.

## Qulam Əli Nəccar (↑)

SƏNƏTİ DÜLGƏR OLAN və sənətdə ustad olan bu şəxs Kaşandan gəlmişdiş İman və yəqinlikdə o, qınından sırılmış qılınc kimi idi. Öz şəhərində o, mömin, doğruçu və etibara layiq bir şəxs kimi məşhur idi. O, alicənab, pəhrizkar və ismətli bir insan idi. İman gətirəndə isə onun Həzrət Bəhaullahla görüşmək kimi bir intizarı sakitləşmək bilmədi; nəşəli bir sevgi ilə dolaraq, o, Kaf torpağından yola düşdü və İraqa getdi, orada o, qalxan Günəşin şəfəqlərinə baxdı.

O, yumşaq, səbrli, sakit, əsasən özünə qapalı bir şəxs idi. Bağdadda öz sənəti üzrə işləyirdi, dostlarla əlaqə saxlayırdı, Həzrət Bəhaullahın hüzurunda olmaqla davam gətirirdi. Bir müddət ,o tam xoşbəxtlik və dinclik içində yaşadı. Sonra həbs olunanlar Mosula göndəriləndə, o da qurbanların arasında idi, onlar kimi zalımların qəzəbinə düçar olmuşdu. O, xeyli müddət zindanda qaldı, azad olunan kimi Əkkaya gəldi. O, burada da məhbuslara bir dost idi və Qalada da öz bacarıqlarını işlətməkdə davam etdi. Həmişəki kimi, o, tənhalığa qaçırdı, dostdan və yaddan uzaq durmağa meylli idi, çox vaxt isə özbaşına yaşayırdı.

Sonra bizim üstümüzə ən böyük sınaq, ən böyük dərd gəldi. Qulam Əli Müqəddəs Türbənin üzərində işə başladı və bütün gücünü işə saldı. Bu gün də Həzrət Bəhaullahın Məqamının daxili həyətinin üstündəki şüşə çardaq onun bacarığının məhsulu olaraq oradadır. O, ürəyi büllur kimi saf bir şəxs idi. Onun üzü parlayırdı. Onun daxili haləti sabit idi; heç vaxt dəyişməz, tərəddüd etməzdi. O, son nəfəsinə qədər dəyanətli, sevən və düz (səmimi) idi.

Bu qonşuuluqda bir neçə il qaldıqdan sonra o, Allahın hər şeyi saran mərhəmət qonşuluğuna ucaldı və uca Cənnətdə sakin olanların dostu oldu. O, Həzrət Bəhaullahın görüşünə hər iki dünyada müşərrəf oldu. Bu, ən qiymətli nemət, dəyəri bilinməyən bir bəxşişdir, Ona salam və tərif olsun. Onun nurlu məzarı Əkkadadır. Əbhanın bəhası onun üzərinə olsun.

## Cənab`i Münib (↑)

ONUN ADI MİRZƏ Ağa idi və özü isə bir ruh idi. O, Kaşanlı idi. Həzrət Babın günlərində o, Allahın şirin rayihələrinə cəlb olunmuşdu. O, məhz o zaman oda tutuşmuşdu. O, gözəl, yaraşıqlı, lətafətlə dolu və incə bir gənc idi. O, tayı-bərabəri olmayan bir xəttat, şair idi, həmçinin gözəl səsi vardı. O, hikmətli və həssas (qavrayışlı) idi. Allahın Əmrində dəyanətli; Allahdan başqa hamıdan əl üzmüş Allaha məhəbbətin bir alovu idi.

Həzrət Bəhaullahın İraqda yaşadığı illərdə, Cənabi Münib Kaşanı tərk etdi və Onun hüzuruna tələsdi. O, getdi, kiçik və sadə bir evdə çox çətinliklə dolandı və Allahın Sözlərini yazmaqla məşğul olmağa başladı. Onun alnında Zühurun bəxşişlərini aydınca görmək olardı. Bütün bu fani dünyada onun malik olduğu cəmi bir şey vardı, bu da onun qızı idi, lakin o, İraqa tələsərkən hətta qızını belə İranda qoyub gəlmişdi.

O zaman ki, Həzrət Bəhaullah və Onun məiyyəti təmtəraq və təntənə ilə Bağdaddan ayrıldı, Cənab Münib də dəstəni piyada müşayiət etdi. Bu cavan İranda asan və xoş bir həyat sürmüşdü, keyfə həvəsi olan bir həyat. O, həm də bir qədər incə və zərif idi və öz istədiyi kimi yaşayırdı.bu aydındır ki, bu cür bir insan Bağdaddan İstanbula gedərkən nə çəkmişdi. Amma bununla belə, o, sevinclə çöllərdə uzun məsafələr ölçdü, gecə və gündüzünü avazla dualar oxumaqla keçirdi, Allaha üz tutaraq Onunla ünsiyyət etdi.

O səfərdə o, mənim yaxın sirdaşım idi. Bəzi gecələr biz birlikdə Həzrət Bəhaullahın hovdasının yanında hərəmiz bir tərəfdə yol gedərdik, sevincimizi isə təsvir etmək mümkün deyil. O gecələrdə bəzən o, şeirlər oxuyardı; onlardan bəziləri Hafizin qəsidələri idi, biri belə başlayırdı, "Gəl, bu qızılgülləri səpək, gəl bu şərabı süzək[84]", yaxud bir başqası:

Biz Sultanımıza təzim etsək də
Özümüz səhər ulduzuyuq
Bizim rənglərimiz dəyişməzdir
Biz qırmızı şir, qara əjdahayıq.

[84] Şeirin qalanı belədir: Gəl Cənnətin damını yaraq və yeni bir nizam quraq.

Camal`i-Mübarək İstanbuldan ayrılanda, Cənabi-Münibə göstəriş verdi ki, İrana qayıtsın və Əmri bəyan etsin. Əmrə uyğun olaraq, o, İrana getdi və uzun bir zaman, xüsusilə Tehranda görkəmli xidmətlər etdi. O, yenə də İrandan Ədirnəyə qayıtdı, Həzrət Bəhaullahın hüzuruna daxil oldu, Ona qulluq etmək imtiyazından ləzzət aldı. Ən böyük fəlakət zamanı isə, yəni Əkkaya sürgün olunanda, o da bu Yolda həbs edildi və indi artıq zəif və xəstə halda, Həzrət Bəhaullahın məiyyəti ilə birlikdə səfərə çıxdı.

O, şiddətli xəstəlikdən sarsılmışdı və ürək yandıran qədər zəif idi. Amma o, yenə də müalicə ala biləcəyi Ədirnədə qalmağa razı olmadı, çünki o, həyatını fəda etmək və Rəbbinin ayaqları altına yıxılmaq istəyirdi. Biz dənizə yetişənə qədər getdik. O, indi o qədər zəifləmişdi ki, üç nəfər kişi onu qaldırıb gəmiyə aparmalı oldu. Gəmiyə qalxandan sonra onun vəziyyəti elə pisləşdi ki, kapitan onu gəmidən endirməkdə israr etdi, lakin bizim dəfələrlə ricamızı dinləyərək Smirnaya qədər gözlədi. Smirnada gəminin kapitanı polkovnik Ömər Bəyə müraciət etdi, bizi müşayiət edən hökumətin nümayəndəsi ona dedi: "Əgər siz onu quruya (yerə) salmasanız, mən bunu zorla edəcəyəm, çünki gəmi bu vəziyyətdə sərnişin qəbul etməyəcək".

Belə olduqda, biz məcbur olduq ki, Cənabi-Münibi Smirnada (indiki İzmir) xəstəxanaya qoyaq. O qədər zəif idi ki, bir söz belə deməyə taqəti yoxdu, amma güclə özünü demək olar, sürüyüb Həzrət Bəhaullahın yanına gəldi, Onun ayaqlarına yıxıldı və ağladı. Həzrət Bəhaullahın da çöhrəsində şiddətli bir ağrı vardı.

Biz Cənabi Münibi xəstəxanaya apardıq amma məmurlar bizə bir saatdan çox vaxt vermədilər. Biz onu yatağa uzatdıq; onun mübarək başını yastığa qoyduq; biz onu tutduq və çoxlu öpdük. Sonra onlar bizi zorla oradan çıxardılar. Aydındır ki, biz nə hiss etdik. Mən o anı xatırlayanda həmişə gözlərim yaşarır; Mənim ürəyimdən daş asılıb, onun nə olduğunu yadıma salıram. Böyük bir insan; son dərəcə hikmətli, dəyanətli, təvazökar və ciddi idi; iman və yəqinlikdə onun bənzəri yoxdu. Onda batini və zahiri, ruhani və fiziki kamilliklər birləşmişdi. Məhz ona görə o, sonsuz bəxşiş və fəzl ala bildi.

Onun məzarı Smirnadadır, amma unudularaq baxımsız qalıb. Nə vaxt imkan olsa, dostlar onu axtarıb tapmalı, o tərk edilmiş torpaq (məzar) tez-tez ziyarət olunan

məbədə[85] çevrilməlidir ki, oranı ziyarət edən zairlər onun son mənzilinin şirin rayihələrindən nəfəs alsınlar.

[85] Quran 52-4

## Mirzə Mustafa Nəraqi (↑)

PAK VƏ GÖZƏL ruhların arasında, Nəraqın öndə gələn sakinlərindən və ilk inananlardan biri Mirzə Mustafa da vardı. Onun üzü İlahi Məhəbbətdən parlayırdı. Onun fikri çəmənlər və çiçək ləkləri kimi gözəl mistik mənalar anemonları ilə məşğul idi.

Məhz Həzrət Babın zamanında o, dodaqlarını ruhani həqiqət camına toxundurdu və ağlında qəribə qarışıqlıq, ürəyində şiddətli həsrət oyandı. O, Allahın yolunda bütün varidatını atdı; o, hər şeyi itirdi, evini tərk etdi, qohumlarını, fiziki rifahını, fikir rahatlığını əldən verdi. Qum üzərindəki balıq kimi, o, həyat suyuna yetişmək üçün savaşdı. O, İraqa gəldi, könül dostlarına qoşuldu və Həzrət Bəhaullahın hüzuruna daxil oldu. Bir müddət orada nəşə və məmnunluq içində sonsuz nemətlər alaraq yaşadı. Sonra o, İrana göndərildi, orada bütün gücü ilə, Əmrə xidmət etdi. O, sağlam və müvəffəq bir şəxs idi, möhkəm, dağlar kimi tərpənməzdi. Salamat, etibara layiq; o qədər çaxnaşma və təşviş içində olan bu adama çöl itlərinin ulartısı milçək vızıltısı idi; sınaq və bəlalar onun beynini dincəldirdi; birdən tutuşan bəlalar alovuna atılanda onun işıldyan qızıl olması üzə çıxdı.

Həzrət Bəhaullahın məiyyəti İstanbuldan Ədirnəyə yola düşən gün Mirzə Mustafa İrandan gəlib çıxdı. Onun Həzrət Bəhaullaha yetişmək üçün bir dəfədən başqa şansı yox idi; bura gələndə ona göstəriş verildi ki, İrana qayıtsın. Belə bir məqamda o, qəbula müşərrəf oldu.

Mirzə Mustafa Azərbaycana çatanda Əmri yaymağa başladı. Gecə və gündüz o, dua halətində qaldı orada. Təbrizdə aşıb-daşan piyalədən içdi. Onun atəşi artdı, onun təbliği çaxnaşma qaldırdı. Belə olduqda görkəmli alim məşhur Şeyx Əhməd Xorasani Azərbaycana gəldi və onlar qüvvələrini birləşdirdilər. Nəticə belə bir dəfedilməz ruhani yanğın oldu ki, onlar Əmri açıq və camaat qarşısında təbliğ etdilər və Təbriz camaatı qəzəblə ayağa qalxdı.

Fərraşlar onların arxasınca düşüb qovdular və Mirzə Mustafanı tutdular. Bu zaman zalımlar dedilər: “Mirzə Mustafanın iki uzun saç hörüyü vardı. Bu o adam deyil”. Birdən Mirzə Mustafa papağını çıxardı və saçlarını silkələyib tökdü. “Baxın!” O dedi, “Mənəm”. Belə olduqda onu həbs etdilər. Onlar ona və Şeyx Əhmədə işgəncə

verdilər və nəhayət Təbrizdə, bu iki böyük insan ölüm piyaləsindən içib şəhid olsunlar və Üfüq`i-Əlaya tələsdilər.

Onlarınn öldürüldükləri yerdə Mirzə Mustafa qışqırdı: "Birinci məni öldürün, məni Şeyx Əhməddən əvvəl öldürün ki, onların onun qanını tökmələrini görməyim!"

Onların böyüklüyü Həzrət Bəhaullahın Yazılarında həmişəlik üçün yazılıb. Onlar Ondan çoxlu Lövhlər aldılar, onların ölümündən sonra O, Öz uca qələmi ilə onların yaşadıqları iztirabları yazdı.

Gəncliyindən yaşlı vaxtına qədər bu nurlu insan Mirzə Mustafa bütün həyatını Allahın yolunda xidmətə həsr etdi. Bu gün o, Əbha Cənnətində, Allahın təsvirəgəlməz mərhəməti yanında sakindir və son dərəcə yüksək bir şadlıqla sevinir, Rəbbinin tərifini söyləyir. Ona xeyir-bərəkət olsun, gözəl yuva[86] Rəblərin Rəbbindən ona böyük sevinc müjdələri olsun. Allah ona o uca Məclisdə məqam bəxş etsin.

---

[86] Quran 13-28

## Zeynül-Müqərrəbin (↑)

BU GÖRKƏMLİ ŞƏXS Həzrət Babın yoldaşları və Həzrət Bəhaullahın dostları arasında ən böyük şəxsiyyətlərdən biri idi. İslamda olarkən, o, artıq paklıq və həyatının təmizliyi ilə məşhur idi. O, bir çox istiqamətlərdə istedad sahibi və böyük biliyə malik idi, O, bütün Nəcəfabadın lideri və ruhaniyyət təcəssümü idi, o, bölgənin bütün böyükləri ona sonsuz ehtiram göstərirdilər. O, danışanda həlledici fikir onun olardı; O, hökm yürüdəndə, o keçirdi; çünki hamı onu meyar hesab edir, son mötəbərlilik məqamı bilirdilər.



O, Həzrət Babın bəyanını duyar-duymaz, ürəyinin dərinliklərindən dedi: "Ey bizim Rəbbimiz! Biz həqiqətən, çağıranın səsini eşitdik. O, bizi Dinə çağırdı–"Rəbbinizə inanın və biz inandıq[87]", o, bütün mane olan pərdələrdən xilas oldu; onun şübhələri dağıldı, keçmişin vəd verdiyi Camalı vəsf və tərənnüm etməyə başladı. İsfahanda öz evində, uzun zamandan bəri həsrəti çəkilən Kəsin zühurunun baş verməsini hər yana yaymaqla məşhur idi. Riyakarlar ona rişxənd edir, lənətləyir və əzab-əziyyət verirdilər. İnsanlar isə "otlar üzərindəki ilan kimi kütlə", əvvəllər ona təsim edənlər, indi ona zərər vurmaq üçün qalxdılar. Zülmkarlar hər gün yeni qəddarlıq, yeni əziyyət gətirirdilər. O, bunların hamısına dözdü, gözəl bəlağətlə təbliğində davam etdi. Onların hiddəti artıqca o, dəyanətli, sabit qaldı. Əlində o İlahi müjdələr camını uzadıb durmuşdu, Allahı tanımağın məstedici içkisindən gələn hər kəsə təklif edirdi. Onda

[87] Quran 3-190

qətiyyən qorxu yoxdu, təhlükənin nə olduğunu bilmirdi, Rəbbin müqəddəs yolu ilə sürətlə gedirdi.

Şaha qəsd cəhdindən sonra heç bir sığınacaq yox idi; ağır müsibətlərsiz nə bir axşam, nə də bir səhər vardı. Belə bir vaxtda onun Nəcəfabadda qalması inananlar üçün böyük təhlükə olduğundan, oranı tərk etdi və İraqa getdi. Bu o zaman idi ki, Camal`i-Mübarək Kürdüstanda idi, orada O, güşənişinliyə çəkilmişdi və Sar-Qalu mağarasında yaşayırdı, onda Cənabi Zeyn Bağdada gəldi. Lakin onun ümidləri parçalandı, ürəyi kədərləndi, çünki hər şey səssiz idi: Allahın Əmrindən bir söz belə yox idi, onun nə adı, nə də şanı qalmışdı; nə yığıncaqlar vardı, nə də bir çağırış eşidilirdi. Yəhya qorxudan dəhşətə düşərək ortadan yox olub hardasa qaranlıq bir yerdə gizlənmişdi. Ölgün, susqun, o, özünü gizlətmişdi. Nə qədər çalışsa da, Cənab Zeyn bir kəsi tapa bilmədi. Tək bircə təsadüdən o, möhtərəm Kəlimlə rastlaşmıdı. Lakin bu zaman inananlar çox böyük ehtiyatkarlıq edirdilər və o, çıxıb Kərbəlaya getdi. Bir müddət orada qaldı, Yazıların üzünü köçürməklə məşğul oldu, sonra da evinə, Nəcəfabada döndü. Burada mənfur təqibləri və amansız düşmənlərin hücumları dözülməz oldu.

Lakin şeypur ikinci dəfə[88] səslənəndə, o həyat qayıtdı. Onun qəlbi Həzrət Bəhaullahın gəlişinə cavab verdi; Təbilin səsinə: "Mən sizin Rəbbiniz deyiləmmi?" onun ürəyi cavab verdi:"Bəli![89]" Bəlağətlə, Allahın Zahir edəcəyi Kəsin–Həzrət Babın Vəd Verdiyi Kəsin–doğrudan da gəldiyini sübut etmək üçün o həm məntiqi, həm də tarixi sübutlar gətirərək yenidən təbliğ başladı. Susuzlara o canlandırıcı su, axtaranlara Mələyi-Əladan gələn cavab idi. Yazılarımda və danışıqlarında, möminlər arasında o, birinci idi, izah və şərhlərində isə Allahın qüdrətli əlaməti idi.

Onun həyatı İrtanda qaçılmaz təhlükə altında idi; Onun Nəcəfabadda qalması ara qarışdıranları qızışdıra və iğtişaş sala biləcəyi üçün, o, Ədirnəyə tələsdi və Allahın sığınacağını axtararaq və "Ya Rəbb, Ləbbeyk (Burdayam)" söyləyərək getdi. Aşiqin ziyarətçi paltarını geyinərək o arzusunun Məkəsinə yetişdi. Bir müddət o orada, Həzrət Bəhaullahın hüzurunda qaldı, sonra ona cənab Mirzə Cəfər Yəzdi ilə birlikdə Əmri bəyan etmək üçün getmək əmri verildi. O, İrana qayıtdı və daha da bəlağətlə elə təbliğə başladı ki, Rəbbin gəlişinin müjdələri göylərdə əks-səda verdi. Mirzə Cəfərlə

[88] Quran 39-68
[89] Quran 7-171

birlikdə o hər yerə getdi, abad və xaraba şəhərləri gəzdi, Camal`i-Mübarəkin indi zühur etmə müjdəsini yaydı.

O, bir də İraqa qayıtdı, burada o, hər bir məclisin mərkəzi, dinləyənlərin sevinci idi. O, həmişə müdrik məsləhətlər veririrdi. O, həmişə Allahın məhəbbət oduna tutuşub yanırdı.

İnananlar İraqda həbs edilib Mosula göndəriləndə, Cənab Zeyn başçı oldu. Bir müddət o, başqalarına bir təsəlli kimi və onların müşküllərini həll etməyə çalışaraq Mosulda qaldı. O, insanların ürəklərində məhəbbət şamı yandırar, bir-birlərinə iltifatlı olmağa sövq edərdi. Sonra o, Həzrət Bəhaullah xidmət etmək üçün izn istədi; buna icazə veriləndə, o, Zindana gəldi, və Məhbubun hüzuruna daxil olmaq şərəfinə malik oldu. Sonra o, özünü müqəddəs ayələri yazmaq və dostları təşviq etməklə məşğul etdi. Mühacirlərə o, sevginin özü idi. Müsafirlərin ürəklərini qızdırırdı. O, heç vaxt bir an belə dincəlmədi, Bəhai Yazılarını səhvsiz bir diqqətlə köçürərkən hər gün yeni fəzl və nemətlər aldı.

Erkən yaşlarından son nəfəsinə qədər bu görkəmli kişi Məzhərə xidmətində heç vaxt qüsur etmədi. Süuddan sonra o, elə kədərə düşdü, davamlı göz yaşı tökdü, elə iztirab çəkdi ki, günlər keçdikcə o da əridi. O, Əhdə sədaqətli qaldı və Dünyanın Nurunun bu bəndəsinin yaxın sirdaşı idi, amma o, bu həyatdan getmək istəyirdi və getməsini hər gün gözləyirdi. Nəhayət, aram və xoşbəxt bir halda, Mələkutun müjdələrinə sevinərək, o, uçub əsrarəngiz diyara getdi. Orada o, hər cür kədərdən qurtuldu və şəfəqlərin toplandığı yerdə o, nura qərq oldu.

Ona Parlaq Fəzadan salamlar və tərif, Mələyi-Əladan Əbanın bəhası, əbədi Mələkutdan böyük sevinclər olsun. Allah ona Əbha Cənnətində ucaməqam əta etsin.

## Əzim Təfrişi (↑)

BU ALLAH ADAMI Təfriş qəsəbəsindən idi. O, bu dünyadan qopmuşdu, qorxmaz, eynilə qohum və yadlardan müstəqil idi. O, erkən inananlardan biri idi, vəfadarların dəstəsinə mənsub idi. İman şərəfini o, İranda olanda qazandı və dostlara kömək etməyə başladı; o, hər bir inananın xidmətçisi, hər bir müsafirin etibarlı köməkçisi idi. Musa Qumi ilə, onun üzərinə Allahın bəhası olsun, o, İraqa gəldi, Dünyanın Nurundan kərəm payını aldı və Həzrət Bəhaullahın hüzuruna daxil olmaqla şərəfləndi, Ona xidmət etməklə bəxşişlər və fəzl obyekti oldu.

Bir müddətdən sonra Əzim və Haci Mirzə Musa İrana qayıtılar, Əzim burada tamamilə Allah xatirinə dostlara xidmət göstərməkdə davam etdi. Məvacibsiz yaxud maaşsız o, Mirzə Nəsrullah Təfrişiyə bir neçə il xidmət etdi, onun imanı və yəqinliyi hər gün artdı. Sonra Mirzə Musa İrandan Ədirnəyə getdi, onun yanında Cənab Əzim də gəldi və Həzrət Bəhaullahın hüzuruna daxil oldu. O, məhəbbət və sədaqətlə, tamamilə Allah xatirinə xidmət göstərməkdə davam etdi; Məiyyət Əkkaya yola düşəndə Əzim Həzrət Bəhaullahı müşayiət etmək imtiyazı aldı və o da Ən Böyük Zindana daxil oldu.

Zindanda o, Ailəyə (Evin adamlarına) xidmət etmək üçün seçilmişdi. O, həm evdə, həm də evdən kənarda su daşıyan idi. Kazarmalarda o, çoxlu ağır işlər götürdü. Nə gecə, nə də gündüz onun qətiyyən dincliyi yox idi. Əzim–"böyük, möhtəşəm"– xasiyyətinə görə əzəmətli, möhtəşəm idi. O, səbrli, dözümlü, təmkinli idi, bu dünyanın ləkələrindən qaçırdı. Və ailənin su daşıyanı olduğundan, hər gün Həzrət Bəhaullahın hüzuruna gəlmək şərəfinə malik idi.

O, bütün dostlara yaxşı sirdaş, onların ürəklərinə bir təsəlli idi; onların hamısına, orda olanlara da, olmayanlara da şadlıq gətirirdi. Həzrət Bəhaullahın dəfələrlə bu şəxsi tərif edən sözlər söylədiyi eşidilmidi. O, daim eyni bir daxili haləti saxlayırdı; o, daim sabit idi, dəyişkliyə heç vaxt məruz qalmazdı. Daim şad görünürdü. Yorğunluğun nə olduğunu bilməzdi. Heç vaxt məyus olmazdı. Kimsə bir şey etməsini istəsə, dərhal onu edərdi. İmanında dəyanətli və möhkəm, Allahın ətirli qayğı bağında bitmiş bir ağac idi.

Uzun illər ərzində Müqəddəs Astanada xidmət etdikdən sonra o, Mələkutun müjdələrindən şad halda, sakit, aram, bu tez solan dünyadan çıxıb ölüm bilməyən dünyaya getməyə tələsdi. Dostlar, onların hamısı, onun vəfatından göz yaşları axıtdılar, lakin Camal`i-Mübarək onları təsəlli etdi, çünki gedən şəxsin üzərinə O, Öz fəzl və tərifini bolluca yağdırmışdı.

İlahi şəfqət Mələkutundan Əzimə rəhmət olsun; gecə düşəndə və günəş doğanda Allahın bəhası onun üzərinə olsun.

## Mirzə Cəfər Yəzdi (↑)

DÖYÜŞ MEYDANININ BU cəngavəri həqiqəti arayanların ən biliklilərindən biri, elmin bir çox sahələrindən yaxşı xəbərdar idi. Uzun bir zaman o, məktəblərdə oxumuş, dinin əsasları və dini hüquqda ixtisaslaşmış, hikmət və metafizikada, məntiq və tarixdə, manqul və maqul[90] elmlərində araşdırmalar aparmışdı. Lakin o, başa düşməyə başladı ki, onun yoldaşları təkəbbürlü və özlərindən razıdırlar və bu onda ikrah yaratdı. Məhz bu vaxtlar idi ki, o, Mələyi-Əladan nida eşitdi və bir an da tərəddüd etmədən səsini qaldırdı və cavab verdi: "Ləbbeyk!" və bu sözləri təkrar etdi: "Ey bizim Rəbbimiz! Biz həqiqətən, çağıranın səsini eşitdik. O bizi Dinə çağırdı– "Rəbbinizə inanın və biz inandıq[91]".

O, Yəzddə böyük çaxnaşma və iğtişaş görəndə, vətənini tərk etdi və Nəcəfə, nəcib şəhərə getdi; burada təhlükəsizlik məqsədilə din ailmləri ilə qarışdı, geniş biliyi ilə onların arasında məşhurlaşdı. Sonra Bağdadda gələn səsi eşitdi və oraya tələsdi, geyim tərzini dəyişdi. Yəni, başına dünyəvi adam papağını qoydu və dülgər kimi dolanışıq pulu qazanmağa getdi. O, bir dəfə Tehrana getdi, qayıtdı, Həzrət Bəhaullahın fəzlinin kölgəsində o, səbrli və qane idi, yoxsulluq libasında sevinirdi. Böyük biliyinə baxmayaraq o, təvazökar, müti və könlü alçaq idi. O, daim sükut edər, hər cür insana gözəl bir yoldaş idi.

İraqdan İstanbula səfər zamanı Mirzə Cəfər Həzrət Bəhaullahın məiyyətində idi və dostların ehtiyaclarına baxırdı və bu bəndə ilə qoşa işləyirdi. Biz yolda istirahət üçün dayandıqda, inananlar uzun yolçuluqdan sonra dincələr və ya yatardılar. Mirzə Cəfərlə mən ora-bura, ətrafdakı kəndlərə gedər, karvan[92] üçün çovdar, saman və digər şeylər axtarardıq.

O ərazidə aclıq olduğu üçün, elə olurdu ki, biz bəzən ay çıxandan sonra gecənin yarısına qədər kənddən kəndə dolaşırdıq. Ən yaxşı halda biz nə tapırdıqsa, onu alır və məiyyətin yanın qayıdırdıq.

---

[90] Manqul və maqul: "olmayan" bilik "uydurma"biliyə qarşı

[91] Quran 3-190

[92] Həzrət Bəhaullahı ailə üzvləri və iyirmi altı həvvarisi müşayiət ediridi. Dəstəyə zabitləri ilə birlikdə on süvari əsgər, əlli qatır, yeddi hovda(kecavə) və hər bir cütündə isə dörd çətir vardı. İstanbula səfər 3 may 1863-dən 16 avqust 1863-ə qədər çəkdi. Allah yanımızdan keçir, səh. 156

Mirzə Cəfər səbrli və dözümlü, Müqəddəs Astanada vəfalı bir xidmətçi idi. O, gecə və gündüz işləyərdi, bütün dostların xidmətçisi idi. Sakit, az danışan, hər şeydə Allaha təvəkkül edən bir insan idi. Əkka sürgünü meydana çıxan qədər o, Ədirnədə xidmət etməkdə davam etdi və o da həbs olundu. O, buna görə minnətdar idi, davamlı olaraq şükr edərək deyirdi, "Allaha həmd olsun! Mən tam yüklənmiş gəmidəyəm[93]".

Zindan ona qızılgül bağı idi, dar hücrəsi isə geniş və rayihəli bir saray. Biz kazarmalarda qalanda o, çox ağır xəstələndi və yatağa düşdü. O, çox ağırlaşmalar keçirdi, axırda həkim ondan əlini üzdü və daha yanına gəlmədi. Xəstə kişi son nəfəsini alırdı. Mirzə Ağa Can Həzrət Bəhaulahın yanına qaçdı və dedi ki, ölüb. O, nəinki nəfəs almırdı, bədəni də artıq süstləşmişdi. Ailəsi başına toplaşmış, ağlayır, acı göz yaşları tökürdülər. Camal`i-Mübarək buyurdu: "Get və Ya Şafi" duasını oxu və Mirzə Cəfər diriləcək. Çox tez bir zamanda o, əvvəlki kimi olacaq". Mən özümü onun yanına yetirdim. Onun bədəni soyuq idi, ölümün bütün əlamətləri vardı. Yavaş-yavaş o, tərpəşməyə başladı. Bir az keçmiş o, əzalarını hərəkət etdirə bildi, bir saat keçməmiş o, başını qaldırdı, qalxıb oturdu və gülməyə və zarafat etməyə başladı.

Ondan sonra o, çox yaşadı, həmişəki kimi dostlara xidmətlə məşğul oldu. Bu verici xidmət onun üçün qürur mənbəyi idi: o, hamı üçün xidmətçi idi. O, həmişə təvazökar və müti idi, Allahı zikr edərək, son dərəcə ümid və imanla dolu idi. Nəhayət, hələ Ən Böyük Zindanda ikən, o, bu yer həyatını tərk etdi və o, biri aləmə (qeyb aləminə) uçub getdi.

Ona salam və tərif olsun. Əbhanın bəhası, Rəbbin nəzəri onun üzərinə olsun. Onun nurlu məzarı Əkkadadır.

---

[93] Quran 26:119; 36:41

## Hüseyn-Ağa Təbrizi (↑)

Müqəddəs Astanaya yaxın olan bu şəxs Əli Əsgər Təbrizinin möhtərəm oğlu idi. Yanar bir məhəbbətlə dolu, atası ilə birlikdə o, Təbrizdən Ədirnəyə gəldi və öz arzusu ilə, sevinc və ümidlərlə Ən Böyük Zindana getdi. Əkka qalasına gələn gündən bəri o, qəhvə xidmətini öz üzərinə götürdü və dostlara xidmət etdi. Bu incə rəftarlı şəxs o qədər səbrli, elə anlayışlı və itaətkar idi ki, qırx ilin ərzində son dərəcə ağır çətinliklərə baxmayaraq (çünki gecə və gündüz dost və yad qapıda dəstə ilə dayanardı), gələnlərin hamısına vəfa ilə kömək olaraq onların hər birinə xidmət edirdi. Bütün o zaman ərzində, Hüseyn Ağa bir nəfəri belə incitməmişdi, nə də kimsə, onunla əlaqəsi olan bir yerdə, tək bir şikayət etmişdi. Bu həqiqətən də, bir möcüzə idi, daha heç kəs belə bir xidmət rekordu (yüksək xidmət nəticəsi göstərə) vura bilməmişdi. O, həmişə gülər, etibarlı bir insan kimi tanınaraq ona həvalə edilmiş hər bir işə diqqətlə yanaşardı. Allahın Əmrində o, dəyanətli, vüqarlı və səmimi idi; bədbəxtlikdə o, səbrli və dözümlü idi.

Həzrət Bəhaullahın süudundan sonra imtahan atəşi alovlandı və xəyanət (pozuculuq) burulğanı binanı silkələdi. Bu inanan yaxın qohumluq əlaqələrinə baxmayaraq, sədaqətli qaldı, Allahın Əmrində o, tənə vuranın tənəsindən qorxmaz" sözlərini təzahür etdirdi[94]. O, imanında bir an belə tərəddüd etmədi, nə də tərpəndi, dağlar kimi möhkəm durdu, alınmaz qala kimi, yerə möhkəm kök atmış kimi, vüqarlı dayandı.

Əhdi sındıranlar onun anasını öz yerlərinə apardılar, orada onun qızı yaşayırdı. Onlar ağıllarına gələn hər şeyi etdilər ki, onun imanını laxlatsınlar. Əhdi sındırdıqlarını gizlədərək, onlar inanılmaz dərəcədə onu iltifat yağışına tutdular, onu mehribanlıq və lütfkarlıqla əhatə etdilər. Amma, nəhayət, Həzrət Bəhaullahın o hörmətli kənizi pozuculuq iyini duyan kimi Bəhci Sarayını tərk etdi və geriyə, Əkkaya tələsdi. "Mən Camal`i-Mübarəkin kəniziyəm", o dedi, "Onun Əhdinə və Vəsiyyətinə sadiqəm. Mənim kürəkənim göyün şahzadəsi olsa da, onun mənə nə faydası var? Məni qohumluq və hissiyyat oyunu ilə aldatmaq olmaz. Xudbin istəklərin təcəssümü olan kəslərin zahiri dostluq təzahürləri məni maraqlandırmır. Mən Əhdin yanındayam və Vəsiyyətnamənin tərəfindəyəm". O, bir daha Əhdi sındıranlarla görüşmək istəməzdi; o, özünü onlardan tamamilə ayırdı və üzünü Allaha tutdu.

94 Quran, 5-59

Hüseyn Ağa özünün Əbdül-Bəhadan heç vaxt ayırmadı. O, mənə ən yüksək ehtiram göstərir və mənin daimi yoldaşım idi, ona görə də onun vəfatı ağır bir zərbə idi. Hətta indi də, o, yadıma düşəndə mən kədərlənirəm. onun itkisini ağlayıram. Amma Allaha həmd olsun ki, bu Allah adamı Camal`i-Mübarəkin günlərində həmişə Onun Evinin yaxınlığında qaldı və Onun razılığının hədəfi oldu. Həzrət Bəhaullahın, Hüseyn Ağanın məhz bu xidməti göstərmək üçün yaradıldığını buyurması dəfələrlə eşidilmişdi. Qırx illik xidmətdən sonra o, bu tez ötüb keçən dünyanı tərk etdi və Allahın aləmlərinə uçub getdi. Ona salam və tərif, kəramətli Rəbdən rəhmət olsun. Rəfiqi-Əladan saçan nur onun məzarını sarsın.

## Hacı Əli Əsgər Təbrizi (↑)

GÖRKƏMLİ ƏLİ ƏSGƏR Təbrizdən olan bir tacir idi. Azərbaycanda onu tanıyanların hamısı ona hörmət edirdi, onun dindarlığını, etibarlılığını, möminliyini və möhkəm imanını etiraf edirdi. Təbriz camaatının hamısı bir nəfər kimi, onun üstünlüyünü təsdiq edir, onun xasiyyətini və həyat tərzini, keyfiyyət və istedadlarını tərifləyirdilər. O, ən erkən inanalardan biri və ən görkəmlilərindən biri idi.

Şeypur birinci dəfə səslənəndə, o, huşunu itirdi, ikinci dəfə üfürüləndə o, yeni həyata gəldi[95]. O, Allahın məhəbbəti ilə yanan bir şam, Əbha bağlarında gözəl bir ağac oldu. O, bütün ailəsini, başqa qohumlarını və dostlarını Əmrə gətirdi, uğurla çoxlu xidmətlər göstərdi; lakin kafirlərin zülmü onu çoz əziyyətli bir vəziyyətə saldı və o, hər gün yeni bəlalarla əhatə olundu. Amma o, yenə də zəifləmədi və ruhdan düşmədi; əksinə, onun imanı, onun yəqinliyi artdı. Nəhayət o, daha öz vətənində dözə bilmədi. Ailəsinin müşayiətində, o, Ədirnəyə gəldi və burada, maddi sıxıntılar içində, lakin qane bir halda, günlərini ləyaqətlə, səbrlə, razılıqla, şükr edərək keçirdi.

Sonra o, Ədirnədən bir qədər mal götürüb Cümə Bazarına getdi ki, bir qədər dolanışıq parası qazansın. Onda olan şeylər xırdavat idi, onu da oğrular apardı. İran Konsulu bunu eşidəndə, Hökumətə bir sənəd təqdim etdi və oğurlanmış malların dəyəri olaraq çox böyük bir məbləğ göstərdi. Xoşbəxtlikdən oğrular tutuldu və əllərində də xeyli məbləğ vardı. Qərara alındı ki, iş araşdırılsın. Konsul Əli Əsgəri çağırdı və dedi: "Bu oğrular çox varlıdırlar. Mənim hökumətə hesabatımda oğurlanan malların dəyərininn böyük olduğunu yazmışam. Ona görə də sən məhkəməyə getməli və mənim yazdıqlarıma uyğun şahidlik etməlisən".

Hacı cavabında dedi: "Möhtərəm Xan, oğurlanmış mallar çox az idi. Mən doğru olmayan şeyi necə danışa bilərəm? Onlar məndən soruşanda mən faktları olduğu kimi deyəcəyəm. Mən ancaq bunu borcum bilirəm".

"Hacı", Konsul dedi, "Bizim əlimizdə əla bir fürsət var; həm sən, həm də mən bundan xeeyir götürə bilərik. İcazə vermə ki, ömründə bir dəfə olan belə bir fürsət əlindən sürüşüb çıxsın".

---

[95] Quran: 39:68-69

Hacı cavabverdi: "Bəs onda mən Allaha nə deyəcəyəm?. Mən ancaq doğrunu söyləyəcəyəm və başqa heç nə".

Konsul özündən çıxmışdı. O, Əli Əsgəri hədələməyə və danlamağa başladı. "Sən istəyirsən ki mən yalançı olum?" o, qışqırdı. "Sən məni məsqərəyə qoymaq istəyirsən? Mən səni həbsə atacağam. Səni sürgün etdirəcəyəm. Sənə vermədiyim işgəncə qalmayacaq. Elə indi mən səni polisin əlinə verəcəyəm və deyəcəyəm ki, sən dövlətin düşmənisən, sən qandallanmalı və İran sərhədinə götürülməlisən".

Hacı ancaq gülürdü. "Cənab Xan", o dedi, "Mən öz həyatımı həqiqət üçün qurban vermişəm. Mənim başqa heç nəyim yoxdur. Siz məndən yalan danışmağımı və yalandan şahid durmağımı istəyirsiniz. Necə istəyirsiniz, mənimlə rəftar edin. Mən doğru olan şeyə arxa çevirməyəcəyəm".

Konsul görəndə ki, Əli Əsgəri yalandan şəhadət verməyin bir yolu yoxdur, dedi: "yaxşısı budur ki, sən bu yeri tərk edəsən və mən hökumətə xəbər verim ki, malların sahibi burada yoxdur, çıxıb gedib. Əks halda mən rüsvay olacağam".

O, Ədirnəyə qayıtdı və oğurlanmış malları haqqında bir kəlmə belə danışmadı, lakin camaat bundan xəbər tutdu və bu böyük təəccübə səbəb oldu.

Bu gözəl və nadir insan Ədirnədə qalanları ilə birlikdə həbs edildi və Camal`i-Mübarəki Əkka qalasına, bu kədər zindan evinə müşayiət etdi. Bütün ailəsi ilə birlikdə o, illər uzunu Allahın yolunda həbsdə qaldı; o, isə həmişə şükr edirdi, çünki zindan ona saray, əsirlik isə sevinc səbəbi idi. O illər ərzində heç eşidilməmişdi ki, o, minnətdarlıq və tərifdən başqa nəsə desin. Zalımın zülmü nə qədər böyükdüsə, o qədər də o, xoşbəxt idi. Dəfələrlə eşidilmişdi ki, Həzrət Bəhaullah onun haqqında inayətlə danışmışdı, o, deyərdi: "Mən ondan razıyam". Ruhun mücəssəməsi olan bu şəxs son qədər səbatlı, səmimi və şad-xürrəm qaldı. Bir nüçə il keçdikdən sonra o, bu toz dünyasını ləkəsiz Mələkuta dəyişdi, arxada güclü təsir qoyub getdi.

Bir qayda olaraq, o, Əbdül-Bəhanın yaxın sirdaşı idi. Bir gün, bizim Zindandakı vaxtlarımızın əvvəlində, mən kazarmaların küncünə, onun yaşadığı yerə–onun o yoxsul yuvasına tələsdim. O, orada uzanmışdı, başında yüksək hərarəti vardı. Onun sağ tərəfində isə soyuqdan titrəyən və əsən arvadı uzanmışdı. Solunda isə yatalaqdan (tifdən) alışıb yanan qızı Fatimə vardı. Onların da yanında onun oğlu, Hüseyn Ağa,

qıpqırmızı qızarmış halda hərarət içində idi; O, farsca danışmağı unutmuşdu, türkcə qışqırırdı: “Mənim içim yanır!” atasının ayaqları altında o biri qızı uzanırdı, ağır xəstəlik içərisində, divarın dibində isə qardaşı Məşədi Fəttah rabitəsiz danışır və sayıqlayırdı. Bu vəziyyətdə Əli Əsgərin dodaqları tərpənirdi: O Allaha şükr edir, sevincini ifadə edirdi.

Həmd olsun Allaha! O, Ən Böyük Zindanda vəfat etdi. Yenə də səbrli və şükrlü, yenə də ləyaqətli və imanında qəvi. O, Rəhman Rəbbin məkanlarına qalxıb getdi. Əbhanın bəhası onun üzərinə olsun; ona salam və tərif olsun; onun üzərinə daim və əbədi olaraq rəhmət və əfv olsun.

## Ağa Əli Qəzvini (↑)

BU GÖRKƏMLİ ŞƏXSİN yüksək iddia və məqsədləri vardı. O, son dərəcə sabit, sədaqətli, imanında dərin idi, inananlar arasında birincilərdən və ən böyüklərdən biri idi. Yeni Hidayət Gününün doğuşunda o, Həzrət Baba heyran oldu və təbliğə başladı. Səhərdən axşamadək o, öz sənətində işlədi, demək olar ki, hər axşam dostlarına şam ziyafəti verdi. Ruhani dostlarına bu cür ev sahibliyi edərək o, çoxlu ruhları Allaha məhəbbət təranəsi ilə cəzb edərək Əmrə hidayət etdi. O, heyrətamiz dərəcədə səbatlı, qüvvətli və dözümlü idi.

Sonra Əbhanın bağlarından xoş ətirli hava əsməyə başladı və o, yenicə alışmış alovdan od tutdu. Onun xülya və mövhumatı yandı və Həzrət Bəhaullahın Əmrini bəyan etmək üçün ayağa qalxdı. Orada hər gecə görüş, bir yığıncaq vardı ki, ləklərində olan çiçəklərlə yarışırdı. Ayələr oxunur, dualar avazlanır, Gəlişlərin ən böyüyü barədə gözəl xəbərlər paylaşılırdı. O, vaxtının çoxunu eynilə həm dosta, həm də yada mehribanlıq göstərməklə keçirdi; o, əli və ürəyi açıq, alicənab bir varlıq idi.

Onun Ən Böyük Zindana yola düşmə günü yetişdi və o, ailəsi ilə birlikdə Əkka qalasına gəldi. Bu səfərdə o, çox məşəqqətlərə düçar olmuşdu, lakin onun Həzrət Bəhaullahı görmək arzusu o qədər güclü idi ki, fəlakətləri asanlıqla keçirdi; beləliklə, o, uzun yollar ölçdü, Allahın pənahverici fəzlində sığınacaq axtardı.

Əvvəlcə onun vəsaiti vardı; həyat rahat və həzz verirdi. Sonra isə o, ehtiyac içinə düşdü və dəhşətli imtahanlara məruz qaldı. Çox vaxt onun yeməyi çörəkdən başqa bir şey olmazdı; çay əvəzinə o, suyu arxdan içərdi. Amma bununla belə, o, xoşbəxt və məmnun idi. Onun böyük nəşəsi Həzrət Bəhaullahın hüzuruna daxil olmaq idi; Məhbubu ilə vüsalı kifayət bir nemət idi; Onun qidası Məzhərin camalına baxmaq idi; şərabı isə Həzrət Bəhaullahla birlikdə olmaq; o, həmişə gülürdü, daim sükut edirdi; eyni zamanda da ürəyi qışqırır, atlanır və rəqs edirdi.

O, çox vaxt Əbdül-Bəhanın yanında olurdu. O, əla bir dost və yoldaş idi, şad və nəşəli; Həzrət Bəhaullahın sevimlisi, dostların hörmət etdiyi, dünyadan uzaq duran, Allaha təvəkkül edən. Onda heç bir səbatsızlıq yoxdu, onun daxili haləti həmişə eyni idi: möhkəm, sabit, təpələr kimi tərpənməz.

Mən hər dəfə onu yadıma salanda, onun səbrini və aramlığını xatırlayıram, o sədaqət, o bağlılıq və özümdən asılı olmadan, bir də görürəm ki, Öz nemətlərini Ağa Əlinin üzərinə yağdırması üçün Allaha dua edirəm. O dəyərli kişinin üstünə həmişə bəla və fəlakətlər gəlirdi. O, həmişə xəstə olurdu, davamlı olaraq çoxlu fiziki xəstəliklərə düçar olurdu. Səbəbi isə bu idi ki, vətəndə olanda və Qəzvində Əmrə xidmət edəndə bədxahlar onu tutmuşdular və başına elə qəddarlıqla döymüşdülər ki, bunun təsiri ömrünün son saatına qədər qaldı. Onlar onu hər cür vasitələrlə təhqir etmiş və işgəncə vermişdilər və düşünmüşdülər ki, hər cür qəddarlığı onun başına gətirmək olar; halbuki onun yeganə xətası inanması idi, tək günahı Allahı sevməsi idi. Şairin yazdığı kimi, bu sətirlər Ağa Əlinin taleyini göstərir:

Sultan şahini bayquşlarla əhatə olunub
Günahsız olsa da, onun qanadlarını yolurlar
"Niyə"–onlar rişxənd edirlər–"Sən hələ də,
O sultan qolunu, o sarayı xatırlayırsan?"
O, şahanə bir quşdur: o, bu xətanı işlədib.
Gözəllikdən başqa Yusifin nə günahı vardı??

Xülası, o, böyük insan vaxtını Əkka zindanında, üzünü Allaha tutaraq dua və yalvarışla keçirdi.Onu sonsuz nemət sardı; o, Həzrət Bəhaullahın sevimlisi idi, vaxtın çoxunu Onun hüzuruna daxil olmağa iznli idi, üzərinə sonsuz fəzl yağırdı. Bu onun sevinci və nəşəsi, onun böyük bəxtəvərliyi, onun ən əziz arzusu idi.

Sonra onun da vaxtı çatdı, ümidlərinin səhəri doğdu, onda onun növbəsi yetdi ki, qeyb aləminə uçub getsin. Həzrət Bəhaullahın hifzi altında, o, tezliklə o sirli diyara pərvaz etdi. Ona salam və tərif olsun, bu dünyanın və o biri dünyanın Rəbbinin rəhməti onun üzərinə olsun. Allah Mələyi-Əladan şüalarla onun uyuduğu yeri nurlandırsın.

## Ağa Məhəmməd Bağır və Dərzi Ağa Məhəmməd İsmayıl (↑)

BU İKİ QARDAŞ Allahın yolunda qalanlarla birlikdə əsir idilər və Əkka qalasında dustaq edilmişdilər. Onlar mərhum Pəhləvan Rzanın qardaşları idilər. Onlar İranı tərk etdilər və Ədirnəyə mühacirət etdilər, Həzrət Bəhaullahın inayətinə tələsdilər; onun hifzi altında Əkkaya gəldilər.

Pəhləvan Rza–Allahın rəhməti və bərəkəti və şəfəqləri onun üzərinə olsun; tərif və salam olsun ona–zahirən, sadə, təlim və təhsil görməmiş insan təsiri bağışlayırdı. O, xırdavatçı idi, o da başqa gələnlər kimi, Allah məhəbbəti xatirinə hər şeyi atdı və bir sıçrayışla biliyin zirvələrinə yetişdi. O, erkən zamanlarda gələnlərdəndir. O, birdən elə bəlağətli oldu ki, Kaşan camaatı heyrətə gəldi. Məsələn, bütün zahiri əlamətlərlə savadsız görünən bu kişi, Kaşanda Hacı Məhəmməd Kərim Xan yanına getdi və belə bir sual verdi:

"Ağa, sən dördüncü sütunsanmı? Mən ruhani həqiqət üçün susamış bir kəsəm və Dördüncü Sütun haqqında bilmək istəyirəm[96]".

Orada bir neçə siyasi və hərbi rəhbərlər olduğu üçün, Hacı cavab Verdi: "Əstəğfurullah" Mən heç vaxt belə bir iddia etməmişəm. Kim ki deyir ki, etmişəm, yalan deyir; Allah ona lənət eləsin!"

Bir nüçə gün sonra Pəhləvan Rza yenı Hacını axtardı və ona dedi: "Ağa, mən yenicə sizin "İrşadul-Əvam" (Avamın hidayət olunması) kitabınızı oxuyub qurtarmışam; Mən onu başdan ayağa qədər oxumuşam; siz orada deyirsiniz ki, insan Dördüncü Dayağı və ya Dördüycü Sütunu tanımalıdır; doğrudan da, siz onu Sahib-Əz-Zamanın[97] cəngavəri sayırsınız. Ona görə də mən onu tanımağı və qəbul etməyi çox istəyirəm. Mən əminəm ki, siz onun barəsində bilirsiniz. Yalvarıam, onu mənə göstərin".

Hacı qəzəblənmişdi. O dedi: "Dördüncü Sütun uydurma deyil. O, hər görünən bir varlıqdır. Onun da mənim kimi, türbanı var, əba geyinir və əlində də çəliyi var".

96 Şeyxi istilahına görə, Dördüncü Dayaq və ya Dürdüncü SÜtun daim axtarılan kamil bir insan və ya fəzl kanalı idi. Hacı Məhəmməd Kərim xan özünü belə hesab edirdi Bax, Kitab`i-İqan, ing. Səh 184; Əbdül-Bəha: Səyyahın hekayəti səh. 4
97 Vəd olunmuş on ikinci İmam

Pəhləvan Rza ona güldü "nəzakətsizlik kimi olmasın", o dedi, "amma sizin təliminizdə ziddiyyət var. Əvvəlcə bir şey deyirsiniz, sonra isə başqa bir şey".

Özündən çıxmış Hacı cavab Verdi: "Mən indi məşğulam. Gəl bu məsələni sonra müzakirə edək. Bu gün məni bağışlayın".

Məsələ burasındadır ki, Rza, o savadsız , olunan kişi, dəlil gətirməkdə "Dördüncü Sütun" kimi bir bilgili şəxsdən üstün olsun. Alləmiyi-Hilli ifadəsində o, onu Dördüncü Dayaq deyə bitirir[98].

Nə vaxt ki, o şir ürəkli bilik mübarizi danışmağa başlayırdı, dinləyənlər məftun olurdular və o, son nəfəsinə qədər bütün həqiqət axtaranların müdafiəçisi və köməkçisi oldu.

Nəhayət, o hər yerdə bəhai kimi tanındı, bir səyyaha çevrildi və Əbha Mələkutuna yüksəldi.

Onun iki qardaşına gəldikdə isə Camal`i-Mübarəkin fəzli ilə, zalımlar onları həbs etdikdən sonra onlar Ən Böyük Zindana salındılar və orada bu evsiz sərgərdanların taleyini bölüşdülər. Burada, Əkkadakı o ilk vaxtlarda, tam göz yumma, atəşli məhəbbətlə onlar Əbha Cənnətinə tələsdilər. Çünki bizim amansız zalımlar biz gələn kimi, hamımızı qalanın içərisində əsgər kazarmalarında zindana saldılar, hər bir çıxışı bağladılar ki, heç kəs gəlib-getməsin. O zaman Əkkanın havası çox zəhərli idi, hər bir yad adam, gələn kimi dərhal xəstələnirdi. Məhəmməd Bağırla Məhəmməd İsmayıl ağır bir xəstəliyə tutuldular, orada isə nə bir həkim vardı, nə də dərman. O iki nut mücəssəməsi eyni gecədə bir-birinin qolları arasında öldülər. Onlar ölümsüz Mələkuta yüksəldilər və onların arxasınca əbədi ağlayacaq dostlarını buraxdılar. O gecəni ağlamayan bir kəs yox idi.

Səhər açılanda biz onların mübarək cənazələrini oradan çıxarmaq istədik. Zalımlar dedilər: "Qaladan çıxmaq sizə yasaqdır. Siz bu iki cənazəni bizə təhvil verməlisiniz. Biz onları yuyacaq, kəfənləyəcək və dəfn edəcəyik. Amma gərək əvvəlcə bunun üçün pul ödəyəsiniz". Vəziyyət belə idi ki, bizim pulumuz yox idi. Həzrət Bəhaullahın ayaqlarına salınan namaz xalçası vardı. O, xalçanı qaldırdı və dedi: "Bunu satın.

---

[98] Əllameyi-Hilli, Hilldən olan "ən bilikli alim", məşhur şiə ilahiyyatçısı Camaləddin Həsən ibn Yusif ibn Əlinin ləqəbi. 1250-1325.A.D.

Pulunu gözətçilərə verin". Namaz xalçası 170 piastra[99] satıldı və pulu onlara verildi. Lakin o iki cənazə dəfn üçün nə yuyuldu, nə də kəfənə büründü; gözətçilər sadəcə bir çala qazdılar, onları əyinlərindəki paltarla ora atdılar; belə ki, hətta indinin özündə belə, o iki qardaşın qəbri birdir, necə ki onların ruhları Əbha Səltənətində birləşib, bədənləri isə burada bir yerdədir, bir-birlərini sıx qucaqlamış halda.

Camal`i-Mübarək Öz xeyir-dualarını bu iki qardaşın üzərinə yağdırdı. Həyatda onlar Onun fəzli və lütfü ilə əhatə olunmuşdular; ölümdən sonra isə Onun Lövhlərində əbədiləşdilər. Onların məzarı Əkkadadır. Onlara salam və tərif olsun. Əbhanın bəhası, Allahın rəhməti və Onun xeyir-bərəkəti onların üzərinə olsun.

[99] O zamanın Türkiyə quruşu və ya piasteri qırx para idi, para isə sentin doqquzda biri idi. Bu ədələr ancaq təqribidir.

## Əbül-Qasım Sultanabad (↑)

MƏHBUSARIN ARASINDA OLANLARDAN biri də Ağa Fərəcin yol yoldaşı Əbül Qasım Sultanabad idi. Bu iki şəxs iddialı və təvazökar, sədaqətli və dəyanətli idilər. Vəfalı Ruhun nəfəsindən onların ruhları canlanan kimi onlar İranda Ədirnəyə getməyə tələsdilər, çünki bədxahların qəddarlığı o qədər sakitləşmək bilmirdi ki, onlar daha öz evlərində qala bilmədilər. Piyada. Bütün bağlardan azad onlar düzlərə və təpələrə üz tutdular, keçilməz sularda, səhraların qumlarında yol axtardılar. Neçə gecələr yata bilmədilər, açıq havada qaldılar, başlarını qoymağa bir yer tapmadılar; yeməyə və içməyə bir şey olmadan, çılpaq torpaqdan başqa bir yataq tapmadan, çöl otlarından başqa bir yemək görmədən. Onlar bir təhər özlərini məcbur edib yol getdilər və Ədirnəyə yetişə bildilər. Belə oldu ki, onlar o şəhərə son günlərdə gəlib çıxdılar və başqaları ilə birlikdə həbs edildilər və Həzrət Bəhaullahı müşayiət edərək onlar Ən Böyük Zindana yola düşdülər.

Əbül-Qasım yatalaq tutdu və ağır xəstələndi. O, iki qardaş Məhəmməd Bağır və Məhəmməd İsmayılla bir vaxtda vəfat etdi, onun pak qalıqları isə Əkkanın kənarında dəfn edildiyi yerdədədir. Camal`i-Mübarək ondan razılığını bildirmişdi, dostların hamısı isə onun əziyyətləri üzərində ağladılar və kədərləndilər. Əbhanın Bəhası onun üzərinə olsun.

## Ağa Fərəc (↑)

BÜTÜN BU GƏRGİNLİKLƏRDƏ Ağa Fərəc Əbül-Qasımın yoldaşı idi. İraqi-Əcəmdə olarkən, o, ilk dəfə Ən Böyük Nurun gəlişi ilə qalxmış çaxnaşmanı eşitdi, o, əsdi və titrədi, əl çaldı, həyəcanla qışqırdı və İraqa yola düşdü. Nəşədən məst olmuş halda, o, öz müqəddəs Mövlasının hüzuruna daxil oldu. O, sevgili bir yoldaşlıq toplantısına qoşulmuşvə səadət içində Həzrət Bəhaullaha xidmət etmək şərəfi qazamnmışdı. Sonra o, qayıtdı və Sultanabada xoş müjdələr apardı.

Burada bədxahlar pusquda durmuşdular, çaxnaşma qalxdı, nəticə bu oldu ki, müqəddəs Molla Başı və digər inananlar onları müdafiə edəcək bir kimsənin olmaması şəraitində ölümcül zərbələr aldılar və qətlə yetirildilər. Belə olduqda, gizlənmiş Ağa Fərəc və Əbdül-Qasım Ədirnəyə tələsdilər və axırda, payızda digərləri və öz Məhbubları ilə birlikdə, Əkka zindanına getdilər.

Ağa Fərəc Camal`i-Qədimə qulluq etmək şərəfi qazandı. O, daim Müqəddəs Astanada xidmət etdi, özü isə dostlara təsəlli idi. Həzrət Bəhaullahın zamanında o, Onun sədaqətli xidmətçisi, inananların isə yaxın sirdaşı idi və Həzrət Bəhaullahın süudundan sonra da belə idi: o, Əhdə sadiq qaldı, bəndəlik səltənətində o, ucalan bir palma kimi boy verdi. Nəcib, alicənab, bədbəxtlikdə səbrli, bütün şəraitlərdə məmnun.

İmanda və sədaqətdə möhkəm, o, bu həyatı tərk etdi və sonsuz fəzl hədəfi olmaq üçün üzünü Allahın Mələkutuna tutdu. Allahın Behiştində ona Allahın rəhməti və razılığı olsun. Cənnətin çəmənzarında ona salam və tərif olsun.

## Sultanüş-Şühədanın Həyat Yoldaşı (↑)

ÖZ VƏTƏNİNİ TƏRK etmiş qadınlardan biri də Şəhidlərinin Sultanının dul həyat yoldaşı, Fatimə[100] Bəyim idi. O, Allahın Ağacında müqəddəs bir yarpaq idi. Erkən gəncliyindən onu saysız-hesabsız bəlalar sarmışdı. Birincisi onun alicənab atasının Bədəşt ətrafında başına gələn fəlakət idi, o zaman dəhşətli əziyyətlərdən sonra o, xaraba bir karvansarayda, çətinliklə öldü–evindən uzaq və köməksiz halda.

Uşaq yetim və kimsəsiz, bədbəxt qaldı, o vaxtadək ki, Allahın fəzli ilə, Şəhidlərin Sultanının həyat yoldaşı oldu. Amma o zamanlardan Şəhidlərin Sultanı hər yerdə Bəhai kimi tanınırdı, Həzrət Bəhaullaha ehtiraslı bir məhəbbəti vardı, məst olmuş divanə bir şəxs idi, çünki Nəsrəddin şah qana susamışdı–düşmənlər pusquda durmuşdu, hər gün onlar onun əleyhinə çuğullu edirdilər, yeni böhtanlar atırdılar, yeni hay-küy qalxdı və yeni fitnələrə rəvac verdi. Bu səbədən onun ailəsi tək bir gün belə özünü təhlükəsiz hiss etmirdi, onun şəhid olcağı saatı gözləyərək və dəhşətdən üzülərək hər anı təşviş və nigarançılıqda yaşadı. Belə bir ailə idi; hər yerdə Bəhai kimi tanınırdı; onların düşmənləri isə daş ürəkli zalımlar idi; hökumətləri isə yumşalmadan, daim onların əleyhinə idi; onların hökmdarı isə qana susamış quduz idi.

Bu aydındır ki, belə bir ailənin həyatı necə olardı. Hər gün yeni bir hadisə, yeni çaxnaşma, ayrı bir hay-küy, onlar bircə dəfə belə dinc nəfəs çəkmədilər. Sonra isə onu şəhid etdilər. Hökumətin o qədər qəddar və vəhşi oması üzə çıxdı. İnsan nəsli nalə çəkdi və tirtədi. Onun bütün əmlakı çalınıb-talandı, ailəsi isə gündəlik çörəyə möhtac qaldı.

Fatimə gecələrini ağlamaqla keçirdi; Sübhə qədər onun yeganə həmdəmi göz yaşları idi; Uşaqlarına hər baxanda o, ah çəkir, üzücü kədər içində şam kimi əriyirdi. Amma onda o, Allaha şükr edər və deyərdi: “Həmd olsun Rəbbə, bu ölüm iztirabları, bu sınmış talelər Həzrət Bəhaullaha görədir, ancaq Onun əziz xatirinədir”. O, şəhid Hüseynin köməksiz və müdafiəsiz ailəsini yadına salırdı ki, onlar Allahın yolunda necə fəlakətlərə düçar olmaq imtiyazına çatmışdılar. O hadisələrin üzərində

[100] FA-ti-mə-nin birinci hecasına vurğu edilməsi.

düşündükcə, onun ürəyi atlanar, o, ucadan deyərdi: “Həmd olsun Allaha! Biz də Peyğəmbərin ailəsinin yoldaşları olmuşuq[101]”.

Ailə belə bir sıxıntıda olduğu üçün Həzrət Bəhaullah əmr etdi ki, onlar Ən Böyük Zindana gəslinlər ki, bol fəzl məkanında pənah tapsınlar, baş verənlərin əvəzi olan mükafat alsınlar. O, bir müddət burada sevinc və şükranlıq içində, Allahı tərif edərək yaşadı. Hərçənd Şəhidlərin Sultanının oğlu Mirzə Əbdül-Hüseyn zindanda öldü, amma onun anası Fatimə yenə də, bunu qəbul etdi, özünü Allahın iradəsinə təslim etdi, o qədər ah-nalə etmədi, yasa batmadı. Öz kədərini danışmaq üçün bir kəlmə belə danışmadı.

Allahın bu kənizi son dərəcə səbrli, ləyaqətli, təmkinli və həmişə də şükrlü idi. Lakin Həzrət Bəhaullah bu dünyanı tərk edəndə və bu ən böyük dərd idi, sonsuz bir ağrı idi, o, daha dözə bilmədi. Onun sarsıntısı və həyəcanı elə idi ki, sudan çıxarılmış balıq kimi o, yerdə qıvrıldı, bütün varlığı silkələnirmiş kimi, əsdi və titrədi, o vaxtadək ki, uşaqlarını tərk etdi və vəfat etdi. O, Allahın mərhəmət kölgəsinə uçub getdi və nur dəryasına qərq oldu. Ona salam və tərif olsun, şəfqət və bəha olsun. Allah onun uyuduğu yeri Öz səmavi mərhəmətinin yağmurları ilə şirin etsin; Sidrətül-Müntəhanın[102] kölgəsində onu sakin etməklə şərəfləndirsin.

Odur Allah![103]

Sən görürsən, İlahi, Sənin sevimlilərinin yığıncağı, dostlarının toplantısı Sənin hamıya kifayət edən Məqamının həndəvərində, Sənin uca bağının yanında, Sənin Rizvan Ziyafətinin günlərinin birində–o mübarək vaxtda ki, Sən dünyanın üfüqündən doğdun, Öz müqəddəslik şüalarını onun üzərinə saldın, Öz təkliyinin parlaq şüalarını hər yana yaydın, bəşəri saran əzəmət və qüdrətlə; hamını Sənin önündə səcdə etdirən, bütün başları təzim etdirən, hər bir boyunu əydirən, hər bir insanın nəzərini yerə dikdirən cəlalınla Bağdaddan çıxdın. Onlar Səni xatırlayır və Səni zikr edirlər, onların

---

[101] Qibbon İmam Hüseynin şəhadətindən və onun ailəsinin taleyindən yazır ki, “o uzaq dövrün və şəraitin faciəvi səhnəsi ən soyuq oxucunun da şəfqətini oyadacaq”.

[102] Sidrətül-Müntəha, başqa şeylərlə yanaşı, Sidrə Ağacı kimi tərcümə edilir ki, bu, sərhədi, Lote-Tree kimi isə, son hüdudu bildirir. Cf. *Quran* 53:34. Bu, Cənnətin ən uca nöqtəsində dayanmaq, nə insanın, nə də mələklərin keçə bilməyəcəkləri son yeri bildirir. Bəhai terminologiyasında bu, Allahın Məzhərinə işarədir.

[103] Bu dua Həzrət Əbdül-Bəha tərəfindən Şəhidlərinin Sultanının həyat yoldaşı üçün nazil edilmişdir.

köksü Sənin bəxşişlərinin nurları ilə şadlanıb, qəlbləri Sənin tərifini söyləyərək, üzlərini Sənin Mələkutuna döndərərək, mütiliklə Sənin uca Səltənətlərinə yalvararaq Sənin lütflərinin dəlili ilə dirçəlib.

Onlar buraya Sənin parlaq və müqəddəs Sənin Yaşıl Cənnət Ağacının yarpağını, bir nurlu varlığı, ruhani cövhəri, daim sənin acıyıcı şəfqətini istəyən kənizini anmaq üçün cəmləşiblər. o, doğulanda İlahi hikmət qollarına düşmüş, yəqinlik köksününün südündən qidalanmışdı; o, iman beşiyində pərvəriş tapmış, Sənin məhəbbətinin ağuşunda sevinmişdi, ey mərhəmətli, ey şəfqətli Rəbb! Və təkliyin şirin rayihələrinin hər yana yayıldığı evdə böyüyb həddi-büluğa çatmışdı. Lakin hələ qız ikən, Sənin yolunda ona bəla gəldi, talesizlik ona hücum etdi, Sən ey Bəxşedən, müdafiəsiz gəncliyində isə, Sənin gözəlliyinə məhəbbət naminə o, kədər və ağrı camından içdi, Sən ey Bağışlayan!

Ey mənim Allahım, Sənin yolunda sevinclə yaşadığı fəlakətləri, Sənin məhəbbətində ləzzət saçan üzlə qarşılaşdığı imtahanları Sən bilirsən. Neçə gecələr, o zaman ki, başqaları öz yumşaq yataqlarında dincələrkən, o, ayıq idi, müti bir halətdə Sənin səmavi Səltənətinə yalvarırdı. Sənin insanların, Sənin qoruyucu qayğın altında nə qədər günlərini keçirərkən, Sənin övliyalarının başına gələnlərə görə onun ürəyi təlaşa düşdü.

Ey mənim Rəbbim, onun günləri və illəri keçdi, səhərin şəfəqini görəndə o, Sənin bəndələrinn kədərinə ağladı, axşamın kölgəsi düşəndə isə hönkürdü və nalə etdi, Sənin əsirlərinin başına gələnlər üçün şiddətli əzabdan yandı. Və o, bütün gücü ilə Sənə xidmət etmək üçün, Sənin rəhmət Səmandan rica etmək, müti halda Sənə yalvarmaq, ürəyini Sənə bağlamaq üçün qalxdı. Və o, müqəddəsliyə bürünərək üzə çıxdı, libası Sənin insanlarının təbiəti ilə ləkələnməmiş halda, Sənin bəndənlə nigaha girdi, o kəs ki, ona Sən ən qiymətli bəxşişlərini əta etdin, o kəs ki, onda Öz sonsuz mərhəmətinin əlamətlərini zahir etdin, o kəs ki, üzünü Sənin bəha Səltənətində əbədi nurla işıqlandırdın. O kəslə evləndi ki, onu Sən vüsal məclisində yerləşdirdin, Mələyi-Əlada olanlardan biri; o kəs ki, Sən ona bütün səmavi qidalardan yedizdirdin, o kəs ki, üzərinə Öz nemətlərini və bərəkətlərini yağdırdın, o kəs ki, üzərinə ləqəb bəxş etdin: Şəhidlərin Sultanı.

Və o, bir neçə il o aşkar Nurun hifzi altında sakin oldu və cani-dildən o, Sənin müqəddəs və nurlu Astananda xidmət etdi, Sənin gələn bütün sevimlilərin üçün yemək hazırlamaq, istrahət yeri və yataq hazırlayardı və onun bundan başqa sevinci yox idi. Sənin gözəlliyin xatirinə, Sənin razılığını qazanmaq üçün o, Sənin hər bir kənizin önündə müti və itaətkar idi, hər birinə tabe olar, hər birinə cani-dildən, bütün varlığı ilə qulluq edərdi. Onun Evi Sənin adınla tanınana və Sənə məxsus bir kəs kimi onun ərinin şanı hər yana yayılana qədər, Sənin bu qüdrətli müdafiəsinin davamlı xeyir-dualarından Səəd Torpağı( İsfahan) sevincdən əsdi və titrədi. Səni tanımağın ətirli otları və Sənin kəraminin qızıgülləri açılmağa başladı və böyük sayda insanlar Səin mərhəmət sularına yönəldildilər.

Sonra Sənin məxluqlarından rəzil və cahillər onun əleyhinə qalxdılar, zülm və kinlə onun ölümünə fitva verdilər; insafdan uzaq, ağır zülmlə onlar onun təmiz qanını tökdülər. Parlayan qılınc altında o, alicənab şəxsiyyət Səni çağırdı: “Sənə, ey mənim Allahım, həmd olsun ki, Vəd olunmuş Gündə bu aşkar fəzlə yetişməkdə mənə kömək etdin; Sən torpağı mənim qanımla qızartdın, onu Sənin yolunda tökdün ki, ondan al-qırmızı güllər cücərsin. Lütf və fəzl Sənindir, bütün aləmdə mənin ən çox arzu etdiym o bəxşişi mənə əta eylə. Şükrlər olsun Sənə ki, mənə yardım etdin, məni təsdiq etdin, Zühur Günündə, şəhidlik saqisinin əlindən həzlər məclisində kafur çeşməsindən dolub-daşan piyalədən mənə içirdin. Sən, həqiqətən, fəzl Sahibi, Səxavətli və Əta Edənsən”[104].

Onlar onu öldürdükdən sonra isə şahanə evinə qəsb etdilər. onlar yırtıcı canavarlar kimi, ova hücum edən şirlər kimi hücum etdilər, soydular, talan və qarət etdilər, bahalı mebelləri, bəzəkləri və daş-qaşları çaldılar. Onun şəhid olması xəbəri yayılanda və uşaqların ürəkləri təşvişdən partlayaraq qışqıranda bu hücum baş verdi; onlar hönkürür və göz yaşları tökürdülər, o parlaq evdən matəm səsləri gəlirdi, lakin onların halına ağlayan, onların halına yanan, yazığı gələn bir nəfər yox idi. Əksinə onların içində olduqları zülm qaranlığı daha da qatılaşdı, insafsızlıq Cəhənnəmin atəşi əvvəlkindən daha şiddətli yandı; yaman əhli gətirmədiyi bir işgəncə, vurmadığı bir iztirab qalmadı. Bu müqəddəs yarpaq isə, o və onun körpələri onlara qahmar çıxan və qalxan olan bir kəs olmadan, qafillərin qərəzi ilə üzləşərək zalımların əlində qaldılar.

[104] Quran 76:5.

Yeganə munisi göz yaşları, yoldaşı isə onun hünkürtüləri olmaqla; əzabla həmdəm olaraq, dost üçün qəm yeməkdən başqa bir şeyi olmayaraq günləri keçdi; amma bütün bu əzablarda, İlahi, o, Səni sevməkdən dayanmadı; O, bu ağır imtahanlarda Səndən kəsilmədi, ey mənim Məhbubum. Hərçənd fəlakətlər bir-birinin ardınca gəldi, narahatlıqlar onu hər yandan bürüdü, o, onların hamısını çəkdi, o, onların hamısına səbrlə dözdü, onlar onun üçün Sənin hədiyyən, bəxşişlərindi və bütün o ağır iztirabında–Sən ey ən gözəl adların Maliki–Sənin tərifin onun dodaqlarından düşmürdü.

Sonra o, vətənini, rahatlığını, yuvasını və sığınacağını tərk etdi, quşlar kimi, balalarını götürdü və bu parlaq və müqəddəs Torpağa qanad çaldı ki, burada o, yuva qursun və quşlar kimi Səni tərənnüm etsin və özünü bütün gücü ilə Sənin məhəbbətinə həsr etsin, bütün varlığı ilə, cani-dildən Sənə xidmət etsin. O, Sənin hər bir kənizin önündə müti, Sənin Əmrinin bağının hər bir yarpağı qarşısında təvazökar idi, Səndən başqa hər şeydən ayrılmış, Sənin zikrinlə məşğul idi.

Onun hönkürtüsü səhərlər asimana qalxır, dualarının şirin avazı gecələr və parlaq gündüzlər eşidilirdi, o vaxtadək ki, o, Sənə qayıtdı, Sənin Mələkutuna uçdu; Sənin Astananda pənah axtararaq getdi və Sənin əbədi səmana pərvaz etdi. Ey mənim Rəbbim, Sənin gözəlliyini seyr etməklə onu mükafatlandır, onu Sənin əbədiyyət süfrəndən qidalandır, Öz yanında ona yuva ver, Özün istədiyin və razı olduğun kimi, Sənin müqəddəslik bağlarında onu saxla.Onun yerini mübarək eylə, Öz səmavi Ağacının kölgəsində onu hifz eylə; İlahi, onu Sənin tanrılığının köşkünə (çadırına) yönəlt, onu öz əlamətlərindən biri, Sənin işıqlarından biri eylə.

Həqiqətən, Sən Səxavətli, Əta Edən, Bağışlayan və Mərhəmət Sahibisən.

## Şəmsüd-Züha (↑)

XURŞUD BƏYİM, ONA Şəmsüd-Züha[105] ləqəbi verilmişdi, Şəhidlərin Sultanının qaynanası idi. Allahın bu bəlağətli, şövqlü kənizi atası tərəfdən, o şəhərin başçısı kimi şöhrətlənmiş məşhur Məhəmməd Bağır İsfahaninin əmisi qızı idi. Hələ uşaq ikən o, hər iki valideynlərini itirmişdi, o, şanlı və alim müctəhidin evində nənəsi tərəfindən böyüdülmüş, elmin müxtəlif sahələrində, ilahiyyatda, elmlərdə və sənətdə yaxşı təlim almışdı.

Həddi-büluğa çatanda Mirzə Hadi Nəhri ilə evlənmidi; özü də, əri də o böyük nurun, üstün və görkəmli Seyid Kazım Rəştinin[106] mistik təlimlərinə möhkəm cəzb olunduqlarından, onlar Mirzə Hadinin qardaşı Mirzə Məhəmməd Əli Nəhrinin[107] müşayiəti ilə Kərbəlaya yollandılar. Onlar burada Seyidin dərslərində oturardılar, onun biliyini elə mənimsəyərdilər ki, bu kəniz Allahlığa, Yazılara və onların batini mənalarına aid məsələlərdə hərtərəfli məlumata malik oldu. Bu cütlüyün iki uşağı vardı, bir qız, bir oğlan. Oğullarının adı Seyid Əli, qızlarının isə adı Fatimə Bəyim idi, bu o qız idi ki, böyüyəndən sonra Şəhidlərin Sultanı ilə ailə qurdu.

Uca Rəbbin səsi Şirazda yüksələndə Şəmsüd-Züha Kərbəlada idi və o, “Ləbbeyk” deyə bu səsə cavab verdi. Əri və qardaşına gəldikdə isə, onlar dərhal Şiraza yola düşdülər; çünki onların hər ikisi İmam Hüseynin məqamını ziyarət edəndə Nöqteyi-Əlanın (İlkin Nöqtənin) gözəlliyinə baxmışdılar; hər ikisi o gözəl çöhrədə, o səmavi sifət və tərzlərdə gördüklərindən heyrətə düşmüş və razılaşmışdılar ki, belə bir Kəs doğrudan da çox böyük bir Varlıq olmalıdır. Nəticədə onlar Onun İlahi çağırışını eşidən kimi “Ləbbeyk” deyə cavab verdilər və Allaha məhəbbət yanğısı ilə alovlandılar. Bundan əlavə, onlar hər gün Seyidin dərs verdiyi o müqəddəs yerdə olmuş və onun dediyini aydın eşitmişdilər: “Zühur yaxındadır, ən zərif, ən incə məsələ. Hər kəs aramalı, axtarmalıdır, zira ola bilər ki, Vəd Olunmuş indi insanların arasındadır, hətta indi görünür, amma Onun ətrafındakıların hamısı qafildirlər, diqqətsizdirlər, gözləri bağlıdır, necə ki, hədislərdə xəbər verilib”.

Bu iki qardaş İrana yetişəndə eşitdilər ki, Həzrət Bab Məkkəyə ziyarətə gedib. Ona görə də Seyid Məhəmməd Əli İsfahana getdi, Mirzə Hadi isə Kərbəlaya qayıtdı. Bu

[105] Səhər Günəşi
[106] Həzrət Babın müjdəçisi və Şeyxi məktəbinin iki banisindən biri. İzahlı lüğətə baxın.
[107] Onun qızı sonralar həzrət Əbdül-Bəhanın həyat yoldaşı oldu

arada Şəmsüd-Züha "Behiştin Yarpağı" ilə, Molla Hüseynin, Bab`ül`Babın bacısı ilə dostlaşdı[108]. O xanımın vasitəsilə O, Tahirə ilə–Qürrətül-Eyn[109]–görüşdü və vaxtının çox hissəsini onların hər ikisi ilə həmdəm olmaqla keçirdi, Əmrin təbliği ilə məşğul oldu. Bu vaxtlar Əmrin erkən dövrü olduğundan, insanlar ondan hələ qorxmurdular. Tahirənin yanında olmaqdan Şəms ölçüyəgəlməz fayda götürdü, həmişəkindən daha çox Əmr barəsində alovlandı. O, üç il Tahirə ilə sıx yaxınlıqda Kərbəlada keçirdi. Gecə və gündüz o, Mərhəmət Sahibinin nəsimləri ilə dəniz kimi çalxalandı, və bəlağətli bir dillə təbliğ etdi.

Tahirə Kərbəlada şan-şöhrət tapdı və Zati Müqəddəsləri Həzrət Babın Əmri bütün İrana yayıldı, axır-zaman üləmaları onu inkar etmək, ona nifrət yağdırmaq və məhv etmək üçün qalxdılar. Onlar fitva verdilər və ümumi qətliyama çağırdılar. Tahirə o şeytan üləmalar tərəfindən şəhərin kafirlərindən biri kimi elan edilmişdi və səhvən düşünürdülər ki, o, Şəmsüd-Zühanın evindədir. Onlar Şəmsin evinə basqın etdilər, onu mühasirəyə aldılar, söyüb təhqir etdilər, ağır bədən xəsarətləri vurdular. Onlar onu evdən sürüyüb çıxardılar, və küçələrdən keçirib bazara gətirdilər və dəyənəklə döydülər;onu daşladılar, pis sözlərlə təhdid etdilər, dəfələrlə üstünə hücum çəkdilər. Bunlar baş verərkən, Hacı Seyid Mehdi, Onun görkəmli ərinin atası bu mənzərənin üstünə gəlib çıxdı. "Bu qadın Tahirə deyil!" deyə onlara qışqırdı. Lakin bunu sübut etmək üçün şahidi yoxdu[110]. Fərraşlar, polis və qaragüruh əl çəkmək istəmirdi. Birdən, hüy-küy içindən bir səs ucaldı: "Qürrətül-Eyni tutublar!" Bundan sonra onlar Şəmsüd-Zühanı buraxdılar.

Tahirənin evinin qapısında gözətçilər qoyulmuşdu və heç kəsin girib-çıxmasına icazə vermirdilər, səlahiyyətlilər isə Bağdaddan və İstanbuldan göstəriş gözləyirdilər. Gözləmə müddəti uzandığından, Tahirə Bağdada getmək üçün izn istədi. "Qoyun oraya özümüz gedək", onlara dedi. "Biz hər şeyə təslim olmuşuq. Bizə nə olursa, olanın yaxşısı və ən xoşudur". Hökumətin icazəsi ilə Tahirə, Behişt Yarpağı, anası və Şəmsüd-Züha hamısı Kərbəlanı tərk etdilər və Bağdada getdilər, lakin kütlə ilan kimi bir qədər onların arxasınca düşdü, biz az uzaqdan onları daşladılar.

---

[108] Molla Hüseynin bacısının əhvaları üçün Dan Yerinin Şəfəqlərinə baxın. İng. 383, qeyd
[109] "Gözlərin Nuru"
[110] O zaman İran qadınları camaat arasında çadra örtərdilər

Bağdada çatanda onlar Məhəmməd Mustafanın atası Şeyx Məhəmməd Şiblin evində yaşamağa getdilər; orada qapıya çoxlu insan toplaşdığından və məhəllədə böyük hay-küy qopduğundan, Tahirə başqa bir yerə, öz mənzilinə köçdü və davamlı olaraq Əmri təbliğ etdi və Allahın Sözünü bəyan etdi. Burada üləmalar, şeyxlər və başqaları onu dinləməyə gələr, ondan sual soruşub cavab alardılar və tezliklə o, ən mücərrəd və ən dərin ilahiyyat məsələlərini izah edərək Bağdadda məşhur oldu.

Onun söz-söhbəti hökumət dairələrinə çatanda, Onlar Tahirəni, Şəmsüd-Zühanı və Yarpağı Muftinin evinə keçirdiər və İstanbuldan onların işi barədə bir xəbər gələnə qədər üçü orada qaldılar. Tahirə Müftinin evində qaldığı müddətdə vaxtının çoxu, batini həqiqətlərin mürəkkəbliklərini çözməklə Təlimlərə aid sübutların gətirilməsi, Rəbb Allaha aid sualların izahı, Qiyamət Günü, Tərəzi və Haqq-Hesab[111] barədə mükalimələrlə onunla danışmaqla keçirdi.

Bir gün Müftinin atası oraya gəldi və onları bərk və xeyli təhqir etdi. Bu müftini utandırdı və atası üçün üzr istəməyə başladı. Sonra dedi: "Sənin cavabın İstanbuldan gəlib. Sultan səni azad buraxıb, lakin bir şərtlə ki, bu diyarları tərk edib gedəsən". Ertəsi gün səhər onlar Müftinin evini tərk etdilər və hamama getdilər. Bu arada Şeyx Məhəmməd Şibl və Şeyx Sultan Aran onların səfəri üçün lazımi hazırlıqları gördülər, üç gün keçdi və onları Bağdaddan çıxdılar: yəni Tahirə, Şəmsüd-Züha, Behiştin Yarpağı, Mirzə Hadinin anası və bir neçə seyid İrana yola düşdülər. Onların səfər məsrəflərini Şeyx Məhəmməd Verdi.

Onlar Kirmanşaha gəldilər, burada qadınlar bir evdə, kişilər isə başqa bir evdə yerləşdilər. Təbliğ işi daim gedirdi və üləmalar bundan xəbər tutan kimi əmr etdilər ki, bu dəstə dağıdılsın. Bunun əsasında, qəsəbənin başçısı bir izdihamla evə soxuldular və onların əşyalarını götürdülər; sonra isə müsafirləri açıq hovdalara mindirib şəhərdən çıxardılar. Onlar çöllüyə gəlib çıxanda, qatırları sürənlər onları yerə düşürdülər və çıxıb getdilər, heyvanları və hovdaları da apardılar; onları yeməksiz və əşyalarsız, sığınacaqsız qoydular.

Belə olduqda, Tahirə Kiramanşahın hakiminə məktub yazdı. "Biz yolçu", o, yazırdı, "sizin şəhərinizin qonaqları idik. Peyğəmbər buyurur ki, "inanmayan (kafir) olsa da, qonağa ehtiram göstərin". Bu düzdürmü ki, qonaq belə rədd edilsin və talan edilsin?"

[111] Quran 7:7; 14:42; 21:48; 57:25 və s.

Hakim əmr verdi ki, oğurlanmış mallar bərpa edilsin və hər şey sahiblərinə qaytarılsın. Odur ki, qatırları qaçıranlar da geri gəldilər, yolçuları yenə də hovdalara oturtdular, onlar da Həmədana getdilər. Həmədanlı xanımlar, hətta şahzadə xanımlar belə, hər gün o şəhərdə iki ay qalmış Tahirəni görməyə gəldilər[112]. Burada o, bəzi yol yoldaşlarını buraxdı ki, onlar Bağdada qayıda bilsinlər. qalanları isə onu Qəzvinə müşayiət etdilər.

Onlar yol gedərən, bir neçə atlı, Tahirənin qohumları, yəni qardaşları, yaxınlaşdılar. “Biz atamızın göstərişi ilə gəlmişik ki”, onlar dedilər, “ancaq onu aparaq”. Lakin Tahirə imtina elədi və bütün dəstə Qəzvinə gələnə qədər bir yerdə oldu. Burada Tahirə atasının evinə getdi, süvari və piyada gələn dostlar isə karvansarayda yerləşdilər. Şəmsüd-Zühanın əri Mirzə Hadi Makuya, Həzrət Babı axtarmağa getdi. Qayıdanda o, Şəmsin Qəzvinə gəlməsini gözlədi, sonra hər ikisi İsfahana getdi, onlar oraya çatanda isə, Mirzə Hadi Bədəştə yollandı. O, kənddə və onun ətrafında, ona hücum edildi, ona əzab-əziyyət verdilər, hətta daşladılar, elə sınaqlara məruz qoyduar ki, axırda o, xaraba bir karvansarayda öldü. Onun qardaşı Mirzə Məhəmməd Əli onu orada, yolun kənarında dəfn elədi.

Şəmsüd-Züha İsfahanda qaldı. O, gündüz və gecəsini Allahın zikri və Onun Əmrini o şəhərin qadınlarına təbliğ etməklə keçirirdi. Ona bəlağətli bir dil əta edilmişdi; onun nitqini eşitmək ecazkar idi. Ona İsfahanın tanınmış qadınları tərəfindən yüksək dərəcədə ehtiram göstərildi, onun möminliyini, dindarlığını, həyatının paklığı ilə onu tərifləyirdilər. O, ismətin təcəssümü idi; onun bütün vaxtı Müqəddəs Yazıları oxumaqla, Mətnləri izah etməklə. ən mürəkkəb ruhani məsələləri çözməklə, Allahın şirin rayihələrini hər yana yaymaqla keçirdi.

Məhz bu səbədən idi ki, Şəhidlərin Sultanı onun hörmətli qızı ilə evləndi və onun kürəkəni oldu. Şəms onun şahanə evində yaşamağa gedəndə, insanlar onun qapısına toplaşırdılar, çünki şəhərin hörmətli qadınları, yad olsun ya dost, yaxın olsun ya uzaq, gəlib-gedirdilər. Çünki o, Allaha məhəbbət oduna tutuşmuşdu, Allahın Sözünü böyük eşq və şövqlə bəyan edirdi və nəticədə o, inanmayanlar arasında Fatimə, Bəhailərin Nur Xanımı kimi tanındı[113].

---

112 Dan Yerinin Şəfəqləri, XV fəsil

113 Həzrət Məhəmmədin qızı Fatiməyə işarədir, “parlaq və gözəl bir çöhrə, Nur Xanımı

Beləcə vaxt keçdi, o günədək ki, "Əfi İlan"la "Qurd" əlbir oldular və Şəhidlərin Sultanının ölümünə fitva verdilər. Onlar həmçinin şəhərin Hakimi ilə də hiylə qurdular ki, onun malik olduğu o bütün böyük sərvəti qarət və talan etsinlər və çalıb aparsınlar. Sonra Şah da bu iki yırtıcı heyvanla əlbir oldu və o, əmr verdi ki, hər iki qardaşın, Sultanüş-Şühədanın və Məhbubiş-Şühədanın qanları axıdılsın. Xəbərdarlıq etmədən o iki qəddar adam: Əfi ilanla Qurd və onların qəddar fərraşları ilə ajanlar hücum etdilər; onlar iki qardaşı zəncirlədilər, zindana apardılar, zəngin şəkildə təchiz olunmuş evlərini qarət etdilər, bütün əmlaklarını əllərindən aldılar, heç kəsə, hətta südəmər körpələrə belə aman vermədilər. bu qurbanların qohumlarını və digər ailə üzvlərinə işgəncə verdilər, söydülər, təhqir etdilər, ələ saldılar, döydülər və hələ də əllərini saxlamadılar.

Parisdə olarkən, Züllüs-Sultan[114], aşağdakıları nəql etmiş və bunların həqiqət olduğuna and içmişdi. "Mən dəfələrlə Peyğəmbərin Evinin o iki böyük pöhrəsini xəbərdar etdim, lakin heç bir faydası olmadı. Nəhayət bir gecə mən onları çağırdım, son dərəcə israrla onlarla xeyli danışdım: "Ağalar, Şah sizi üç dəfə ölümə məhkum edib. Onun fərmanları gəlməkdə davam edir. Hökm qətidir və sizin üçün açıq ancaq bir yol var: siz üləmaların qarşısında özünüzü təmizə çıxarmalı və Dininizi lənətləməlisiniz". Onların cavabı belə oldu: "Ya Bəhaül-Əbha! Ey Əbhanın Bəhası! Bizim canımız fəda olsun!" Nəhayət mən onların öz dinlərini lənətləməmələrinə razı oldum. Onlara dedim ki ancaq bunu desinlər: "Biz Bəhai deyilik", "Ancaq bu bir-iki söz" mən dedim, "kifayət edər; sonra da mən şaha hesabat yazaram, siz də xilas olarsınız". "Bu mümkün deyil", onlar dedilər, "çünki biz bəhaiyik. Ya Bəhha`ül-Əbha, bizim ürəklərimiz şəhidlik üçün acdır! Ya Bəha`ül-Əbha!" Onda mən qəzəbləndim və onlara kobudluq edərək onları dindən döndərməyə çalışdım, lakin bu mənasız idi. Yırtıcı əfi ilanla Qurdun və Şahın hökmü yerinə yetirildi.

Bu iki qardaş şəhid olandan sonra Şəmsüd-Zühanı axtarmağa başladılar və o, da qardaşının evində sığınacaq tapmağa məcbur oldu. O, inanan olmasa da, İsfahanda dürüst, mömin və Allah adamı kimi, elm adamı kimi tanınırdı, zahid, tərki-dünya özünə qapalı bir şəxs olduğu üçün hamı ona ehtiram göstərir və etibar edirdi. O, burada qardaşı ilə qaldı, lakin hökumət onun izini buraxmadı, nəhayət onun yerini

---

[114] Şahın böyük oğlu və xanədanın beşdə ikisinin hakimi, ölüm hökmünü o təsdiq etmişdi. Bu hadisələrdən çox keçməmiş o rüsvayçılığa düçar oldu. Allah yanımızdan keçir, ing. Səh. 200, 232

tapdı və üzə çıxmasını istədi; üləmalar vardı və hökumət səlahiyyətliləri ilə əlbir olmuşdular. Ona görə də qardaşı Şəmsüd-Zühanı hakimin evinə müşayiət etməyə məcbur qaldı. O, bayırda qaldı, bacısını isə qadınların otağına göndərdilər; Hakim oraya, qapıya gəldi, onu elə vəhşicəsinə vurdu və tapdaladı ki, o, huşunu itirdi. Sonra o, arvadının üstünə qışqırdı: "Şahzadə, şahzadə, buraya gəl və Bəhailərin Nur Xanımına bax!"

Qadınlar onu qaldırdılar və otaqlardan birinə apardılar. Bu arada onun qardaşı sarsılmış halda çöldə gözləyirdi. Nəhayət, onu yola gətirməyə çalışaraq o, Hakimə dedi: "Mənim bacım elə bərk döyülüb ki, artıq ölüm ayağındadır. Onun burada saxlamağın nə faydası var? Onun indi onsuz da sağalmasına ümid yoxdur. İcazənizlə, mən onu öz evimə aparım. Onun orada ölməsi burada ölməsindən yaxşıdı, çünki, hər halda o, Peyğəmbərin törəməsidir, Məhəmmədin ali nəslindəndir və o, heç bir səhv iş tutmayıb. Onun əleyhinə kürəkəni ilə qohumluğundan başqa heç bir şey yoxdur". Hakim cavab verdi : "o, Bəhailərin böyük başçılarından və qəhrəmanlarından biridir. O, sadəcə başqa bir çaxnaşmaya səbəb olacaq". Qardaşı dedi: "Mən sizə söz verirəm ki, o, bircə kəlmə belə danışmayacaq. Yəqindir ki, bir neçə günün içində o, artıq sağ olmayacaq. Onun cismi zəifdir, yarımcandır, ona dəhşətli xəsarət dəyib".

Qardaşına, istər aşağı, istər yuxarı zümrədən olsun, böyük hörmət olduğundan və etibar edildiyindən, Hakim Şəmsüd-Zühanı azad etdi və qardaşının zəmanətinə verdi. O, bir müddət hönkürərək, qəm yeyərək, göz yaşları axıdaraq, ölülərinə matəm tutaraq onun evində yaşadı. Nə qardaşının dincliyi vardı, nə də düşmənlər onları rahat buraxırdılar; hər gün yeni bir çaxnaşma, yeni bir hay-küy vardı. Qardaşı nəhayət, fikirləşdi ki, ən yaxşısı Şəmsi Məşhədə ziyarətə göndərməkdir, bu ümidlə ki, camat arasındakı iğtişaşlar sakitləşsin.

Onlar Məşhədə getdilər və İmam Rzanın Məqbərəsinin yanında bir boş evdə yerləşdilər[115].

---

[115] Xəlifənin birbaşa xələfi elan olunduqdan sonra Xəlifə Mömin tərəfindən zəhərlnmiş səkkizinci İmam. Onun qızıl künbəzli Məqbərəsi Şiyə dünyanının şərəfi adlandırılmışdır. "Hədislərə görə Həzrət Məhəmməd buyurbmuş: "Mənim bədənimin bir hissəsi Xorasanda dəfn edilib".

Çünki o, elə mömin bir insan idi, qardaşı hər səhər Məqbərəyə gedər, demək olar ki, günortaya qədər orada ibadətlə məşğul olardı. Günortadan sonra da o, yendiən Müqəddəs Yerə gedər, axşama qədər dua edərdi. Ev boş olduğu üçün Şəmsüd-Züha müxtəlif qadın inananlarla əlaqə yarada bildi və onlarla ünsiyyət etməyə başladı; Allaha məhəbbət onun ürəyində o qədər parlaq yandığı üçün, o, sükut edə bilmədi və qardaşının evdə olmadığı saatlarda ev canlandı. Bəhai qadınları orada toplaşar və onun aydın və bəlağətli nitqinə qulaq kəsilərdilər.

O zamanlar inananlar üçün həyat Məşəddə çox çətin idi, bədxahlar daim ayıq idilər; onlar kimdənsə şübhələnən kimi onu öldürüdülər. Heç bir təhlükəsizlik yox, əmin-amanlıq yox idi; Amma Şəmsüd-Züha özünü saxlaya bilmədi. Başına gətirilən dəhşətli fəlakətlərə baxmayaraq, o, təhlükəyə fikir vermədi, özünü atəşə ya dənizə atmaq gücünə malik idi. Qardaşını heç kəs ziyarət etmədiyi üçün nə baş verdyindən xəbərsiz idi. O, gecə və gündüz ancaq evdən Məqbərəyə, Məqbərədən evə gedirdi. O, guşənişin idi, dostu yoxdu, başqası ilə danışmazdı. Amma bir gün gəldi, gördü ki, şəhərdə narahatlıq baş qaldırıb, bildi ki, bu ciddi ziyanla qurtaracaq. O, o qədər sakit və səssiz idi ki, bacısını töhmətləmədi; onu xəbərsiz sadəcə Məşhəddən çıxardı və onlar İsfahana gəldilər. Burada bacısını onun öz qızının, Şəhidlərin Sultanının yanına göndərdi, çünki onu daha öz evində saxlaya bilməzdi.

Beləcə, Şəmsüd-Züha İsfahana qayıtdı, cəsarətlə Əmri təbliğ etdi və Allahın rayihələrini hər tərəfə yaydı. Onun ürəyindəki məhəbbət o qədər ehtiraslı idi ki, eşidən qulaq tapan kimi onu danışmağa vadar etdi. Şəhidlərin Sultanının evini yeni fəlakətlər gözlədiyi hiss olunan kimi və İsfahanda onlar şiddətli bədbəxtliklərə düçar olduqları üçün Həzrət Bəhaullah istədi ki, onlar Ən Böyük Zindana gəlsinlər. Şəmsüd-Züha Şəhidlərin Sultanının dul xanımı və onun uşaqları ilə birlikdə Müqəddəs Torpağa gəldilər. Onlar burada sevincli günlər keçirirdilər, bu zaman Şəhidlərin Sultanının oğlu Mirzə Əbdül-Hüseyn, İsfahanda məruz qaldığı dəhşətli əzab-əziyyətlərin təsirindən, vərəmə tutuldu və Əkkada vəfat etdi.

Şəmsüd-Züha çox məhzun idi. O, onun yoxluğundan hüznlənir, onun həsrətindən əriyirdi və bu daha da dərinləşdi, çünki bu zaman Ən Böyük Dərd gəldi, iztirabın son həddi çatdı. Onun həyat təməli sarsıldı; onu kədər şam kimi əritdi. O qədər zəiflədi ki, yatağa düşdü və hərəkətsiz qaldı. Amma yenə də dincəlmədi, bir an da sükut etmədi. O, keçmiş günlərdən, Əmrdə baş verən şeylərdən danışar, ya Müqəddəs Yazılardan

iqtibaslar edər, ya dua edər, və minacatlar oxuyardı–ta o günədək ki, Ən Böyük Zindandan Allahın aləminə uçub getsin. O, bu əzab-əziyyətin torpaq uçurumundan pak cahana tələsdi; o, yır-yığış edib nurlar diyarına köçdü. Ona, Qüdrətli Rəbbinin şəfqət sığınacaqında salam və tərif, ən böyük rəhmət olsun.

## Tahirə (↑)

İSMƏTLİ VƏ MÜQƏDDƏS bir qadın, bənzərsiz gözəlliyin nişanəsi və əlaməti, İlahi eşqin yanan məşəli, Onun bəxşiş çırağı Cənabi Tahirə[116] idi. Onun adı Ümmü-Səlma idi. O, Qəzvin müctəhidi Hacı Molla Salehin qızı idi, əmisi isə o şəhərin imam-cüməsi Molla Tağı idi. Onlar onu Molla Tağının oğlu Molla Məhəmmədə ərə verdilər, üç uşağı oldu–iki oğlan, bir qız; hər üçü onların anasını saran fəzldən məhrum idilər, heç biri Əmrin həqiqətini tanıya bilmədi.



Hələ uşaq ikən atası ona müəllim tutmuşdu, o, elm sənətin müxtəlif sahələrində təlim aldı, ədəbi axtarışlarında əhəmiyyətli nailiyyətlər qazandı. Onun alimliyi və biliyi o dərəcədə idi ki, atası çox vaxt təəssüfün ifadə edərək deyərdi: "o, oğlan olsaydı, mənim evimi işıqlandırardı və mənim yerimi tutardı[117].

Bir gün o, xalası oğlu Molla Cavadın evində qonaq idi, xalası oğlunun kitabxanasında Şeyx Əhməd Əhsainin[118] bəzi yazılarına rast gəldi. Onun dediklərindən həzz alaraq Tahirə o yazıları qaytarmaq şərtilə evə götürməyə icazə istədi. Molla Cavad kəskin etiraz etdi və dedi: Sənin atan bu qoşa nurların, Şeyx Əhmədlə Şeyx Kazımın düşmənidir. Əgər o, hətta təsəvvür etsə ki, bu iki böyük Şəxsiyyətin sözləri, o varlıqların bağlarından hansınasa bir qorxu sənin yoluna çıxıb, o, mənə qəsd edər, sən

[116] Tahirə kimi tələffüz olunur
[117] Bax: Dan Yerinin Şəfəqləri, ing. Səh. 81, qeyd 2, səh. 285, qeyd. 2
[118] Həzrət Babın müjdəçisi və Şeyxi məktəbinin iki banisindən biri. İzahlı lüğətə baxın.

də onun qəzəbinə tuş gələrsən”. Tahirə belə cavab verdi: “Uzun zamandır ki, çən bunlar üçün susuzam; bu izahlar, bu batini mənaları axtarmışam. Bu kitablardan səndə nə varsa. Mənə ver. Əgər atam qəzəblənərsə, buna fikir vermə”. Odur ki, Molla Cavad Şeyxin və Seyidin yazılarını ona göndərdi.



Bir gecə Tahirə atasını kitabxanada tapdı və onunla Şeyx Əhmədin təlimlərindən danışmağa başladı. Şeyxin təlimlərindən qızının zəbəri olmasını öyrənən kimi Molla Salehin rəddiyələri püskürdü və o, qışqırıb dedi: “Cavad sənin ruhunu azdırıb!” Tahiriə cavabında dedi: “Mərhum Şeyx Allahın həqiqi alimi idi, onun kitablarını oxumaqla mən sonsuz ruhani həqiqətlər öyrənmişəm. Bundan əlavə, o, bütün dediklərini Müqəddəs İmamların hədisləri ilə əsaslandırır. Sən özünü arif və Allah adamı adlandırısan, hörmətli əmini alim və mömin sayırsan–amma sizin heç birnizdə mən o keyfiyyətlərin izini belə görmürəm!”

Bir müddət o, atası ilə qızğın müzakirələr apararaq Qiyamət və Məşhər Günü, Məhəmmədin Meracı, Vəd və Təhdid, Vəd Olunmuşun Gəlişi[119] kimi mövzular üzərində mübahisə etdi. Dəlil çatdırmayan atası təhiq və lənətə keçirdi. Sonra bir gecə, öz mübahisəsini dəstəkləmək üçün, Tahirə İmam Cəfər Sadiqdən[120] bir hədis gətirdi və bu onun dediyini təsdiq etdiyi üçün, atası o hədisə güldü, onu ələ salıb istehza elədi. Tahirə dedi: “ey mənim atam, bunlar Müqəddəs İmamın sözləridir. Sən onlara necə rişxənd edə və onları rədd edə bilərsən?!

O zamandan etibarən o, atası ilə mübahisə və müzakiə etməyi dayandırdı. Bu zaman o, Seyid Kazımla mürəkkəb ilahiyyat məsələlərinin həlli barədə gizli məktublaşmağa

[119] Quran 17:1; 30:56; 50:19;
[120] Altıncı İmam

başladı və beləliklə, iş belə gətirdi ki, Seyid ona Qürrətül-Eyn (Göz təsəllisi, nuru) adı verdi; Tahirə (Pak) ləqəbi ilə birinci dəfə o, Bədəştdə tanındı və sonradan Həzrət Bab tərəfindən yazılı Lövhlərdə təsdiq olundu.

Tahirə oda tutuşdu. O, Seyid Kazımla görüşmək ümidi ilə Kərbəlaya yola düşdü, lakin çox gec gəlib çıxdı: Tahirə o şəhərə çatandan on gün əvvəl o vəfat etmişdi. Ölümündən bir az əvvəlk Seyid öz şagirdləri ilə bu müjdəni bölüşmüşdü ki, vəd olunmuş Zühur yaxındadır. "Gedin", o, təkrar-təkrar onlara dedi, "və Ağanızı tapın". Beləliklə, onun ən görkəmli ardıcılları təcrid olmaq və dua etmək, oruc tutub gecələr oyaq qalmaq üçün Kufə Məscidində toplaşdılar, bu zaman bəziləri də Zühuru Kərbəlada gözləyirdilər. Tahirə də bunların arasında idi, o, gündüzlər oruc tutur, dini ibadətləri yerinə yetirir, gecələri oyaq qalır, dua oxuyurdu. Bir gecə səhərə yaxın o, başını balınca qoydu, dünyadan bixəbər oldu və yuxu gördü; yuxuda o, bir gənc, Seyid, qara əbada, yaşıl türbanda, göydən ona nazil oldu; o, havada asılmışdı, ayələr oxuyur, qnutda dualar edirdi. Birdən o, həmin ayələrdən birini əzbərlədi, ayılanda onu öz dəftərində yazdı. Həzrət Bab Özünü elan edəndən və Onun birinci kitabı olan "Əhsanül-Qisəs[121]" yayılandan sonra, bir gün Tahirə onun bir bölməsini oxuyanda yuxudan yazdığı həmin ayəyə rast gəldi. Dərhal şükranlıq edərək o, diz çökdü və səcdəyə getdi, inandı ki, Həzrət Babın müjdəsi həqiqətdir.

Bu gözəl müjdə ona Kəbəlada çatdı və o, dərhal təbliğə başladı. O, "Əhsənül-Qisəs"i tərcümə edib şərh etdi, Fars və Ərəb dilində yazdı, qəsidə və şeirlər yaratdı, mütiliklə ibadət ayinlərini yerinə yetirdi, hətta vacibat olmayan və əlavə olan ayinləri etdi. Kərbəlanın şər üləmaları bütün bunlardan duyuq düşəndə, və öyrənəndə ki, bir qqadın insanları yeni bir dinə çağırır və artıq əhəmiyyətli sayda insanlara təsir edib, onlar Hakimin yanına getdilər və şikayət verdilər. Qısaca desək, onların ittihamları Tahirəyə azğın hücumlara və onun əzab-əziyyətinə səbəb oldu, o, bunları qəbul etdi və bunlar üçün tərif və şükrlər etdi. Onu axtarmağa gələn hakimiyyət səlahiyyətliləri Tahirə ilə səhv salaraq əvvəlcə Şəmsüd-Zühaya hücum etdilər. Lakin Tahirənin həbs olunduğunu eşidən kimi ondan əl çəkdilər–çünki Tahirə Hakimə xəbər göndərmişdi ki: "Mən sizin ixtiyarınızdayam. Başqa heç kəsə zərər verməyin".

[121] "*Ehsanül-Qisas,*" Həzrət Babın Yusif surəsinə yazdığı təfsir, Babilərin Quranı adlandırılırdı, Tahirə tərəfindən ərəb dilindən fars dilinə tərcüümə edilmişdi. Cf. *Allah yanımızdan keçir*, V fəsil, "artıq Şirazda" sözləriilə başlayan paraqraf.

Hakim onun evinə gözətçilər qoydu, onu təcrid etdi və nə etmək lazım olması barədə Bağdada yazın təlimat gözlədi. Üç ay ərzində o, mühasirədə, tam təcrid olunaraq evini sarmış keçikçilərin əhatəsində yaşadı. Yerli hakimiyyət hələ nə Bağdaddan, nə də İstanbuldan heç bir cavab almamışdı, Tahirə öz işini Hakimə Verdi və dedi: "Nə Bağdaddan, nə də İstanbuldan xəbər var. Ona görə də biz özümüz Bağdada yola düşəcək, orada cavab gözləyəcəyik". Hakim onun getməsinə icazə verdi, o da Şəmsüd-Zühanın Behişt Yarpağının (Molla Hüseynin bacısı) və onun anasının müşayiətində yola çıxdı. Bağdadda o, əvvəlcə Ağa Məhəmməd Mustafanın görkəmli atası Şeyx Məhəmmədin evində qaldı. Amma onun ətrafındakı insanların təzyiqi o qədər böyük idi ki, o, başqa bir məhəlləyə köçdü, gecə və gündüz Əmrin yayılması ilə məşğul oldu, azad bir şəkildə Bağdad sakinləri ilə ünsiyyət etdi. Beləliklə, o, bütün şəhərdə tanındı və orada böyük bir vəlvələ qalxdı.

Tahirə, həmçinin, Kazımeynin üləmaları ilə də yazışırdı; O, onlara təkzibedilməz sübutlar gətirirdi, kimsə də onun önünə çıxanda o, ona inandırıcı dəlillər təqdim etdi. Nəhayət, o, şiə üləmalarına xəbər göndərərək dedi: "Əgər siz bu qəti dəlillərlə qane olmursunuzsa, onda mən sizi mübahiləyə çağırıram[122]". Belə olanda üləmaların tərəfindən böyük etirazlar qopdu, Hakim Tahirəni və onun qadın müşayiətçilərini Bağdadın müftisi İbn-Əlusinin evinə göndərməyə məcbur oldu. Orada o, İstanbuldan cavab və göstəriş gözləyərək üç aya qədər qaldı. İbn-Əlusi onu mükalimələrə cəlb edər, suallar soruşar və cavablar alardı və onun dediklərini inkar etməzdi.

Bir gün müfti ona öz yuxusunu nəql etdi və onun mənasını şərh etməyi ondan xahiş etdi. Müfti dedi: "Yuxuda gördüm ki, şiə üləmaları Şəhidlərin Şahzadəsi İmam Hüseynin müqəddəs məqbərəsinə gəliblər. Onlar sərdabəni qoruyan divarı götürdülər, o nurlu qəbri açdılar və pak cismi onların gözü qarşısında uzanmışdı. Onlar o müqəddəs cismi qaldırmaq istədilər, lakin mən özümü cənazənin üstünə atdım və onları kənara qovdum". Tahirə cavab verdi: "Sənin yuxunun mənası budur: Sən məni şiə üləmalarının əlindən qurtaracaqsan". "Mən də bunu belə yozmuşdum", İbn-Əlusi dedi.

---

[122] Quran 3:54. "Sonra Allaha dua edib yalançılara lənət etməsini diləyək.! Bəla lənətlə gəldi

O, Tahirənin elmi məsələlərdən, müqəddəs təfsirlərdən və Mətndən yaxşı agah olduğunu aşkar etdiyindən, onunla ikisi tez-tez müzakirələr aparardılar; Tahirə Qiyamət Günü, Tərəzi, Sirat[123] kimi mövzularda danışar, o da rədd etməzdi.

Bir gecə İbn-Əlusinin atası oğlunun evinə gəldi. O, Tahirə ilə görüşdü və qəfildən tək bir sual belə soruşmadan, onu söyməyə, təhqir etməyə və yamanlamağa başladı. Atasının davranışından xəcalət çəkən İbn-Əlusi üzr istədi. Sonra dedi: "İstanbuldan cavab gəlib. Sultan əmr edib ki, səni azad etsinlər, lakin bir şərtlə ki, sən bu diyarları tərk edəsən. Ona görə də sabah get və səfərə hazırlaş və bu ölkədən çıxıb get".

Buna uyğun olaraq, Tahirə qadın müşayiətçiləri ilə müftinin evindən çıxdılar, səfər yır-yığışı edib Bağdada getdilər. Şəhəri tərk edəndə bir sıra Ərəb inananlar, əli silahlı, onların dəstəsinin arxasınca getdilər. Müşayiət edənlər arasında Şeyx Sultan, Şeyx Məhəmməd və onun görkəmli oğlu Məhəmməd Mustafa, Şeyx Saleh vardı və onlar atlı idilər. Səfərin məsrəflərini Şeyx Məhəmməd ödədi.

Onlar Kirmanşaha çatanda, qadınlar bir evə, kişilər isə başqa bir evə ayrıldılar, sakinlər davamlı axınla gəlib yeni Din haqqında məlumat almaq istəyirdilər. Hər yerdə olduğu kimi, burada da üləmalar hiddətlənmişdilər və tələb etdilər ki, yeni gələnlər qovulsunlar. Nəticədə kəndxuda, bir dəstə adamla Tahirənin evini mühasirəyə aldı və onu talan etdi. Sonra Tahirəni və onun yoldaşlarını çılpaq kəcavəyə oturdub şəhərdən çıxardılar və açıq çölə gətirdilər və burada əsirləri o biyabanda heç nəsiz buraxdılar. Heyvanları sürənlər minik heyvanlarını götürüb şəhərə qayıtdılar. Qurbanlar çölün ortasında yalnız buraxıldılar, nə yemək, nə sığınacaq, nə də yol getmək üçün bir vasitə vardı.

Tahirə dərhal o yerin şahzadəsinə məktub yazdı və oradadedi: "Ey adil Hakim! Biz sizin şəhərinizdə qonaq idik. Siz qonaqlarınızla beləmi rəftar edirsiniz?! Onun məktunu Kirmanşaha gətiriləndə o dedi: "Mənim bu ədalətsizlikdən xəbərim yoxdur. Bu fitnə-fəsadı üləmalar törədiblər." O vaxt itirmədən Kəndxudaya əmr etdi iki, yolçuların bütün əşyalarını qaytarsınlar. O məmur oğurlanmış şeyləri lazımı qaydada təslim etdi. Sarvanlar şəhərdən geri çəldilər, yolçular öz yerlərini tutdular və səfərlərinə davam etdilər.

[123] Quran, 21:48; 19:37, İslamda Sirat körpüsü, qılıncdan iti, tükdən nazik, Cəhənnəmdən Cənnətə uzanır.

Onlar Həmədana gəldilər, onların burada qalmaları ən xoşbəxt vaxtlardan biri idi. O, şəhərin ən münəvvər xanımları, hətta şahzadə xanımlar onları ziyarət edər, Tahirənin dediklərindən faydalanmaq istəyirdilər. Həmədanda o, müşayiətçilərin bir hissəsini buraxdı və onları Bağdada göndərdi, bəzilərini isə, o cümlədən, Şəmsüd-Zühanı və Şeyx Salehi özü ilə Qəzvinə götürdü.

Yolda gedəndə, hansısa atlılar, Tahirənin Qəzvindən olan qohumları onların qarşısına çıxdı və onu tək, başqalarının müşayiəti olmadan onun atasının evinə aparmaq istədilər. Tahirə imtina edərək dedi: "Onlar mənim yanımdadırlar". Onlar bu yolla Qəzvinə daxil oldular. Tahirə atasının evinə getdi, onu müşayiət edən ərəblər isə karvansaraya getdilər. Tahirə tezliklə atasını tərk etdi və qardaşı ilə birlikdə yaşamağa getdi, orada şəhərin görkəmli xanımları onu ziyarətə gələrdilər. Molla Tağının[124] öldürülməsinə qədər, o zaman ki, hər bir Babi Qəzvində zindana salınırdı, bu belə davam etdi. Bəziləri Tehrana göndərildi və sonra Qəzvinə qayıtdı və şəhid edildi.

Molla Tağının öldürülməsi bu cür oldu: Bir gün o, nadan zalım minbərə qalxanda böyük Şeyx Əhməd Əhsayini ələ salıb söydü. Utanmadan,ədəbsizcəsinə, kəskin söyüşlərlə o, qışqırdı: "o Şeyx şər atəşi yaxıb bütün dünyanı bu bəlaya salıb!" Dinləyənlər arasında Şirazdan bir araşdıran vardı. O, bu sancmalara, istehzalara və nalayiq sözlərə tab gətirə bilmədi. Gecənin qaranlığında o, özünü məscidə saldı, xəncəri Molla Tağının böyrünə soxdu və qaçdı. Səhərisi gün onlar müdafiəsiz inananları həbs etdilər, onları dəhşətli işgəncələrə məruz qoydular, halbuki hamısı günahsız idilər və baş verənlər barədə heç nə bilmirdilər. Məsələni araşdırmaq üçün bir sual belə qaldırılmadı; inananlar dəfələrlə günahsız olduqlarını desələr də, onlara fikir verən olmadı. Bir neçə gün keçdikdən sonra qatilin özü təslim oldu; o, hökumət adamlarına etiraf etdi və dedi ki, o, Molla Tağını Şeyx Əhmədi söydüyü üçün öldürüb. "Mən özümü sizin əllərinizə təslim edirəm", onlara dedi, "ki, siz bu günahsız adamları azad edəsiniz", Onlar onu da həbs etdilər, kündələdilər, zəncirə vurdular və başqaları ilə birlikdə zəncirdə Tehrana göndərdilər.

Orada olarkən o, gördü ki, günahını etiraf etməsinə baxmayaraq, başqalarını azad etmirlər. Gecə o, zindandan qaçdı və Məhəmməd Şahın baş mehtəri Məhəmməd Xanın oğlu, Rza Xanın–Allahın məhəbbət sədəfinin mirvarisi və vəfa sandığının

[124] *Dan Yerinin Şəfəqləri,* XV fəsil, "Gərginlik vəziyyəti davam edirdi" ilə başlayan paraqraf. Qatil Babi deyil, Şeyxi liderlərinin , Qoşa Nurların atəşli heyranı idi.

nadir gövhəri və fəda zirvəsinin parlayan ulduzunun evinə getdi. O, bir müddət orda qaldı, Sonra isə o və Rza Xan gizlicə Mazandarana[125] Şeyx Təbərsi qalasına getdilər. Məhəmməd Xan onların arxasınca süvariləri göndərdi ki, onları izləsin, lakin çalışsınlar ki, bacardıqları qədər, onları heç kəs tapa bilməsin. O, iki atlı Təbərsi qalasına çatdılar, hər ikisi şəhid oldular. Tehranda qalan o biri dost lara gəldikdə isə, onlardan bəziləri Qəzvinə qayıtdı və onlar da şəhid edildilər.

Bir dəfə maliyyə rəisi Mirzə Şəfi qatilin yanına gəldi və ona dedi: "Ağa, sən dərviş Təriqətinə mənsubsan yoxsa sən Şəriət əhlisən? Əgər Şəriət əhlisənsə, onda o, alim müctəhidin ağzına nə üçün elə qəddar ölümcül zərbə vurdun?! Əgər dərvişsənsə və Təriqətlə gedirsənsə, Təriqətin qaydalarından biri budur ki, heç kəsə zərər vurmayasan. Onda sən mətin müctəhidi necə öldürdün?" "Ağa", o, cavab verdi: "Şəriətdən əlavə və Təriqətdən başqa, bizim həm də Həqiqətimiz var. Mən Həqiqətə xidmət etdiyim üçün Onun əməllərinin cəzasını verdim[126]".

Bu Əmrin həqiqəti açılmazdan və hər şey aydınlaşmazdan öncə belə şeylər baş verərdi. Çünki, o zaman heç kəs bilmirdi ki, Həzrət Babın Zühuru Camal`i-Mübarəkin Zühuru ilə sonuclanacaq və qisas qanunu ləğv ediləcək və Allahın Qanununun təməl prinsipi bu olacaqdı ki, "ölmək öldürməkdən yaxşıdır"; ədavət və çəkişmə bitəcək, müharibə və qətl qanunu yox olacaq. O zamanlar bu kimi şeylər baş verərdi. Lakin həmd olsun Allaha, Camal`i-Mübarəkin gəlişi ilə, elə bir sülh və ahəng şəfəqi parladı, elə bir həlimlik və dözümlülük, üzə çıxdı ki, Yəzddə kişilər, qadınlar və uşaqlar düşmən atəşinin hədəfi olanda və ya qılıncdan keçiriləndə, rəislər və mənfur üləmalar və onların ardıcılları birləşəndə və birlikdə o, müdafiəsiz qurbanlara hücum çəkəndə və onların qanını tökəndə–ismətli qadınları doğrayıb bədənlərini parça-parça edəndə, yetim qoyduqları uşaqların boğazlarını xəncərlə kəsəndə, parçalanmış və şikəst edilmiş əzaları oda tutanda–Allahın dostlarından heç biri onlara əl qaldırmadı. Doğrudan da, uzun zaman öncə Kərbəlada şəhid olanların həqiqi şərikləri arasında–bir kişi vardı, başının üstündə qılıncın parıltısını görəndə o, nabatı öz qatilinin ağzına atdı və qışqırdı, "Bu miskini şirin ağızla öldür–çünki bu fəda məqamıdır, ən böyük şəhidlikdir, mənim ən istəkli arzumdur!"

---

125 Dan Yerinin Şəfəqləri, ing. Səh. 278

126 Bu belə bie ehkama işarədir ki, Allahın üç yolu var: Şəriət, Təriqət və Həqiqət. Ənənəvinin Şəriəti, dərvişin Təriqəti və Həqiqət. bax: R.A. Nikolson. Ruminin Məsnəvlərinə şərhlər.

Gəlin öz mövzumuza qayıdaq. Qəzvində dinsiz əmisi Molla Tağının öldürülməsindən sonra Tahirə şiddətli sıxındılara düşdü. O, dustaq idi və ürəyini kədər bürümüşdü, baş verən ağrıdıcı hadisələrə görə qəm çəkirdi. Onu hər tərəfdən nəzarətdə saxlayırdılar, qulluqçular, gözətçilər, fərraşlar və düşmənlər. bu cür əzab içində ikən, Həzrət Bəhaullah Hadi Qəzvinini, tanınmış Xatuncanın ərini paytaxtdan göndərdi və onlar kələklə onu o qarşıqlıqdan çıxarmağa müvffəq oldular və onu gecə Tehrana çatdırdılar. O, Həzrət Bəhaullahın malikanəsinə düşdü və yuxarı mənzildə yerləşdi.

Bu barədə xəbər Tehrana çatanda, hökumət onu hər yerdə axtardı, amma yenə də dostlar davamlı bir axınla onu görməyə gəlirdilər, Tahirə isə pərdənin arxasında oturaraq, onlarla söhbət edərdi. Bir gün Vahid ləqəbli böyük Seyid Yəhya da orada idi. O, bayırda oturduğu üçün, Tahirə onu pərdənin arxasından eşidirdi. Onda mən uşaq idim, onun dizin üstündə oturardım. Bəlağət və hərarətlə, Vahid yeni Məzhərin zühuruna şahidlik edən əlamət və ayələr barədə söhbət edirdi. Tahirə birdən onun sözünü kəsdi, həyəcana gələrək dedi: "Ey Yəhya, qoy sənin sözlərin deyil, əməllərin sənin imanına şəhadət versin, əgər sən arifsənsə, keçmişin hədislərini boş-boşuna təkrar etməyi saxla, çünki xidmət günü, dəyanətli hərəkət günü gəlib. İndi Allahın həqiqi əlamətlərini nümayiş etdirmək, mövhumat pərdələrini parçalamaq, Allahın Sözünü yaymaq, özümüzü Onun yolunda fəda etmək zamanıdır. İndi söz deyil, əməl lazımdır!"

Camal`i-Mübarək Tahirənin Bədəştə səfəri üçün müfəssəl hazırlıqlar gördü və onu bir dəstə və müşayiətçi ilə göndərdi. Onun Özünün dəstəsi bir neçə gün sonra o bölgəyə yola düşdü.

Bədəştdə böyük bir açıq sahə vardı. Onun ortasından çay axırdı, onun isə sağında, solunda və arxasında üç bağ vardı, Cənnətin həsəd aparacağı bağlar. O bağlardan biri Quddus[127] üçün ayrıldı, lakin bu gizli saxlanıldı. O birisi Tahirə üçün ayrıldı, üçüncüdə isə Həzrət Bəhaullahaın çadırı quruldu. Üç bağın arasında sahədə inananlar öz çadırlarını qurdular. Axşamlar Həzrət Bəhaullah, Quddus və Tahirə bir araya gələrdilər. O günlərdə Həzrət Babın vəd olunmuş Qaim olması hələ elan edilməmişdi; Məhz Camal`i-Mübarək Quddusla külli Məzhərin gəlişini və köhnə qanunların aradan qaldırılması və ləğvinin elan olunmasını hazırladı.

---

[127] *Dan Yerinin Şəfəqləri,* XV fəsil, "Molla Abdullanın saflığı və səmimiliyi" sözləri ilə başlayan paraqraf

Sonra bir gün və bunda bir hikmət vardı, Həzrət Bəhaullah xəstələndi; yəni bu yüngül xəstəlik həyati bir məqsədə xidmət etməli idi. Birdən, hamının gözü qarşısında, Quddus öz bağından çıxdı və Həzrət Bəhaullahın çadırına daxil oldu. Lakin Tahirə ona xəbər göndərdi ki, onların Ev Sahibi xəstə olduğu üçün Quddus onu öz bağında ziyarət etsin. Onun cavabı bu oldu: "Bu bağ daha yaxşıdı, sən buraya gəl". Tahirə, üzündə rübənd olmadan, öz bağından çıxdı və Həzrət Bəhaullahın çadırına gəldi və gələn kimi də bu sözləri ucadan dedi: "Şeypur çalınır! Böyük Şeypur üflənir! Külli Zühur indi elan olundu[128]!" O çadırda toplanmış inananlar vahimələndilər, hər biri özündən soruşdu, "Şəriət necə ləğv oluna bilər? Bu necə ola bilər ki, qadın burada niqabsız dayansın?"

"Vaqiə surəsini oxu[129]," Həzrət Bəhaullah dedi; surəni oxudular: "Onun vaqe olmasını heç kəs dana bilməz (Gələcək o Gün qəfil gələcək). O gün (bəzilərini) alçaldar. O Gün (bəzilərini) ucaldar!" və beləcə yeni Zühur dövrü elan olundu və böyük Qiyamət aşkar oldu. Əvvəlcə, orada olanlar qaçdılar, bəziləri Dini tərk etdilər, bəziləri isə bu zaman şəkk və şübhənin qurbanı oldular, bir neçəsi də bir qədər tərəddüddən sonra Həzrət Bəhaullahın hüzuruna qaytdılar. Bədəşt Müşavirəsi sona yetdi, külli Məzhərin gəlişi elan olundu.

Bundan sonra Quddus Təbərsi[130] Qalasına getdi, Camal`i-Mübarək isə ərzaq və təchizatla Niyalaya yola düşdü, məqsədi oradan sonra gecə ilə düşmənin düşərgəsindən keçərək Qalaya daxil olmaq idi. Lakin Amulun Hakimi Mirzə Tağı bundan xəbər tutdu, yeddi yüz atıcı ilə Niyalaya gəldi. Gecə ilə kəndi mühasirəyə alaraq o, Həzrət Bəhaullahı on bir atlı ilə geriyə, Amula göndərdi və haqqında əvvəllər danışdığımız o fəlakət və iğtişaşlar baş verdi.

Tahirə isə, Bədəştdəki aydılmadan sonra əsir alındı, zalımlar onu gözətçilərin nəzaərtində geriyə, Tehrana göndərdilər. Orada o, Kələntər Mahmud Xanın evində dustaq edildi. Lakin o, alovlanmışdı, məftun olmuşdu, rahatlığını itirmişdi, sakitləşə

---

128 Quran, 74:8 və 6:73 (İngiliscə Qurana görə). Habelə, Yeşaya 27:13 və Zəkəriyyə 9:14

129 Quran, surə 56

130 Hökumət və dini zümrə birlikdə yeni Dinə qarşı sistematik kampaniya balşatdılar. Harda təcrid olunmuş inananlar hökumətdən, mollalardan və insanlardan qorunmaq üçün bir araya gəlirdilər. Mazandaran meşələrindən keçərkən satqınlığa məruz qalmış və mühasirəyə dşümüş 300-ə yaxın, əsasən tələbə və zahidlərdən ibraət olan inanan Şeyx Təbərsi qalasını tikdilər və İran ordusuuna qarşı on bir ay müqavimət göstərdilər. Cf. *Dan yerinin şəfəqləri,* XIX-XX fəsillər, *Allah yanımızdan keçir*, V fəsil, "ölkə böyüncə şiddətli mübahisələr" sözləri ilə başlayan paraqraf…"

bilmirdi. Tehranın xanımları bu və ya digər bəhanə ilə onu görmək və onu dinləmək üçün toplaşırdılar. Bu vaxt şəhər Hakiminin evində onun oğlunun toy mərasimi vardı; toy mərasiminə hazırlıq getdi, ev bəzədildi. Tehran xanımlarının ən seçilmişləri, şahzadələr, vəzirlərin və digər böyüklərin xanımları dəvət olundu–kanon və çağanə səsləri, musiqi və təranələr. Sonra Tahirə danışmağa başladı. Bu böyük xanımlar elə ovsunlanmışdılar ki, tarı və qavalı unutdular, toy ziyafətinin keyfini atdılar, Tahirənin ətrafında toplaşdılar və onun ağzından çıxan şirin sözlərə qulaq asdılar.



Beləcə o, köməksiz bir əsir kimi qaldı. Sonra Şahın[131] həyatına qəsd edildi. Fərman çıxdı; o, ölümə məhkum edilmişdi. Onun Baş Nazirin evinə çağırıldığını deyərək Kələntərin evindən çıxardılar. O, üzünü və əllərini yudu, ən qiymətli libaslarını geydi, qızılgül ətirləri ilə ətirlənərək evdən çıxdı.

Onlar onu bağa gətirdilər, orada cəlladlar gözləyirdilər; lakin onlar tərəddüd etdilər və onun həyatına son qoymaqdan imtina etdilər. Sərxoş, sifəti və ürəyi qara, bir nökər tapdılar. Elə o da Tahirəni boğdu. O, dəsmalı onun ağzına qoydu və onu boğazına tərəf itələdi və boğdu. Sonra onlar onun pak bədənini qaldırıb orada, bağda olan quyuya atdılar, üzərinə isə daş və torpaq tökdülər. Lakin Tahirə son dərəcə şad idi, o,

[131] 1852-ci il avqustun 15-də, yarımdəli Babi gəncləri Şahı ov tüfəngindən yaraladılar. Hücum edənlər yerindəcə öldürüldülər, hakimiyyət isə inananları ucdantutma qətliyam etdi, bu hadisələrin son həddi Renan tərəfindən "dünyanın tarixində yəqin ki paraleli olmayan bir gün" kimi təsvir edilib." Bax. Lord Kurzon, İran və İran məsələsi, ing. Səh. 501-2 və Allah yanımızdan keçir, səh. 62 və s.

könül rahatlığı ilə şəhid olacağı müjdəsini qəbul etmişdi; o, nəzərlərini Uca Mələkuta dikdi və həyatını fəda etdi.

Ona salam və tərif olsun. Cənnnətdən gələn nur seli onun üzərinə düşdükcə onun torpağı mübarək olsun.